XANƏLİ KƏRİMLİ

# BİR ÖMRÜN İŞIĞI

Məqalələr,
məktublar,
tədbirlər

Bakı – 2016

**Tərtibçi:** **Aypara Behbudova,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Rəyçi:** **Sabir Bəşirov,**
*fəlsəfə doktoru*

**Nəşrə hazırlayan və redaktor:** **Nəriman Əbdülrəhmanlı**

**Xanəli Kərimli: Bir ömrün işığı** *(Məqalələr, məktublar, tədbirlər)*
Bakı, Qanun Nəşriyyatı, 2016, 384 səh. (8 səh. rəngli şəkil)

Bu toplu tanınmış şair, araşdırıcı-alim, gözəl pedaqoq Xanəli Kərimlinin yaradıcılığı haqqında "Şairə məktub" (2007), "Sözün Əlincə qalası" (2011) (məqalələr toplusu) və fəlsəfə doktoru Sabir Bəşirovun "Xanəli Kərimli: Bir ömrün nağılı" (2011) kitablarından sonra 4-cü kitabdır.

Kitabda X.Kərimlinin yaradıcılığı ilə bağlı son illərdə yazılmış məqalələr, məktublar və digər materiallar yer alıb.

Q $\frac{0450070004}{AB022051}$

© Xanəli Kərimli, 2016
© Qanun Nəşriyyatı, 2016

# ***ÖN SÖZ YERİNƏ***

**İSA HƏBİBBƏYLİ,**
*akademik*

## XANƏLİ KƏRİMLİ ŞEİRİNİN İMKANLARI

Azərbaycan ədəbiyyatının orta nəslinin tanınmış nümayəndəsi Xanəli Kərimli çoxcəhətli yaradıcılıq fəaliyyətinə malikdir. O, ədəbiyyatşünaslıq işi ilə də, bədii yaradıcılıqla da məşğul olur. Bununla belə, Xanəli Kərimli üçün şairlik birincidir. O, hər şeydən əvvəl, sözün gerçək mənasında istedadlı şairdir. Xanəli Kərimlinin şeir yaradıcılığında həssaslıq və vətəndaşlıq mövqeyi ön sırada dayanır. Həyata, insanlara həssas münasibətlər Xanəli Kərimlinin şeirlərinə dərin lirizm gətirir. Belə məqamlarda Xanəlinin şeirlərində təbiət dil açıb danışır, ürək nəğmə oxuyur. Xanəli Kərimli həssas, nəcib, ülvi duyğuları şeirin dili ilə havalandırmağı bacarır. Şeirlərindən baxanda şairin özü də mənəvi saflığı, halallığı, pak duyğuları ilə əsərlərində ifadə etdiyi həssas düşüncələrin məcmusu, vəhdəti kimi görünür. Bütün məqamlarda Xanəli Kərimlinin şeirlərilə şəxsiyyəti, daha çox da zəngin mənəvi aləmi bir-birini tamamlayır. Hətta yaradıcılığında qabarıq nəzərə çarpan vətəndaşlıq mövqeyinin ifadəsi də Xanəli Kərimlinin şeirlərində ön mövqedə özünə yer tapdığı kimi, şairin xarakterində, ictimai həyata münasibətində də öndə dayanır.

Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biridir. Yaxşı cəhət ondan ibarətdir ki, Xanəli Kərimlinin vətəndaşlıq lirikası sadəcə qələmə aldığı aktual mövzuları ilə deyil, daha çox bu bədii nümunələrdəki fikrin ifadə vasitəsi ilə yadda qalır. Daha doğrusu, Xanəli Kərimli bir qayda olaraq vətəndaşlıq lirikasını bədii biçimdə təqdim etməyi bacarır. Bu cəhət Xanəlinin mühüm yaradıcılıq nailiyyəti kimi səciyyələnir. Aşkar görünür ki, Xanəli Kərimli mövzunun aktuallığı, yaxud müasirliyi

arxasında gizlənmir. Əksinə, şair dostumuz imkan daxilində, daha çox müasir dövrün ciddi problemləri haqqında şair kimi danışır. Belə məqamlar şairin heca vəznli şeirlərində olduğu kimi, sərbəst vəzndə yazılmış poetik nümunələrində də üstünlük təşkil edir:

***Kimi yorğanını ayağına,***
***Kimi ayağını yorğanına***
***görə uzatdı.***
***Kimi də***
***minillik ölü kimi***
***üzü qibləyə***
***yorğansız-filansız***
***qıvrılıb yatdı.***
***Burnundan uzağı***
***görməyən yazıq,***
***elə bildi ki,***
***bu, ən gözəl yaşayış,***
***ən gözəl də həyatdır.***

Xanəli Kərimlinin poemaları əsasən lirik poemalardır. Bu poemalar bəzən böyük, genişhəcmli şeir təsiri bağışlayır. Xanəlinin poemalarında hadisədən qat-qat çox ovqat, düşüncə qanad çalır. «*İnam*» poeması Azərbaycanın müstəqilliyinə dair dəyərli və ibrətamiz poetik dərsdir. «*Təbil*» poeması yurdun, doğma torpağın qorunub möhkəmləndirilməsinə çağırışdır.

Bütün bunlarla bərabər, Xanəli Kərimlinin şeirlərində və poemalarında publisist notlar da nəzərə çarpmaqdadır. Fikrimizcə, bu məqamda təbii bir proses yaşanmaqdadır. Çünki Xanəli Kərimlinin tərcümeyi-halında mətbuatla bağlı illərin və hadisələrin mövcudluğu onun bədii yaradıcılığına publisist notların yol tapmasına imkan yaratmışdır. Şairin 1991-1995-ci illərdə Naxçıvan Dövlət Universitetinin orqanı olan «Fikir» tələbə qəzetinə beş il redaktorluq etməsi onun publisistika sahəsində özünəməxsus təcrübə toplamasına səbəb

olmuşdur. Ona görə də Xanəli Kərimli şeirlərində və poemalarında yeri gəldikcə publisistikanın imkanlarından yaradıcı şəkildə faydalanmağa da meyl edir. Əksər məqamlarda bədiilik, şeiriyyət öz aparıcı mövqeyini qoruyub saxlaya bilir. Publisist notlar Xanəli Kərimlinin şeirlərinə və poemalarına aktuallıq, müasirlik və həyatilik gətirir. Xüsusən şairin poemalarında onun vətəndaşlıq düşüncələrinin poetik ifadəsi məqamlarında publisist yanaşma daha cəsarətli fikirlərin dilləndirilməsinə meydan açır bilir.

***Hansı torpağın ki, vuran əli var,***
***Orada dağların başı ucadır.***
***Hansı torpağın ki, yıxan əli var,***
***O yurdun axırı bir tapmacadır.***

***İstəyirik Vətən basılmaz olsun,***
***Qoruyaq kəndi də gözbəbəyi tək.***
***Kəndlər bu Vətənin əsgərləridir,***
***Əsgərsiz bir Vətən, de, nəyə gərək?!***

Poemalarında Xanəli Kərimli daha çox şair-vətəndaş kimi çıxış edir. Onun vətəndaşlıq qayəsinin poetik ifadəsi şeirlə ifadə olunmuş şüarçılıqdan yox, can yanğısından doğan şair narahatlığından ibarətdir. Mövzusunun aktuallığına və bədii dəyərinə görə Xanəli Kərimlinin «İnam» və «Təbil» poemaları müstəqillik dövrü Azərbaycan poeziyasında meydana çıxmış dəyərli lirik poemalar kimi qiymətləndirilməyə layiqdir.

Son vaxtlar Xanəli Kərimli yaradıcılığında meydana çıxan didaktik ədəbiyyat onun yaş etibarı ilə kamillik mərhələsinə qədəm qoymasından başqa, artıq sənət adamı olaraq müdrik çağını yaşaması ilə bağlıdır. Bu mənada "Mənə elə gəlir ki..." kitabı ilə şairin yaradıcılığına açılan yeni mərhələ həm də onun yüksək mənada müəllimliyindən də irəli gəlir. Xanəli Kərimlinin didaktik sənət nümunələri ali məktəb auditoriyasından fərqli olaraq müəyyən mənada xalqa, geniş oxucu mühitinə ünvanlanmışdır. Bu baxımdan cəmiyyətin indiki

inkişaf mərhələsində geniş mənada maarifçilik missiyasını yerinə yetirməklə həm də o, böyük vətəndaşlıq işini də həyata keçirmiş olur. Həmin qəbildən olan bədii nümunələrdəki obrazlı düşüncə, bədiilik, sərrast fikir söyləmək qabiliyyəti və müdriklik birləşərək yeni tipli ədəbiyyatın yaranması ilə nəticələnir.

Məlum olduğu kimi, klassik nəsihətnamələrdə öyüd-nəsihətlərin, tövsiyə xarakterli yığcam fikirlərin irəli sürülməsi ilə kifayətlənmişlər. Xanəli Kərimlinin təqdimatında isə müdrik fikir obrazlı düşüncə vasitəsilə ifadə olunaraq cəmiyyətə ədəbiyyat donunda ayaq açır.

***İnsansız və şeytansız dünya suyu sovulmuş dəyirman kimidir.***
***Sadəlik də istedad kimi elə bir dəyərdir ki, hər adamda ola bilməz.***
***Tarix cəsurların tərcümeyi-halıdır.***

Bu tip poetik cizgiləri olan didaktik ruh Xanəli Kərimli "İkiliklər"ində də qabarıq surətdə müşahidə olunur.

Ümumiyyətlə, Azərbaycan ədəbiyyatında məsnəvi forması, beyt forması mənasında ikiliyin çoxəsrlik tarixi vardır. Lakin, məlum olduğu kimi, məsnəvilərdə də beytlərdəki cüt misralar klassik formada, məsələn, qəzəl, yaxud qəsidə formasında yazılmış şeirlərin tərkib hissəsi kimi iştirakçılardan biri qismində təmsil olunurlar. Bu halda həmin beytlər yazılmış şeirin izlədiyi qafiyəyə tabe olur, şeir boyu ifadə edilməsi müəyyən olunmuş ümumi fikrin meydana çıxması üçün hazırlıq funksiyasını həyata keçirirlər. Xanəli Kərimlinin "İkiliklər"ində isə hər ikilik özü ayrılıqda müstəqil bir şeirdir və konkret fikrin, mətləbin ifadəsinə xidmət edir.

***O qədər yüksəyə ucalma ki, sən***
***Yerə düşəndə də əzilməyəsən.***

***

***Yediyi çörəyə dönük çıxan kəs,***
***Haqqa can atsa da, Haqqa yetişməz.***

***

*Bəlkə də Günəşsiz yaşardı cahan,*
*Sözsüzsə bu cahan olardı viran.*

***

*Yalançı dilində söz olar yalan,*
*Söz öz qiymətini alar doğurdan.*

***

*Zatında ucalıq olmayanları*
*Nə qədər ucaltsan olmaz vüqarı.*

Beləliklə, *"İkiliklər"* Xanəli Kərimli yaradıcılığında qabarıq təzahür edən, onun yaradıcılığının novatorluğu kimi meydana çıxan əsərlərdir.

Xanəli Kərimli həm də tanınmış alimdir. Onun 1987-ci ildə «Cənubi Azərbaycan demokratik ədəbiyyatında hekayə janrının inkişafı» mövzusunda müdafiə etdiyi namizədlik dissertasiyası Cənubdakı soydaşlarımızın nəsr yaradıcılığına həsr olunmuş birinci elmi-tədqiqat işidir. Professor Həmid Məmmədzadənin elmi rəhbərliyi ilə hazırlanmış həmin sanballı araşdırma, ümumiyyətlə, Cənubi Azərbaycan ədəbiyyatına həsr olunmuş əhəmiyyətli elmi əsərlərdən biridir. Hazırda Xanəli Kərimli bir neçə ildir ki, «Cənubi Azərbaycan ədəbiyyatında satira» mövzusunda doktorluq dissertasiyası üzərində araşdırmalarını davam etdirir. O, yeni dövr Azərbaycan ədəbiyyatşünaslığında tanınmış cənubşünas alim kimi tanınır. Bundan başqa, Xanəli Kərimlinin görkəmli dövlət xadimi, tanınmış siyasətçi ümummilli liderimiz Heydər Əliyev, Nizami Gəncəvi, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, xalq şairlərindən Rəsul Rza, Məmməd Araz, Bəxtiyar Vahabzadə, Xəlil Rza, xalq yazıçıları Anar, elm xadimlərindən Məmməd Cəfər Cəfərov, Abbas Zamanov, Camal Mustafayev, prof. Maarifə xanım Hacıyeva, filologiya üzrə elmlər doktorları Muxtar Kazımoğlu, Asif Rüstəmli, Hüseyn Həşimli, Cənibi Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələri Məhəmmədhüseyn Şəhriyar, Abbas

Pənahi Makulu, Həmzə Fəthi Xoşginabi, Səməd Behrəngi, Məhəmmədəli Fərzani, çağdaş qələmdaşlarından Azər Turan, Elman Həbib, Vaqif Məmmədov, Akif Axundov, Zeyqəm Vüqar, Əli Rza Xələfli, Əllabbas Bağırov, Sona Vəliyevaya həsr etdiyi məqalələr də müasir elmi-nəzəri dəyərləndirmə ilə şair fəhmindən doğan münasibət bir-birini tamamlayır. Aşkar hiss olunur ki, Xanəli Kərimli şairürəkli alimdir. Xanəli Kərimlinin elmi əsərlərində elmi mülahizələr və qənaətləri şairlikdən gələn obrazlı düşüncə, bədii-emosional yanaşma kimi xüsusiyyətlər səciyyələndirir.

İkinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olmuş Xanəli Kərimli xalqla ünsiyyətin, seçici tələbkarlığının da «dadını» yaşamışdır. Bu məqamda elmdən gələn dünyagörüşün, şairlikdən doğan bədii-emosional düşüncənin vəhdəti Xanəli Kərimliyə nəinki öz ətrafı, bütövlükdə geniş xalq kütlələri arasında rəğbət qazandırmışdır. Eyni zamanda, xalqla ünsiyyət şair üçün zəngin bədii materiala çevrilmişdir. Hər halda, Xanəli Kərimlinin deputatlıq dövrü şerlərinin ictimai dəyəri daha qabarıq görünür.

Müəllim-təşkilatçı kimi də Xanəli Kərimli səmərəli fəaliyyət göstərir. O, Naxçıvan Dövlət Universitetində bir müddət Beynəlxalq Əlaqələr Şöbəsinə uğurla rəhbərlik etmiş, imkan daxilində doğma ali məktəbin əlaqələrinin inkişaf etdirilməsinə dəstək vermişdir. Universitetin Xarici tələbələrlə iş üzrə dekanı kimi də Xanəli Kərimli universitetimizin yaxın-uzaq ölkələrdən gəlmiş tələbələrində dərin ixtisas biliyi ilə yanaşı, Azərbaycan sevgisinin formalaşmasına ürəklə xidmət edir. Bir müəllim kimi də Xanəli Kərimlini tələbələri yüksək qiymətləndirirlər. Heç şübhə yoxdur ki, son otuz ildə Naxçıvan Dövlət Universitetində tələbə ikən qələmə sarılıb şeir yazan gənc şairlərin mütləq əksəriyyətində şeir odunu Xanəli Kərimli alovlandırmışdır. O, universitet ədəbi gəncliyinin «Məliküş-şüərası»dır.

Nədənsə Xanəli Kərimli haqqında az yazılmışdır. Həm də hələlik Xanəli müəllim barəsində tam layiqincə araşdırmalar aparılmamışdır. Yazılarımızın çoxu səmimi dost sözü,

yaxud ziyalı münasibətindən ibarətdir. Amma çap olunmuş şeir kitabları və elmi-publisist əsərləri, geniş ictimai-təşkilati fəaliyyəti, bütöv və aydın şəxsiyyəti tanımış şair-alim Xanəli Kərimli haqqında geniş, əhatəli, dərin elmi təhlillər və ümumiləşdirmələr aparmağa tam təminat verir.

Ümid edirəm ki, Xanəli Kərimli haqqında oxuculara təqdim olunan ilk elmi kitab[1] onun bədii yaradıcılığı, çoxcəhətli fəaliyyəti ilə əhatəli şəkildə tanış olmaq istəyənlər üçün bələdçi rolunu oynaya biləcəkdir.

**İsa Həbibbəyli,**
***"Nuhçıxandan -Naxçıvana",***
***Bakı, 2015, s. 579-584.***

[1] Sabir Bəşirovun "Xanəli Kərimli: Bir ömrün nağılı" (2011) monoqrafiyası nəzərdə tutulur - red.

## *MƏQALƏLƏR*

**Camal Mustafayev,**
*fəlsəfə elmləri doktoru, professor,*
*Əməkdar Elm Xadimi*

# İNAM SAFLIĞI

***(Xanəli Kərimlinin "Payız duyğuları" kitabından təəssüratlar)***

İnsanlıq sənətin başlanğıcından dünyanın sirlərinə heyrətini poetik dühada təcəssüm edib. Poeziyadan geniş əhatəli idrak qaynağı olaraq səmərəli faydalanıb. Biz fikrimizi, həmişə olduğu kimi, Hegelə istinad etməklə əsaslandırmaq istərdik:

*"Bədii, eynilə də dini müşahidə, yaxud, daha doğrusu, eyni zamanda hər ikisi və hətta elmi araşdırma heyrətdən başladı. Heç bir şeydən heyrətlənməyən adam kütlük vəziyyətində yaşayır" (Hegel, "Estetika", 2-ci cild).* Poeziya sənəti xalqların ilk müəllimi oldu, deyirdi Hegel. O, Homerdən, Hesioddan danışanda Herodotun fikrini qeyd edirdi: *"Bu şairlər "yunanlara onların allahlarını verdilər".*

Yunanlarda şairlərə, onların yaratdıqları söz abidələrinə müqəddəs ehtiram burdan doğurdu. Bu yöndə xeyli maraqlı örnəklər gətirib, təhlil obyekti etmək olardı. Ancaq bütün bunların əvəzində, təsirli bir nümunəni hörmətli oxucunun diqqətinə xüsusi təqdim etmək zəruridir.

Bu, Sokratla bağlı olan, gerçəkdən, ibrətli bir əhvalatdır. Mütəxəssislər bilirlər: Sokrat şeirdə, yaxud fəlsəfədə yazılı bir irs qoymayıb *(Baxmayaraq, yunan fəlsəfəsində şeir yazmayan filosof yox idi).* Sokrat insanda özünüdərketmə qabiliyyəti oyadan şifahi nəsihətləri ilə şöhrət qazanmışdı. Həmin fəaliyyətinə Allahın təyin etdiyi vəzifə kimi baxırdı.

Sokrat ilk şeirini həyatının son günlərində məhbəsdə yazmışdı *(Afina məhkəməsi onu ölüm cəzasına məhkum edəndən sonra).* Məhbəsdə Sokratla vidalaşmağa gələn dostları onun ölüm ərəfəsində şeir yazdığına xüsusi diqqət edirlər. O, Ezopun irsindən bir təmsil seçib şeirə düzmüşdü. Bunun səbəbini soruşanda deyib: *ölümündən əvvəl poeziyada saflaşıb, köçmək istəyir.*

Platonun "Fedon" dialoqunda bu xüsusda deyilənləri Diogen Zaertsi dəqiq açırdı. Sokratın şeirə düzdüyü həmin təmsildən bu sözləri gətirirdi:

*"Vaxtilə Ezop Korinf sakinlərinə söyləyib: Kim fəzilətlidirsə, insanların hökmündən yüksəkdədir".*

Sokrat bu şərh edilən əhvalatda əslində fəzilətinin üstünlüyünü ifadə edirdi. Eyni zamanda poeziyaya bir saflıq çeşməsi kimi baxdığını ehtiramla bildirirdi. Bütün bunlar bu ecazkar sənətin ilahi başlanğıcdan gəldiyinə etiqadla şərtlənirdi.

Bu etiqad Şərq poeziyasında zəngin nümunələrdə əks edilib. Şairlər daşıdıqları yaradıcı istedada görə əvvəlcə Allaha dərindən pərəstiş etdiklərini şeirdə canlandırıblar. Onu ilk ilham mənbəyi kimi dərk etdiklərindən, poetik söz qarşısında batini məsuliyyət hiss ediblər.

Yaradıcılığa inam saflığı gətirən həmin ibrətli ənənə Azərbaycan şeirində səmərəli davam edir. Bu növ nümunələri təhlil edib məzmunca dəyərləndirmək ayrıca maraq doğurur. Bu mənada Xanəli Kərimlinin yaxınlarda nəşr etdirdiyi ***"Payız duyğuları"*** kitabında müvafiq örnəkləri incələyək:

*Nə gördüm Haqda Gördüm, Haqda tapdım özümü,*
*Haqq özü nurlandırıb ocağımı, közümü,*
*Mənə Haqq əta edib bu ilahi dözümü,*
*Məni dözüm doğurdu, bir də Haqqın duası.*

Xanəli Kərimli Allaha dərin inamında Nəsimi şeirindən ruhlandığını nəzərə çarpdırır. Gerçəkdən, onun poetik axtarışlarında Nəsimi meyli yeri gəldikcə əks edilib. Şeirində bunu qürur hissilə bəyan etməkdə, şübhəsiz, haqlıdır:

*Haqqa tapın, Haqqa gəl, - dedi ulu Nəsimi,*
*Nəsimi tək mələkdən mən almışam dərsimi.*
*Onunçun haqq eşqinə çaldığım hər tər simi*
*Duydu haqqa sığınan pak könüllər dünyası.*

Nəsimilik - batini ruhda Allah idealını dərk etmək deməkdir. Fikir, hərəkət tərzində Allahın iradəsinə, büsbütün müti olmaqdır. Bu mütilik ziddiyyətli zahiri gedişatın təzyiqinə qarşı sarsılmaz mənəvi dayaqdır:

*...Onun dərgahına baş əydiyimdən,*
*Kimsənin önündə baş əyməmişəm.*
*Nə də ki kimsəyə üstdən baxmışam,*
*"Mənəm, mən" – deyərək döş döyməmişəm.*

Xanəli Kərimli şeirlərini ilahi iradənin diqtəsilə yazdığını xatırladır. Poetik sözə özünün həssaslığını əslində bu motivlə açıqlayır. ***"Mən sözdən qorxuram"*** şeiri onun bu yöndə fikirlərini yenidən işıqlandırır:

*Mən sözdən qorxuram – Tanrıdan qorxan kimi,*
*Çünki söz Tanrının, Tanrı sözün özüdür.*
*O, bir nurdur süzülüb ərş-əladan gəlir,*
*Ərşlə fərşin zatı, astarıdır, üzüdür.*

*Şair Tanrı, söz şairin ruhudur,*
*O, boyun əyməmiş xaqanlara, şahlara.*
*Haqdan gələn haqq üçün haqqa tapındığından*
*Sözləri də şairlər tək çəkiblər dara.*

Bu qəbildən nümunələr Xanəli Kərimli poeziyasında sufizm xəttini ehtiva edir. Onun müxtəlif mövzulu şeirlərində sufizmin rolu haqqında yazmışıq. ***"Ruhun özünüdərketmə qayəsi"*** başlıqlı şərhlərimizdə bunu, əslində, mənalandırmışıq...

Xanəli Kərimlinin kitabında ***"Nəyimdən yarıdım, nəyimdən bezdim"*** şeiri düşündürücü əsərdir. Yaradan şair ömrünə bir

yekun baxışı - özünütəhlil kimi ibrətli səslənir. Şairlər təbiət etibarilə zamanın gedişi ilə həmişə təzaddadırlar.

Xanəli Kərimli zaman axarında üzləşdiyi hər hansı haqsızlıqları rədd edib. Ancaq həssas ürəklə yazdıqları əsərlərin əvəzində zamandan yalnız biganəlik görüb. Belə təzadlı durumla bağlı düşüncələrindən bəzi iqtibaslar edək:

*Nəyimdən yarıdım, nəyimdən bezdim,*
*Elə taraz gəldi xeyrimlə şərim.*
*Fikrimlə, duyğumla dünyanı gəzdim,*
*Ancaq heç bir yerdə görünmür yerim.*

*...Nə qədər and yeri gördüm dünyada*
*Mənim başqa anda yoxdur ta andım.*
*Bəzən kafirlikdə suçlansam da mən,*
*Bəzən də haqq üçün yersiz qınandım.*

Şair keçici zamanla bəhsində, Allah eşqinə yaratmaq niyyətini üstün tutur:

*Bir Allah, bir qələm, bir də ağ vərəq*
*Mənim son ümidim, son andım olub.*

Dövranın şairə biganəliyi mövzusunu düşünəndə Füzulinin şikayətli kəlamları yada düşdü:

*Dust bipərva, fələk birəhm, dövran bisükun,*
*Dərd çox, həmdərd yox, düşməni qəvi, tale zəbun.*

***

*Ey Füzuli, qalmışam heyrətdə, bilməm neyləyim,*
*Dəhr zalım, bəxt nafərcam, tələb çox, ömr – az.*

***

*Ey Füzuli, müttəsil dövran müxalifdir sana,*
*Qaliba ərbabi-istedadı dövran istəməz!*

***

*Nə yanar kimsə mənə atəşi-dildən özgə,*
*Nə açar kimsə qapım badı-səbadan qeyri.*

***

*Ey Füzuli, dəhr zalimin firibindən saqın:*
*Olma qafil, ər kimi tərpən, özün mərdanə tut!*

Füzulinin geniş yer verdiyimiz kəlamları şair-zaman ixtilafları haqqında əhəmiyyətli təsəvvür yaradır. Füzuli *"dövran"* deyəndə əslində mövcud gedişatı nəzərdə tutur. Bu gedişatın istedada qarşı müxalifliyində görür ixtilafların sirrini...

Ancaq aqibəti necə oldu o dövranın – *"dəhri zalimin?!"*

*"Salam verdim, rüşvət deyil, deyə almadılar"* dediyi acgöz, kibirli məmurlar harda qaldılar?! Nədən onlar heç olmasa ömründə bircə dəfə bu sonluğu düşünmədilər?!

Füzuli isə dövranın təzyiqlərinə baxmadan, insana, varlığa ilahi sevgi ilə yazıb yaratdı. Böyük poetik dühası əsrini şöhrətləndirdi, neçə əsrlərə qovuşdu. O, qarışıq mühitdə yaratmağı qəhrəmanlıq, mərdlik rəmzi sanırdı:

*"Ey Füzuli, dəhri zalimin firibindən saqın;*
*Olma qafil, ər kimi tərpən, özün mərdanə tut!"*

Beləliklə, Xanəli Kərimlinin "Nəyimdən yarıdım, nəyimdən bezdim" şeiri şair taleyi haqqında ciddi fikirlər oyatdı. Xanəli müəllimə, dövrümüzdə milli poeziyamızı yaşadan şairlərimizə xoşbəxt tale, yaradıcılıq zirvələri fəth etməyi diləyirəm.

***"Kredo" qəzeti,***
***15 fevral, 2014-cü il.***

**Maarifə Hacıyeva,**
***filologiya elmləri doktoru, professor***

# PAYIZ DÜŞÜNCƏLƏRİ

Məsləki həkim olan rus yazıçısı A.P.Çexov *"Həkimlik mənim kəbinli arvadım, yazıçılıq isə sevgilim"* deyərək, yazıçılığını daha çox sevdiyini bildirmək istəmişdir. Çexovun həkimliyindən çox *"sevgilisi"* tarixiləşmiş, onun yaradıcılığının bəlgəsi olmuşdur. XX əsrin Azərbaycan klassiklərindən məsləkcə həkim olan Abbas Səhhət isə məsləkini tərcümeyi-halı kimi qiymətləndirmiş, *"Məsləkim tərcümeyi-halımdır"* yazmaqla həyatının önəmini nədə deyil, nə etdiyində görmüşdür. Yaradıcılığını vaxtilə iki məqalədə şərh etməyə çalışdığım müəllim və alim həmkarım, Naxçıvan Dövlət Universitetinin dosenti Xanəli Kərimlini bizdən fərqləndirən onun şairliyidir, məsləkini tərcümeyi-halında büruzə verən şairlərə verilən Allah vergisi, Peyğəmbər xeyir-duasıdır.

2013-cü ildə Xanəli Kərimlinin nəşr olunmuş 540 səhifəlik ***"Payız duyğuları"*** adlı şeirlər kitabını oxuduqca onun mövzularının əlvanlığı, şeirlərində ifadə etdiyi tarix və tarixi həqiqətlər, milli-mənəvi dəyərlərimizə olan doğma münasibət bu şeirlər haqqında söz deməyə, bu şeirləri şərh etməyə haqq qazandırır. Kitaba verilən ***"Payız duyğuları"*** adı da düşündürücüdür. Şairin ömrün payız fəslində gördükləri, bildikləri və yazdıqları haqqında öz-özünə hesabatıdır.

***"Payız duyğuları"*** kitabında Xanəli Kərimlinin Azərbaycanın müstəqillyinə qədər yazdığı və müstəqillik günündən günümüzə qədərki dövrünü əhatə edən bir çox şeirlər toplanmışdır.

Azərbaycanımızın 1992-ci ilə qədər və sonrakı dövrü, bu günü bir tarixi gerçəklikdir. Onun 1992-ci illərdə yazdığı ***"Necə ki…"***, 1993-cü ildə yazdığı ***"Gördüm… görmədim"***, ***"Dəli sayıqlaması"*** şeirlərində şair Azərbaycanın zamanla yaşadığı ictimai-siyasi vəziyyətə münasibətini

*Çox şeylər gördüm bu yaşımda…*
*Çox şeylər ilişib qaldı yaddaşımda.*
*Bu millətin*
*Ömrünün ahıl çağında,*
*Mühacirət ömrü yaşayan,*
*Qəlbində əbədi*
*Vətən nisgili daşıyan,*
*Şairini də gördüm,*
*Alimini də.*

*…Özgələri sevən kimi,*
*Özümüzü sevəmmədik.*
*Özgənin milçəyini fil bildik,*
*Özümüzün dəvəmizə*
*güvənmədik.*

*…Qoruya bilmədik,*
*Vətən adlı minillik əmanəti,*
*Babalardan qalma ləyaqəti, qeyrəti -*

- şəklində itirilmiş torpaqlarımızın ağrı-acısını ürək yanğısı ilə ifadə edir.

Böyük dövlət xadimi, ulu öndərimiz, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin çoxşaxəli möhtəşəm fəaliyyəti haqqında çox yazılmış, hələ çox da yazılacaq. Tarixdə etdiyi fədakarlıq, gördüyü böyük işlər haqqında hələ deyilməmiş həqiqətlər haqqında boş qalan tarixi səhifələr zamanla dolub öz yerini tutacaqdır.

Xanəli Kərimli Azərbaycanın ictimai-siyasi həyatına bir xilaskar kimi daxil olan Heydər Əliyev haqqında yazdığı ***"Onu zaman doğmuşdu"*** şeirində şairin öz təbirincə desək, ***"Tanrı elçisi", "Sahib-zaman"*** Heydər Əliyevin müstəqil Azərbaycanın dövlət quruculuğu işlərində gördüyü böyük işlər, onun bir çağırışıyla millətin səfərbər olduğu, Azərbaycan torpağının hər oğlunun yenilməzlik rəmzini, Heydər Əliyev

kimi dönməz iradəli, bir siyasət adamını yetişdirən bir xalqın əbədi yaşayacağı inamı ifadə edilir:

*Heydər kimi bir düha,*
*Yetiribdirsə bu xalq.*
*Bu xalqa ölüm yoxdur –*
*Əbədi yaşayacaq!!!*

Ədəbiyyatımızda ayrıca tarixi bir mövzu olan Cənubi Azərbaycan mövzusu Xanəli Kərimlinin ***"Payız duyğuları"*** kitabında bir silsilə təşkil edir.

Tarixi miladdan çox-çox əvvəllərə dayanan Azərbaycan türklərinin torpaqları XIX əsrin əvvəllərində (1813) Rus və İran işğalına uğramış tarixi bir talesizlikdən, ikiyə bölünmüş *"Şimali Azərbaycan", "Cənubi Azərbaycan"* kimi coğrafi adlarla xəritələrdə qeyd olunmağa başlamışdır. Şimali Azərbaycan torpaqlarında Çar Rusiyası və Sovet Rusiyasının, Cənubi Azərbaycan torpaqlarında 1813-cü ildən günümüzə qədər İranın hökmranlıq etməsinə baxmayaraq bütöv Azərbaycanın ifadəsi olan Vətən mövzusu zəmanənin bütün qadağalarına baxmayaraq, ədəbiyyatımızda Səməd Vurğun, Məmməd Rahim, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Məmməd Araz, Məmmədhüseyn Şəhriyar, Səhənd kimi şairlərin şeirlərində aparıcı ana mövzulardan biri olmuş, Araz çayı, Heydərbaba dağı, Savalan dağı, Təbriz Vətənini simvoluna çevrilmişdir. Azərbaycanı "şimal" və "cənub" deyə ikiyə ayıran Araz çayı sanki günahkar kimi şeirlərdə ittiham edilmişdi:

*Axma, Araz,*
*Dayan Araz.*
*Bir ürəyi,*
*Cəllad kimi,*
*İki yerə bölmək olmaz –*

deyən xalq şairi Süleyman Rüstəm vahid Azərbaycan məfhumu üzərində durmuşdu.

XX əsrin sonlarında müstəqilliyini qazanan (1992) Şimali Azərbaycanın – indiki müstəqil Azərbaycan dövlətinin hakimiyyəti illərində İrana ilhaq olunmuş Cənubi Azərbaycana dəfələrlə səfər edən şair Xanəli Kərimlinin ***“Payız duyğuları”*** kitabında toplanan şeirlərinin bir qisminin mövzusu da itirilmiş vətən torpaqları haqqındakı acı təəssüratlardır. ***“Gəzirəm vətəndə itən vətəni”, “Niyə qayıdırsan”, “A Kür bacım”, “Hayıf sənə, Təbriz yolu”*** itirilmiş vətən torpaqları haqqındakı şeirlərin bir neçəsidir.

*Hayınan, küyünən yaşanmaz Vətən,*
*Ciblərdə sikkə tək daşınmaz Vətən.*
*Lüt-üryan qadın tək yaşınmaz Vətən,*
*Gəzirəm “vətəndə” itən Vətəni…*

Azərbaycan tarixinin böyük şəxsiyyətləri elm, tarix, mədəniyyət və ədəbiyyatımızın iftixar səhifələrində yer almışlar. Nəsrəddin Tusi, Məmmədəmin Rəsulzadə, Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Əhməd Cavad, Savalan…

Xanəli Kərimlinin Nəsrəddin Tusiyə yazdığı ***“Sənlə necə dərdləşim…”*** Cəlil Məmmədquluzadəyə yazdığı ***“Şükür sənin hüsnünə”, “Heykələ xitab”,*** Hüseyn Cavidə yazdığı ***“Ustad”, “Cavid əfəndi”, Şəhriyara yazdığı “Aparmağa”, “Sual”*** şeirləri, eləcə də Rəsul Rza ***(“Qayıda bilsən”),*** Mirzə İbrahimov ***(“Şükür ki…”),*** Məmməd Araz ***(“Əbədiyyət heykəli”),*** Xəlil Rza Ulutürk ***(“Elegiya”, “Rəhmət sənə”)*** haqqındakı şeirləri öz bədii mükəmməlliyi ilə seçilir. Marağa şəhərində olarkən Azərbaycanın elm və mədəniyyət sahəsində yetişdirdiyi riyaziyyat, astronom, ədəbiyyat alimi Nəsrəddin Tusiyə yazdığı ***“Sənlə necə dərdləşim…”*** şeirində kainatın sirrini zəkası ilə fəth edən cismi torpaq altında, ruhu haqqın yanında olan böyük Azərbaycan alimi Nəsrəddin Tusi ilə dərdləşir, Allahın möcüzəsi olan böyük alimə olan sevgisini belə ifadə edir:

*Səkkiz yüz ildən sonra,*
*Görüşünə gəlmişəm.*
*Sən, ey Tusda doğulub,*
*Marağada yaşayıb,*
*Bağdadda ölən kişi.*
*Sevincini, qəmini,*
*Zamanın sitəmini,*
*Göylərlə bölən kişi.*
*Sən fəzilət şahısan,*
*Elmlər Allahısan.*

Şairin ***"Arximed", "Kolumb", "Şiraza gəlmişəm", "Öz dilimsən"*** kimi düşündürücü fəlsəfi şeirləri də, kitaba daxil etdiyi tək bircə qəzəli də şeirlərinin poetik kamilliyinin nümunəsidir.

*"Hər şairin öz dünyası var"* – deyirlər. Xanəli Kərimlinin şeir dünyası kimi. Vətəndaşlıq və biganəlik… Bunlar bir-birinə tam əks olan, bir-birini təkzib edən qeyrət və qeyrətsizlik ifadəsidir demək yerinə düşər.

Şeirlərində *"vətəndaş"* və *"biganə"* təzadlarını ustalıqla qələmə alan Xanəli Kərimlinin poeziyasında türklük sevdası, ana dilinə, yaşadığı Vətən torpağına sonsuz sevgi var. Onun şeirləri oxucunu Vətən əxlaqı, azərbaycançılığı milli ideyaya çevirmək, sözə ehtiram ruhu, Allahın göndərdiyi sözləri nurdan süzülüb gələn ərş-əla *"bilərək"* sözə ehtiyatla yanaşma ciddiyyəti təlqin edir.

*Mən sözdən qorxuram –*
*Tanrıdan qorxan kimi,*
*Çünki söz Tanrının, Tanrı sözün özüdür.*
*O, bir nurdur süzülüb ərş-əladan gəlir,*
*Ərşlə fərşin zatı, astarıdır, üzüdür.*

Fikrimi vaxtilə Xanəli Kərimli haqqında yazdığım məqalələrimin birində olduğu kimi tamamlamaq istəyirəm:

*"Xanəli Kərimlinin şeirlərində xalqın cilalaya-cilalaya günümüzə qədər gətirdiyi söz uğurlu mənəvi sərvətdir. Ölçüsü-biçisi, hər cür əndazəsi yerində olan bu milli-mənəvi sərvət onun şeirlərində məqamında sərt, məqamında dadlı-duzlu fikirlər ifadə edir. Yaradıcılığındakı uğurları da, bəlkə sözə həssaslıqla, ehtiyatla, sənətkarlıqla yanaşmasıdır".*

***Maarifə Hacıyeva. "Ədəbi qaynaqlar".***
***Bakı, 2014, s. 235-239***

**Vaqif Yusifli,**
*filologiya elmləri doktoru, professor*

# XANƏLİ KƏRİMLİNİN PAYIZ DUYĞULARI

***(«Bölgələrdə ədəbiyyat» silsiləsindən)***

Xanəli Kərimli Naxçıvanda, qədim Odlar diyarında yaşayan, oradakı ədəbi və elmi mühitin fəal nümayəndələrindən biri. Təkcə Naxçıvanda deyil, bütün məmləkətimizdə az da olsa tanınan bir şair-ziyalı... Keçən il onun «Qanun» nəşriyyatı tərəfindən ***«Payız duyğuları»*** şeirlər kitabı çap olunub. Ömrünün 63-cü payızına qədəm qoyan bir şairin bu kitabına belə bir ad seçməsini də təsadüfi saymaq olmaz.

Xanəli Kərimli ömrünün də, yaradıcılığının da payız fəslini yaşayır. Bu fəsli Xanəli Kərimli üçün solan, saralan, xəzan dövrünü yaşayan fəsil yox, barlı-bəhərli payız kimi səciyyələndirmək olar. Doğrudan da, Xanəli Kərimli 60 yaşdan sonra gənclik həvəsindən qalmır, yazır-yaradır.

Kitab altı hissədən ibarətdir və hər hissənin də öz adı var: ***«Vətən və Vətən daşı», «Mən tövbələr qapısıyam», «Dünya və mən», «Başımın tacı torpaq», «Hələ ki gec deyil», «Duyğu əlçimləri»...*** Təbii ki, hər bir hissənin öz mövzusu var. Mən söhbətə üçüncü hissədən *(«Dünya və mən»)* başlamaq istəyirəm. Görək şairin Dünya ilə münasibəti necədir, o özünü bu böyük, əbədi Dünyada necə hiss edir, taleyindən, keçdiyi ömür yolundan razıdırmı, əgər razı deyilsə, bunun səbəbləri nədir? Ümumiyyətlə, ***«Dünya və mən»***də ifadə olunan fikirlər, hisslər, duyğular oxucuya nə deyir, nəyi aşılayır?

*Bu dünyanın dərdi böyük, qəmi yük,*
*Ha yayınla, ha yığışdır, ha da bük,*
*Əzabı çox, ağrısı tam, dəm bölük,*
*Dözə bilsən, şirin-şəkər dünyadı.*

*Hər zamanın havacatı başında,*
*Dağlayar sinəsin dağın, daşın da,*
*Diz yerə qoymayıb çərx savaşında,*
*«Mənəm» deyənlərə yəhər dünyadı.*

*Sən əl uzatsan da, sənə əl verməz,*
*Can qurban etsən də-sənə dil verməz,*
*Yasında ağlamaz, toyunda gülməz,*
*Təpədən-dırnağa xətər dünyadı.*

*Ay Xanəli, çox özünü yorma sən,*
*Bu dünyadan düz bazarlıq görməzsən,*
*Farağat dur, yoxsa xeyir görməzsən,*
*Dili şəkər, qəlbi zəhər dünyadı.*

Dünya ilə münasibət Xanəli Kərimlidə narazılıq motivləri üzərində qurulur. İnsan ömrü, bu ömrün keçib-gəldiyi yol, bu yolun daşıyıcısı olan şəxs elə hey narahatdır. Bəzən öz-özünü qınayır ki: *«Mənim şairliyim başıma dəysin. Qoruya bilmədim bir ocağı da»*. Və deyir ki: *«...böyük söz meydanında çəkilmir nə adım, görünmür yerim».* Gah da etiraf edir ki: *«Bir vaxtlar çinartək yenilməz idim. Zirvələr də həsəd çəkərdi mənə.İndi ayım, günüm qarışıq düşüb. Bir kibrit çöpü də yanmır oduma».*

Təbii ki, bu şikayətlər müəllifin özündən narazılığı kimi anlaşıla bilər.

Dünya deyəndə o, kainatı, səyyarələr aləmini deyil, daha dar mənada - yaşadığı cəmiyyəti, insanlar mühitini nəzərdə tutur. Deyəndə ki: *«Bu dünyanı soyuq gördüm əzəldən, nə günündən, nə ayından yarıdım»* - biz böyük Dünyanı deyil, məhz şairin - lirik qəhrəmanın yaşadığı kiçik aləmi görürük. Ona görə də aşağıdakı misraları təbii sayırıq. Mən və Dünya münasibətində Dünya nədir sualına axtardığımız cavabı tapırıq *(Dünya mənim yaşadığım Yerdir, məkandır, insanlar aləmidir, gerçəklikdir).*

*Verdi dərdi, möhnəti*
*Mən dünyadan bezmədim,*

*Dünya bezdirdi məni.*
*Dindirmədi kimsəni...*

*...Şükür, mənim qazancım*
*Bu dünyadan dərd oldu.*
*Dərdimin bolluğu da*
*Dünya üçün dərd oldu.*

Elə güman etməyin ki, Xanəli Kərimlinin bütün şeirləri beləcə dərdli-gileyli motivlər üzərində qurulub. Və bütün şeirlərində Dünya beləcə qaralanır. Əlbəttə, belə deyil. Mən Xanəli Kərimlini bədbin və nostalgiya ilə yaşayan şair kimi yox, nikbin şair kimi səciyyələndirirəm.

***«Başımın tacı torpaq»*** bölməsində Xanəli Kərimli məhz həyatsevərdir. Torpağa, soyuna-kökünə bağlı bir şair kimi diqqəti cəlb ediir. Onun torpaq və təbiət haqqında şeirlərindən torpağın və təbiətin rayihəsi gəlir.

*Duman yalmanına yatıb dağların*
*Oxşayır ruhunu meh nəfəsilə.*
*Kipriyi şəbnəmli tər çiçəkləri*
*Oyadır bulaqlar zümzüməsilə.*

*Qayanın çınqıllı ətəklərində*
*Oxuyur kəkliklər xoş avazıyla.*
*Şəbnəmdən yoğrulan dağ gölləri də*
*Nazlanır yaşılbaş sonalarıyla.*

*Bir sal daş üstündə bir ovuc torpaq*
*Qoruyur bircə kol kəklikotunu.*
*Bir sısqa bulaq da alıb qoynuna*
*Məst olub uyuyan bulaqotunu.*

*İllərin tufanı sal qayaları*
*Zaman-zaman yonub heykəlləşdirib.*

*Təbiət də rəssam möcüzəsiylə*
*Hərəsin bir cürə gözəlləşdirib.*

*Bir çiçək ətri də Vətən ətridir,*
*O duyğu qəlbinə sığılsa əgər.*
*Onda görərsən ki, babalar haqmış,*
*Bu torpaq uğrunda ölməyə dəyər.*

Xanəli Kərimli - XX əsrin insanı, XXI əsrin də vətəndaşı, Yer oğlu, Azərbaycan ziyalısı, Naxçıvanlı dostumuz, şair, alim.

Təbii ki, onun həyat, ölüm, dünya, cəmiyyət haqda fikir və düşüncələri təkcə özünə aid deyil və bu mənada, şairin lirik «*mən*»ində müasirlərinin obrazı da əks olunur. yəni Xanəli Kərimli öz şeirlərində müasirlərinin də arzu və istəklərini ifadə edir. O deyir ki:

*Ürəyin ağrıyır?!*
*Niyə qorxursan?!*
*Demək, sən qanırsan, sən yaşayırsan.*
*Başı daşdan-daşa dəyən Vətənin*
*Halal övladısan, dərd daşıyırsan.*

Biz bu misraların səmimiyyətinə qətiyyən şəkk etmirik, Vətənlə onun övladları arasındakı ünsiyyəti alqışlayırıq.

Amma deyəndə ki: «*Vətəni işğal olunmuş millətin birinci, edam edilməlidi şairləri, müəllimləri. Sonra alimləri, zabitləri, əsgərləri. Daha sonra vaxt qalsa, həvəs olsa, o biriləri*» - biz bu fikirlə qətiyyən razılaşmırıq. Vətəni işğal olunmuş millət, əgər millətdirsə, özündə güc tapıb işğala son qoymalıdır!

Xanəli Kərimlinin ustadlara həsr etdiyi silsilə şeirləri də diqqətdən yayınmır və bu şeirlər Zamanın keçmişində yaşayan, amma bütün əsrlərin mənəvi sərvəti sayılan ustadlara böyük məhəbbətin ifadəsi kimi yadda qalır. Mirzə Cəlilin ruhuna həsr olunmuş şeir İlahiyə müraciətlə yazılıb:

*Mənə qələm vermisən-dərdimi yazmaq üçün,*
*Dərdimi bol etmisən-nəşəmi pozmaq üçün.*

*Bir kor iynə vermisən-gorumu qazmaq üçün,*
*Şükür sənin hüsnünə, şükür sənə, İlahi.*

H.Cavidin məqbərəsi önündə düşüncələr də şeirə dönüb ustada məhəbbət və ehtiram ifadə edir:

*Sən elə qüdrətsən ki, sənə əlimiz yetməz!..*
*Sən xalqın ələmisən, kədərisən, dərdisən.*
*Bütün qadağaları, bütün sədləri qırıb*
*Haqqa haqq deyən kişi, zəmanənin mərdisən.*

Xanəli Kərimli əsl kənd adamıdır. Bu sözü deyəndə mən onu binadan əkinçi, biçinçi kimi deyil *(cavanlığında əkib də, biçib də!),* daha çox kəndi duyan, onun problemləri ilə yaşayan bir ziyalı hesab edirəm. Mənə o xoş gəlir ki, Xanəli Kərimli kəndin romantik dünyasına, şeiriyyətinə vaqif bir şairdir.

*Zirvədən təzəcə boylanırdı Ay,*
*Ocaq köz tökürdü aramla lay-lay.*
*Çubuq şişlikləri düzdük bir qolay,*
*Başladıq gecəni gecələməyə.*

*Boynu buruq-buruq dəvə təpələr,*
*Ayın işığında mürgü döyürlər.*
*Ləçəyi yellənən güllər, çiçəklər*
*Çırpınır ətrini səpələməyə.*

*Bu yay gecəsinin aylı gecəsi,*
*Bulaq pıçıltısı, mehin nəfəsi.*
*Köz üstə dəmlənən çay zümzüməsi*
*Çağırır könlümü təzələnməyə.*

Bu şeirdə Xanəli Kərimlinin xalq şeirinə məhrəmliyi də hiss olunur. Şeir həm məzmunu-Ay işığının saçdığı gözəllikləri əks etdirdiyi üçün, həm də formaca xoş təsir buraxdığı üçün maraqlıdır.

Mən Xanəli Kərimlinin ***«Vətən və Vətən daşı»*** silsiləsi haqda da xoş söz deyə bilərəm. Bu silsilədə olan şeirlər Azərbaycana, bayrağımıza, şəhidlərimizə, ustadlarımıza, türk dünyamıza, müstəqilliyimizə, ulu öndərimiz Heydər Əliyevə böyük ehtiram və məhəbbətlə yazılan nümunələrdir.

Və bu yazıda tənqid xatirinə deyil, həqiqi müşahidəmə görə deyə bilərəm ki, Xanəli Kərimlinin kitabında onun yaxşı şeirləri ilə müqayisədə ortababları, hətta bir neçə zəif şeirləri də var. Bunlara elə bilirəm, onun gələcək kitablarında rast gəlməyəcəyik. Amma təbiidir bu da, çünki yaxşılar seçilir, adı çəkilir, nümunə gətirilir, ortabablar qıraqda qalır.

Xanəli Kərimliyə uğurlar diləyirəm. Yolundan dönməsin. Payız bolluq fəslidir, yazsın, yaratsın. Özü demişkən: *«Bu yol mənim əzəli, əbədi bir yolumdur».*

***"ƏDALƏT " qəzeti,***
***19 aprel 2014-cü il***

**Sədaqət Həsənova,**
*Filologiya elmləri doktoru,*
*professor*

# XANƏLİ KƏRİMLİNİN DİL-ÜSLUB XÜSUSİYYƏTLƏRİ

**Ərzin altında Allahın xəzinələri vardır ki,**
**şairlərin dili bu xəzinələrin açarıdır.**
*Məhəmməd peyğəmbər*

Real və düşünülən hadisələrə həqiqi sənətkarlıq ölçüləri ilə yanaşmağın əsas yollarından biri şairin dilidir. Bəllidir ki, şairlərin dil duyumu şair olmayanların dil duyumundan az və ya çox dərəcədə yüksəkdir. Bu duyum olmasa, poetik sözlər lazımi səviyyədə yaranmaz, diqqəti çəkməz və insanın daxili aləminə təsir göstərə bilməz. Fikir meydanının genişliyinə imkan yaradan da dildir. Dil fikrin reallaşma və çatdırılma vasitəsi kimi həmişə önəmlidir. Poetik təfəkkürün məhsulu olduqda isə onun əvəzi yoxdur. Poetik sözlər təkcə fikir ifadə etmir, həm də oxucunu sirli bir aləmə aparır, onun həyatı, insanları dərk etməsinə kömək edir. Dili *"poetik təfəkkürün açarı"* hesab edənlər onu nə qədər də düzgün dəyərləndiriblər. Şair Xanəli Kərimlinin də poetik dünyası onun söz dünyası ilə qoşalaşır.

*"Yaşamaq çətinmiş, ölməyə nə var",*
*Onsuz da ölümün halal malıyam.*
*Vətən deyib dilə gəlməyə nə var,*
*Vətənçün ölməyi bacarmalıyam.*

Dil yalnız ünsiyyət vasitəsi deyil, həm də milli mədəniyyət və mənəviyyatı təzahür etdirən vasitədir. Xalq şairi Rəsul Rza ana dilinin ən gözəl şerini yaratmağı *"yer üzünün səadəti"* hesab etmişdir. Gərək zaman dayana, həyat bitə ki, bu səadətin kimə mənsubluğunu dəqiqləşdirə biləsən. Ana dilinin indiyədək o qədər gözəl şeiri yaranıb ki. Və yəqin ki, bundan

sonra da yaranacaq. Onların hansının daha gözəl olduğunu təyin etməyə qüdrətmi çatar? Çox şairin poeziyasında gözəl şeir, təzə-tər fikir və yeni ifadə tapmaq olar. Əsas məsələ odur ki, onlarda xaslıq olsun, müəlliflik olsun. Bu anlamda, Xanəli Kərimli poeziyası diqqəti çəkir:

*Şair haqqın səsidir...*
*Tanrının müjdəsidir.*

Xanəli Kərimlinin sözləri də özü kimi sadədir, zahiri bərbəzəkdən uzaqdır, lakin yerinə düşən, zamanında deyilən və içdən gələn sözlərdir.

Şairin dili onun istedad səviyyəsini təyin edir. Onun imzası, ədəbiyyatda və ədəbi dildəki mövqeyi dilindən çox asılıdır. Əslində, hər bir söz ustadının bacarığı onun ümumxalq dilinin dadından, duzundan, şirinliyindən nə dərəcədə istifadə etməsi ilə ölçülür. Sənətkarın xalq dilinə münasibəti ilə poetik şəxsiyyəti təsdiqlənir. Bu məqamda professor Yusif Seyidov yazır: *"Şeir yazmayıb mənən, daxilən şair olanların sayı şeir yazanlardan, bəlkə də çoxdur. Ancaq burada xüsusi bir keyfiyyət insana, sözün əsl mənasında, şairlik hüququ verir. Şairlər başqalarından fərqli olaraq, öz duyğu və düşüncələrini yüksək poeziya dili ilə ifadə edə bilərlər... Şair həyatı – təbiəti və cəmiyyəti, hadisələri bir fərd kimi yalnız özü üçün deyil, onu əhatə edənlər üçün də açır, ona yeni forma, yeni dil, yeni güc verib ifadə edir. Şair insanın özünü də özünə anladır və tanıdır. Şair öz əsrdaşının daxili aləmini açıb onu özünə göstərir".*

Şair, bəlkə də, özü də bilmədən söz axtarışında olur. Sözlərə cəsarətlə yanaşmaq, onları cəsarətlə işlətmək Xanəli Kərimli qələmi və şəxsiyyəti üçün adi haldır. Və bu, şairin poetik dil axtarışlarının uğurla nəticələnməsinə səbəb olan faktlardan biridir. Şairin sözləri hərdən asta deyilsə də, çox vaxt şimşək kimidir. Şeirlərinin birində də şair bunu vurğulayır:

*Zirvədəki qalaçanın özü mən,*
*Şimşəklərin nidası mən, sözü mən.*

*Ocaqların səngiməyən közü mən,*
*Ocaq közüm, şimşək sözüm qalırmı?*

Sözləri poetikləşdirən, fəallaşdıran, ədəbi-bədii dilimizi formalaşdırıb inkişaf etdirən, yüksək zirvələrə qaldıran, sözsüz ki, qələm əhlidir. Bu yolda kimin nə qədər rolu varsa, onun dili ilə müəyyənləşdirmək olar, kimin nə kimi iş gördüyünü bilmək istəyiriksə, bunu onun üslub keyfiyyət və yenilikləri aşkara çıxarır. Hər bir üslubun öz leksikasını yaratmaq həqiqəti də bəllidir. Və ümumi üslub çərçivəsində şairin öz fərdi üslubunun leksikası da az iş görmür. Bu leksikada elə bir söz tapmaq çətindir ki, o, poetik dilə xidmət etməsin. Sözlərdə gizlənən fikirləri aşkara çıxarmaq şair dilindən böyük ustalıq tələb edir. Və maraqlıdır ki, fikirləri gizlədən, qoruyan da dildir, onun aşkara çıxaran da. Sözlər bəzən fikirləri ifadə edəndə qeyri-adilik qazanır. Düşünürsən, necə olub ki, indiyədək bu sözü eşitməmisən? Halbuki, sözlər tanışdır, lakin onların yeni anlamları ilə təzəcə tanış olursan və sözlərin içində gizlənənlər bircə anda *"mən də varam"* deyir. Poetik heyranlıq da buradan yaranır. Heyrət doğurmayan söz poetik ola bilməz. Çünki poetik söz adi söz deyil, neçə yüzillərdir ki, işlənən və hamıya bəlli olan vahid deyil, şairin poetik təfəkküründən barınan mənəvi sərvətdir, şairin düşüncələrinin dilidir.

Şairin üslub keyfiyyətlərini tanıdan yeganə material obrazlı sözdür. Onun gücündən asılı olan çox şey var. Bu güc nəticəsində gözlənilməz mənalar üzə çıxır, dilin sehrinə düşürsən. Şairin sözləri insanı həyəcanlandırmağı, ürəkləri təlatümə gətirməyi, düşünməyə vadar etməyi bacarmırsa, onun özünəxaslığını təyin etmək, söz deyənlərin imzaları arasında imzasını sezmək mümkün deyil. Ağıllı adamlar sözdən qorxublar. Onun vahiməsi, gözlənilməzliyi, insanı alçaltmağı və ya ucaltmağı var. Xalq şairi Nəbi Xəzri deyirdi:

*Söz ucaldar bu cahanda insanı,*
*Əzizləyər bu cahan da insanı,*

*Vaxt olar ki, bircə anda insanı*
*Əlli ilin hörmətindən salar söz.*

Bu məsuliyyəti dərk edib qiymətləndirən Xanəli Kərimli sözləri yersiz işlətmir, onun məqamlarını axtarıb tapır. Doğrudan da, sözlə oynamaq çətindir. Bunu hamı bacarmaz. Dünyanın söz deyənləri həddən artıq ağır məsuliyyət qarşısında dayanıblar və indi də dayanırlar. İllər uzunu gözəl söz və fikirləri ilə insanı valeh edənlər belə bircə dəfə sözü ucuzlaşdırsalar, söz də onları qiymətdən salar. Ona görə də insanı insan edən dil, həm də onun qorxu yerlərindən biridir. Dilin sözlərinə ehtiram bəsləyənlər, ona diqqət və qayğı ilə yanaşanlar, onu sevənlər və məqamında işlədənlər həmişə uğur qazanıblar. Bir də ki, söz ürəkdən, ruhdan gəlməlidir. Mikayıl Müşfiq necə də yerində deyirdi:

*Ey bütün dünyanın söz deyənləri,*
*Ruhun dodağına tutun neyləri!*

Xanəli Kərimlinin dilində şairlərin ünvanına fərqli dəyər var – o, şairləri qəriblərin anası, tanrının söz hanası adlandırır:

*Şair qərib anasıdır,*
*Tanrının söz hanasıdır.*
*Nadan çətin qanasıdır,*
*Sən, ey nadan, qıraqda dur.*

Xanəli Kərimli ruhla yazır, ürəyindən və ağlından qələminə axan sözlər oxucunu onun səmimiliyinə inandırır. Şeirlərinin birində şair sözü *"Haqqın nuru"* hesab edir:

*Bir rübabın nəsimiyəm,*
*Həm pərdəsi, həm simiyəm,*
*Mən Haqqın divanəsiyəm,*
*Sözüm də haqqın nurudur.*

Söz təsirli olmasa, bədii zövq yarada bilməz. Söz aləminin dərinliyi və genişliyi var. Həyat təzadlarla dolu olduğu kimi, burada da qəribə bir təzad var: bu dərinliyə endikcə yüksəlirsən. Söz qarşısında baş əymək, onun səcdəsinə enmək onu yeni qatları ilə işlətmək vərdişi formalaşdırır, şərəf gətirir, qüdrət yaradır: poeziya şərəfi, şairlik *(söz demək)* qüdrəti! Ola bilər ki, söz yeni olmasın və onun yeni mənası da üzə çıxmasın, yetər ki, söz yeni təsir gücünə malik olsun. Bunun üçün onun düşdüyü mühit – yer aldığı şeir mətni çox önəmlidir. Çünki mətndən kənarda söz adidir, anlamsızdır, onun nə demək istədiyi mətn daxilində daha qabarıq bilinir. Söz təkcə fikrin donu deyil, həm də məzmunlu formasıdır. Xanəli Kərimlinin yaradıcılığında belə formalar bolluğu sezilir. O, heç kəsi təkrar etmir, özünəməxsus poetik nəfəsi ilə yazır və insanlara, yaxınlara, yadlara, nəhayət, özünə demək istədiklərini dilə gətirir. Həqiqi poeziya deyim forması ilə müəyyənləşir. Deyim tərzi fikirləri üzləşdirir. Şairin şeirlərini oxuduqca bir daha inanırsan ki, *"şeir ruhun məchul səsini böyük bir qüvvə ilə ifadə edən, insanın xarici və daxili aləmi ilə bərabər bütün varlığını nağıl edən bir şəklidir. Əsl şeir böyük fikirlər və böyük ideallar deməkdir, onun kiçik bir misrasında bəzən böyük bir roman olur" (Ə.Ağayev).*

Hər bir fikri dil ifadə edir. Xanəli Kərimlinin fikrincə, bəzən dili də ifadə edən şeylər var. Məsələn, o, ***"Azərbaycan bayrağı"*** şerində *"bayraqlar bayraqdarı"* olan bayrağımız haqqında deyir:

*O mənim yad ellərdə*
*Danışan saf dilimdi.*
*Vüqarım, ləyaqətim,*
*Vətənimdi, elimdi.*

Şeirlərinin birində *"qat-qat"* mənasında olan və xalqın dilində *"çən-çən"* kimi işlənən *"çin-çin"* sözündən istifadə etmişdir:

*Qalanır yaş üstə illərin çin-çin,*
*Sən hələ vurğunsan özün-özünə.*
*Bir vaxt ayılanda görəcəksən ki,*
*Qəlbin inanmayır ağlın sözünə.*

Şeir başqa bir cəhətdən də maraqlıdır. O, Rəsul Rzanın aşağıdakı misralarını yada salır:

*Anladım, ağlımmış səni unudan,*
*Qəlbimin bu işdən yoxmuş xəbəri.*

Hər iki şair ağılla ürəyin həmişə bir olmadığı gerçəkliyini özünəxas şəkildə qələmə almışdır.

Dilimizin gözəlliklərini saymaqla qurtarmaz. Nəinki xalqımızın dilində, hətta dialektlərimizdə elə söz və ifadələr var ki, ədəbi dilimizə keçməyə layiqdir:

*Kəklikotu, a şehli dağ çiçəyi,*
*Baldırğanın suda üzən ləçəyi,*
*Ay dağ gölü, göllərin ən göyçəyi,*
*Baş aynıcaq səcdənizə gələrəm,*
*Axı sizsiz yaşamaram, ölərəm.*

Buradakı *"başın aynımağı"* ifadəsi *"baş qarışıqlığı"* ifadəsinin antonimidir. *"Başım aynımır"*, əslində, *"başım qarışıqdır"*, *"vaxtım yoxdur"* deməkdir. Sözə qoşulan *-caq* şəkilçisi *"kimi"* qoşmasının sinonimi kimi yerinə düşmüşdür.

*Qoşa bulaq, qoşalığın*
*Dadı getməyir damaqdan.*
*Ömrüm, günüm heşan oldu*
*Sizdən ayrıldığım vaxtdan.*

*"Heşan"* sözü dialektə xasdır. O, ədəbi dil faktı olmasa da, əsərin dilində şirin səslənir. Bundan başqa, şairin dilindəki *"hellətmək"* sözü də diqqəti çəkir:

*Çox "kişilər" daş hellətdi yoluma,*
*Çox "dostlarım" kəmənd vurdu qoluma,*
*Sağlıq olsun, çarə yox bir ölümə...*
*Mərd kişilər mərdliyində qalırmı?*

Bu şeirdə S.M.Şəhriyarən "Heydərbabaya salam" poemasından doğan hisslərə yaxın nələrsə var.

Xanəli Kərimlinin dili sadə və təbiidir, çünki xalq dilindən mayalanıb:

*Ayaqlarım girdən düşəndə,*
*Dizlərim dözməyib büküləndə*
*Otururam bir skamyada*
*Tək-tənha.*

*"Ayaqların girdən (yəni taqətdən) düşməyi"* ifadəsini şair ata-babalarının dilindən eşitdiyi kimi işlədib. Bəzən şair el dilinə söz *"yeniliyini"* gətirir. Xalq arasında *"ağlı dabanında", "ağlı topuğunda"* ifadələri var. Xanəli Kərimlinin dilində isə bu anlamda "ağlım ayaqlarımın ucunda" ifadəsi diqqəti çəkir. Və ya el dilində *"qara qəpiyə dəyməz", "beş qəpiyə dəyməz"* kimi ifadələrin əvəzində şairin dilində *"kor qəpik"* ifadəsi var:

*Nə çiçək, nə bulaq, nə çayın səsi*
*Mənimçün indi kor qəpiyə dəyməz.*
*Dağların zirvəsi, buludlar tacı*
*Yastı-yapalaq bir təpəyə dəyməz.*

Xanəli Kərimlinin dilində diqqəti çəkən dil faktlarından biri də aforistik məzmun daşıyan misralardır:

*Tək yanan şamın istisi*
*Özünü də barındırmaz.*
*Bir çırpının hərarəti*
*Bir ocağı da yarındırmaz.*

*Fil yükün qarışqa daşıya bilməz.*

*Nə qədər qadağa, qanun olsa da,*
*Tərsinə fırlanmaz çarxı dünyanın* və s.

Şairin dilindəki *"cəhənnəm rəngi", "böhtan daşı", "tarixbazlar", "ölümün halal malı"* kimi söz və ifadələr yeniliyi ilə seçilən uğurlu dil faktlarındandır.

Xanəli Kərimli həm də özünə hesabat verən, harada yanlış, harada düz olduğunu bilən və etiraf edən, hansı *"günahı"* olduğunu boynuna alan, keçmişin təsirindən uzaqlaşmayan, bugünlə yaşayan, gələcəyi düşünən və vicdanına hesabat verən şəxsiyyətlərdən biridir. Bəlkə də, şairin xəbəri yoxdur: bir dəfə bu sətirlərin müəllifi onun təəssüf dolu bir etirafının şahidi olub və o zamandan onun isti ürəyinə, dərin duyğularına bələdliyi başlayıb. Diqqət edilsə, bu, şairin poetik dilində yetərincə əks olunur. Şair bəzən bir çox insanların yanlışını təəssüf hissi ilə qələmə alır:

*Əl çalmışıq*
*Diri ikən ölümüzə,*
*Ölü ikən dirimizə.*
*Biz fərqinə varmasaq da,*
*Salonlar da, meydanlar da*
*Əriyibdir yerimizə.*

Bu fəlsəfi fikirlər həqiqətlərin açarıdır. Bəzən elə məqam, elə zaman olur ki, insanlar bilərəkdən, ya bilməyərəkdən dünən *"çəpik çaldığına"* bu gün *"təpik"* vurur və ya əksinə. Şair bu işdən əl çalanların yox, əl çalınan yerlərin xəcalət çəkdiyini göstərir. Şeirdə *"ərimək"* feli *"utanmaq"* felinin əvəzində işlənərək onun mənasını daha da qüvvətləndirib.

Xanəli Kərimli nə qədər desə də düşünür ki, sözü yarımçıqdır:

*Bumu yaşamağın dadı, ləzzəti?*
*Hər şeydə yarımçıq izim qalıbdı.*

*Könlümü qarsayan bütöv həsrətim,*
*Bir də ki yarımçıq sözüm qalıbdı.*

Əslində, bəzən elə düşüncələr, elə hisslər olur ki, onları olduğu kimi anlatmağa sözlərin gücü yetmir. *"Dünyada ən çətin şey fikrin, hissin ifadəsini tapmaq, içəridə çağlayan minbir duyğunu maddiləşdirmək, fikir qatlarını sözə çevirməkdir" (K.Vəliyev).* Bəlkə də, şair düşünür ki, demək istədiklərinin hamısını deyə bilməyib və ya istədiyi şəkildə deyə bilməyib. Bu, yaxşı fikirdir. Deməli, şair bütöv söz axtarışındadır. Bəlkə də, bilmir ki, o söz artıq var. Qoy elə bilməsin. O sözün dalınca düşsün, yeni tapıntılarla dilimizə yeni ovqat gətirsin.

Əsərlərinin birinin adı diqqəti çəkir. Professor Y.Seyidovun ifadəsi ilə desək, *ad əsərin yarısı deməkldir.* Sözü gedən şerin adında dilimiz üçün xarakterik olmayan, lakin türk dilinin aktiv leksikasına daxil olan *"mutlu"* sözü işlənib: *"Nə mutluyam"*. Əsər Türkiyədə şairin iştirakçısı olduğu qurultaylardan birinin təəssüratlarından yaranıb. Şair türk birliyini tərənnüm edir, onun dediklərində, xüsusilə də iki misrasında olan həqiqət bir daha xatırlanır:

*Bu birliyin məhvərində Od yurdunun öz payı var,*
*İş birliyi, güc birliyi, ən müqəddəs söz payı var.*

Çağdaş Azərbaycan ədəbi dilinin inkişafında da Xanəli Kərimlinin öz payı, öz töhfəsi var. Bu payın, bu töhfənin bundan sonrakı bolluğunu arzulayan oxucular da çoxdur. Bu yolda şairə uzun ömür və uğurlar arzulayırıq.

**Yaşar Qasımbəyli,**
*filologiya elmləri doktoru*

# POEZİYADA İSTİQLALIN TƏRƏNNÜMÜ

**Xanəli Kərimli indi özünün oxucu auditoriyasına malik olan, geniş hörmət qazanmış şairlərdəndir. Şeirində, həyatında səmimi, riyakarlığa yabancı, bir sifətli sənətkardır. Onu yaxından tanıyanlar halal təbiətli olduğunu xüsusi vurğulayırlar.**

*Camal Mustafayev,*
*fəlsəfə elmləri doktoru, professor,*
*Əməkdar elm xadimi*

Xanəli Kərimlinin *"Payız duyğuları"* kitabındakı ***"Azərbaycan bayrağı"*** şeiri Vətənimizin şərəfinə yazılmış, milli qürur və iftixar duyğularını oyadan gözəl bir nəğmə təsiri bağışlayır. Azərbaycan bayrağının, xüsusən, gənc nəslə bu cür təqdim və təlqin olunması poetik cəhətdən özünə tam mənada bəraət qazandırır. Aşağıdakı misralar təkcə bayrağımızın təsviri deyil, həm də onun mənşəyi və mənası haqqında unudulmaz bilgilərdir: *"Bayrağımın rəngində Yerin, göyün rəngi var. Yurdumun azadlığı, Pozulmaz ahəngi var. Mən onu qoparmışam Köləlik zəncirindən. Ona səcdə edirlər Dünyanın hər yerindən."*

Müstəqil dövlətin əsas atributlarından olan bayrağın əsas vəzifəsi və funksiyası haqqında da şairin poetik bəyanı diqqətə layiqdir. Gənc nəsil bu misraları oxuyarkən nəyə görə onu *"köləlik zənciri"*ndən qoparmaq üçün nəsillərin bu qədər mübarizə apardığını, öz ömürlərini qurban verdiklərini, qan tökdüklərini dərindən duyur və anlayır. Müstəqil dövlət, o cümlədən, onun gerbi və bayrağı millətin özünüifadəsi və təsdiqidir. Onun varlığını uzaq-uzaq yerlərdə və məkanlarda təmsil edən milli və siyasi rəmzdir: *"O qalxıb ucalanda Bayraqların içində. Ucalır millətim də Millətlərin içində. O mənim yad ellərdə Danışan saf dilimdi Vüqarım, ləyaqətim, Vətənimdi, elim-*

*di."* Kosmopolit tənqidçi bunları adi və məlum həqiqətlərin bədii ifadəsi kimi qiymətləndirə bilər. Amma bizim böyük klassiklərimizin Vətənimiz və Dövlətimiz haqqında məşhur şeirləri, hamımızın uşaqlıqdan əzbər bildiyimiz və söylədiyimiz doğma misraları bəyəm adi həqiqətlərin ifadəsi deyilmi?! Vətəndaşlıq lirikasına qeyri-səmimi və aşağılayıcı münasibətlə biz heç zaman razılaşmamalıyıq. İngilis və ya fransız, alman və ya ispan şairlərinin müasir dövrdəki mücərrəd və abstrakt, modernist və postmodernist eksperimentlərinə az qala səcdə edən bəzi müəlliflər Azərbaycan ədəbiyyatının və poeziyasının dövlətimizin mənafeyini həmişə və ardıcıl şəkildə müdafiə etməsini rişxəndlə qarşılamalarının iki mühüm səbəbi var. Birinci səbəb, onların bilərəkdən və ya bilməyərəkdən Azərbaycan dövlətinin ictimai-siyasi və beynəlxalq vəziyyətini qəsdən təhrif etmələri, yetərincə dərk etməmələridir. İkinci mühüm səbəb isə, onların Azərbaycanın keçmişinə də, bugününə və gələcəyinə də ögey bir oğul kimi yanaşmaları, öz övladlıq borclarından imtina etmələridir. Məncə, Vətənini sevən hər bir azərbaycanlı bu misraları sevərək, dərdli bir nəğmə kimi, ürəkdən gələn səmimiyyət dolu bir səs kimi qəbul etməlidir: *"Onda olan əzəmət, Ondakı çarpan ürək. Hayqırır sabah üçün Daha ciddi döyüşək. Çünki döyüşdən doğub Millətimin xoş çağı! Bayraqlar bayraqdarı Azərbaycan bayrağı!.."*

XX yüzil Azərbaycan poeziyasının ən qiymətli təcrübə və ənənələrindən biri budur ki, dəhşətli qadağalara, amansız və qanlı repressiyalara baxmayaraq, söz sənətimiz millətimizə sədaqətini axıra qədər şərəflə qorumağı bacardı. Təkcə bununla kifayətlənmədi. Başdan ayağa qədər milli olan ədəbiyyatımız çarizmin hiyləgər siyasətinə, daşnak və bolşeviklərin misilsiz təqib və təzyiqlərinə baxmayaraq, eyni zamanda, Millət, Vətən anlayışlarını yüksəklərə qaldırmaqla bərabər, Dövlət yaddaşını da hifz etməyi və yaşatmağı bacardılar. Türk xalqlarının söz sənəti Dövlətə və dövlətçilik ənənələrinə möhkəm bağlılığı ilə həmişə dostlarımızın da, düşmənlərimizin də diqqətini cəlb edib. Sovet cəmiyyətində ağır ittihamlar və sı-

naqlar qarşısında belə bizim söz sahiblərimiz bu müqəddəs ənənəyə arxa çevirməyiblər. Azərbaycan şairlərinin və aşıqlarının özlərini Dövlətdən ayrı təsəvvür edə bilməmələrindən sovet hökuməti də öz mənafeyi üçün müəyyən qədər istifadə etməyə çalışdığı bir həqiqətdir. Amma *"Sovet Azərbaycanı"* deyəndə də bizim ədəbiyyatımız bu anlayışa və məfhuma məhz doğma Dövlət mənasını daxil etməyə, hopdurmağa can atıb. Stalinizmin hökmranlığı dövründə Azərbaycan Dövlətini və dövlətçiliyini təmsil etməyi məhz ədəbiyyat öz çiyninə götürmüşdü. Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Səməd Vurğun, Süleyman Rüstəm, Rəsul Rza təkcə dövrün böyük şairləri deyildi. "Azər"i yazan Cavid, "Azərbaycan"ı yazan Əhməd Cavad, "Oxu, tar"ı yazan Mikayıl Müşfiq, "Vaqif"i yazan Səməd Vurğun, "Təbrizim"i yazan Süleyman Rüstəm, "Qara dəniz"i yazan Rəsul Rza bütün Azərbaycan Millətinin və Dövlətinin nümayəndələri və sahibləri kimi çıxış edirdilər. Dövlət və ədəbiyyatın türk xalqları tarixindəki mövqeyindən geniş bəhs etmək olar. Bu başqa bir geniş və fundamentlal məqalənin mövzusudur. Hələlik isə, onu qeyd etməyi vacib sayırıq ki, müstəqillik dövründə məhz bu müqəddəs ənənələr dirçəlməyə başladı və ədəbiyyatımızda yeni, daha əzəmətli təmayüllər kimi meydana çıxdı. Həmin ənənələr nöqteyi-nəzərindən yanaşanda, Xanəli Kərimlinin Mustafa Kamal Atatürk, Məmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, ümummilli liderimiz Heydər Əliyev haqqındakı ürək yanğısı ilə yazılmış emosional nəğmələrinin nə qədər böyük ictimai-siyasi və milli bədii əhəmiyyətə mailik olduğunu dərindən dərk edirik. ***"Onu zaman doğmuşdu"*** şeiri Ulu Öndərin vəfatına həsr olunub. Amma bu şeir adi bir mərsiyə deyil, xalqımızın böyük və misilsiz oğlunun yenilməz həyat və mübarizə yolu, qələbə və zəfərləri haqqında gözəl bir nəğmədir. Bu nəğməni bugünkü nəsillər də, gələcək əsrlərin övladları da məhəbbətlə oxuyacaqlar: *"O dünyaya gələndə Təkcə özü ağladı. Dünyadan köçəndəsə Cahan qara bağladı".* Şair vətən xilaskarını qədim dastanlarımızın tarixi-əfsanəvi qəhrəmanlarına bənzədir.

Onun səmavi mənşəyini, göylər oğlu olduğunu vurğulayır: *"O bir Tanrı elçisi, O bir Göy adamıydı. Hava kimi, su kimi, Hələ yaşamalıydı."* Müqəddəs kitabların da ifadə etdiyi kimi, yer üzünün problemlərini adi adamlar, yəni yer adamları həll etməkdə acizdir. Dünya ilahi fərmanlar və təyinatlarla idarə olunursa, demək, insanlara sülh və dinclik, ədalət və səadət bəxş edənlər də göylərlə bağlı olmalıdır. Həm də o insanlar təkcə bir etnosun və ya xalqın deyil, ümumən, bəni adamın və bəşəriyyətin taleyində silinməz iz qoyurlar: *"O insan azadlığı, Sülhün əlifbasıydı. O bir millətin deyil, Bəşərin dühasıydı."* Azərbaycanın müasir tarixinin ən dəhşətli mərhələlərindən biri məhz o dahinin müdrik və uzaqgörən siyasəti nəticəsində sovuşdu, Vətənimiz məhv olmaq təhlükəsindən qurtula bildi. Azərbaycanın düşmənləri öz məqsəd və arzularına çata bilmədilər: *"O, Ali Baş Komandan Həm də bir əsgər idi. Siyasət meydanında Alınmaz səngər idi."*

Bəli, ümummilli liderimizin müqayisəedilməz tarixi missiyasını və xidmətlərini yaxın və uzaq Azərbaycan tarixinin son dərəcə az və nadir tarixi şəxsiyyətləri ilə müqayisə etmək olar. Və onların heç biri amansız və çoxsaylı düşmənə qarşı mübarizədə Vətənin azadlığını və müstəqilliyini qoruyub saxlaya bilməmişlər. Nə ərəb xilafətinə qarşı döyüşən misilsiz sərkərdə Babək, nə monqol ordularına qarşı müqavimət göstərən Azərbaycan şahları, nə Rusiya işğalına qarşı müxtəlif səviyyələrdə mübarizə aparan Azərbaycan xanlıqları və xanları öz məqsədlərinə çata bilmişlər. XX yüzil Azərbaycan tarixinin böyük və əvəzedilməz siyasi liderləri N.Nərimanov və M.Ə.Rəsulzadə Vətənimizin milli suverenliyi və müstəqilliyini azğın düşməndən qoruya bilmədilər. Ümummilli liderin müqayisəedilməzliyi və məğlubedilməzliyi məhz bu kontekstdə daha parlaq şəkildə nəzərə çarpmaqdadır. Şair Yeni Azərbaycan dahisinin böyüklüyünü milli-tarixi zəmində təhlil və tərənnüm edir: *"Heydər özü bir əsr Əsrlər ona möhtac. Heydərsiz çox əsrlər Qalacaqdır beyni ac."*

Azərbaycanı böyük bəlalardan, xalqımızı isə misilsiz faciələrdən xilas edən Vətən oğlunun fövqəlzamanlığını kəşf

edərək müəllif haqlı olaraq nikbin bir nəticəyə gəlir. Əgər Azərbaycan dəhşətli düşmən mühasirəsində yaşamağı və qalib gəlməyi bacarmışsa, Heydər Əliyev kimi bir xilaskarı yetiribdirsə, onun əbədiyyət yolunu heç kim kəsə bilməz: *"O Sahibi zamanmış, Sən demə, bilmədik biz. İndi onun yoxluğun Ovudammır qəlbimiz Heydər kimi bir düha Yetiribdirsə bu xalq, Bu xalqa ölüm yoxdur – Əbədi yaşayacaq!!!"*

Bir sənətkar kimi Xanəli Kərimlinin özünəməxsusluğu ondadır ki, Ulu Öndərin vəfatına həsr etdiyi şeiri böyük Vətən xilaskarının qalibiyyət və əbədiyyət dastanına çevirə bilib. Zatən, vətəndaşlıq lirikasının əsas məqsədi və missiyası da bundan ibarətdir; poeziya Vətən tarixinin ən yüksək və işıqlı, ən mübariz və yenilməz, milli qürur və iftixar duyğularını dərinləşdirən anlarını daha da böyüdür və sənətin əbədiyaşar səhifələrinə çevirir. ***"Payız duyğuları"*** kitabı müasir Azərbaycan şeirində nəzərdən keçirdiyimiz poetik tendensiyaların, müxtəlif maneələrə baxmayaraq, daha da geniş vüsət aldığını nümayiş etdirməkdədir.

***"Azad Azərbaycan" qəzeti,***
***4 may, 2016.***

**Yaşar Qasımbəyli,**
*filologiya elmləri doktoru*

# VƏTƏNDAŞLIQ ŞEİRİYYƏTİ

**"Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirirkasının əsas yaradıcılarından biridir".**
*Akademik İsa Həbibbəyli*

Xanəli Kərimli poeziyasını dəyərləndirib, təhlil edərkən bütünlükdə ötən yüzilin şeir sənətini nəzərdən keçirmək zərurəti doğulur. Onun lirikasının doğuluşunu və mənşəyini göz önünə gətirmək, onun hansı qaynaqlardan və irmaqlardan qidalandığını təsəvvür etmək üçün biz əsrin ədəbi gedişatını qısaca da olsa ardıcıllıqla izləməliyik. Bu nöqteyi-nəzərdən yanaşarkən, XX yüzil Azərbaycan poeziyasında Vətən və vətəndaşlıq mövzusundakı şeirlər əsas bədii-fəlsəfi təmayüllərdən biri kimi diqqəti cəlb edir. Bu ədəbi təmayülün əsrin başlanğıcındakı Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid, Abbas Səhhət, Abdulla Şaiq və başqaları kimi nəhəng korifeyləri əbədiyaşar poetik örnəklərini bizə yadigar qoyub getmişlər. Xüsusən, "mollanəsrəddinçi" sənətkarların yaradıcılığı milli-bədii təfəkkürün bu yöndə inkişafına misiliz təsir göstərib. Oktyabr çevrilişinə qədər Azərbaycan ədəbiyyatında vətəndaşlıq poeziyasının və nəsrinin son dərəcə qiymətli təcrübəsi və mərhələsi formalaşıb. Amma sovet dövründə milli ədəbiyyatımızın poetikası və tematikasında köklü dəyişikliklər baş verdiyi kimi, bu sahədə də mühüm keyfiyyət dəyişikliklərini müşahidə edirik. Oktyabr inqilabı, kommunistlər partiyası, Lenin, Stalin və sovet cəmiyyətinin bir çox başqa rəmzləri, atribut və sənədləri haqqında onlarla, yüzlərlə konyuktr əsərlər yaradılmasına baxmayaraq, ümumən, sovet dövrü poeiziyasında da vətəndaşlıq şeirinin bir sıra gözəl və qiymətli nümunələri yaradılmışdı. Xüsusən, Mikayıl Müşfiq, Süleyman Rüstəm, Səməd Vurğun, Rəsul Rza, Osman Sarıvəlli, Əhməd Cəmil, Mirvarid Dilbazi, Balaş

Azəroğlu, Söhrab Tahir və başqalarının bu istiqamətdəki bədii axtarışları diqqətə layiqdir. 60-cı illərdən etibarən vətəndaşlıq poeziyası sahəsində daha böyük və sanballı uğurlara imza atılıb. Yeni poetik nəsil bütün poetik mövzu və dəyərləri orijinal şəkildə, tamamilə təzə üslubda bədii təqdim və təlqin etdiyi kimi, vətəndaşlıq poeziyasının sərhədlərini və miqyaslarını dəyişdirməyə də cəsarət edirdi. Əli Kərim, Məmməd Araz, Xəlil Rza Ulutürk, Nəriman Həsənzadə, Fikrət Sadıq, Fikrət Qoca, İsa İsmayılzadə, Məmməd Aslan, Musa Yaqub və başqa istedadlı şairlər vətəndaşlıq şeirlərinə yeni poetik status qazandırmaq sahəsində böyük işlər görürdülər. Məhz altmışıncıların yaradıcılığındakı bu estetik prosesləri nəzərə alaraq 60-80-ci illəri Azərbaycanın vətəndaşlıq poeziyası tarixində özünəməxsus və parlaq bir mərhələ kimi dəyərləndirmək məqsədə müvafiqdir. Vətəndaşlıq poeziyasının yüksəlişi tarixindəki növbəti mərhələ isə 90-cı illərdən başlanır. Bu mərhələnin orijinallığı və əvvəlki dövrlərdən fərqi ondadır ki, onun irəliyə doğru hərəkəti və fəaliyyəti hansısa bir ədəbi nəslin yaradıcılığı ilə yox, ümumən, ictimai-siyasi və ədəbi-estetik hərəkatın mahiyyəti, xarakteri ilə səciyyələnirdi. Yəni 1905-1910 –cu illərin vətəndaşlıq poeziyasının taleyini M.Ə.Sabir və M.Hadi pleyadası müəyyənləşdirmişdisə, 30-50-ci illər sovet şeirinin vətəndaşlıq pafosunu S.Vurğun və R.Rza nəslinin əsərləri təyin edirdisə, 60-80-ci illər poeziyasında bu missiyanı B.Vahabzadə, M.Araz və X.R.Ulutürk nəsli yerinə yetirmişdisə, artıq 90-cı illərdən etibarən poeziyada belə bir ədəbi özünəməxsusluq, yəni hansısa nəslin öncüllüyü hiss olunmurdu. Poeziyada Vətənin varlığını və vətəndaşlıq funksiyasını bütün şairlər və ədəbi nəsillər ifadə etməyə çalışırdı. Xanəli Kərimli məhz bu yeni və möhtəşəm dövrün parlaq imzalarından biridir.

Xanəli Kərimlinin həmin dövrdə – 90-cı illərdə bir-birinin ardınca və ilhamla yazdığı ***"Azərbaycan", "Azərbaycan bayrağı", "Onu zaman doğmuşdu", "Harda Azərbaycan bayrağı qalxsa", "Naxçıvanım mənim", "Öz dilimsən", "Xalqım", "Şəhidlər Xiyabanında", "Bu qan yerdə qalan deyil", "Xiya-***

***bani demiş", "Özgə millət", "Gəzirəm Vətəndə itən vətəni", "En ruhların arasından", "Məramsız yaşamaq"*** və başqa onlarla şeirlər yuxarıda söylədiklərimizə parlaq sübutdur. Müstəqillik dövrü Azərbaycan poeziyasının tarixini və ilk təşəkkül dövrünü öyrənmək istəyən tədqiqatçılar həmin dövrdə yazıb yaratmış Bəxtiyar Vahabzadə, Qabil, Xəlil Rza Ulutürk, Məmməd Araz, Məmməd Aslan, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Rafiq Yusifoğlu və başqaları ilə bir sırada Xanəli Kərimlinin yaradıcılığına da mütləq müraciət edəcəklər. Azərbaycan şeirinin vətəndaşlıq duyğularının miqyasını və məzmununu araşdırmaq üçün vətənpərvər şairin səmimiyyət və iztirabla yoğrulmuş ürək səslərini, harayını dinləyəcəklər.

Müasir ədəbi tənqid və ədəbiyyatşünaslıqda Xanəli Kərimli yaradıcılığına kifayət qədər müraciət edilib. Onun həyatı və bədii axtarışları barəsində kitablar, onlarla məqalələr işıq üzü görüb. Burada bəzi imzaları xatırlatmaq kifayətdir. Akademik İsa Həbibbəyli şair haqqındakı sanballı məqaləsində yazır: *"Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biridir".* İstedadlı şairin son illərdə çap olunmuş diqqətəlayiq kitablarından biri ***"Payız duyğuları"***nda *(Bakı, 2013)* onun yaradıcılığının bu keyfiyyəti daha geniş və əzəmətli şəkildə görünməkdədir. Bu kitab ***"Azərbaycan"*** şeiri ilə açılır. 90-cı illərin əvvəllərində qələmə alınmış bu şeir Vətənimizin ağır və tragik vəziyyətini obyektiv əks etdirirdi:

*Yüz illərdir taleyinə gizli-gizli qol çəkilir,*
*Müəmmalı oyunların baş qurbanı, Azərbaycan!*

Mirzə Cəlil, Mirzə Ələkbər Sabir, Məhəmməd Hadi, Hüseyn Cavid, Əhməd Cavad kimi ulu sənətkarlarımızın vətəndaşlıq qeyrəti və yanğısı ilə yazılmış bu şeirdə Azərbaycanın yaşadığı və qarşılaşdığı misilsiz faciələr məharətlə ümumiləşdirilib. Müəllif doğma Vətənimizi bugünə salanlar sırasında yurddaşlarımızın da günahları olduğunu söyləməkdən çəkinmir.

*Daş-qaşları papağından ağır gələn "kişilərin",*
*Alverinə qurban gedən, qurbanı qan, Azərbaycan!*

*"Oğulların" yad ellərdə dollar yığır dar gün üçün,*
*Ağ saçlı bir ana kimi darda qalan, Azərbaycan!*

"Azərbaycan" mövzusunun XX yüzil poeziyamızda nə qədər mühüm və möhtəşəm mövqe qazandığı məlumdur. Onlardan yalnız bir neçəsi əbədiyyətə vəsiqə qazanmış və xalqımızın qəlbində əbədi yer tutmuşdur. Xüsusən, Almas İldırımın və Məhəmmədhüseyn Şəhriyarın *"Azərbaycan"*ları öz tragizminə və dəhşətli reallıqlarla yaxından səsləşdiyinə görə fərqlənir. Xanəli Kərimli öz *"Azərbaycan"*ını məhz bu yöndə və üslubda düşünmüş və Azərbaycan poeziyasının ***"Azərbaycannamə"*** ənənəsinə qiymətli bir töhvə vermişdir.

*Sənsiz bizim bundan belə yaşamağa haqqımız yox,*
*Haqlı ikən haqsızlaşan, haqqı talan, Azərbaycan!.*

Adətən Vətən mövzusundakı şeirlərdə bir çox müəlliflər müsibət və faciələrin təsvirində belə bir ümüd yeri, bir işıq yeri qoymağa çalışırlar. Söz sənətinin, bədii gerçəkliyin təcrübəsi göstərir ki, bəzən milli və ya insani sonun çatdığını müəllif dərindən dərk etsə belə, onu təsdiq və tərənnüm etməyə cəsarət etmir. Bu fövqəladə təcrübənin də bizim ötən yüzil ədəbiyyatımızda meydana çıxdığını görürük. Xanəli Kərimli də ustadları Almas İldırım və Məhəmmədhüseyn Şəhriyar kimi milli qiyamətdən qurtuluşun yeganə yolunun *"ölüm və olum"* seçimindən keçdiyini göstərir:

*Daha bıçaq sümükdədir, taleyinə özün qol çək,*
*Əyninə gey kəfənini, kəfəni qan, Azərbaycan!..*

İstedadla yazılmış Vətən şeirləri – həqiqi Vətən dərsliyidir. Müstəqillik dövründə poeziyamız və ümumilikdə isə, ədəbiyyatımız bu istiqamətdə xeyli uğurlar qazanmışdır. Amma bu

mövzuya və onun bədii həllinə ədəbi tənqiddə birmənalı yanaşmayanların da varlığını etiraf etməliyik. Bəzi müəlliflər ədəbi prosesdə bir sıra estetizm və poetizm təmayüllərini həddindən artıq ideallaşdıraraq vətəndaşlıq lirikasına yuxarıdan aşağı baxmağı özlərinə rəva görürlər. Daha doğrusu, Vətən və vətənpərvərlik mövzusundakı şeirləri ikinci dərəcəli ədəbiyyat nümunələri kimi dəyərləndirməyə və təcrübəsiz oxucuları da buna inandırmağa can atırlar. Belə bir nəzəri-estetik yanaşma ilə qətiyyən razılaşmaq olmaz. Müasir dövrdə, radio və televiziyanın müxtəlif bəhanələrlə bu müqəddəs vəzifəni yerinə yetirməkdən boyun qaçırdığı bir vaxtda ədəbiyyatımız, xüsusən, poeziya Vətənimizin tarixini və taleyini tərənnüm etməkdən yorulmursa, bu nəyə görə kimlərinsə xoşuna gəlməməlidir?!

Biz isə bu fikirdəyik ki, indi orta nəslə mənsub olan Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Çingiz Əlioğlu, Ramiz Rövşən, Eldar Baxış, Rafiq Yusifoğlu, Əlirza Xələfli, Əhməd Qəşəmoğlu, Vaqif Bəhmənli, Adil Cəmil, Rəşad Məcid, Əbülfət Mədətoğlu, Akif Azalp kimi bir çox müasir şairlərimizin, o cümlədən Xanəli Kərimlinin Vətən və Azərbaycan haqqındakı şeirləri geniş tədqiq, təbliğ və tədris olunmalıdır. ***"Payız duyğuları"*** kitabındakı Vətənimiz şərəfinə yazılmış, milli qürur və iftixar duyğularını oyadan, gözəl milli nəğmələr təsiri bağışlayan onlarla şeirlər bu qənaəti daha da möhkənləndirir.

***"Kaspi" qəzeti,***
***30 aprel - 2 may, 2016.***

**Fərqanə Kazımova,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# AĞRILI VƏ İNAMLI ŞAİR

***Haqqında söz açdığımız şair poeziya nəhənglərindən olmasa da, "bir allah qulu olub, zirvə olmağa can atan "Ağrı"lı, lakin "Bütövlük" üçün həyəcan "Təbil"i çalan "İnam"lı şair Xanəli Kərimlidir.***

***Xanəli Kərimli təpədən-dırnağacan milli, vətəninə, ulusuna bağlı bir vətəndaş şairdir. Təmkinli şairin poetikasında diqqəti çəkən xüsusiyyətlər kifayət qədər çoxdur. Lakin şairin yaradıcılığı, əsasən, Tanrıya tapınma, türkçülük, milli birlik, mübarizlik ideyaları üzərində köklənmişdir.***

O söz demək xatirinə söz söyləmir. Sözü *"Tanrının özü"* hesab edən şair sözə son dərəcə ehtiyatla yanaşır, onu Tanrının bəxş etdiyi nur hesab edir:

*Mən sözdən qorxuram – Tanrıdan qorxan kimi,*
*Çünki söz Tanrının, Tanrı sözün özüdür.*
*O, bir nurdur süzülüb ərş-əladan gəlir,*
*Ərşlə fərşin zatı, astarıdır, üzüdür.*

Şair iç dünyasından gələn haqq səsini yazıya köçürür və özünün dediyi kimi yazılmaması qeyri-mümkün olan mövzulardan yazır. Onun fikrincə, *"şairin şeirindən də onun iç dünyasını dərk etmək çətin deyil"*. Bu baxımdan şairin yaradıcılıq məhsulları onun şəxsiyyəti ilə vəhdət təşkil edir. Belə ki, bu insana laqeydlik, biganəlik yaddır. Məhz buna görə də sirli-sehirli nağıla bənzər dünyamızın ağrı-acılarından, milli bəlalarımızdan yazan Xanəli Kərimli həmişə uca Haqqına tapınıb *"bir allah qulu kimi gələn vəhyləri yazmaqla"* yanaşı, bütün varlığı ilə yaşadığı həyatda baş verən haqsızlıqların, ədalətsizliklərin qarşısını almağa çalışan, bu işdə aciz qaldıqda Tanrıya səslənən şairdir:

*"Nə qədər sürəcək bu kor qaranlıq?..."*
*Özün bir nəzər sal bizə bir anlıq*
*Sən axı, nəzərsən, nəzər ol, Allah!*
*Sən özün çarəsən, çarə qıl, Allah!*

Onun *"duaları"* da Tanrıya tapınmağın bariz nümunəsidir:

*Daşı tərəziyə düz qoyan Allah,*
*Sən dağıt yolumdan dumanı, çəni.*
*Hər bəndə qəlbində iz qoyan Allah,*
*Düşmən qabağında xar etmə məni.*

Şairin qüvvət aldığı ulu Tanrıdan sonra səcdə etdiyi ikinci qüvvə müstəqil dövlətimiz və onun rəmzi olan bayrağımızdır:

*Mənim başımın üstdə*
*İki səcdəgahım var*
*Biri uca Allahım!*
*Biri – yenməz bayrağım!*

Bayrağı *"yad ellərdə danışan saf dilimiz, vüqarımız – ləyaqətimiz"* hesab edən şair millətimizin yüksəlişinə, sivil millətlər içərisində öndə olmasına sevinir, qürur duyur.

*"Hər bir şairin yaradıcılığının məğzi ilk növbədə mühitlə mübarizədir"* – deyənlər yanılmırlar. Xanəli müəllim yaşadığı mühitlə mübarizə aparan şairdir. Mühitin eybəcərliklərini, bu millətin xislətinə yad ünsürləri durmadan qamçılayaraq vəziyyətdən çıxış yolu arayan şair yenə Tanrıya tapınır:

*Tökülür abır-həya, tapdanır qeyrət-namus,*
*İnsanda insanlıq yox, istəyirsən köpük qus*
*Hər yerindən duranlar hökmü-fərmandır, əfsus...*
*Bu nə bəladır belə, tutdu bizi, İlahi.*

Şairin ***"Bir xırda padşaha"***, ***"Kötüklər"***, ***"Allah özü qurtarsın"***, ***"Ləkə gətirmə"***, ***"Qalırmı"***, ***"Qayıtmalıyam"*** və onlarca digər şeirində mühitlə mübarizə motivləri güclüdür.

Ağrıları çox olan, el yükü daşıyan şairidir Xanəli Kərimli! Tariximizin qan yaddaşına yazılmış 20 Yanvar acısını, şəhid ağrı-acısını yaşayan insandır. Bu sızıntılar, bu acılar içərisində çırpınan şair əsl vətəndaşlıq mövqeyindən şəhid dili ilə xalqı laqeyidlikdə, biganəlikdə ittiham edərək milli birliyə çağırışla səslənir:

*...Bir millətdə ki, "sənin" ola, "mənim" ola,*
*...Bir millət ki,dost-düşmənin seçəmməyə,*
*Öz dərdini dərdi bilib çəkəmməyə,*
*Bir millət ki, yaxşı-pisi böləmməyə,*
*Vətən üçün, yurdu üçün öləmməyə,*
*Bir bədəndə bir can olub döyünməyə -*
*O millətin yolunda da ölmək günah,*
*O millətin içində də qalmaq günah,*
*O millətin dərdini də bölmək günah.*

Xanəli müəllim poetik düşüncələri ilə nakam şairimiz Almas İldırımın içində boğulan səsinin davamçısıdır. Əgər Almas İldırım *"Əsir Azərbaycan"*ın dərdlərini hayqırırdısa, Xanəli Kərimli sinəsində Qarabağ, 20 Yanvar yarası olan ***"Yaralı Azərbaycan"ın*** sızıltılarını dünyaya car etməyə can atır:

*Azərbaycan –dərd içində solan anam,*
*Yarı canı yad əllərdə qalan sonam!..*
*Azərbaycan - mənim canım, mənim balam!*
*Danışdıqca qövr eləyir içindəki yaraları,*
*Bir ataş tək səpələnir dörd bir yana paraları:*
*Azərbaycan - hər yerində şəhidistan...*

Xanəli Kərimli lirikası xalqın hikmət xəzinəsindən, yurdun əsrarəngiz təbiətindən qidalanıb boy atır. Xalq ədəbiyyatı ruhunda pərvəriş tapır. Doğma yurdun bulaqlarını, dağlarını, dərələrini, hər bir fəsildə dəyişən bənzərsiz, özünəməxsus gözəlliklərini ilhamla tərənnüm edir. Şairin şeirləri dil və formaca xalq ruhuna yaxın, axıcı və səlisdir. Onun şeirləri icti-

mai ideya, fikir baxımından bütün zamanlar üçün müasirdir. Çünki Mirzə Cəlil ruhlu şair milli bəlalarımızı, kədərimizi, cəmiyyətdə baş alıb gedən eybəcərlikləri, hələ də *"sağ olan dərdlərimizi"*, sinəmizə çəkilən çalın-çarpaz dağları poeziya müstəvisinə köçürmüşdür. Xanəli Kərimlinin lirikası doğma torpağına, tarixinə, təbiətinə bağlıdır. Yurdunun əsrarəngiz təbiətini, ən kiçik torpağının hər qarışını sevə-sevə, əzizləyərək vəsf etməklə yanaşı böyük türk dünyasının da gözəlliklərini eyni məhəbbətlə qələmə alan Xanəli Kərimli ümumtürk aspektindən çıxış edir.

Qoca türkün ərənlərindən biri kimi türkün birliyi, bütövlüyü uğrunda qələmi ilə çarpışan, bütün varlığı ilə türk ruhunu yaşadan ***"Nə mutluyuq türkəm deyə!"*** səsi gəldikcə hayqırmaqdan qürur duyan Xanəli Kərimli!

Şeirlərindəki dil gözəlliyi, təşbehlər, bənzətmələr şeirin, sənətin bugünkü tələbləri baxımından müasir, yeni və maraqlı poetik nümunələrdir. Onun şeirlərində mübarizlik pafosu güclüdür. O, oxucuda ata-baba yurdumuzu sevmək, onun müqəddəsliyini, milli mənliyimizi, varlığımızı göz bəbəyi kimi qorumaq və s. kimi vətənpərvərlik hissləri aşılayır:

*Mən bütövdüm, bölən böldü,*
*Köçən köçdü, ölən öldü.*
*...Bağrım yandı, bu nə dağdı... dağdı?...*

***

*Qaysaqlansa da yarası,*
*Yetməyib vətən qorası,*
*Döz, ürəyimin parası,*
*Dərdlərimiz sağdı... sağdı.*

Şair ***"Tanrı törəsi"***, ***"Yer üzünün haqq səsi"*** olan türk xalqları sırasında özünəməxsus mövqeyi ilə seçilən soyumuzla, yurdumuzla fəxr edir:

*Üç yüz otuz milyonluq bir sırada mən də varam,*
*Onunçün də bu günümdə dünənimdən bəxtiyaram.*

*Bu birliyin hərarəti sığışmayır yerə-göyə*
*Qürur ilə hayqıraraq:*
*"Nə mutluyuq türkəm deyə!"*
*"Nə mutluyuq türkəm deyə!"*

Xanəli Kərimlinin şeirlərində coşqun vətən, millət və dil sevgisi üstünlük təşkil edir. Xanəli müəllim Şahbuz dağlarının qoynunda böyüyən dağ vüqarlı, saf bulaqların suyunu içən təmiz ürəkli, saf niyyətli şairdir. O, kövrək və ifalı şairdir. Arabir keçmişinə boylanaraq xatirələrlə baş-başa qalır, onları çözür, kövrək məhəbbət hisslərini astaca tərpədir, yaşanmışları bu ahıl çağında bir daha yada salır:

*Sən dedin: "Sevən kəs yalvarsın gərək",*
*Mən dedim: "Yalvaran qəlb oğrusudur".*
*Sən dedin: "Sevən kəs qul olsun gərək",*
*Mən dedim: "Qul olmaq can qorxusudur".*

***

*Sən dedin, mən dedim... ötüşdük belə,*
*Nə sən deyən oldu, nə də mən deyən.*
*Görüşdük, ayrıldıq, küsüşdük belə,*
*Hərdən xatirədir qapımı döyən.*

Yaşanmış xatirələrini yerbəyer edən *"gecikmiş məhəbbət haqqında ballada"*da söyləyir, ahıl sevgisinin şirinliyini dilə gətirir:

*Hər ömrün öz sevgisi,*
*Hər sevginin öz çağı var*
*Bir yandan düyün vuranın*
*Bir yandan da açmağı var.*

Xanəli Kərimli lirikasında Şəhriyar şirinliyi, Məmməd Araz duzu vardır:

*Ey dağların könül açan havası,*
*Bulaqların zümzüməsi, havası,*
*Qartalların səngiməyən davası,*
*Sizi deyib bu dağlara dönərəm*
*Vallah, sizsiz yaşamaram, ölərəm!*

Və ya başqa bir şeirində:

*Mən nənəmin əlçimini pozanda*
*Anam məni qarğıyardı, döyərdi*
*"Sənin kimi nadinc dəcəl balanı*
*Düşmənimə tuş olmasın" – deyərdi.*

– misraları özündə ustad Şəhriyar şirinliyi daşıyır.

*"Ayağa dur, Azərbaycan!"* deyərək xalqa müraciət edən Məmməd Araz harayına səs verən Xanəli Kərimli bu harayın səbəblərini, məqsədini ürək yanğısı ilə izah etməyə çalışmışdır.

*Sən adlı bir vətənimizdə vətənsizik, hörmətsizik,*
*Vətənsizlər vətən edib indi səni, Azərbaycan!*
*Sənsiz bizim bundan belə yaşamağa haqqımız yox,*
*Haqlı ikən haqsızlaşan haqqı talan Azərbaycan!*
*Bəsdi daha özgələrdən çarə umdun dərdinə sən,*
*Dərdlərinin çarəsi də sən özünsən, Azərbaycan!*

Şair öz dərdimizi özümüzün çözməli olduğumuzu bir daha bəyan edir. Bunun üçün isə hər bir vətəndaş öz məsuliyyətini dərk etməli, əməli fəaliyyət göstərməlidir. Şairin bu misraları gənclik üçün həyəcan təbilidir.

Yaşadığı təzadlı dünyada insanların mənəvi-sosial ehtiyaclarını poeziya predmetinə çevirən və öz yozumları ilə bu problemləri çözməyə çalışan, hamının vəzifə və funksiyalarını bölüşdürdükdən sonra:

*Beş əli alımlı*
*bir əli verimli,*

*Üzü bazar,*
*İçi azar dünyada*
*Bəs sən kimsən*
*Ay Xanəli Kərimli?*

– deyərək özünə sual verən şair bir çox şeirlərində bu sualı özünəməxsus şəkildə cavablandırsa da, sonda yenə haqq dərgahının yolçusu olması qənaətində qalır:

*Mən Tanrının yolçusu,*
*Tanrıdır mənim ağam.*
*Onunçün də atəşi*
*Sönməyən bir ocağam.*

Ağrılı şair həm də dərin inam sahibidir. *"Hər qaranlıq gecənin, bir işıqlı gündüzü var"* misalına inanır. İnanır ki, bu təzadlarla dolu dünya da haçansa məcrasına düşəcək:

*İnanıram ki, hər şey yaxşı olacaq*
*Bütün xəbislikləri, qərəzli pislikləri,*
*Maskalanmış üzləri, batini əyri-üyrü,*
*Zahiri dümdüzləri qara torpaq udacaq*
*Şeytan da əl çəkib şeytanlığından*
*Əslinə qayıdacaq.*

***Şairin inam çırağının işığı ilə getdiyi bu yol yenə də Tanrı, haqq yoludur. "Mən haqq yolçusunun yol yoldaşıyam" deyən şair qardaş! Yolun açıq, qədəmlərin uğurlu olsun! Tanrı özü bu millətə dayaq dursun!***

***"Mədəni-maarif" jurnalı,***
***10/11, 2007, səh. 70-71***

**Arif Ağalarov,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# XANƏLİ KƏRİMLİ SEİRLƏRİNİN DİLİ VƏ ÜSLUB XÜSUSİYYƏTLƏRİ

Azərbaycan ədəbiyyatı tarixində tanınmış yazıçı və şairlərin mövqeyi, çəkisi onun dili ilə bağlıdır. Dil bədii əsərin və onun müəllifinin ədəbi prosesdəki yerini müəyyənləşdirən amillərdəndir.Ümumxalq dilinin zənginliyini dərk edərək onun incəliklərinə bələd olmaq və ondan istifadə etmək bacarığı bədii yaradıcılıq qarşısında duran vacib tələblərdəndir.

Qələm sahibləri dildən nəsr, poeziya faktı kimi istifadə etmir. Onlar dilin potensial imkanlarını üzə çıxarır,onun inkişafına zəmin yaradır, yeni-yeni leksemlərə can verir.

Hər bir xalqın ədəbi dilinin inkişafı və formalaşmasında qələm sahiblərinin rolu böyükdür. Bu mənada, Azərbaycan yazıçı və şairləri də leksikonlarından işlətdikləri söz və ifadələrlə dilimizə canlılıq gətirmişlər. Onun nəticəsidir ki, bədii dil ədəbi dilin ən böyük qolunu təşkil edir. Ədəbi dil, ilk növbədə, bədii dil əsasında inkişaf edir. Ümumxalq dilinin zənginliyi, şirinliyi və rəngarəngliyi isə bədii dildə öz əksini tapır. Bədii dil ədəbi dilin ümumi mənzərəsini verə bilir. Ümumiyyətlə, ayrı-ayrı dil faktlarının araşdırılmasında bədii dil materiallarına müraciət olunması da bununla bağlıdır.

Bədii dil xalq təfəkkürünün məhsulu olan və ümumxalq xalq dili əsasında formalaşan aforizimlərin, idiom və ibarələrin, atalar sözü və zərb- məsəllərin geniş istifadəsi üçün meydan açır.

Hər bir söz sərrafının sözə yanaşmaq, sözdən istifadə etmək yolu və bacarığı var. Bu onun üslubunu müəyyənləşdirir, sözə yeni məna, yeni çalar verərək, sözü poetikləşdirir. Bir sözlə, sözün çoxçalarlılığını şair və yazıçılıar daha yaxşı bilir.

*Sözə sözlə qiymət verib babalar,*
*Hər sözün min rəngi, min çaları var.*

Şair X.Kərimlinin bu misraları söylənilənləri təsdiq etmiş olur.

İncə lirizm,dərin fəlsəfi məna, vətənpərvərlik kimi cəhətləri özündə birləşdirən X.Kərimli poeziyası şairin ***"Ay işığında" (1988), "Anamdan məktub" (2001), "Bu da bir nağıldı" (2004)", "Mənə elə gəlir ki..." (2008)*** kitabları ilə oxucular arasında körpü salıb. *"Xanəli Kərimli yeni dövr Azərbaycan şerində vətəndaşlıq lirikasının əsas yaradıcılıarından biridir" (İ.Həbibbəyli).* Bu fikirlər X.Kərimlinin misraları ilə insan qəlbinə yol tapmasını, onda zərif hisslərin poetik səviyyəsinin yüksəltdiyini təsdiq edir.

X.Kərimli yaradıcılığında, ilk növbədə, diqqəti çəkən, şairin səmimiliyidir. Şairin səmimiliyini onun bütün oxucuları duyur. Buna səbəb isə şairin keçici xaraker daşıyan mövzulardan uzaq olmasıdır.

X.Kərimlinin şeirləri ilə şəxsiyyəti bir-birini tamamlayır. Şairin düşüncələri ilə hissləri və dedikləri üst-üstə düşür. Onun - X.Kərimlinin yaradıcılığında insan obrazı ilk planda dayanır. Bu da şairin həyata fəlsəfi baxışından irəli gəlir.

*O qədər ucaya yüksəlmə ki, sən*
*Yerə düşəndə də əzilməyəsən.*

***

*Ya xalq adamı ol, ya da ki, dövlət,*
*İki sifət olub etmə xəyanət.*

Şairin insana olan hörməti, ona verdiyi dəyər onun ikiliklərində daha geniş planda ifadə edilir.

Xanəli şeiri poetik səviyyəsi və imkanları baxımından bir çox qələmdaşlarından seçilir.

Şairin ilhamından qaynaqlanmış fəlsəfi düşüncələrin, sevincin və kədərin, məhəbbətin və nifrətin ümumiləşmiş ifadəsi kimi oxucuya təqdim olunan bu şeirlər oxunaqlı olur, oxucunu düşündürür, ona sevinclə yanaşı, narahatlıq hisslərini də yaşadır.

X.Kərimli özünəməxsus ifadə üsulu və dili olan bir şair kimi tanınır. Onun şeir dili sadə və aydındır. Şeirləri anlaşıqlı olduğu üçün asan başa düşülür və tez əzbərlənə bilir.

Xanəli şeirlərində şifahi poeziyamızın dilinə məxsus təbiilik və şirinlik özünü göstərir. Təsvir etdiyi hadisə və faktları ümumiləşdirib nəticələr çıxarmaq, çox mənalı, təzadlı qarşılaşdırmalar şairin şeir üslubunu səciyyələndirən xüsusiyyətlərdəndir.

*Nə qədər qalxsan da ərşi-əlaya,*
*O qədər düşəssən şərə, bəlaya.*

***

*Yediyi çörəyə dönük çıxan kəs,*
*Haqqa can atsa da haqqa yetişməz.*

***

*Bircə yol yaxanı tanıdı bəsdi,*
*Görəssən vaxt-vaxtsız qapını kəsdi.*
*Bir əli xeyirsə, bir əli nəsdi,*
*Neyləyəssən belə saxa dünyaya.*

Bütün bunlar və qeyd etmədiyimiz çoxlu orijinal dil xüsusiyyətləri göstərir ki, X.Kərimli mövzuya uyğun ifadə tərzi, mənaya uyğun forma tapa bilir.

Xanəli Kərimli şeiri insan qəlbinin təzadlı məqamlarının ustalıqla ifadəsi ilə də seçilir. Burada *sevgi-nifrət, sevinc-kədər, həyat-ölüm, gözəllik - çirkinlik, göz yaşı-təbəssüm, yarımaq-bədbəxtlik, mərdlik-qorxaqlıq, doğruluq-yalan* və s. kimi motivlər yeni çalarlıqda və şairə məxsus ifadə tərzi ilə tərənnüm olunur.

Bütün şairlərdə məhəbbət mövzusuna müraciət olunduğu kimi, Xanəli Kərimlidə də bu mövzuya müraciət öz əksini tapıb. Bəşərə və bəşəriyyətə məhəbbət, təbiətə, vətənə, saf əməllərə məhəbbət şair X.Kərimlinin yaradıcılığında boyasız verilib.

Təmtəraqadan, gurultulu sözlərdən uzaq olan, bəzən zahirən çox adiləşən X.Kərimli şeirinin poetik vüsəti də, məna yükü də oxucuda heyranlıq hissi yaradır. Şairin şeirlərini oxuyarkən oxucu elə düşünür ki, şair onunla danışır.

X.Kərimli sözə, şeriyyətə yüksək qiymət verən, yaradıcılıq işinə böyük məsuliyyətlə yanaşan şairlərdəndir.

*Şeir gərək haqdan gələ,*
*Zorla şeir yazmaq olmaz.*
*Haqdan gələn bir sözün də*
*Nizamını pozmaq olmaz.*

Şair hesab edir ki, yaradıcılıq yolunda ömür xərcləmədən şair olmaq mümkün deyil; Onun fikrincə, *"Günəbaxan ömrü yaşayandan şair olmaz".*

X.Kərimli ikiliklərində sözə münasibəti poetik düşüncəsinin çərçivəsində qiymət verməyə çalışıb.

*İnsanı qiymətə mindirən də söz,*
*İnsan qiymətdən endirən də söz.*

***

*Bəlkə də Günəşsiz yaşardı cahan,*
*Sözsüzsə bu cahan olardı viran.*

***

*Heç zaman cəhd edib çürütmə sözü,*
*Sözlə təcalladır Allahın özü.*

Şair X.Kərimli şerlərində oxucuya tam aydın olan dialekt sözlərə və xalq ifadələrinə çox rast gəlinir.

X.Kərimli şeirlərindəki ideya-fikir ardıcıllığı, obrazlılıq və səmimilik şairin poetik təfəkkürünün aynasına çevrilir.

Azərbaycanın bir çox qələm sahibləri xalq dilinə məxsus sözləri, o cümlədən dialekt sözləri bədii dilə gətirməklə nitqin ifadəlilik imkanlarını və sinonim cərgələri artırmışlar.

Dialekt sözlərin bədii dilə gətirilməsi məsələsinə diliçi və ədəbiyyatşünas alimlərin müxtəlif yanaşma tərzini nəzərə alaraq tanınmış alimlərimizin fikirlərinə istinad etmək və münasibət bildirmək zərurəti yaranır. Akademik M.Ş.Şirəliyevə görə *"bədii dil bu və ya digər şivə və dialekt sözlərinə ehtiyac hiss etmir.Onların burada istifadəsi sadəcə olaraq bədii dilin ifadəlilik imkanlarını zəiflədir, əsərin bədii-estetik təsirini azalda bilər"...*

Akademik M.Arif bu barədə yazır: *"Bədii ədəbiyyatın dili xalqın ümumi ədəbi dili olmalıdır.Hər söz aydın, konkret, dürüst məna daşımalıdır. Halbuki, məhəlli sözlər, dialektlər və jarqonlar çox vaxt bizə bu aydınlığı gətirmir".*

Prof. Ə.Dəmirçizadə yazır: *"Bədii əsərlərdə bu və ya digər surətin, yaxud surətlərin yerli-məhəlli şəraitlə bağlılığını bildirmək üçün tipik şivə sözlərinin işlədilməsi məqsədəuyğun sayılır və ümumiyyətlə, bədii əsərin dilini məzəli, duzlu edir".*

S.Səfərov bu məsələyə toxunaraq yazmışdı: *"Hər hansı bir rayonun və ya yaşayış məntəqəsinin həyatını daha real və qabarıq şəkildə vermək üçün yazıçı o yerin mənsub olduğu şivə xüsusiyyətlərindən istifadə edə bilər."*

Deyilənlərdən bu qənaətə gəlmək olar ki, bədii dilə gətirilən dialektizimlər kor-koranə yox, müəyyən prinsiplərə tabe olaraq gətirilməli, bu dialektizimlər anlaşıqlı olmalıdır.

X.Kərimli yaradıcılığında rast gəlinən dialektizimlər ümumişləkliyi ilə seçilir. Məsələn: ***səngimək, gödən, qalmaqal, qənşər, güdaz, dühcə, çəlbəri, eymə, qürrələnmə, boyat, pərən-pərən, təkəm-seyrək, yadırğamaq, əlçim, daşqır, təpər, haylamaq, sümsünmək, alamor, şulum və s.***

Şairin şeir və bayatılıarında işlənən dialekt sözlərin bəziləri ədəbi dildə olduğu kimi sinonim variantı ilə bərabər verilir. Bu isə sözün semantikasını oxucuya aydın, başa düşülən şəkildə çatdırılmasına kömək edir. Məsələn:

*Qəsdimə,*
*Qabaq-**<u>qənşər</u>** qəsdimə.*
*Canımdan can verdiyim,*
*İndi durub qəsdimə.*

***

*Tərsinə,*
*Nə **uvand,** nə tərsinə.*
*Üzü dönsün taleyin,*
*Hər şey oldu tərsinə.*

Xanəli Kərimli şeirlərində leksik etnoqrafik və frazeoloji dialektizimlərə daha çox rast gəlinir. Üslubi cəhətdən neytral semantika ifadə edən dialekt sözlərin şairin şeirlərində işlədiləməsi dialektizimlərin ifadəli nitq vasitəsinə çevrilməsi və şeir dilində estetik funksiya daşımasına zəmin yaradır. Məsələn:

*Elə bil, başqa iş **qəhətmiş** sənə*
*Mənlə **icəşməklə q**atdın başını,*

***

*Gah köhnə göründün, gah **nimdaş,** təzə,*

***

*Bir qaya **cabında** gecələməsək.*

***

*Görək gözü dolan **sısqa** bulaqlar,*
*Dil tapa bilirmi qarla, boranla.*

***

*Görək ayıları qış yuxusundan,*
*Vaxtsız oyatmayıb qar **püsəkləri.***

Yuxarıdakı müxtəlif şeirlərdən götürülmüş misralarda işlənən ***qəhət (tapılmayan), icəşmək (mübahisə etmək), nimdaş (köhnə), cab (çıxmaq çətin olan sıldırım), sızqa (suyu çox az olan bulaq), püsək (qar tozanqası)*** kimi leksik dialekt sözlərin hər birinin ədəbi dildə qarşılığı, sinonimi var. Bu dialektizimlərin hər birinin mənası oxucu üçün adından

başa düşülür. X.Kərimlinin dilində işlənən dialektizimlər ümumişlək olduğundan şeir dilinə də qəlizlik gətirmir.

X.Kərimlinin dilində xalq dili üçün səciyyəvi olan ifadəli frazeoloji dialettizimlərə də təsadüf olunur:

*Sac üstə,*
*Qovurğayam sac üstə.*
*Yandım **cızdağım çıxdı**,*
*Heç baxmadın sac üstə*

Bu cür ifadələrin şeirdə işlədilməsi müəllifin xalq dilinə verdiyi yüksək dəyərin təcəssümü olmaqla bərabər, bədii üsluba yeni-yeni ifadəlilik çaları da qazandırır.

Şairin dogulub, yaşadığı bölgədə əhalinin həyat və məişət məşğuyliyyəti, adətləri ilə bağlı məlumatları ifadə edən etnoqrafik dialektizimlərə müraciət etməsi onun xalq dilindən bəhrələndiyini, xalqına bağlılığını təsdiq edir. Məsələn:

*Dənim vaxtsız **başaq** oldu dənbədən, torpaqda itməsin bircə **bəlim** də,çoban **çəlvərisi**, quzu küzləri* və.s

Göstərilən dialektizmlər məhdud dialektizmlər sırasına daxil olsa da *(müəyyən bir dialektə aid olan)* misra daxilində onların semantikası qaranlıq qalmır.

Bədii üslubda emosionallıq və ekspresivlik dilə canlılıq gətirir. Bu keyfiyyətləri özündə etiva edən sözlər dilimizin ən təsirli və kəsərli nitq vahidləridir. Ümumxalq dilindən fərqli olaraq emosionallıq bədii üslubda daha geniş ifadə imkanlarına malik olur.İstənilən söz xüsusi üslubi çalarlıqlar nəticəsində emosionallıq və ekspressivlik kəsb edir. X.Kərimli şeirlərində sözlərin emosionallıq və ekspressivliyi də yüksək səviyyədə özünü göstərir. Şairin dilindəki emosional sözləri həm müsbət, həm də mənfi məna kəsb etmək baxımından iki yerə bölmək olar.

Şairin dilində müsbət mənalı emosional söz və ifadələrə əsasən müraciət, and xarakterli misralarda və ya onun fəlsəfi fikirlərində rast gəlinir. Məsələn:

*Şeytan xislətiylə yaşayanlardan,*
*Nə qədər bəlalar çəkmişik, vallah.*

*Ən çətin anında Allaha tapın,*
*Onda bağlı qalmaz heç zaman qapın.*

*Allahdan itibsə bəxtin açarı,*
*Qınama nə dostu, nə də ki, yarı.*

Şairin dilində Tanrı ilə bağlı rast gəlinən misralar onun kamillik səviyyəsini də göstərir. Təbiətlə cəmiyyətin vəhdətini, Yaradanın kimliyini, yaradılışın fəlsəfəsini dərk edərək onun poetik dillə ifadəsi X.Kərimlinin kimliyini də ortaya qoyur. O, ikiliklərinin birində ilahi varlığın qüdrətini aşağıdakı kimi verir.

*Hər şeyi yoluna qoyandı Allah,*
*Hər şeyin sirrindən bir odur agah.*

Mənfi mənalı emosional-ekspessiv sözlər isə şairin nifrət və tənqidinə, həmçinin mənfi xarakterizəedici bənzətmələrində rast gəlinir. Məsələn:

*Qəlbini dilində gizləyən insan,*
*İnsan cildində şeytandır, şeytan*

*Mayası haramla yoğrulan kişi,*
***Əxlaqsız qadın tək** sürər gərdişi*

***Abırdan, həyadan uzaq olanlar**,*
*Ən çirkin işdən də eyləməzlər ar.*

*Bütün ömrü boyu **züytutan** kəslər,*
*Qurşaqdan yuxarı yüksələnməzlər.*

*"**Tərbiyəsiz, əxlaqsız adam şadara kimidir, nə "töksən, "axıb gedər,*** – deyir X.Kərimli.

Bədii əsərlərin dilində kobud sözlərin işlədilməsi üslubi çalarlıq kəsb etsə də, onlardan ehtiyatla və məsuliyyətlə istifadə etmək daha yaxşı olar. Ola bilsin ki, şair daxili təlatümünü ram etmək üçün daha kəsərli deməyə çalışır, amma onun yazdığını təkcə özü yox, yüzlərlə oxucu oxuyur. Bunu da qeyd etmək lazımdır ki, ədəbiyyat tərbiyə edir,insanı mənəvi cəhətdən zənginləşdirir. Bəzən müasir ədəbiyyatımızda rast gəlinən kobud, söyüş, nifrət xarakterli sözlərin daha qabarıq şəkildə verilməsi ədəbiyyatın qayəsi ilə təzad təşkil edir. Fikrimizcə, X.Kərimlinin ***"Mənə elə gəlir ki"*** adlı düşüncələrindən nümunə gətirdiyimiz yuxarıdakı fikir ədəbiyyata və bədii ədəbiyyat düşüncəsinə xas olmayan etik çərçivədən kənardadır. Vulqar leksikanın tərkibinə daxil olan bu sözlərin və ifadələrin ədəbi dildə işlənməsinə yol verilmədiyinə görə, bədii dildə də bunlardan yalnız zərurət və tələbat əsasında istifadə edilməli, yaxud da kobud sözləri evfemizlərlə əvəz etmək lazımdır.

Şair X.Kərimli şeirlərində diqqəti çəkən məqamlardan biri də şairin fərdi üslubuna uyğun olaraq bəzi sözlərin yeni formada ifadəsinin poetikləşdirilməsidir. Bu cür poetikləşmə sözün yeni formada yazılışını nəzərdə tutsa da sözün mənası dəyişmir. Məsələn:

*Yar yanağı üstünə*
*Göz* ***nəmsiyib****, seh düşüb.*

***

*Çəçikdi,*
*Sinə üstə çəçikdi.*
*Şeytan nə gül axıtdı,*
*Könlün məndən* ***çəkikdi****?...*
*Sel gələr,*
*Daşar çaylar sel gələr.*
*Mərd igid harayına*
***Axışıban*** *el gələr.*

***

*Bulaqlarım* ***axarını*** *dəyişib,*
*Gədiklərim* ***baxarını*** *dəyişib .*
*Şimşəklərim* ***çaxarını*** *dəyişib .*

Bu nümunələrdə işlənmiş ***nəmsiyib*** *(nəmlənib),* ***çəkikdi*** *(çəkinəndi),* ***axışıban*** *(axışaraq)* və.s sözləri ədəbi dildə işləndiyi kimi də şeirdə işlənmiş olsaydı, yenə də məna öz dolğunluğunu saxlamış olardı. Amma sözlərin bu şəkildə işlədilməsi şairin fərdi üslubundan və şeir dilinin yüksək poetikasından irəli gəlir. Şeir dilində işlənən belə sözlər xüsusi ifadəlilik və gözəllik yaradaraq üslubi vasaitəyə çevrilir.

X.Kərimli şeirlərinin dilinin sadəliyinə təsir edən vasitələrdən biri də ümümxalq dilində işlənən aforizmlərin məqamı gəldikcə şeirlərdə işlədilməsidir. Məsələn: ***Zaman dəyirman daşıdı,mən dəvəsi ölmüş ərəb, fil qulağında yatmaq, acından ağzına qurd düşənlər, mərdi qova-qova namərd eləmək*** və s.

X.Kərimli şeirlərində tərənnüm etdiyi hiss və duyğularını epitetlər vasitəsilə verməyə çalışıb. Onun şeirlərində işlənmiş epitetləri iki yerə bölmək olar:

1) müqəyyəd epitetlər ; 2) fərdi-situativ epitetlər.

Şairin dilində işlənən müqəyyəq epitetlərə xalq yaradıcılığında, yazılı ədəbiyyat nümunələrində digər şairlərin dilində də rast gəlinir. Müqəyyəd epitetlərlə yanaşı X.Kərimlinin dilində işlənən fərdi-situativ epitetlər orjinallığı və ifadəliliyi ilə seçilir. Maraqlı cəhət odur ki, şairin işlətdiyi fərdi situativ epitetlərin hər hansı birinə digər şeirlərində rast gəlinmir.

Fərdi-situativ epitetlər şairin yaradıcılıq fantaziyasını, istedadını üslubi cəhətdən fərqləndirən faktor kimi çıxış edir. Məsələn: ***Əzəldən açarı itən bu kilid,üzü dönmüş dil, nahaq dünya, quru salam, beş günlük dünya****,* ***üzdən iraq zibillər, üfunət yayan tiplər, əyri adamlar, sozalan günəş, yapalaq təpələr, nimdaş sovxa, yasti-yapalaq ömür*** və s. Şairin dilində işlənmiş bu epitetlər üslubi tələbata, fikirin tələbinə uyğun işlədilmişdir.

Şairin şeirlərində fərdi xarakterə malik oksimoronlar da az deyil. Məsələn:

*Əl çalmışıq*
***Vətən üçün ölənə də***
*Əl çalmışıq*
***Vətənimi bölənə də.***
*Əl çalmışıq*
***Diri ikən ölümüzə***
***Ölü ikən dirimizə***
***"Xeyrimiz****"də millət deyir,*
***"Şərimiz"****də millət deyir.*
***Qaçanım*** *da millət deyir,*
**Qovanım** da millət deyir.

Bu cür nümunələr şairin bədii üslubunda bədii təsvir vasitələrinin zənginliyini sübut etmiş olur.

Ümumiyyətlə,şair X.Kərimli şeirlərinin sadə dili,xalq dilindən mayalanmış aforizmlərin şeir leksikonunda üstünlük təşkil etməsi, bədii təsvir vasitələrin müracətlərin çoxluğu zəngin bədii dilin təzahürüdür.

***Arif Ağalarov: "Poeziyaya baxış bucağı",***
***Naxçıvan, 2015, s.73-78.***

**Aypara Behbudova,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# MƏN SÖZDƏN QORXURAM - TANRIDAN QORXAN KİMİ

Azərbaycan tarixən böyük və bənzərsiz şairlər vətənidir. Əgər adlarını çəkəsi və sayası olsaq, Azərbaycan xalqını təmsil edən klassik şairlərin sayı bəlkə də dünya klassiklərinin sayından çox olar. Təkcə XX əsrdə totalitar rejimin bütün qadağalarına baxmayaraq, öz sözünü deyə bilən, ölməz poeziya nümunələri yaradan neçə-neçə şairlərimiz olub. Həmçinin, Azərbaycanın qədim mədəniyyət mərkəzi olan Naxçıvanda da böyük sənətkarlar doğulub. Təkcə ötən yüzilliyə nəzər salsaq görərik ki, qədim Naxçıvan diyarı dünyaya neçə böyük mütəfəkkirlər, dahi şəxsiyyətlər bəxş edib. Eləcə də, çağdaş dövr Azərbaycan ədəbiyyatına Hüseyn İbrahimov, Adil Babayev, Məmməd Araz, Hüseyn Razi, Əliyar Yusifli, Vaqif Məmmədov, Elman Həbib, Zeynal Vəfa, Kəmalə Ağayeva, Asim Yadigar, İbrahim Yusifoğlu kimi söz adamları bəxş etmişdir.

60 yaşın astanasında olan Xanəli Kərimli onların arasında öz məxsusi yeri olan şairlərdəndir. O, bir şair kimi klassik Azərbaycan və dünya poeziyasından bəhrələnmiş, həm də çağdaş ədəbi prosesin tələblərini, istəklərini duyaraq öz sözünü deyə bilmişdir. Fəlsəfə doktoru Sabir Bəşirovun təbirincə desək, *"X.Kərimli haqdan gələn istedadı ilə könüllərdə yuva qurmuş söz adamı, şairidir"*. Xanəli Kərimli ədəbiyyatımızda həm də sevilə-sevilə oxunan, yolu gözlənilən şairdir. Bəs onu oxucularına sevdirən nədir? Məncə, poetik təfəkkür aləmində özünəməxsusluğu, orijinallığı ilə seçilməsi. Poetik sözün müqəddəsliyini, paklıq və duruluğunu qoruyub saxlamaq qabiliyyəti. Yaşadığı aləmdə duyub-düşündüklərini, müşahidə etdiklərini, poeziya dili ilə oxucularına çatdırmaq ustalığı. X.Kərimli yaradıcılığının bütün mərhələsində sənəti, əqidəsi, poetik amalı ilə vətənə həqiqi övlad olmaq idealı ilə yaşamış,

yazıb-yaratmışdır. Bir çox araşdırıcılar və qələm adamları ilə yanaşı görkəmli filosof, professor Camal Mustafayev X.Kərimlinin poeziyasındakı mənəvi cövhəri aydın görə bilib. Onun fikrincə, *"Xanəlinin şair vətəndaşlığı, mənəvi bütövlüyü onun bütün yaradıcılığı boyu oxucunun diqqətindən yayınmır".* X.Kərimli bununla fəxr etməyə haqlıdır ki, onun bircə misrası belə vətən torpağına məhəbbət, doğma xalqa sevgi, bəşəri ideala məftunluqdan kənarda yaranmamışdır:

*Ey şəhidlər qanı ilə*
*Yoğrulan torpağım mənim!*
*Fırtınalar qucağında*
*Sönməyən çırağım mənim!*
*Sən cahana sığışmayan*
*Özün boyda bir qüdrətsən.*
*Sən peyğəmbərlər vətəni,*
*Bir müqəddəs məmləkətsən.*

Xanəli Kərimlinin poetik qavramında həyata, insalara fəlsəfi baxış sanki onun şairliyi ilə ekiz doğulub. Lakin bir məqamı diqqətə çatdırmaq istərdim ki, bir var, hadisə və obyektlərin fəlsəfi mahiyyətini duyub, dərk etmək, onu poeziyanın tərənnüm obyektinə çevirmək, bir də var - fəlsəfəbazlıq. Tam əminliklə deyərdim ki, Xanəli Kərimli birinci yolun sədaqətli yolçusu, qələm sahibidir. O, yaradıcılığının əsas qayəsini, tərənnüm obyektinin fəlsəfi axtarışını üzə çıxarmaqda və onu fəlsəfi qəlibdə təqdim etməkdə görür. Şairin əksər şeirləri oxucunu düşündürür, onu sözə qiymət verməyə, sözün qədrini bilməyə, sözün müqəddəsliyini qorumağa çağırır. Elə olmasaydı, ***"Mən sözdən qorxuram - Tanrıdan qorxan kimi"*** yazmazdı. Xanəli Kərimli bir sənətkar kimi əsərlərini yığcam, qısa yazmağa, mövzu ilə az səsləşən təfsilata əsərində yer verməməyə həmişə qayğı ilə yanaşmışdır. Söz düşəndə də o, belə bir ifadə işlədir: o fikir ki, bir misrada, bir bənddə bədii həllini tapa bilir, iknici misraya, ikinci bəndə ehtiyac yoxdur. Xoşbəxtlik orasındadır ki, bu

qəbil baxışlara şair özü ilkin əməl edənlər sırasındadır. Onun ***"Anamdan məktub", "Bu da bir nağıldır", "Ay işığında"*** kitablarında da bu mülahizəni təsdiq edən nümunələrə bol-bol rast gəlmək olur:

*Yediyi çörəyə dönük çıxan kəs*
*Haqqa can atsa da, haqqa yetişməz.*

***

*Layiq olmayana ehtiram etmək*
*Şeytana ibadət kimidir gerçək.*

***

*O qədər ucaya yüksəlmə ki, sən*
*Yerə düşəndə də əzilməyəsən.*

***

*Zatında ucalıq olmayanları*
*Nə qədər ucaltsan olmaz vüqarı.*

Xanəli Kərimli siyasi-ideoloji maraq axtarmadan həqiqəti səmimi şəkildə açıqlayır. O, sözlərinin kimlərinsə qəlbinə toxunacağından çəkinmir. Bu zaman o, yalnız vicdanının, sənətinin qulu olur. Şair sənətin, şeirin qulu olmasa, ürəklərə hakim kəsilə bilməz, çünki şair yazmamışdan əvvəl yaşayır, duyğularını balası kimi qəlbində bəsləyir. Məlum məsələdir ki, ürəkdən gəlməyən söz ürəklərə yol tapa bilməz. Xanəli Kərimli poeziyasının özünəməxsusluğunun mayası da budur. O, həqiqət qarşısında hər bir kəsin, ilk növbədə isə özünü imtahana çəkir. Fərqinə varmır ki, kimisə özündən incik salar, ya da kiminsə qəzəbinə tuş gələ bilər. Bütün bunların hamısı onun səmimiyyətidir, onun poeziyasının spesifik cəhətidir:

*Əsrimiz də başa çatır.*
*Biz hələ də*
*gərəyincə seçəmmədik*
*xeyrimizlə, şərimizi.*

*Seçəmmədik min illərdir*
*Kimlər kəsir başımızı,*
*Kimlər soyur dərimizi.*
*...Bu millətdir dözür, vallah*
*Hər ağrıya, hər acıya*
*Bu millətdir dözür, vallah,*
*Hər nağıla, tapmacaya*
*Özgə millət-özgə olar-*
*Ya məhv edər, ya məhv olar!*

Əsl şair heç zaman özünü düşünmür. Əsl şair əksər vaxt öz qayğılarını, dərdlərini unudur. Cəmiyyətlə, həyatla, mühitlə nəfəs alır. Bu mənada, Xanəli Kərimlinin şeirləri göstərir ki, o, cəmiyyətdən, həyatdan, mühitdən təcrid olunmağı sevmir. Ona görə də onun poetik *"mən"*i o qədər tələbkardır ki, onun heç ölçüsünü də müəyyənləşdirmək mümkün deyildir. Onun poetik *"mən"*i nəinki insanları, həm də dünyanı imtahana çəkir, az qala dünyaya meydan oxuyur, onu qınaq yerinə çevirir:

*Bu dünyanın sevgisi də yalandır.*
*Qəlbi vaxtsız çalan şahmar ilandır.*
*Gəl bu dünya ilə dil tap, dolan di,*
*Astarı nədir ki, üzü nə olar?*

Xanəli Kərimli dünyaya o qədər tələbkardır ki, hətta bu onu dünyadan üz çevirməyə gətirib çıxarır:

*Təpədən dırnağa ağrıdır içim*
*Qəmim bir ümmandır, dəmim bir içim.*
*Peşmanam dünyaya gəldiyim üçün,*
*Əsili nədir ki, özü nə ola?*

Hər şeirin yaranışında şairin mənəvi durumu, onun psixoloji aləmi böyük rol oynayır. Akademik İsa Həbibbəylinin sözləri ilə desək, *"Xanəli Kərimlinin şeir yaradıcılığında həssaslıq və vətəndaşlıq mövqeyi ön sırada dayanır"*. İçini kədər, tənhalıq

bürümüş insan heç zaman xoşbəxtliyə qafiyə axtarmır, hətta şair insanı insan edən, insanları bir-birinə yaxınlaşdıran kədər olduğu fikrini də təsdiqləyərək yazır:

*Kainatın sirri də*
*Onun özünə kədər.*
*İnsan kədər içində*
*Öz-özünü kəşf edər*

Şairlərin taleyinə bəxt kəmliyi, taleyüklü əzablar, vətən həsrəti, dərd üstdən dərdlər başqalarından daha çox yazılır. Bəlkə də bu, ona görədir ki, bu insanların Allaha yaxın qəlbi, yüksək hissiyyatı, güclü duyğuları var. Başqa sözlə, həyatın amansızlığına, sərtliyinə qalib gəlmək və onun məhvinə qədər döyüşkən ruhla yaşamaq, bu insanların alın yazısıdır desəm, yanılmaram. X.Kərimli Şahbuzun mavi göylərinə oxuduğu şeirlərin odunda-alovunda qovrula-qovrula sənət dünyasına gəlib. Yana-yana yazıb, yaza-yaza yanıb. Belə olmasaydı:

*İçim dərdlər qəbiristanı*
*Çölüm ruhlar aləmidir.*
*İçim, çölüm bir atəşgah*
*Sanki qiyamət dəmidir.*

*Çölümdən baş açammıram*
*İçimdən də qaçammıram*
*Nə sirdir ki, ey yaradan,*
*Bu atəşgahda yanıram?*

– deməzdi.

Biz Xanəli Kərimlini həm bir şair, həm də bir alim kimi tanıyırırq. Əlbəttə, şairlik vergidir, alimlik isə onun həyatda zəhmətlə əldə etdiyidir. Mən onun şairliyi ilə alimliyini müqayisə etmək istəmirəm. Ona görə ki, o, şair və alim kimi bütövdür. Ancaq bununla belə, Xanəli Kərimli deyəndə, mənim gözlərim önündə bir şair obrazı canlanır. Məncə, o, nə qədər elmi yaradıcılıqla məşğul olsa da, 100-dən artıq

elmi məqalələr yazsa da, namizədlik işini çox uğurla müdafiə edib, doktorluq işi üzərində işləsə də daha çox şairdir. Nə yazırsa-yazsın, şairlik sehrindən azad ola bilmir, hissiyatına, duyğusuna və təbinə üstünlük verir. Odur ki, X.Kərimlinin tərəzisinin şeir gözü daha ağır gəlir. O, doğrudan da, şair kimi daha odlu, alovlu, üsyankar və mübarizdir, zamanın sərhəddinə sığmayandır, dünyanın dərdlərinə dözməyəndir, hər şeyə *"mənə nə"* deyənlərlə barışmazdır:

*Çin tasdan qorxan kimi*
*Üşənirik tənqiddən,*
*Qorxuruq ki, desək ki,*
*Bu əsər, əsər deyil*
*Sən yazdığın fikri*
*Deyibdir filan şair.*
*Və ilaxır və sair...*
*Kimlərsə küsər bizdən*
*Sən də denən - mənə nə?!*
*Mən də deyim - mənə nə?!*
*O, da desin - mənə nə?!*
*Bəs görəsən - Kimə nə?!*

Dünyanın əl içi boyda bir yerində, ulu Məmməd Araz torpağında dünyaya göz açan Xanəli Kərimlinin şeir-sənət dünyası kökü min illərin o üzündə dayanan qan yaddaşına söykənir. Onun şeirlərini oxuyanda adama elə gəlir ki, o şeirlər bir sənətkarın, şairin qələmindən yox, yazı-pozu bilməyən, fəqət fitrətən şeir deməyi, sözə ehya verməyi bacaran, ilahi verginin pıçıltılarını poeziyaya, söz düzümünə çevirən ululardan ulu bir kişinin sinəsindən süzülüb gəlir. X.Kərimlinin mayası sözlə yoğrulub, sözlə tutulub, nağıl, bayatı ilə cilalanıb. Onun poeziyasının hər sətrindən nənələrimizin bişirdiyi çörəyin ətri, ulu babalarımızın canları bahasına qoruduğu torpağın qoxusu hopub. X.Kərimli iliyindən tutmuş sümüyünədək kənd ruhunda köklənib, torpağa bağlı bir şair kimi torpaq ətirli, torpaq bərəkətli şeirlər yazıb:

*Mənə məlhəm olan, mənə can olan*
*Mənə ilik olan, mənə qan olan,*
*Səhlab çiçəyinin, kəklikotunun,*
*Baldırğan, ələyiz, bulaqotunun,*
*Cacığın, zirincin, çaşır, bolunun,*
*Quzuqulağının, yarpız kolunun*
*Gözün yolda qoyub, qəlbin qırmışam*
*Axı bu şəhərdə nə qazanmışam?...*

Bu misralarda çoxumuzun unutduğu, həmişə kövrək, xoş duyğularla xatırladığımız kəndin, torpağın qoxusu bizi vurur. Bu misralar bizi bir anlıq da olsa, doğma yurda, keçmişimizə qaytarır. Onun yaradıcılığında təbiət şeirləri öz ecazkarlığı ilə seçilir. Şairi məftun edən təbiət görüntüləri öz təravətində şeirə gətirilə bilir. Vətənin könül oxşayan təbiəti, doğulub boya başa çatdığı Mahmudoba kəndinin gözəllikləri hər an X.Kərimlinin gözünün qabağındadır. O, təbiətin özünə layiq söz donu biçir. Hissin təsirilə özü necə dəyişirsə, oxucusunu da elə cığır-cığır, qaya-qaya, kol-kol gəzdirir və etiraf edək ki, insan elə gözəl yerlərdən ayrıldığına təəssüf edir. Sanki yenidən qanadlanıb o təbiətin ağuşuna qayıtmaq istəyir. Bəlkə, yalnız o müqəddəslikdə qırılan, yanan, məhv olan arzularına qovuşa biləcəyinə inanır. Ümumiyyətlə, təbiət daim şairin hisslərinin tərcümanı olur, içindəki yanğı ilə dağa-daşa can verməyə çalışır. Yaradıcılığının əvvəlində olduğu kimi, 60 yaşında da onun poeziyasında təbiət yenə də əvvəlki kimi canlı və qüvvətlidir. Hətta fikirlərinin arxaik formada ifadəsi də onun gözəlliyinə və orijinallığına xələl gətirmir:

*Hər addımbaşında çıxır qarşıma*
*Çoban çəlbərisi, quzu küzləri.*
*Təzəcə qar getmiş torpaq üstündə*
*Görünür apaçıq kəklik izləri.*

Yaddan çıxmış, bir növ unudulmaqda olan ifadələr X.Kərimlinin təbiət şeirlərində daha çox yada salınır. O, sərraf

dəqiqliyi ilə seçdiyi həyat hadisələrindəki sərraflıq missiyasını təbiətə münasibətində də qoruyub-saxlayıb. Sözlərin zərgər biçimi, misraların poetik yükü heyrət doğuracaq qədər dəqiq olduğu üçün insana sonsuz zövq bəxş edir.

X.Kərimli yaradıcılığında çox azlıq təşkil edən sevgi şeirlərinin əksəriyyətində ifadə olunmuş hisslər dərindən yaşanmış, ömrün sevdalı çağlarının fikir və mühakimələrindən hasil olmuşdur, ancaq qəlbin və ağlın vəhdət prizmasından keçib büllurlaşan hiss və düşüncələridir. Elə olmasaydı, sevdiyi qadına sevgimdən duyuq düşüb isti od-ocağı soyuyar deyə, gündə yüz yol qarşılaşsa da gözucu və gözüdolusu baxmaqdan ehtiyat etməzdi:

*Yüz kərə gəlsək də gündə üz-üzə*
*Sənə gözucu da baxmadım belə.*
*Qorxdum ki, sevgimdən duyuq düşəsən,*
*İsti od-ocağın soyuya bilə.*

*Gözüm dolusu da görməyim deyə,*
*Özüm bilə-bilə qaçmışam səndən.*
*Çiçəklər uzaqdan gözəl görünür,*
*Səni çiçək kimi sevmişəm gendən.*

Fikrimizcə, ədəbiyyatda əsas meyar və göstərici istedaddır. Şair X. Kərimlinin şeirləri bir daha sübut edir ki, istedadı olan, yaradıcı insanın şeirləri bütün zaman kəsimlərində yalnız bahar təravətli olur. Ömrünün müdriklik və kamillik dövrünü yaşayan Xanəli Kərimlini çoxsaylı oxucuları adından 60 illiyi münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı, yeni-yeni əsərləri ilə oxucularını sevindirməyi arzulayırıq.

***Xanəli Kərimli 1951-ci il noyabr ayının 27-də Şahbuz rayonunun Mahmudoba kəndində anadan olub. O, Naxçıvan Dövlət Universitetinin dosenti və həmin universitetdə Əcnəbi tələbələrlə iş üzrə dekan, Naxçıvan MR-in Əməkdar müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, 100-dən artıq elmi və publisist məqalələrin, "Ay işığında" (1998), "Anam-***

*dan məktub" (2001), "Bu da bir nağıldı..." (2004), "Mənə elə gəlir ki..." (2008), "Mənim könlüm bir ümmandır..." (2011) şeir kitablarının, "Ali və orta məktəblərdə Cənubi Azərbaycan ədəbiyyatının tədrisi metodikası" (2000) metodik vəsaitin müəllifidir. Haqqında "Şairə məktub" (2007), "Bir ömrün nağılı" (2011), "Sözün Əlincə yaddaşı" (2011), "Duyğularım, düşüncələrim" (2011) kitabları nəşr edilib. O, Türkiyə, İran, Gürcüstan, Hollandiya, Pakistanda keçirilən bir sıra Beynəlxalq tədbir, konfrans və simpoziumların iştirakçısıdır.*

*"Hüryurt"qəzeti,*
*22 Şubat(fevral). 2012-ci il.*

**Aypara Behbudova,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

# ŞAİRİN "PAYIZ DUYĞULARI"

Müasir Azərbaycan ədəbiyyatı nəsillərin və poetik üslubların əlvanlığı ilə seçilir. Son zamanlar folklora, aşıq poeziyasına, poetikada folklor üslublarına maraq güclənsə də, fəlsəfi-intellektual poeziya nümunələri də öz nüfuzunu qoruyub saxlamaqdadır. XX əsrdə bu təmayülün böyük R. Rzadan başlanan B. Vahabzadə, Ə.Kərim, F. Qoca, M. Araz və başqalarının yaradıcılığından keçib gələn ənənə və forma-üslub təmayülünü istedadla davam etdirən nümayəndələrdən biri də Naxçıvan ədəbi mühitinin yetirməsi olan Xanəli Kərimlidir.

Onun müxtəlif illərdə ***"Ay işığında" (1998), "Anamdan məktub" (2001), "Bu da bir nağıldı..." (2004), "Mənə elə gəlir ki..." (2008), "Duyğularım, düşüncələrim", "Mənim könlüm bir ümmandır"(2011)*** və s. kitabları işıq üzü görüb. Mən onun "Qanun" nəşriyyatında yenicə çap olunmuş "Payız duyğuları" kitabı haqqında dəyərli oxucularla öz fikirlərimi bölüşmək istəyirəm. 540 səhifəlik kitab altı bölmədən ibarətdir və hər bölmənin əvvəlində Xanəli Kərimli yaradıcılığı haqqında tanınmış elm adamlarının söylədikləri çox dəyərli fikirlər verilmişdir.

Xanəli Kərimlinin ***"Payız duyğuları"*** adlı şeir kitabı xalqın, vətənin problemləri ilə yanıb qovrulan, qeyrətə, mübarizəyə səsləyən şair qəlbinin çırpıntıları, hayqırtısıdır. Kitabın ilk vərəqlərindən başıbəlalı Vətən üçün yanan bir ürəyin ağrılarını duymaq o qədər də çətin deyil. O, Vətənin bir şair oğlu kimi yaşadığımız ölkənin və millətin ağrı acılarını öz könül prizmasından keçirib ulu sözə çevirir. Bu sözlər misra-misra şeirlər içində püxtələşir və cilalanır.

***Xanəli Kərimlinin bir sənətkar kimi yüksəlməsinə özünəqarşı tələbkarlığı, yazdıqları ilə kifayətlənməməsi, daim məsuliyyət hiss etməsidir. O, tələbkarlığı nəticəsində***

***daim təkmilləşib və bu təkmilləşmə prosesində yeni-yeni kəşflər edib, bu gün yazdıqları ilə kifayətlənməyib, sabah üçün axtarışlar aparıb, əsərlərini ümümbəşəri hisslərlə rövnəqləndirib. Məhz bunun nəticəsidir ki, Xanəli Kərimli özünəməxsus istedadı ilə müasirləri arasında tanınıb. Akademik İsa Həbibbəyli Xanəli Kərimli yaradıcılığına yüksək qiymət verərək yazır: "Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biridir".***

Xanəli Kərimli yaradıcılığı daha çox qəm üstündə köklənib. Amma bu qəm heç də insanı ümidsizliyə aparmır. Bu qəm insanı mübarizliyə, şücaətə, cəsarətə, inkişafa səsləyir. Adamı yaltaqlığın, məddahlığın dərəcəsinə enməməyə, bəşəri mənlik və sədaqət anlamına sadiq qalmağa, bu cür insani keyfiyyətlərin ucalığına qalxmağa səsləyir:

*Hələ bir kimsədən minnət çəkmədən*
*Beləcə bir ömür yaşayıram mən.*
*Odu səngiməyən şam ürəyimi,*
*Ey Vətən, səninçin daşıyıram mən.*

Xanəli Kərimli poetik istedadının qədrini bilən, özünə güvənən, başlıcası isə sözün qeyrətin çəkən şairdir. Bəlkə elə buna görə də şair yazır:

*Şeir gərək haqdan gələ,*
*Zorla şeir yazmaq olmaz.*
*Haqdan gələn bir sözün də*
*Mizanını pozmaq olmaz.*

*Odur səni səndən sonar*
*Ağladan da, güldürən də.*
*Səni min il yaşadan da,*
*Səni vaxtsız öldürən də.*

Xanəli Kərimli sinəsində söz göyərdən şairdir. Onun poeziyası söz əzabından doğulur. O, əzabla yazır, onun şeirlərində

şair qəlbinin iztirabı poetikləşir, bu şeirlər oxucunu da iztirab aləminə çəkib aparır. Xanəli Kərimlinin iztirabı poetik iztirabdır. Şairin ***"Şeir yazmazdan əvvəl"*** adlı şeirini oxuyanda bunun şahidi oluruq:

*...Acından ağrı çəkən*
*qurd kimi fırlanıram*
*yazı masamın yanında.*
*Bir şeirim doğulunca*
*ya dəli oluram, ya ölü*
*ömrümün, günümün o anında*

Şairin poeziyası yüksək təlqin gücünə malikdir, çünki şair öz *"mən"*ini milyonların adından danışmaq vasitəsinə çevirə bilir. Bu poeziyanın yükü bər-bəzəksiz həqiqətdən tutulub. O, poetik və estetik zövq verməkdən əlavə oxucusunu düşündürür.

Şairin poeziyasının əsas fikir xəttini insan azadlığı müəyyən edir. Azad şüur, azad qəlb, azad vətən, azad torpaqdır onun lirik qəhrəmanının ali niyyəti:

*Qoy bilsin ki, bu zamanın*
*Neçə-neçə qılınc ağız,*
*Köksü ümman mərdi vardı.*
*O mərdlərin "Azad Vətən"*
*"Azad dövlət" adlı böyük*
*dərdi vardı.*

Torpağı yağmalanmış, milləti didərgin düşmüş şairin könül fəryadıdır bu misralar. Qəlbi hər zaman vətənin xoşbəxtliyi, çiçəklənməsi ideyası ilə döyünən şair öz keçmiş əcdadları; Dədə Qorqudu, Babəki, Koroğlunu heç zaman unutmur. Onların qəhrəmanlıqlarından, yüksək mənəviyyatından vətənpərvərliklərindən, yenilməzliklərindən dərs almağa səsləyir .

Xanəli Kərimli düzlük pərdəsi altında min bir oyundan çıxanlarla, xalqın puluna, varına qənim kəsilənlərlə söz

döyüşünə çıxır. Axı şairin, yazarın döyüşmək üçün qələmindən başqa nəyi var? Amma bir məsələni də qeyd etmək yerinə düşərdi ki, əslində ehtiyac içində yaşayan qələm sahibinin yazdığı xalqa daha yaxındır. Millətin varlığı beş-üç xalqın sərvətini altına yığıb üstündə oturanlardan ibarət deyil. Gündəlik bir qarın çörək üçün həyatı olmazın işgəncə və əzablarından keçən insanlarımızın aqibəti həqiqi qələm əhlini düşündürməlidir. Onun ***"Azərbaycan"*** şeirində biz bunun bir daha şahidi oluruq:

*Daş-qaşları papağından ağır gələn "kişilərin",*
*Alverinə qurban gedən, qurbanı qan Azərbaycan!*
*"Oğulların" yad ellərdə dollar yığır dar gün üçün,*
*Ağsaçlı bir ana kimi darda qalan Azərbaycan!*

Min illər bəşərin beynində, şürunda yuva qurmuş məkr, hiylə ağılla çarpışmaqdadır. Neçə-neçə talelərin yolunda sərt qaya kimi durur, neçə-neçə arzuları puç edir. Şair də ***"Məni qınamasın"*** şeirində bütün bunları dilə gətirir. Bənd–bənd misralarının ovqatına köklənir:

*Əyri xətlər kimi əyri adamlar*
*Birləşə bilirlər istədiyi an.*
*Parelel xətlər tək düz adamlarsa*
*Birləşə bilmirlər heç vaxt, heç zaman.*

Şairin ***"Hələ nələr var", "Pul", "Dilək" "Qorumalıyıq", "Ləkə gətirmə"*** və sadaladıqca adlarını sadalamaq istədiyin şeirlərini oxuduqca göz önündə bugünün mənzərələri canlanır. Bugünümüzdə yüklənən beynimizin ağrı-acıları misralar içində ah-ufla boylanır. Şərəfi, namusu, mənliyi, ləyaqəti misralardan boylanan Xanəli Kərimlinin şeirlərini oxuduqca oxumaq istəyirsən. Bu sanballı şeirlərin içində məsum insan taleyindən nigaran şairin məddahlığa, yaltaqlığa, qorxaqlığa, cəhalətə boyun əyməyən qürurlu ilhamı var.

O, şeirlərində ikiüzlü, yaltaq, yalançı, özlərini xoşniyyətli kimi göstərən, bəzən ziyalı cildinə belə girə bilən insanların da iç üzünü açıb, onlara inanmamağı tövsiyə edir:

*Sən ey mənə gülən bədxah, mənim nədir günahım?*
*Hər kəsin bir taleyi var, hər kəsin bir qisməti.*
*Allah sənə bağışlayıb min sifəti, dövləti,*
*Əvəzində alıb səndən ləyaqəti, isməti.*

Şair elə bir cəmiyyət arzulayır ki, orada bu haqsızlıqlar minumuma endirilsin, hər bir insanın potensial intellektual imkanları azad bir şəkildə özünü büruzə verə bilsin, millətinə, xalqına daha çox yararlı ola bilsin. Paklığı, təmizliyi, mərdliyi, cəsurluğu öz şeirlərində ana xətt kimi götürən şair füsünkar Şahbuz torpağının buz bulaqlarından, büllur çeşmələrindən su içib, ana təbiətin mələk baxışlarıyla üz-üzə, göz-gözə qalıb. Halal zəhmətilə dolanan kənd adamlarının ağır həyatı ürəyində cığır-cığır şırımlar açıb. Onun Musa Yaquba həsr etdiyi ***"Şeir yaza bilmirəm"*** adlı şeirində bu hisslər daha qabarıq əks olunur:

*Şeir yaza bilmirəm*
*Şəhərdə olanda mən.*
*Elə bil çatmır havam,*
*Boğuluram nədənsə*
*Heç özüm də bilmədən.*
*..Aldatmaqdır özünü*
*Şeir yazmaq şəhərdə.*
*Şəhərdə şeir yazan,*
*özün hələ bir yana*
*şeiri də salma dərdə!.*

Nədənsə bölgələrimizdə doğulan yazarlarımızın bir çoxunun yaradıcılığında həyatın çətinlikləri daha qabarıq şəkildə əks olunur. Bəlkə, kəndin heç kəsi əzizləməyən ağır zəhmətlərlə yoğrulmuş sərt təbiəti bölgələrdə doğu-

lan yazarlarımızın qələmini daha sərt, daha üsyankar edir. Elə özünəməxsus dəsti-xətti olan Xanəli Kərimli də belə sənətkarlarımızdandır.

Xanəli Kərimlinin bir çox şeirlərində elmi bilgilərlə, təbiət hadisələrinə, təbiətin rəngarəngliyinə aid yüksək bədiiliklə yazılmış misralara rast gəlmək olur. Heç şübhəsiz, bu misraların canlı, inandırıcı olması onun təbiətin vurğunu olmasından irəli gəlir.O, eyni zamanda həyatımıza, məişətimizə, insani münasibətimizə, təbiət hadisələrinə bir araşdırıcı kimi də baxır. Onun şeirlərində təbiət hadisələrinə, onun dəyişkənliyinə, bəzən fəlakətlər, bəzən də xoş günlər gətirməsinə diqqət çəkir:

*Təbiət müqəddəs məhək daşıdır*
*Bu müqəddəsliyə yol tapmalıyıq.*
*Hərdən də onunla baş-başa qalıb*
*Arınıb, durulub saflaşmalıyıq...*

Digər bir şeirində də təbiətin gözəlliyi, rəngarəngliyi, insanda xoş əhval-ruhiyyə yaratması fikri bədii bir şəkildə öz ifadəsini tapır:

*Çaylar da kövrəlib, dindirsəm əgər,*
*Bir giley dastanı bağlayacaqdır.*
*Mənsiz qəribsəyən məcnun söyüdlər*
*Əl vursam, hönkürüb ağlayacaqdır.*

Burada şair sözlərlə, anlayışlarla təbiət lövhələrini ortaya qoya bilir və oxucunun xəyalında həqiqətən də bu təsirin canlı surətini yarada bilir. Burada şairin yaratdığı canlı assosiyalar vasitəsilə istəyinə nail olur. Bizi təbiətin dəyişkən xarakterini və ülviliyini, təkrarsız gözəlliklərini görməyə çağırır.

Ümumiyyətlə, təbiilik, səmimiyət şairi oxucularına sevdirən əsas cəhətlərdəndir. Ömür yolunu, əsərlərini oxuduqca bir daha şahid olursan ki, onun həyatı və yaradıcılığı biri-birini tamamlayır. Artıq dünya ədəbi tənqidində də belə

bir fikir hakimdir ki, hansı yazıçı öz həyatını yazırsa, yaşadığı hissləri qələmə alırsa, o, oxucuya daha çox yaxın olur. Xanəli Kərimlinin şeirlərinin, poemalarının mövzuları yad bir dünyanın həyatından deyil, yaşadığımız həyatdan, gördüyümüz mühitdən götürülüb. Buna görə də onun əsərlərinin hamısında şairin ürək döyüntüsü, həyatın bir parçasını görürük.

Xanəli Kərimlinin janrları, mövzuları rəngarəngdir, oxunaqlıdır. Onun məhəbbət mövzulu şeirləri də, təbiəti vəsf edən poetik nümunələri də təbii, səmimi şair qələmindən süzülüb gəlir, sevilə-sevilə oxunur. Şairin şeirlərinin dilinin səlis, rəvan və axıcı olduğunu xüsusi qeyd edən filologiya elmləri doktoru Adil Bağırov yazır: *"Xanəli Kərimlinin deyim tərzi sərrast, düzüm tərzi bitkindir. O, yaradıcılığında dilimizin tükənməz bədii ifadə vasitələrindən ustalıqla istifadə edərək şeirlərində yüksək ifadəlilik, obrazlılıq yaradan, emosional fikirləri, sadə, aydın, yığcam bir dillə ifadə edir, doğma dilimizi özünün qürur mənbəyi sayır".*

***"Payız duyğuları"*** kitabında yer alan şeirlər bir daha Xanəli Kərimlinin geniş yaradıcılıq marağını göstərməklə bərabər, eyni zamanda, şairin yüksək bədii estetik zövq və istedadını da üzə çıxarır. Zəngin klassik ənənələrimizə söykənən, eyni zamanda aktual sosial-mədəni mövzulara müraciət edən Xanəli Kərimli şeirləri elə bu səbəbdən geniş oxucu kütləsinin sevgisini qazanıb və gələckdə də bu sevginin sönməyəcəyinə inamımız böyükdür.

***"Palitra" qəzeti,***
***9 aprel 2014-cü il***

**Aypara Behbudova,**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*
*"Naxçıvan" Universiteti Elmi Kitabxanasının direktoru*

# ŞEİRLƏRİ, ŞƏXSİYYƏTİ VƏ TALEYİ BÜTÖVLÜK TƏŞKİL EDƏN ŞAİR

İnsan keçib getdiyi yola böyük bir zaman məsafəsində nəzər saldıqda, fikrən o yolla bir də qayıtdıqda içindən ən müxtəlif, ən dərin hisslər keçir. Bir daha sevinir, heyrətlənir, nəyə isə təəssüf edir, nədənsə kədərlənir, nəyisə sanki yenidən kəşf edir, yenidən özü üçün açır. Filologiya üzrə fəlsəfə doktoru, dosent, şair Xanəli Kərimlinin əsərlərini, yaradıcılıq yolunu yenidən nəzərdən keçirdikcə mən də istər-istəməz bu hissləri keçirdim. Xüsusilə, əgər sən həmin şairin yaradıcılığına bu və ya digər səviyyədə bələdsən, bu illər ərzində onun haqqında dəfələrlə yazmısan, poeziyasını izləmisən. Xanəli Kərimlinin şeirlərini uzun illərdir ki, mütaliə edirəm, bütün çap olunmuş kitabları kitabxanamda var.

Şairin yubileyi ilə əlaqədar onun bütün əsərlərini varaqladım və çoxdan oxuduğum, tanış olduğum, hətta haqqında yazdığım şeirləri, poemaları bir də, bir də oxudum, buradakı şeirlərin çoxu mənim üçün yenə də təzə və yenidir. Çünki onun poeziyasını oxuyanda hər dəfə yeni məna, yeni məzmun tapırsan. Beləliklə, mən Xanəli Kərimli poeziyası haqqında bu fikirləri deyə bilərəm ki, onun poeziyası bütövlükdə yeni poeziyadır, öz əsrinin poeziyasıdır. Yaşadığı dövrdə elə bir hadisə olmaz ki, o hadisə şairi düşündürüb narahat etməsin və bu narahatlıq şeirə çevrilməsin. Buna görə də Xanəli Kərimlinin poeziyası yaşadığı dövrün, zamanın poeziyasıdır.

Xanəli Kərimlinin poeziyası onun xarakterinə çox oxşayır: təbii və məğrur, milli və ümumbəşəri. Daha doğrusu, Xanəli Kərimli şeiri, taleyi və şəxsiyyəti bütövlük təşkil edən şairlərdəndir. Onun poetik "mən"inin gücü təbiiliyində və əsilliyindədir. Bu poeziyada süni və qeyri-təbii heç nə yoxdur. Gerçəklikdən alınan süjet, ürəkdən axıb gələn poetik

hiss, özünəməxsus fərdi ovqat poetik amala çevrilir. Xanəli müəllimin şeirləri ürəkdən gəlir və ürəyə yatır, insanı ehtizaza gətirir, sadə və gözəldir, elə gözəllik də sadəlikdədir.

Əsl şeir odur ki, o, sərhədlərə, çərçivələrə meydan oxuyur. Əsl şair odur ki, o, məhdud çərçivələrə qarşı üsyan edir, hayqırır. Belə olanda poetik novatorluq aydınca görünür. Ona görə ki, əsl şair şeiri ilə yenilik gətirir və bununla da bəhs olunan məsələlərdən, problemlərdən asılı olmayaraq poetik fikir də, misralar da müasir səslənir. Poetik fikir və misralar müasir səslənmədikdə şeir sanki "ölü" doğulur və *"ölü"* kimi də qalır. O, "ölü" olaraq sənət əsərinə çevrilə bilmir. Belə *"ölü"* şeirlərdə problemlər, məsələlər müasir səslənmir. Odur ki, ədəbi prosesdə yalnız və yalnız orijinal poetik fikir sahibləri yaşayır, sevilir. Eyni zamanda onlar oxucu nəsillərinin tələbatını da ödəyir. Həm də bütün zamanlarda müasirliyi ilə fərqlənir. İstənilən ədəbi nəslin nümayəndələri içərisində öz fərdi düşüncə tərzi, ifadə forması ilə fərqlənən Xanəli Kərimli yaxşı mənada bu gün ədəbi mühitə meydan oxuyur.

Xanəli Kərimlidən söhbət gedərkən həmişə Rəsul Həmzətovun "Mənim Dağıstanım" əsərində şairlərin *"növləri"* haqqında dedikləri yada düşür. Böyük Dağıstan şairi deyir: *"Şairlər üç cür olur, biri yaza bilir və yazır, ikincisi, elə bilir ki, yaza bilir (yəni yaza bilmir), amma yazır, üçüncüsu isə,yaza bilir, amma yazmır. Mən əsil şairi bu üçüncüləri sayırm".* Xanəli Kərimli də üçüncü qrupa mənsub olan şairlərdəndir.

Nədir onu oxucularına sevdirən? Poetik sözün müqəddəsliyini, paklıq və duruluğunu qoruyub saxlanaq qabiliyyəti! Gerçək aləmdə görüb müşahidə etdiklərini sənətkar təfəkkürünün seçib sonaladığı mənaları sədaqətlə poeziyanın dili ilə oxucularına təqdim etmək ustalığı! Xanəli Kərimli həm də zəngin həyat təcrübəsinə, sınaqlardan çıxmış şairlik səriştəsinə malikdir. Ömür-gün xəzinəsi müasirləri üçün qiymətli ərmağan, ağıllı məsləhət mənbəyi ola biləcək incilərlə zəngindir. Xanəli Kərimlinin əsərlərinin müasir Azərbaycan poetik təfəkkür aləmində saldığı cığır məhz onun özünəməxsusluğu və orijinallığı ilə seçilir.

Xanəli Kərimlinin adı çəkiləndə gözlərimiz önündə zəhmətkeş və istedadlı alimin, yaradıcı zıyalının, fəal ictimayyətçinin, xeyirxah və qayğıkeş insanın surəti canlanır. O, həm də çox sadiq və mehriban dost, xeyirxah həmkar, ailəcanlı, qayğıkeş atadır. Ən əsası odur ki, insanlara inamın, etibarın azaldığı bir zəmanədə ona arxalanmaq, ona güvənmək, ona etibar etmək olar. Çünki yeri gələndə əməlləriylə mərdliyini, bütövlüyünü, dönməzliyini dəfələrlə təsdiq edib Xanəli Kərimli.

Şair üçün dünyanın naz-nemətləri ağuşunda çörək həsrətiylə yaşayanların əzab və mərhumiyyətləri böyük dərddir. Şair üçün əyilməz vicdanların ucuz tutulması, var-dövlət və sərvətin haradan, hansı yolla qazanıldığı daim şübhə döğuran pula sahib olanların əli, ayağı, vicdanı təmiz, ömrünü-gününü insanlar üçün sönməz məşələ çevirənlərin üstün tutulması çəkilməsi fil hünəri tələb edən dərddir. Fəqət o, çiyinlərinin belə bir yükü daşımağa qadir olması ilə fəxr edir. Son illərin hadisələri, bir çox haqsızlıqlar, düşmən tapdağı altında inləyən torpaqlarımızın harayı, sönmüş ocaqların nisgili, didərginlik dərdi şairi möhkəmləndirdi, mətnləşdirdi, bəlkə, bir az da ucaltdı. Ən ağır gündə belə dərddən ucada dayandı Xanəli Kərimli. Çünki əsl şairlər xalqın həmişə dərdçəkənləri olublar, heç vaxt dərdə boyun əyməyiblər ki, əbədiyaşarlıq qazanıblar.

Əsasən insanı iki şey danışdırır - sevinc və dərd. Ataların söz xəzinəsindən ikiliyin hərəsi ayrılıqda öz halına uyğun bir aforizm tapa bilər. Dərd haqqında deyilən kəlam isə daha çox işlənir. Vaxtilə kimsənin dediyini o vəziyyətə düşən öz dilindən təkrarlayır: *"Məni dərd danışdırır".* Demək olar ki, həmişə söz yükünün ağırlığı dərdin üzərinə düşüb. Dərdin mənbəyini isə itkilər təşkil edir. Şair deyilən kəs ikiqat itki müəllifidir. Özününkü bir yana, özgənin itkisini də öz itkisi sayır.

Kimi yurdunu, kimi ümidini itirir. Heç kim istəməz ki, yurdu itsin, ümidi itsin. Mən də..

Kimi məhəbbətini, kimi övladını, kimi sağlamlığını, kimi dostunu, kimi arxasını, kimi çörəyini… itirir. Şair böyük narahatçiliqla itkiləri axtarır. Bütün itkilərin başında isə ümid dayanır. Birinci növbədə onu qorumaq lazımdı. Bəs irili-xırdalı qalan itkilər necə olsun? Səsvermə keçirilsəydi, yəqin ki, coxu tapılmaya tərəfdar çıxardı. Mən isə fərqli mövqeyimlə qınaq hədəfinə çevirlməyə hazıram. Xanəli Kərimlinin narahatlığı, şairliyi naminə mən bütün itkilərin tapılmasını, iynədən tutmuş sapa kimi hər şeyin yerli yerində olmasının əleyhinə səs verərdim. Ona görə ki, bir ümid itəndə, bir də hər şey tapılanda şairlik bitir.

***Şeirləri, taleyi və şəxsiyyəti bütövlük təşkil edən*** şairin noyabr ayında 65 yaşı tamam olur. Şairin həyatına, yaradıcılığına bələd olan bir insan kimi deyirəm: geriyə baxmalı və fəxr olunası şərəfli bir ömür yaşayıb Xanəli Kərimli.

40 ilə yaxındır ki, şeirin, sənətin əzablı və əzablı olduğu qədər də şərəfli yolu ilə uğurla addımlayaraq, minlərlə oxucu qəlbinə yol tapan Xanəli Kərimli ömrünün kamillik dövrünü yaşayır. Onun indiyə qədər çap olunan kitabları da kamil bir şair ömrünün təsdiqidir. Azərbaycan ədəbi mühitində özünəməxsus dəsti-xətti və yeri olan Xanəli Kərimliyə daha böyük yaradıcılıq uğurları arzulayır, 65 yaşın mübarək olsun deyirəm! Azərbaycan naminə yaşanan bu ömrün işığı gur, ocağı sönməz olsun Xanəli müəllim!

**Qənirə Əsgərova,**
***filologiya üzrə fəlsəfə doktoru, dosent***

# XANƏLİ KƏRİMLİNİN ƏDƏBİ DİLİ

*Bütün zamanların tozanağında*
*Nə sənət görünüb,*
*nə də sənətkar.*
*Ancaq –*
*Hər şeyi yerinə qoyub*
*Tarix dediyimiz*
*Müdrik ixtiyar.*
Xanəli Kərimli

Azərbaycanda müxtəlif ədəbi mühitlər və onları təmsil edən onlarla söz sənətkarları vardır. Ədəbi aləmdə onların hər biri öz izi, öz imzası ilə seçilir. Ədəbi mühitlər içərisində çağdaş Naxçıvan ədəbi mühitinin də özünəməxsus özəllikləri vardır. Bu mühitin nümayəndələrindən biri də Xanəli Kərimlidir. İsti şair ürəyi və qabiliyyətli qələmi ilə xalqına xidmət edən bu sadə şair dilimizə, onun sözlərinə yüksək qiymət verən sənətlkarlardandır. O, sözə təkcə fikirlərini ifadə etmək vasitəsi kimi yanaşmır, həm də onun haqdan gəldiyinə inanaraq müqəddəsliyini qəbul edir və yaradıcılığı boyu bu müqəddəsliyi qorumaq uğrunda mübarizə aparır. Şairin fikrincə, sözün ölçüsünə, anlamına xələl gətirmək olmaz:

*Haqdan gələn bir sözün də*
*Mizanını pozmaq olmaz.*

Sözə qiymət verməyin tarixi çox qədimdir. Sözün uca taxtında bərqərar olan dahi Füzulidən qabaq da, sonra da sözün mahiyyət və mənasını dərk edənlər onu həm ehtiyatla, həm sevə-sevə işlətmişlər. Sözün gücü böyük qüvvədir. Təsadüfi deyildir ki, ulularımız onun gücünü qılıncın gücü ilə müqayisə etmiş və üstünlüyü sözün gücünə vermişlər. *“Söz yaddaşı – qan yaddaşı”* deyiblər, xalqımızın ağzında *“sözü*

*yerə at, sahibi götürər", "söz var dağa qaldırar, söz var, dağdan endirər", "söz var, başı, söz var, savaşı kəsər"* kimi çox sayda deyimlər var. Bu, bizim xalqımızın mənəviyyatını təyin edən göstəricilərdən biridir. Xanəli Kərimli düşünür ki, Tanrı hər adama söz göndərmir, gərək bunun üçün Haqqa düz olasan:

*Gərək haqqa düz olasan,*
*Haqq da sənə söz göndərə.*
*Ürəyinə ilham odu,*
*Ocağına köz göndərə.*

Sözə yüksək dəyər verən Xanəli Kərimli sözün insana həmdəm olmağında ürəyin də düzlüyünü və təmizliyi əsas sayır:

*Nə vaxt ki qəlb xıltlı olur,*
*Söz də qaçaq düşür səndən.*
*Təmizlənib durulduqcan*
*Tər-tər sözlər çırtır dən-dən.*

Sözün gücü elədir ki, həm insanı sevindirir, həm də kədərləndirir. Söz sənətkarlarının həyatı sözlə bağlıdır. Söz hökmrandır. Söz deyəni zirvəyə qaldıran da odur, zirvədən uzqlaşdıran da. Söz sənətkarı həm yaddaşlardan silməyə, həm də ölümündən sonra yaşatmağa qadirdir. Bu fikri tarix çoxdan təsdiq edib. Nizamiləri, Füzuliləri, Vaqifləri bizdən uzun bir zaman – neçə-neçə yüzilliklər ayırır, lakin onlar mənəviyə çevrilib indi də yaşayırlar. Həyatda maddiyyatın ömrü qısa, mənəviyyatın ömrü uzundur. Bu baxımdan, mənəviləri yaşadan söz əvəzedilməz bir qüvvədir. Xanəli Kərimli söz haqqındakı bu həqiqəti belə ifadə edir:

*Odur səni səndən sonra*
*Ağladan da, güldürən də.*
*Səni min il yaşadan da,*
*Səni vaxtsız öldürən də.*

Dilimizə övlad münasibətində olan Xanəli Kərimlinin həm müxtəlif əsərlərində ona olan məhəbbəti üzə çıxır, həm də bu mövzuda şairin ayrıca şeri vardır. Müəllif dilimizin yaddaşımızı saxlayan, təzələyən qüdrətindən bəhs edərək, onun müxtəlif çalarlarını vurğulayır. Bu dil daşların üzərində olan ulularımızın ürək sözləridir, babalarımızın nəsihətini, nənələrimizin laylasını, öyüdünü ifadə edən həlim dilimizdir, döyüşlərdə haqqımızı, hüququmuzu müdafiə edən, uğurlara çağıran mübariz dilimizdir, şad günlərimizdə sevinc dolu sözlərimizin mənbəyidir, dar günlərimizdə bizə həmdəm təsəllimizdir:

*Sən mənim daş yaddaşımsan,*
*Daş dilimsən.*
*Döyüşdə savaş dilimsən.*
*Xoş anımda, dar çağımda*
*Arxadaş, qardaş dilimsən.*

*"Arxadaş"* sözü burada necə də yerinə düşmüşdür. Bu leksik-qrammatik vahid bir zamanlar dilimizdə fəallığı ilə seçilsə də, sonralar passiv leksikaya daxil olmuşdur. Xanəli Kərimli dərin mənaya malik olan bu sözü yaradıcılığı boyunca dəfələrlə işlədərək ona dirilik verib, işləkliyə layiq olduğunu anladıb. Sözün anlamı *"arxa durmaq"* feli ilə bağlıdır. *"Arxa durmaq"* dilimizə və dinimizə yaraşan sözdür.

Xanəli Kərimlinin fikrincə, söz düşüncədən yaranmalıdır, şüursuz şəkildə işlənməməlidir. Bu haqda şair əsərlərinin birində deyir:

*Əgər bəladırsa dilin başına,*
*Dildə günah yoxdur, ağlını qına.*

Öz dilini dünyanın bütün dillərindən uca tutan şair onun yad dillərə satanları bağışlamır, onlara rişxəndlə, nifrətlə yanaşır:

*Yüz illərdir məni məndən aldıran da, öldürən də,*
*Zaman-zaman düşmənləri üstümüzə güldürən də*

*Öz dilini yad dilinin ayağına atmağındır,*
*Tanrı dili türk dilində şeir yazan şairlərin*
*"Günahların" üzə vurub, başlarına qaxmağındır.*

Xanəli Kərimlinin dilində çox sayda aforistik ifadələr diqqəti çəkir. Məlumdur ki, belə ifadələr atalar sözləri məzənnəsində dəyərləndirilir. Atalar sözlərinin müəllifi bəlli deyil, lakin dilimizdəki hikmətli ifadələrin çoxu müəlliflidir. Lakin bu hikmətli fikirlər də atalar sözlərinin təsirini yaşayır. *"Xalqın müşahidələrini, təsəvvür və təfəkkür tərzini, canlı məntiqini hifz eləyən atalar sözü sıxılmış yaydır: onun əsl enerjisi, təsir qüvvəsi nitq məqamında, konkret zaman, şərait daxilində bilinir. Bu halda hər bir paremik vahid əyrini doğrayan qılınca, zülməti dağıdan işığa, yaxud dərdlərə şəfa verən məlhəmə çevrilir".*

Xanəli Kərimlinin dilindəki hikmətli ifadələr də oxucunu düşündürür, tərbiyə edir, insanın qəlb aləmində müəyyən izlər qoyur:

*Hər ulayan Boz Qurd olmur!*

***

*Səbri qeyrətindən uca millətin*
*Torpağı bölünər, ruhu aşınar.*

***

*Yediyi çörəyə dönük çıxan kəs*
*Haqqa can atsa da, haqqa yetişməz.*

Maraqlıdır ki, şair kimi tanınan Xanəli Kərimlinin kiçik həcmdə olsa da, nəsrlə yazılan əsərləri də vardır. Onlar şairin dərin düşüncələrinin ifadəçisi kimi diqqəti çəkir. Həmin nəsr örnəkləri hikmətli fikirlərlə zəngindir:

*Qiymətləndirmə aqillərin, qeybət etmə nadanların işidir.*
*Vicdanı olmayanın mənəvi ağrısı da olmur.*

Belə fikirlər ağılın məhsuludur, onların ağıldan dilə, dildən qələmə axmasında ürəyin böyük rolu vardır. Şairin yaz-

dıqları təkcə bacarıq və qabiliyyəti ilə bağlı deyil, həm də onun duyumunun, dərkinin, böyük ürəyinin diqtəsidir.

Xanəli Kərimlinin dilində bədiiliyi artıran təzadların da özünəxas yeri vardır. Onlar obrazlılığı çoxaltmaqla bədii dilin gözəlliyini zənginləşdirməkdə fəal nitq vahidi kimi özünü göstərir:

*Harda savab axtarmışam,*
*Orda günaha batmışam.*
*Harda günahdan qaçmışam,*
*Orda savaba çatmışam.*

Xanəli Kərimlinin dilində sözlərin, birləşmələrin, cümlələrin *(misraların)* anlamından başqa, şəkilçilərin də rolu vardır. Dilimizə məxsus olan şəkilçilərin fərqli məqamda işlədilməsi şairin dil-üslub özəlliklərindən biridir:

*Keçən ömür-günü ələklədim mən.*

Məlumdur ki, dilimizdə adlardan, xüsusilə də isimdən feil düzəldən *-lı* şəkilçisi aktiv mövqelidir və bizim dilimizdə *"ələmək", "ələk"* sözləri vardır. Lakin *"ələk"* sözünün həmin şəkilçi ilə işlənməsi Xanəli müəllimin qələminə məxsusdur və maraqlıdır ki, bu, onun dilinə ağırlıq gətirmir, əksinə onun dilini xalq danışıq dilinə bir qədər də yaxınlaşdırır. *"Dil bütün vətəndaşların yalnız istifadə etdiyi bir xəzinə yox, həm də zənginləşdirməli olduğu bir xəzinədir. Hər kəs dilin lüğət fondunu, ifadə vasitələrini, məna çalarlarını, təşbehlərini artıra bilər".*

Şairin dilində *"fağır etmək"* əvəzinə, *"fağırlamaq", -lan* şəkilçisinin "tufan" sözünə qoşulması kimi fərqli faktlar da vardır:

*Onunçün çoxalıb başından basan,*
*Adını, sanını oğurlayıblar.*
*Qəlbinin, süfrənin genişliyindən*
*Səni ovundurub fağırlayıblar.*
*...Dəniz tufanlanmasa,*
*Kükrəməsə, coşmasa,*
*Üfunət iyi gələr dənizdən...*

Dilimizdə *"tor qurmaq"* ifadəsi vardır. Lakin Xanəli Kərimlinin dilində *"tor"* sözünün *-la* şəşilçisi ilə işlənməsi maraqlı fakt kimi diqqəti çəkir:

*Quşlar cələ qurub artırmalarda,*
*Hörümçək torlayıb girəcəkləri.*

Bundan başqa, dilimizdə adlardan feil düzəltməyə xidmət edən *-al* şəkilçisi də vardır. Lakin bu şəkilçi Xanəli Kərimlinin qələmində *"yox"* sözünə qoşularaq üslub çaları yaradır:

*Qəlbimizdə Tanrı xofu yoxalıb,*
*Şeytanın, iblisin sanı çoxalıb.*

Həmin şəkilçi şairin dilində *"tox"* sözünə də qoşularaq *"tox olmaq"* felinin sinonimi kimi işlənmişdir:

*Bir anlıq ağrımın mində birini*
*Bölsələr, dünyanın acı toxalar.*

Dilimizin zəngin və anlam bolluğu ilə seçilən söz xəzinəsindən yerli-yerində istifadə edən Xanəli Kərimli onun semantik gücündən faydalanaraq yeni-yeni ifadələrin yaranmasında fəal iştirak etmişdir. Onun dilində *dərdlər qəbristanı, sərgərdan ruhlar, agahdar, qiblədar, elçi sifətli ilmə, süfrə varaqlar, yalanın dibi, yarısı ölmüş ilan, söz sultanları, miskin qurd, qurut vermək, dağlar Tanrısı, tarixbazlar, badə dostu, çay yoldaşı, fəzilət şahı, göyün əlifbası, köləlik təlimi, yedəyi yad əldə olan nökərlər, azğın ağıllar, qadağalar kəməndi, alamor sevgi, Allahın gözəllik təşbehi, ürəyə dərd ağacı əkmək, mənəvi zirvələrin şöhrət ilğımı, kibrit ömürlü* kimi maraqlı söz və ifadələr şairin dil-üslub keyfiyyətlərinin bolluğunu göstərir.

Xanəli Kərimlinin dilində köməkçi nitq hissələri də müəyyən üslubi rola malikdir. Dilimizdə məqamına görə qüvvətləndirici rola və əmr mənasına malik olan *"ha"* ədatı şairin dilində zaman anlayışı verən *"hey"* anlamında işlənməsi ilə

seçkinlik ifadə edir və dilimizdəki köməkçi sözlərin nə qədər əhəmiyyətli olduğunu bir daha təsdiq edir:

*Ha qaçsam da, bu qovğadan,*
*Bir gün una dönəsiyəm.*

Şairin dilində *cələ, soyxa adam, bircə hovur isinmək, denə (de(mək) əvəzinə), ovsanatdan salmaq* kimi dialekt və xalq danışığından alınmış dil faktları da maraqlıdır.

Xanəli Kərimlinin dilində Rəsul Rzasayağı deyilmiş fikirlər ifadə tərzi ilə seçilən dil-üslub faktlarındandır:

*Ancaq öz aramızdı,*
*Ağlından şikayətçi*
*olmayanlar içində*
*mənim kimilərin də*
*hərdən görünür yeri.*

Xanəli Kərimlinin qələmində adi söz və fikirlər bəzən tamamilə fərqli don geyir, adi bildiyin həqiqətləri sanki onları oxuyandan sonra dərk edirsən:

*İndi qayğılarım birə on artıb,*
*Saçıma dən düşüb yaşımdan qabaq.*
*Hər günahım üçün, hər səhvim üçün*
*Ürəyim ağrıyır başımdan qabaq...*

Şairin dilindəki ritmik təkrarlar bədii dilin fonetik səviyyədə obrazlılığını təmin edir, onun estetik baxımdan gözəlliyini dərinləşdirir:

*Eh... olan olubdu, keçən keçibdi,*
*İndi ha düşünək, indi ha anaq.*
*Atlanan atlanıb, köçən köçübdü,*
*İndi ha göynəyək, indi ha yanaq...*

Xanəli Kərimlinin söz dünyası zəngindir. Onun dilindəki maraqlı dil-üslub özəllikləri şairin ədəbi dilimizdəki dəstixəttini müəyyənləşdirir, şairin öz imzasına, öz sözünə sahibliyini təsdiq edir. Beləliklə, Azərbaycan ədəbi dilinin inkişafında Naxçıvan ədəbi mühitinin müəyyən qədər rolu vardır.

***"Naxçıvan" Universiteti,***
***"Elmi əsərlər" jurnalı, 2016,N1***

**Elxan Yurdoğlu,**
*Şair-tərcüməçi*

# PAYIZDA DOĞULMAQ DA BİR XOŞBƏXTLİKDİR...

Ötən günlərdə Naxçıvan Dövlət Universitetində şair Xanəli Kərimlinin 60 illik yubileyi qeyd edilirdi. Bəli, şair Xanəli Kərimlinin. Baxmayaraq ki, o həm də ədəbiyyatşünas alimdir - filologiya üzrə fəlsəfə doktoru, dosentdir, Naxçıvan Dövlət Universitetinin xarici tələbələrlə iş üzrə dekanıdır, Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimidir. Lakin yubiley şair Xanəli Kərimli üçün keçirilirdi. Akademik İsa Həbibbəylinin təbirincə desək, *"Xanəli Kərimli üçün şairlik birincidir. O, hər şeydən əvvəl, sözün gerçək mənasında istedadlı şairdir. Həssas, nəcib, ülvi duyğuları şeirin dili ilə havalandırmağı bacarır"*.

O, ***"Ay işığında"***, ***"Anamdan məktub"***, ***"Bu da bir nağıldı"***, ***"Mənə elə gəlir ki"***, İranda nəşr olunan ***"Duyğularım, düşüncələrim"*** adlı kitabların müəllifidir. Haqqında, fəlsəfə doktoru Sabir Bəşirov tərəfindən ***"Bir ömrün nağılı"*** monoqrafiyası və ayrı-ayrı məqalələrdən ibarət olan ***"Xanəli Kərimli - Sözün əlincə qalası"*** kitabı nəşr olunub.

Amma mən onu bir cümləsi ilə tanımışam və ətraflı tanışlıqdan sonra isə şair kimi sevmişəm. Müdrik kəlamlar kimi deyilmiş müxtəlif fikirlərinin arasında belə bir ifadə var: *"Şairlik Tanrının bəndəsinə bəxş elədiyi dəliliyin bir növüdür"*.

Doğrudan da, şairlər şeirə köklənəndə havalanırlar. Bu havalanma dəlilik məqamının bəlkə də ən maraqlı mərtəbəsidi. Şeir yazılandan sonra şair də olur hamı kimi birisi. Və o şeir anı - o dəlilik məqamı minlərlə oxucuya bir gözəl şeir, bənd, misra, fikir bəxş eləyirsə, deməli, o dəliliyi də yaşamağa dəyərmiş.

Bəzən elə bir misra ilə, şeirlə qarşılaşırsan ki, birdən-birə duyğularına Günəş kimi işıq saçır. Bir şam işığında yazılan bir misra Günəş qüdrətinə sahib olur. Yəqin elə sözün bu

qüdrətini yaxşı bildiyindən və elə bunu düşündüyündən yazıbdı Xanəli Kərimli - *"Çox zaman diqqətdən kənarda qalan şam, məqamı gələndə Günəş qədər dəyərli olur"*.

Bu maraqlı fikirlərin içərisində şairin qeyri-adi bir yanaşması da var. Deyir ki, *"ən böyük kədər də sevgidən doğur"*. Bu, hər halda, məcnunluğa tərəf çıxmaq, Kərəmliyə haqq qazandırmaqdır.

Nə üçün, bilmirəm, amma içində payız olan bütün şeirlərin hüzünlü bir aurası var. X.Kərimlinin şeirlərində də bunu yaşadım...

*Hər damla göz yaşında,*
*Bir bəşəri kədər var.*
*Payızın da, qışın da,*
*Bətnində bir qəhər var.*

Payızda doğulmağın *(X.Kərimli noyabr ayının 27-də dünyaya göz açıb),* hətta payızda şair doğulmağın payızı anlamaq, dərk eləmək mənasında bir üstünlüyü olduğuna inanıram. Bu baxımdan payızda şair doğulanlara qibtəylə baxdığımı da etiraf etməliyəm. Bir vaxtlar *"Yazda doğulmuşam, payız öləcəm"* misrasını da elə bu qibtəylə qələmə alıb, ulu yaradana bir istəyimi bildirəndə də ümidim olum-ölüm aralığındakı ömrümü payıza əmanət etmək idi.

X.Kərimli səmimi yumorlu ünsiyyətə malik, təbiətən sadə biridir. Rəhbərlik etdiyi dekanlıkda tələbə olan nigeriyalı, banqladeşli, koreyalı, türkiyəli, iranlı, qırğızıstanlı, rusiyalı, pakistanlı və digər ölkələrdən gəlmiş tələbələrlə də məhz bu səmimi xarakteriylə ünsiyyət qurmağı bacarır. Universitet rektoru İsa Həbibbəylinin *"Xanəli Kərimli xarici tələbələrin dilini tapan, yaxud onlarla dil tapa bilən"* ifadəsi də bu mənada maraqlıdır. Təbiətin, yerin-göyün, otun-suyun, dağın-daşın, gülün-çiçəyin dilini bilən şair üçün başqa dillərdə danışsalar belə insanın dilini bilməyə nə var ki.

Şahbuz rayonunun səfalı bir yerində, təbiətlə qol-boyun olan Mahmudoba kəndində dünyaya göz açan şairin sözlə mayalanmasında da ailəsinin xüsusi rolu olub.

*Yaxşı yadımdadır köhnə ev-eşik,*
*Hər gecə bir nağıl deyərdi atam.*
*Bütün kənd axışıb bizə gələrdi,*
*Oxuyan, oynayan - kim idi yatan.*

Gözünü açandan evlərində sazın, sözün sirrinə düşüb. Uşaqkən gündüzlər anasının nazlamaları, oxşamaları, axşamlar nənəsinin laylaları ilə yatıb-duran şair, böyüdükcə uzun qış gecələrində nağılların, xalq dastanlarının qəhramanlarıyla gecəni səhər edib, səhərləri də heybəsini, dərs kitablarını qoltuğuna vurub Mahmudoba çöllərində quzularını otara-otara ilk şeirlərini yazmağa başlayıb. Onun özünün qələmə aldığı tərcümeyi-halında da ilginc xatirələr var. Uşaq vaxtı ən böyük arzusu kənd kitabxanasını yandırmaq imiş. Belə xatırlayır uşaqlığını:

*"Müəllimlər bütün şagirdləri kənd kitabxanasından istifadə etməyə "məcbur" edir və bilikləri qiymətləndirərkən kimin hansı əlavə kitabları oxuması da bir meyar kimi götürülürdü. Hamı kitabxanaya gedər, "qucaq-qucaq" kitablar alardı. Mənimsə "ən böyük arzum" nə vaxtsa bu kənd kitabxanasını yandırmaq idi".* Tale isə onu kitablar aləminin sakini edib. Təzadlarla dolu dünyada al sənə növbəti təzad.

*"Mən öz taleyimin yol yoldaşıyam".* Bunu da Xanəli müəllim deyib. Taleyilə qol-boyun yol getmək də ayrı bir xoşbəxtlik olmalıdı insan üçün. İnsan dedim, Adəmi xatırladım. Babamız Adəmi. İlk insan olaraq taleyiylə yol yoldaşı olan Adəm. Adəm Xanəli Kərimli bağlılığının nəticəsidir ki, Azər Turan belə qənaətə gəlir: *"Xanəli Kərimlinin fiziki yapısı mənə, heç bilmirəm nə üçün babamız Adəmi xatırladır. Onunla bir dəfə söhbət edən, fikir bölüşən, yaxud yol yoldaşı olan adam sonralar hər şeyi unutsa da, işığı unutmur. Xanəli Kərimli ilə hər görüşümdən sonra ilk insanın - Adəmin duyğuları mənə çox yaxın olur. Xanəli Kərimli işıq adamlarımızdan biridir".*

Məhz işıq adamların sözündə də bir işıq olur. Sufi işığı, təsəvvüf işığı...

*Mən tövbələr qapısıyam,*
*Haqq yolun əlifbasıyam.*

*İmanla küfr arasıyam,*
*Könlüm imanın quludur.*

Doğrudan da, şairin sözünə sığınıb tövbə eləmək olar. Haqqın əlifbası olan bu sufi düşüncələrlə imana təslim olmuş könüllərdə yaşamaq xarakteri bütöv insanların nəsibidir. *"Mənim mövzularım xarakterimdən doğur"* əminliyi də bütövlüyünün göstəricisidir Xanəli Kərimlinin.

Təbiətlə içi-içə olan bir kənddə doğulan şairin şeirlərində də təbiət ayrıca bir mərhələ təşkil edir. Dağ şəlaləsinin şırıltısı, xınalı kəkliklərin ürkəkliyi, dağ qərənfillərinin, lalələrin utancaqlığı, bənövşələrin kədəri, minbir dərman olan gül-çiçəyin, otların şəfası X.Kərimlinin ***"Toğluqayanın Məmməd Araza məktubu", "Zirvə olmaq istəyirəm", "Təbiət oxuyur", "Qartal ömrü", "Qoşa bulaq", "Mən dağlarsız yaşamaram"*** və bu kimi onlarla şeirində özünə bir məskən salıb.

*Yanağı allanan dağ qərənfili,*
*Uyuyur dumanın tül örpəyində.*
*Çisəkdən şeh əmib pərvəriş tapan*
*Çiçəyi çırtlayır gül-çiçəyin də.*

*Duman laylasına uyan bulaqlar,*
*Nazlana-nazlana pıçıldaşırlar.*
*Axıb yamacların yaxalığından,*
*Bir dərə qoynunda qucaqlaşırlar.*

Ayrı-ayrı şeirlərindəki *"Kipriyi şəbnəmli tər çiçəkləri, Oyadır bulaqlar zümzüməsiylə", "Ürəyin gəlmir ki, ayaq basasan, Çəmənin, çiçəyin, gülün üstünə", "Təklikdən darıxan bir ana kimi, qayalar qolunu salır boynuma"* kimi misraların saynı istənilən qədər artırmaq olar. Təbiət üçün darıxan şair, təbiətsiz yaşamır ki....

*Kəklikotu, a şehli dağ çiçəyi,*
*Baldırğanın suda üzən ləçəyi,*
*Ay dağ gölü, göllərin ən göyçəyi,*

*Baş ayrıcaq səcdənizə gələrəm,*
*Axı sizsiz yaşamaram, ölərəm.*

Bu qədər təbiətə bağlılığın sonunda da təbiətin əsrarəngiz sirrlərinə doğru gedən bir yolun başlanğıcı gözə dəyir. Və o başlanğıcda yenə Xanəli Kərimli var. Üzünü insan ayağı dəyməyən həmin yerlərə tərəf tutub pıçıldayır:

*Qaçmaq istəyirəm,*
*Hələ insan nəfəsi,*
*İnsan ayağı dəyməmiş*
*Gözdən, könüldən uzaq*
*Sərt qaya kölgəsinə,*
*Bir sızqa bulağın*
*Pıçıltılı səsinə,*
*Bir də*
*Kipriyi şəbnəmli*
*Dağ çiçəyinin*
*Dodağı şeh qoxulu,*
*Tərtəmiz nəfəsinə.*

Təbiətə bağlılığı, torpağa sevgisi şairin şeirlərində olduğu kimi, hər hansı bir məqamda, istənilən vaxtdakı ünsiyyətində də özünü büruzə verir. Və bütün sevgilərində olduğu kimi təbiətə, torpağa sevgisində də onun heç bir təmənnası yoxdur. Yazıçı Nəriman Əbdülrəhmanlı da bunu gözəl ifadə eləyib: *"Xanəli Kərimlinin torpağa, Vətən, yurd yerinə, insana, qadına sevgisində az qala gözlə görülən, əllə tutulan təmənnasızlıq var".*

Bu təmənnasızlıq onun hər kəslə münasibətində də, söhbətlərində də aydın duyulur. O yaş etibarilə məndən iki dəfə böyükdür. Aramızdakı yaş fərqinə baxmayaraq hər qarşılaşdığımızda köhnə dostlar kimi, tanışlar kimi görüşmüşük, salamlaşmışık, hal-əhval tutmuşuq və bu gün də onun böyüklüyünün göstəricisi olan sadəliyi mənim üçün sevindirci və nümunəvidir.

Günün qürub anlarında onu əllərini belində daraqlayıb fikirli-fikirli gəzdiyini çox görmüşəm. *"Mən sözdən qorxuram, Tanrıdan qorxan kimi"* deyən şairi tənhalığından və duyğularından, düşüncələrindən ayırmamaq üçün yaxınlaşmamışam, eləcə uzaqdan seyr eləmişəm. Niyəsini bilmirəm, amma həmin anlarda o mənim gözlərimdə Yunus Əmrə kimi haqq aşiqini xatırladıb. Fəqət arıq və uzun boyuyla xatırladığımız Y.Əmrədən fərqli olaraq X.Kərimli dağ cüssəsi və ləngərli yerişiylə diqqəti cəlb edir.

Sözdən Tanrıdan qorxduğu kimi qorxan şairin şeirlərində Tanrı-söz paralelləri ilə tez-tez qarşılaşırıq. Onun üçün *"Şair Tanrı ruhu, söz şairin ruhudur"*. Buna görə də deyir ki:

*"Hər bir sözüm, hər misram,*
*Tanrıdan gələn nidadır".*

Sözü Tanrıdan gəldiyini, şairin Tanrı ruhu olduğunu bilən X.Kərimli həyat təcrübələrinin nəticələri olan ***"Mənə elə gəlir ki"*** silsilə düşüncələrinin birində belə deyir oxucusuna:

*"Mən o vaxta qədər yazıram ki, sözlər üzümə bozarmasın. Hiss edəndə ki sözlər hissini, duyğusunu məndən gizlətməyə başlayır, onda qələmi yerə qoyub, ayrı bir işin dalınca gedirəm.*

*Mənim nəzərimdə sözlər də insanlar kimidir. Gərək pərdəni götürməyəsən".*

Sözlə beləcə dostluq edən Xanəli Kərimlinin 60 yaşına sözardı kim qələmə aldığım bu yazıya şairin ***"Arzu"*** şeirindəki aşağıdakı misralarıyla nöqtə qoyuram:

İstəyirəm -

*Qalan ömür payımda*
*Allahın yaratdığı*
*Günahsız insan kimi*
*Heç olmasa bircə yol*
*Rahatca nəfəs alam,*
*Vəssalam,*
*Allahım, vəssalam...*

***"525-ci qəzet",***
***17 yanvar, 2012.***

**Xuraman İsmayılqızı,**
*jurnalist*

# "PAYIZ DUYĞULARI"NIN BAHAR TƏRAVƏTİ

***Eyniadlı kitabı ilə oxucuların görüşünə gələn Xanəli Kərimlinin yeni şeirləri yaradıcılıq hesabatıdır.***

İnsana, yurda, torpağa, haqqa bağlılığı bütün şeirlərinin ana xətti olan Xanəli Kərimli ***"Payız duyğuları"*** adlı şeirlər kitabı ilə öxucularını bir daha sevindirib. Ürəyinə hökm edən duyğuları, Tanrının hikmətini, dünyanın gərdişini ədəbiyyat gülşənində qarış-qarış gəzərək sözün qüdrəti ilə əlçim-əlçim sətirlərə köçürən şair yenə də bu gününə nəzər yetirərək sabhına boylanır, *"mən"*ini axtarır, daxilən özü ilə söhbətləşir, bəzən Ağrı dağının zirvəsinə *"qalxır"*, arabir dəli Kürə *"xitab edir"*, ondan *"haqq-hesab sorur".*

Hərdən tez-tez *"həmsöhbət olduğu"* Arazın həsrət dolu nisgilinə qulaq asır. Harda *"təsəlli tapırsa"* söz boğçasını *"ələk-vələk edir"*, duyğularını oxucuları ilə bölüşməyə çalışır.

Əvvəllər işıq üzü görmüş kitablarında elinə, obasına bağlılığını şeirləri ilə şair ***"Payız duyğuları"***nda da ənənəsinə sadiq qalaraq hisslərini daha qabarıq şəkildə bildirir.

Şairin öz təsnifatına, şeirlərin məna çalarlığına görə müxtəlif bölmələrdə toplanan, biri-birindən oxunaqlı, mənalı, hikmət dolu şeirləri sanki söz ordusunun əsgərləri kimi səf-səf düzülərək biri-birini tamamlayır, eyni məqsəd naminə birləşirlər: Vətənə məhəbbət, torpağa bağlılıq, insanlara inam, təbiətə sevgi.

Ilk bölüm ***"Vətən və vətən daşı"*** adlanır. Vətənə bağlılığını, şair qəlbinin qayəsini oxucuya bələdçilik edən ***"Azərbaycan", "Aərbaycan bayrağı", "Onu zaman doğmuşdu"*** şeirləri ilə çatdıran Xanəli Kərimli vətənpərvər insanlar üçün müqəddəs

olan ölkəsinə, onun bayrağına, bu xalqı dünyada tanıdan qəhrəman oğullarına sevgisini:

*Çünki döyüşdən doğub*
*Millətimin xoş çağı!*
*Bayraqlar bayraqdarı*
*Azərbaycan bayrağı!*

-sözləri ilə bildirir. Bu bayrağın ədəbiliyinin, Azərbaycanın müstəqilliyinin qarantı olan, ümummilli lider Heydər Əliyev şəxsiyyətinin böyüklüyünü ***"Onu zaman doğmuşdu, o yaşatdı zamanı"*** sözləri ilə bildirən şair bu müdrik insanın ədəbiyyatşünaslıq missiyasının daimi olacağını sözün qüdrəti ilə çatdırır:

*Heydər kimi bir düha*
*Yetiribdirsə bu xalq,*
*Bu xalqa ölüm yoxdur –*
*Əbədi yaşayacaq!!!*

Şairin yaradıcılığı ilə maraqlanan hər kəs özünü Xanəli Kərimlinin şeirlərində kəşf edə bilər. Doğulduğu torpağı ***"Naxçıvanım mənim"*** şeiri ilə alınmaz qala, ədəbi məkan adlandıran şair *"Varım, yoxum – nəyim varsa, cümləsi sən, hamısı sən" deyir*. Oğuz dili adlandırdığı, Ana dilinə sevgisini *"Sən əzəldən vətən kimi şəriksizsən – öz dilimsən"* misraları ilə bildirir.

***"Mən tövbələr qapısıyam"*** adlı bölmədə toplanan şeirləri şairin yaradıcılıq hesabatı da adlandırmaq olar. Daim haqqa tapınan, sözün, duyğularının əsiri olduğunu, Tanrının taleyinə yazdığı ömür payını Vətənə, insanlara həsr edən şair sanki keçmişinin gözü ilə gələcəyinə nəzər yetirir, ürəyinin səsini dinləyir, taleyinin hökmü ilə razılaşır, haqqın yolçusu olduğunu unutmur, *"Mən özümdə tapdım haqqı"* deyir.

***"Dünya və mən"*** bölməsində toplanan şeirləri ilə sanki *"dünya sənin, dünya mənim, dünya heç kimin"* söyləyən, Azər-

baycanın söz xəzinəsinin ən böyük ustadlarından olan Məmməd Arazın sorğusuna münasibət bildirir. Ümumiyyətlə. Xanəli Kərimlinin yaradıcılığında Məmməd Araz ruhu duyulur:

*"Onsuz da dünyanın qəlbi soyuqdu*
*Nə isti səsi var, nə də nəfəsi".*

Bəzən rastlaşdığı insanların dönüklüyündən, unutqanlığından *"gileylənir"*, bəzən mərdliyin, inam və güvənin etibardan düşdüyü anlar üçün təəssüflənir, sirli, dəyirman adlandırdığı dünyanın möcüzələrinin hələ də açılmamış qaldığından *"nigarançılığını"* dilə gətirir.

*Bu dünyanın dərdi böyük, qəmi yük,*
*Ha yayınla, ha yığışdır, ha da bük,*
*Əzabı çox, ağrısı tam, dəm bölük...*
*Dözə bilsən şirin-şəkər dünyadı.*

Söz sərrafı kimi daim sadəliyin axtarışında olan şair yaradıcılığı ilə insanlara səmimiyyət, beş günlük dünyada inam, etibar, maddi sərvət deyil, mənəvi zənginlik arzulayır.

***"Başımın tacı torpaq"*** adlı bölümdə yaradıcılığını əsasən təbiətə, ana torpağa, yaxınlarına müraciət etməyə yönəldən şair, ***"Hələ ki, gec deyil", "Duyğu əlçimləri"***ndə toplanan şeirlərində də ülvi məqsədlər naminə çalışmağı, şərəfli ömür yaşamağı insanlıq və vətənpərvərliyin ən müqəddəs vəzifəsi hesab edir. *"Mən zamanın içində, zaman mənim içimdə, anlaşırıq bir təhər"* deyir. Tarixi şəxsiyyətlərə müraciət edir.

Kitab ***"Payız duyğuları"*** adlansa da, daim nikbin olan Xanəli Kərimli insanlara bahar ovqatı bəxş edən şeirləri ilə oxucularını yaşayıb, yaratmağa ruhlandırır. Dünyanın yeddi möcüzəsindən də sirli olan insanlara mübarizlik ruhu aşılayır.

*Bu sözdən sonra söz demək çətin,*
*Astarı üzündən baha dünyaya.*

*Oğulsansa əgər, elə yaşa ki,*
*Heç vaxt verməyəsən yaxa dünyaya.*

Azərbaycanın müasir ədəbi tarixində özünəməxsus sözü, yeri olan Xanəli Kərimlinin oxucularına hələ deyilməmiş çox sözü, qət edəcək uzun yaradıcılıq yolu vardır. Bu yolda şairə uğurlar, *"yalnız xoş diləklər nəsibin, söz boxçan zəngin olsun"* deyirik.

***"İki sahil" qəzeti,***
***25 yanvar 2014-cü il***

**Binnət Nəsibov,**
*Azərbaycan Yazıçılar Biriyinin üzvü,*
*"Qızıl qələm" mükafatı laureatı*

# "PAYIZ DUYĞULARI" MÜƏLLİFİ XANƏLİ KƏRİMLİ

Xanəli Kərimli deyəndə müasir ədəbiyyatımızda çox rast gəlinən və bu imza altında,sözün əsl mənasında, özünü təsdiq edərək oxucu rəğbəti qazanmış qüdrətli qələm sahibləri sırasında yorulmaq bilmədən mətin addımlarla irəliləyən bir sənətkar görürük. Hansı mövzuya müraciət etməsindən asılı olmayaraq, Xanəli Kərimli sözü, necə deyərlər, muma döndərib istədiyi şəklə sala bilir, daha doğrusu, dəfələrlə ayrı-ayrı qələm sahibləri tərəfindən dönə-dönə işlənmiş sözə yeni *"don geyindirməyi"* M.Füzuli demişkən, *sözə "can verməyi"*, az sözlə çox məna tutumu yaratmağı bacarır.

Mən onun haqqında yazdığım məqalələrin birində belə bir fikir söyləmişəm: *"Təpədən dırnağa qədər xalqa bağlı olan Xanəli Kərimli şeirlərinin əsas mövzusu və qayəsi Vətən və millət notunda köklənmiş bir kamanı xatırladır və bu kamanın Habil barmaqları ilə çalındığını güman edən oxucu qəlbən inləyə-inləyə həayt hadisələrini dərk etməyə, onun çətin və dolaşıq labirintlərindən keçməyə başlayır, bu avaz altında saflaşır, mübarizləşir".* Mən bu fikrimdə bu gün də qalır və zənn edirəm ki, Xanəli müəllim elə belədir, nə qədər ömrü var, qələm əlindədir, elə belə də olacaq.

Bu yaxın günlərdə işıq üzü görmüş ***"Payız duyğuları"*** kitabı da əvvəlki kitablarında olduğu kimi, bu fikri bir daha təsdiq edir.

Yazılı ədəbiyyatımız nə qədər inkişaf etsə də, onun kökündə, dərinliklərində xalq ruhundan qidalanmış şifahi ədəbiyyatın rahiyəsi durur və hər vaxt bizi çulğalayır. Onun ön söz yerinə verilmiş *"Ata bir nağıl kitabı (roman, povest... deyil, məhz nağıl – B.N.) tap, oxuyaq"*, - deyən uşaq istəyi də buna gözəl sübutdur.

Uşaq istəyinə cavab verən ata deyir:

*Mən özüm canlı bir kitabam, bala,*
*Hələ oxunmayıb bir xəttim belə.*
*Oxunsam, görərlər qaya ömrümü*
*Necə əritmişəm mən gilə-gilə.*

Bəli, şair Xanəli Kərimli ümmanlar içində dayanaraq, sərt küləllərə, quduz dalğalara sinə gərməyi bacaran, *"qaya ömrünü"* gilə-gilə əridib özünün kimliyini, nəyə xidmət etdiyini təsdiq edib.

***"Azərbaycan"*** şeirində: *"Tariximin şəhid yaşı, şahidləşən Azərbaycan; Müəmmmalı oyunların baş qurbanı, Azərbaycan; Ağsaçlı bir ana kimi darda qalan Azərbaycan; ...Biz özümüz özümüzə qənim olduq, Azərbaycan; Haqlı ikən haqsızlaşan, haqqı talan, Azərbaycan"* və s. deyən şair vətənimizin başına zaman-zaman gələnləri sadalamaqla sanki ürəyini *"boşaldır"*, lakin birdən qeyzə gəlir... *"Dərdlərinin çarəsi də sən özünsən, Azərbaycan; Can verən xalq, qan verən xalq yaşayacaq, Azərbaycan"*, - qənaətinə gəlir və:

*Şərəfsiz bir ömür sürmək, aləm bilir, sənə yaddır,*
*Bir şərəfli ömür üçün ayağa dur, Azərbaycan!*
*Daha bıçaq sümükdədir, taleyinə özün qol çək,*
*Əyninə gey kəfənini, kəfəni qan Azərbaycan!*

- deyir və vətənimizə ayağa qalxıb öz müqəddəratını özü həll etməyi məsləhət görür. ***"Azərbaycan bayrağı"*** şeirində oxuyuruq:

*Mənim başımın üstə,*
*İki səcdəgahım var:*
*- Biri - uca Allahım,*
*Biri - yenməz bayrağım!*

Şair ***"Onu zaman doğmuşdu"*** şeirində ümummilli liderimiz Heydər Əliyev haqqında yazır:

*O, dünyaya gələndə*
*Təkcə özü ağladı.*
*Dünyadan köçəndəsə,*
*Cahan qara bağladı.*

*O, bir Tanrı elçisi,*
*O, bir Göy adamıydı.*
*Hava kimi, su kimi,*
*Hələ yaşamalıydı.*

*O, Ali Baş Komandan,*
*Həm də bir əsgər idi.*
*Siyasət meydanında,*
*Alınmaz səngər idi.*

*...Heydər kimi bir düha,*
*Yetiribdirsə bu xalq,*
*Bu xalqa ölüm yoxdur,*
*Əbədi yaşayacaq!*

***"Öz dilimsən"*** şeirində şair Azərbaycan dilinin əsrlərin sınağından çıxıb bu günümüzə qədər gəlib çatmasından, lakin nə qədər təzyiqlərə məruz qalsa da, xalq tərəfindən qorunub-saxlanılmasından söz açır:

*Mənim dilim!*
*Tarix boyu vətənimə*
*şərikləşən tapılsa da,*
*Sən əzəldən vətən kimi şəriksizsən –*
*Öz dilimsən!..*
*Öz dilimsən!..*

Xalqımız tarix boyu çox bəlalara düçar olub, azadlıq və istiqlaliyyət yolunda şəhidlər verib. Müstəqillik yoluna qədəm qoyduğumuz bir vaxtda vətən oğullarımızın nahaq qanı axıdıldı, saysız-hesabsız şəhid verdik. Bu, yaradıcı bir

adam, ürəyi vətən və xalq üçün döyünən bir şair kimi Xanəli Kərimlinin də ağrılı yeridir. Şəhidlər Xiyabanını ürək ağrısı ilə gəzən şair yazır:

*Burda daşa dönüb əsrin yaddaşı,*
*Burda heykəlləşib nakam ömürlər.*
*Burda korun-korun yanıb-yaxılır,*
*Yaralı ürəklər, dərdli könüllər.*

*Bir ana saç yolur qəbir üstündə,*
*Kasıbçılıq yağır əyin-başından.*
*Bir ata baş qoyub bir başdaşına,*
*Min əzab duyulur baxışlarından.*

*Bir bacı heykələ dönübdü, sanki,*
*Qardaş məzarının astanasında.*
*Bir əliqabarlı qardaş diz çöküb*
*Şəhid qardaşının qəbri yanında.*

*...Baxıram şəhidlər məzarlığında,*
*Bir "adlı-sanlı"nın balası yoxdur.*
*Ömrü boyu xalqı talayanlara*
*Niyə bu Allahın bəlası yoxdur?!..*

*Sən demə, vətənin namus-qeyrəti,*
*Kasıb-küsubların isməti imiş.*
*Vətənin varınsa yedirtmək, yemək*
*"Tirboyunlular"ın qisməti imiş.*

İnsan olan kəs məqsədsiz-məramsız yaşamaz. Şair bu barədə yazır:

*Məqsədsiz, məramsız yola çıxanda,*
*Adam sərsəriyə dönür bir anda.*
*Yaşamaq cəhənnəm rənginə çalır,*
*Közərir ürək də, soyuyur qan da.*

*Məramsız millət də, xalq da belədir,*
*Hardan hara gedir – özü də bilmir.*
*Hər yetən başına bir papaq qoyur,*
*Əyrini də bilmir, düzü də bilmir.*

*...Məramla yaşayıb bizim babalar,*
*Onunçün dünyanı tutmuş şöhrətim.*
*Bu gün bölünsə də beş yerə Vətən,*
*Məramsız yaşamaq olmaz, millətim!*

Vətəni cibinin, yaxşı güzəranın xətrinə *"sevənlər"*in iç üzünü açan Xanəli Kərimli Məmməd Araza xitabən yazır:

*Şükür bu günə də, ay Məmməd Araz!*
*Bundan betərindən saxlasın Allah!*
*Necə ki, ay ustad, ay qadan alım,*
*Ürək söyləyəni dilimiz demir,*
*Əlinin sözünü Vəlimiz demir,*
*Düşəcəyik bundan pis günə, vallah!..*

*...Millətə köləlik təlimi verdi,*
*Yedəyi yad əldə olan nökərlər.*
*Kim ki, bir balaca qanmaq isədi,*
*Sibirdə, Nargində güllələdilər.*

***"Döyüş gedir öz içimdə"*** şeirində şair yazır ki, kürsülərdən boş-boşuna danışmaqdan, yalan yerə çəpik çalmaqdan, üzəvari gülümsəməkdən, haqqı qoyub nahaqqa üstünlük verməyə dözməkdən... artıq bezmişdir.

*Mən nə Bəhlul ola bildim,*
*nə İsgəndər,*
*Bu dünyaya doğulsam da,*
*öz içimdən doğulmadım...*
*Onunçün də döyüş gedir*
*öz içimdə-*
*kandan ta məkan qədər, - deyir.*

Mən həmişə vətənimi canım qədər sevmiş, onun özünün, xalqının dilini müqəddəratım bilmiş, bu barədə silsilə yazılarla mətbuatda çıxışlar da etmişəm. Xanəli Kərimli yaradıcılığına hər dəfə müraciət edəndə bu hisslərin onda nə qədər güclü olduğuna qibtə etmişəm.

Torpaqlarının *"sapı özümüzdən olan baltalar"* tərəfindən satılmış vətənin bugünkü halı *"Gəzirəm vətəndə itən vətəni" şeirində* ürək ağrısı ilə qələmə alınır:

*Qaçıb çörəyinin dadı da, Vətən!*
*Sönüb ocağının odu da, Vətən!*
*Batıb ərənlərin adı da, Vətən!*
*Çökdürür bu duyğu içimdən məni.*

*Hayınan-küyünən yaşanmaz Vətən,*
*Ciblərdə sikkə tək daşınmaz Vətən.*
*Lüt-üryan qadın tək yaşınmaz Vətən,*
*Gəzirəm "Vətən"də itən Vətəni!.*

Dünyanın və yaranışın paradoksal vəziyyətlərini görüb insanlardan kömək görməyən şair İlahiyə üz tutur.

*Tölükür abır-həya, tapdanır qeyrət-namus,*
*İnsanda insanlıq yox, istəyirsən köpük qus.*
*Hər yerindən duranlar hökmü-fərmandır, əfsus,*
*Bu nə bəladır belə, tutdu bizi, İlahi?!*

*Bir tikə çörək üçün kəndirbaza dönmüşük,*
*Əl ətəyindən uzun dilənçiyə dönmüşük,*
*Gündə bir büt qibləmiz, bütpərəstə dönmüşük...*
*Az qalıb səndən qaçaq, səndən çönək, İlahi.*

*...Bizə mərhəmət göndər, insan həddinə düşək,*
*Bizə səxavət göndər, tikəmizi bölüşək.*
*Bizə ədalət göndər, haqqımıza yetişək,*
*Bizə məhəbbət göndər, bir kök üstə birləşək,*
*Bir də ki, Allah xofu, bir də insaf, İlahi!..*

Biganəlik, mən deyərdim ki, dərdlərin ən böyüyüdür. Xanəli Kərimli də biganəlikdən gileylidir və biganələrin dilindən deyir:

*Elə bil, minillik ölüyəm indi,*
*Qəlbim də, beynim də don içindədir.*
*Elə bil, bu dünya zülmət daşıdır,*
*Elə bil, bu dünya son içindədir.*

Şair bu biganəliyin acı nəticəsi olan satılmış Vətəni düşünüb deyir:

*İndi ha məşhərə çəkim özümü,*
*Ta satan satıbdı, alan da alıb.*
*Satan da, alan da kef içindədir...*
*Tək vətən şərəfi ortada qalıb!*

Yeraltı, yerüstü sərvətləri ilə öyünən Azərbaycan elə bu sərvətlərin qurbanı kimi neçə-neçə tapdaqlar altına düşüb, o taylı-bu taylı qardaş-bacılar bir-birlərinə həsrət qalıb, parçalanmış vətəndə bütövləşə bilməyiblər. Bu, Xanəli Kərimlini çox düşündürüb və o, belə qənaətə gəlir:

*Vətəni bütöv olanın*
*ürəyi də bütövdür,*
*çörəyi də,*
*yumruğu da...*
*Mənimsə*
*ürəyim də, çörəyim də,*
*yumruğum da paradır.*
*Onunçün də*
*yüzillərdir*
*qoymadılar görəm ki,*
*qibləm hardadır,*
*yolum hardadır...*

Mən şairin vətən dərdindən, vətən yarasından dönə-dönə söz açıram, çünki onun yazdıqları insan olan kəsin, xüsusilə də qələm adamının ürəyində uyumuş yaraların gözünü qoparır.

Şairin qızı ilə söhbətinə fikir verin:

*-Ata, mənin barmağımda*
*bir yara var,*
*ağrısına, acısına dözəmmirəm.*
*-Gətir öpüm o yaradan,*
*mənim balam.*
*-Ata, sənin yaran hanı?...*
*Mən də öpüm o yaradan*
*-Yox, ay bala,*
*mənim yaram dərindədir...*
*Öpülməklə, ovunmaqla*
*o sağalan yara deyil.*
*Mən yaramı sağaltmaqçün*
*öz əlimlə öz qolumu*
*kəsəm gərək...*
*Bəlkə, onda yaralarım*
*yavaş-yavaş sayalana.*
*Bəlkə, onda heç olmasa,*
*bir atadan, bir anadan*
*maya tutan qardaşlarım,*
*candaşlarım*
*məni duya, məni qana.*

Şair bir dostu ilə zəngləşəndə deyir: *"Son vaxtlar ürəyim çox ağrıyır, yaman qorxuram"*. Dostu deyir:

*Ürəyin ağıyır?!*
*Niyə qorxursan?!*
*Demək, sən qanırsan, sən yaşayırsan!.*
*Başı daşdan-daşa dəyən Vətənin*
*Halal övladısan, dərd daşıyırsan!.*

Bəli, ürəyin ağrıyırsa, deməli, onu ağrıdan səbəblər var və sən də o səbəbləri aradan qaldırmağa yollar axtarırsan, ürək də bu çətinliklərə dözə bilməyəndə ağrıyır, elə Xanəli Kərimlinin ürəyi kimi. Sonda şair bu qənaətə gəlir ki, Vətənin söndürülən ocaqlarını yenidən yandıran məhz elə həmin ağrıyan ürək sahibləri olmalıdırlar.

Həyatda elə adamlar var ki, tək yaşayır, heç kəsə uyuşmurlar. Şübhəsiz ki, belələri başqa canlılardan fərqlənmirlər. Xanəli müəllim bu barədə yazır:

*Tək ömür tək əl kimidir,*
*Nə harayı, nə səsi var.*
*Tayı itmiş vəl kimidir,*
*Bir quruca kölgəsi var.*

*Tək ağacın bar-bəhəri,*
*Talan olar yel ağzında.*
*Təklənib yurd-yuva quran,*
*Axıb gedər sel ağzında.*

***"Altmış il"*** şeiri insanın kamilliyə qədəm qoymasına işarə olsa da, şairin fikrincə, bu altmış ilin nə vaxt gəlib çatdığı sanki bir müəmmadır - göz qırpımında gəlib çatmağa bənzəyir:

*Altmış anlıq yuxu imiş altmış il,*
*Hardan gəldi, hara getdi ömür-gün?!*
*Bir anlığa dönüb baxdım geriyə*
*Nə səs gəldi, nə bir haray, nə bir ün.*

*Mən dünyanı tanısam da qundaqda,*
*Dünya məni tanımadı bu yaşda.*
*Ürəyimə yük etsəm də dünyanı,*
*Ömrüm keçdi dünya ilə savaşda.*

*Altmış anlıq yuxu imiş altmış il,*
*Bir axımlıq su ömrüymüş, elə bil.*

*Nə itirdim, nə qazandım, nə gördüm?!*
*Bu suallar cavabıdır altmış il.*

İnsanlıq, ləyaqət insan ömrünün meyarıdır. Xanəli Kərimli bu barədə yazır:

*İnsanlıq, ləyaqət doğulub əkiz,*
*Qoşa qanaddırlar onlar həyatda.*
*İnsanlıq öldümü, ləyaqət şəksiz,*
*Qalacaq həmişə ayaqlar altda.*

Sonra şair yazır:

*...Elə bir zəmanə olaydı, - insan,*
*Qoruya biləydi insanlığını!...*
*Ləyaqət hissiylə sürəydi dövran,*
*Ataydı biryolluq nadanlığını.*

*Bu dünya cənnətə dönərdi onda,*
*Onda mələklər də insanlaşardı.*
*Şeytanın çırağı sönərdi onda,*
*Onda yaşamaq da gözəl olardı!*

Şairlər həmişə ürəklərində insan üçün yararlı arzular gəzdirir və bunu yeri gəldikcə tərənnüm edirlər.

*Mən talelər yazan olsaydım əgər,*
*Təzədən yazardım öz taleyimi.*
*Çıxmazdı yoluma nə pislik, nə şər,*
*Görərdim qəlbimcə görəcəyimi.*

*Ürəyim tutanı tapıb seçərdim,*
*Bilərdim kəsdiyim çörəyin dadın.*
*Aydın üfüqlərdən keçib gedərdim,*
*Düşməzdim toruna "yaxının", yadın.*

Pul haqqında çox qələm sahibləri söz deyiblər. Xanəli Kərimli də öz fikrini belə ifadə edir:

*Sən dirini öldürən,*
*Ölüyə can verənsən.*
*Sən yoxluğu var edən,*
*Varı yox eyləyənsən.*

*Sənə əl çatmayanda,*
*Deyirlər, əl çirkisən.*
*Səni tanıyan bilir,*
*Tanrı nişanəsisən.*

*Səxavət də səndədir,*
*İbadət də səndədir.*
*Sənə iman gətirən*
*Haqq yanında öndədir.*

*Ey dövranlar hakimi,*
*Dövran sənindir yenə.*
*Allahdan qorxmasaydım,*
*"Allah" deyərdim sənə.*

Filologiya elmləri doktoru *(AMEA-nın müxbir üzvü idi - red.)* Adil Bağırov Xanəli Kərimlinin yaradıcılıqda sözə münasibətini belə ifadə edir:

*"...Xanəli Kərimli sözə həssas şairdir, o, daim söz axtarışında olur, sözdə bir işıq, bir nur axtarır. O, sözün çəkisini, qədrini bilir, qüdrətini, hikmətini qiymətləndirir, sözü hər şeydən ağır hesab edir.*

*Şair üçün söz, ən böyük enerji mənbəyidir. Onun təsir gücünü əvəz edə biləcək heç bir qüvvə yoxdur".*

Mən Xanəli Kərimli yaradıcılığını, həm oxucu, həm də bir qələm sahibi kimi yüksək qiymətləndirir və qeyd edirəm ki, o nədən yazmağı, necə yazmağı yaxşı bilir, məhz ona görə də onun qələmindən çıxanlar öz lakonikliyi, çalarları ilə fərqlənir.

Onu da qeyd etməyi lazım bilirəm ki, şair dostumun ***"Payız duyğuları"*** haqqında çox söz demək olardı, lakin mən kitabda yazılanların bəzi məqamlarına toxundum. Xanəli müəllim ömrünün müdrik çağını yaşamaqla yaradıcılığının da zirvəsindədir. Arzum budur ki, o daha çox yaşasın və tutduğu yaradıcılıq zirvəsindən heç zaman düşməsin, çünki başqa oxucuları kimi mən də ondan hələ çox əsərlər gözləyirəm.

***"Xalq sözü" qəzeti,***
***11-30 iyun 2014-cü il.***

**Qardaş Əlişoğlu,**
*Şair, yazıçı-dramaturq,*
***“3-cü Hədəf” qəzetinin baş redaktoru***

## ŞAİR QARDAŞIM, 60 YAŞIN MÜBARƏK

Əlimdə olan kitab istedadlı alim-tədqiqatçı, neçə-neçə elmi monoqrafiyaların, ədəbi-tənqidi məqalələrin və kitabların müəllifi olan Sabir Bəşirovun ***“Bir ömrün nağılı”*** adlı ədəbi porteret kitabıdır. 2011-ci il tarixində Bakı şəhərində “Qanun” nəşriyyatı tərəfindən buraxılmışdır. Bu nəfis kitab çağdaş Azərbaycan poeziyasının görkəmli nümayəndələrindən biri, tanınmış ədəbiyyatşünas alim, bacarıqlı pedaqoq, Naxçıvan Dövlət Universiteti xarici tələbələrlə iş fakültəsinin dekanı, filologiya elmləri namizədi, dosent, qayğıkeş ata, sədaqətli dost Xanəli Kərimlinin yaradıcılığına və anadan olmasının 60 illiyinə həsr olunmuşdur.

İstedadlı alim S.Bəşirov Xanəli Kərimli poeziyasına yaxından bələd olan bir alim kimi onun ədəbi portretini 6 bölümə ayırmışdır.

S.Bəşirov yazır: *“Bir kitabda olsa belə söz adamının, üstəlik çoxcəhətli yaradıcılığa malik şəxsiyyətin mükəmməl ədəbi portretini oxucu kütləsinə çatdırmaq çox çətindər”.*

Çünki hər kəsin qəlbində bir Xanəli Kərimli obrazı var, mən qələmə aldığım bu ədəbi portretdə yalnız həmin obrazın ştrixlərini tamamlamağa yardım göstərmək fikrindəyəm. Bu gün Xanəli Kərimli poeziyasına nəzər yetirdikdə görürük ki, şairin həyata ictimai-fəlsəfi baxışı yaradıcılığında poetik həllini taparaq obrazlaşır, əsərləri öz fəlsəfi və poetikası ilə hər vaxt oxucu qəlbinə yol tapır.

Şairin yaradıcılığına yüksək qiymət verən görkəmli akademik İsa Həbibbəyli ***“Xanəli Kərimli sənətinin üfüqləri”*** adlı ön sözündə yazır: *“Xanəli Kərimli üçün şairlik birincidir. O, hər şeydən əvvəl, sözün gerçək mənasında, istedadlı şairdir. Xanəli Kərimlinin şeir yaradıcılığında həssaslıq və vətəndaşlıq mövqeyi ön sırada dayanır. Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində*

*vətəndaşlıq lirikasının əsas yaradıcılılarından biridir. Xanəli Kərimlinin vətəndaşlıq lirikası sadəcə qələmə aldığı aktual mövzuları ilə deyil, daha çox bu bədii nümunələrdəki fikrin ifadə vasitəsilə yadda qalır. Daha doğrusu, şair bir qayda olaraq vətəndaşlıq lirikasını bədii biçimdə təqdim etməyi bacarır"...*

Şairin yaradıcılığı çox rəngarəngdir. Onun Yurd sevgisi, Vətən məhəbbəti, sevgi, dünyanın gərdişi mövzuları poeziyasında özünəməxsusluğu ilə seçilir:

*Dilim sözə yatandan,*
*Ayağım yer tutandan.*
*Nə əvvəli bilinən,*
*Nə axırı görünən*
*"Özüm" adlı dünyamda*
*Özümü axtarıram.*
*Bu çağacan olmayıb*
*Nə yerimi bilənim,*
*"Nə də "gördüm" deyənim.*

*Özümü gəzə-gəzə*
*Gəlib çıxdım əsrin*
*İki minilliyinə,*
*Yaşın qırx doqquzuna*
*Nə vaxt tapsam özümü*
*Üz tutub gedəcəyəm*
*Özünü tapanların*
*Əbədiyyət yoluna...*

Xanəli Kərimli əsərlərində iki dünya var. Müəllif yazır, birinci şairin iç dünyası, özü, bir də hamımızın yaşadığı dünya - Yer planetidir:

Şair öz dünyası barədə belə deyir:

*Məni silkələmə,*
*Silkələsən sən,*
*Üstümdən - başımdan*
*dərd töküləcək.*

*Dünyanın üzünü su alan kimi,*
*Dünya dərd içində ölüb gedəcək.*
*Yazıqdır bu dünya,*
*Hünər ona ki,*
*Mən tək dərd ümmanın üstə gəzdirir.*
*Bir damlam düşəndə bu yer üzünə,*
*Bir damla əzabım onu bezdirir,*
*Aləmlər içində, dünya içində,*
*Mənim öz aləmim, öz dünyam var,*
*Əlacsız, çarəsiz qaldığım anda,*
*Yenə öz dünyamda gördüm etibar.*

Şair öz yaradıcılığında insanın dünyaya gəlişindən söz açır. O deyir: *"Əgər insan dünyaya gəlibsə, o, dünyanın bütün problemləri ilə, çətinlikləri ilə, sevinci, kədəri, dərdi-qəmi ilə razılaşmalıdır, mübarizə aparmalıdır. Bax, həyat onda maraqlı olur, gözəl olur, rəngarəng olur, bilirsən ki, həyatda sən də yaşayırsan..."*

Mən isə həyatımın bir gününü maraqlı, rəngarəng yaşamadım. Ona görə sizdən üzr istəyirəm, bağışla məni ki, sizin 60 illik yubiley tədbirinizdə iştirak edə bilməmişəm. Xəbərim olmadığı üçün ümidvaram ki, siz məni bağışlayarsınız...

***"Bir ömrün nağılı"*** kitabının müəllifi Sabir Bəşirov böyük bir missiyanı öz üzərinə götürdüyü üçün ona öz minnətdarlığımı bildirirəm.

Ümidvaram ki, bu kitab Xanəli Kərimli haqqında və onun bədii yaradıcılığı ilə tanış olmaq istəyənlərə bələdçi rolunu oynayacaq. Sizlərə yaradıcılıq uğurları...

***"3-cü Hədəf" qəzeti,***
***13-20 mart 2012-ci il.***

**Vilayət Nəsirli,**
*Şahbuz rayonu Sələsüz kənd orta məktəbinin müəllimi*

**1**

# XANƏLİ KƏRİMLİNİN POETİK ALƏMİ

Xanəli Abbasəli oğlu Kərimli, filologiya elmləri namizədi, ədəbiyyatşünas, Naxçıvan Dövlət Universitetinin dosenti və həmin universitetdə Xarici tələbələrlə iş üzrə dekan, ikinci çağırış Naxçıvan MR Ali Məclisinin deputatı, Azərbaycan Yazıçılar Birliyinin üzvü, bir sıra elmi məqalələrin, şeirlər kitabının müəllifi, Türkiyə, İran, Gürcüstan və Hollandiyada keçirilən bir neçə beynəlxalq konfrans və tədbirlərin iştirakçısıdır.

Onun şeirlərində fəlsəfi ümumiləşdirmələr əsas yer tutur. O, fəlsəfi düşüncələr ustasıdır. X.Kərimli tanınmış alim və poeziya ustasıdır. 1987-ci ildə ***"Cənubi Azərbaycan demokratik ədəbiyyatında hekayə janrının inkişafı"*** mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Hazırda doktorluq dissertasiyası üzərində işləyir. O, poeziya aləmində özünəməxsusluğu ilə seçilir. Fikrini çox ustalıqla oxucuya çatdıra bilir. Onun poeziyasında həyata, insanlara fəlsəfi baxış aydın nəzərə çarpır.

X.Kərimli insanı canlıların ən mürəkkəbi kimi dəyərləndirir. İnsana xarakteri çox mürəkkəb olan varlıq kimi baxır. ***"Nədən"*** şeirində yazır:

*İtin də dilini bildim,*
*qurdun da.*
*Suyun da dilini bildim,*
*odun da...*
*Nədən,Allahım,*
*nədən -*
*adam dilini bilmədim*
*adam ola-ola?!*

*Bir ayağım burda,*
*Bir ayağım görda.*
*Cavab tapa bilmirəm*
*hələ də bu suala...*

İnsan və onun əməlləri, mənəvi-əxlaqi kamilliyə çağırış X.Kərimli yaradıcılığının ana xəttini təşkil edir.

***"Qartal ömrü"*** şeirində yazır:

*Min il ac yaşayar, susuz yaşayar,*
*Nə minnət götürər, nə boyun əyər.*
*Onun bircə anlıq qiyya çəkməsi*
*Yüz yastıyapalaq ömrünə dəyər.*

*Qartal öləndə də uçuşda ölür*
*Ki, dağlar sıxılıb qəmə batmasın.*
*Məğrur yerişini, şah duruşunu*
*Zirvələr əbədi hey xatırlasın.*

X.Kərimli insan ömrünün mənasını *"Tərəqqi"* şeirində özünəməxsus şəkildə belə ifadə edir:

*Kimi yorğanını ayağına,*
*Kimi ayağını yorğanına*
*görə uzatdı.*
*Kimi də*
*minillik ölü kimi*
*üzü qibləyə*
*yorğansız-filansız*
*qıvrılıb yatdı.*
*Burnundan uzağı*
*görməyən yazıq,*
*elə bildi ki,*
*bu, ən gözəl yaşayış,*
*ən gözəl də həyatdı...*

X.Kərimli fikir zənginliyi və fəlsəfi dərinliyi ilə seçilir.

Şairə görə *"Allah gözə görünmədiyi kimi, şeytan da gözə görünmür. Lakin hər birimizin qəlbində həm allah, həm də şeytan yaşayır. Kamilliyə gedən yol da bu ikilik arasındakı mübarizədən başlayır"*.

O yazır: *"Bəlkə də, dünyanı həqiqətdən çox yalan idarə edir. Çünki həqiqətdən qan, yalandan isə "şirin vədlər" iyi glir"*.

X.Kərimliyə görə *"o kəslər insan adlanmağa layiqdir"* ki, hər zaman şərə qalib gələ bilir - iç dünyasındakı pusquda olan pisliyi, yamanlığı öldürür...

O yazır:

*Kiminə dərd verdi Allah,*
*kiminə sərvət.*
*Dərd bir sərvətdir,*
*sərvət də bir dərd.*
*Kiminə dərd verdi Allah,*
*kiminə dərman.*
*Dərmansız dərd olmaz,*
*dərdsiz də dərman.*
*Kiminə dərd verdi Allah,*
*kiminə dövran.*
*Dövransız dərd olmaz,*
*dərdsiz də dövran.*

Burada həyatın mənası haqqında fikirlər öz əksini tapıb.

Davam edərək yazır:

*Kiminə at verdi Allah,*
*meydan vermədi.*
*Kiminə meydan verdi Allah,*
*at vermədi.*
*Nə meydanı olan yarıdı qismətindən,*
*nə atı olan.*
*Kiminə də nə at verdi Allah,*
*nə də meydan.*
*Bir ömür yaşatdı –*
*səfil, sərgərdan.*

Yazdığı şeirlər oxucunu düşündürür, sözün müqəddəsliyi aydın görünür. Fikir və fəlsəfənin dərinliyi özünü büruzə verir.

X.Kərimliyə görə fikir və fəlsəfə nə qədər dərin olursa olsun, eyni zamanda saf və aydın olmalıdır ki, hamı başa düşsün.

Oxucuya nəsihət verərək yazır:

*"Günəş olmasan da, şam ol ki, heç olmasa, bir kasib koması sənin işığınla nura qərq olsun".*

X.Kərimli Nizamidən, Füzulidən, Nəsimidən güc alır. Fikirlərini sərrast və düşündürücü şəkildə ifadə etməyi bacarır. O, poetik dildə inqilab edərək yazır:

*Əl çalmışıq -*
*Vətən üçün ölənə də.*
*Əl çalmışıq -*
*Vətənimi bölənə də.*
*Əl çalmışıq diri ikən ölümüzə,*
*ölü ikən dirimizə...*

Poeziyada qəmin, kədərin bolluğu aydın şəkildə özünü göstərir.

Bu onun həyata baxışının səmimiliyindən irəli gəlir. Yüksək insani duyğularından bəhrələnir. Onun fikrincə, insan qəm, kədər və dərddən xilas ola bilməz.

*Məni silkələmə,*
*silkələsən sən,*
*üstümdən, başımdan dərd töküləcək.*
*Dünyanın üzünü su alan kimi,*
*dünya dərd içində ölüb gedəcək.*
*Yazıqdı, bu dünya,*
*Hünər ona ki,*
*mən tək dərd ümmanın üstə gəzdirir.*
*Bir damlam düşəndə bu yer üzünə,*
*Bir damla əzabım onu bezdirir.*

X.Kərimli vətən sevgisi, vətən ağrısı ilə fikrini belə ifadə edir:

*"Bir vaxt dünya boyda olan Azərbaycan,*
*indi papaq boyda qaldın".*

O, zaman-zaman millətimizin başına gətirilən oyunları, əlifbamızın dəfələrlə dəyişdirilməsini bir ürək ağrısı ilə poetik dildə belə ifadə edir:

*Dədəmin xətti*
*Gültəkin-abidəli,*
*Babamın xətti*
*ərəb qiyafətli,*
*Atamın xətti - latın,*
*Mənim xəttim - kiril,*
*Oğlumun xətti-*
*"yenilənmiş" latın...*
*Dedilər:" İtməlidir*
*əslin,*
*kökün,*
*zatın".*
*Dedilər də,*
*etdilər də!...*
*İndi*
*nə oğlum məni,*
*nə mən atamı,*
*nə atam babamı,*
*nə də*
*babam dədəmi*
*anlaya bilmir...*

Xeyirlə şərin eyni zamanda mövcud olduğunu, iddia edir və onların birinin digərsiz təzahür edə bilmədiyini poetik formada belə ifadə edir:

*Beş hərfdir "bəşər" sözü,*
*İkisi haqq, üçüsə şər.*
*Tək bir kəlmə sözdə belə*
*Üz-üzədir xeyirlə şər.*

Onun poeziyasında özünü, dünyanı yüksək səviyyədə dərk etdiyi aydın duyulur.

Onun fikrincə, *"Etiraf özünüdərkin təzahürüdür".*

X.Kərimli aforizmlərinin birində yazır:

*O xalqın yoxdursa düşünən başı,*
*Onun qalmayacaq daş üstə daşı.*

Ağrı- acılarını poetik dildə ifadə edən şair maddi və mənəvi dünyadan yazır. İnsanın mürəkkəb varlıq olduğunu deyir. İnsan təbiətinin rəngarəng mənzərəsini yaradır.

*Tərəzi başında durubsa oğru,*
*Tərəzi heç zaman işləməz doğru.*

-deyərək gileylənir.

O, ürək ağrısı ilə bacısına ünvanladığı şeirində yazır:

*Keçən keçdi,əlim yetməz,*
*Sənsiz məni anan hanı?*
*Bir şam kimi dərdim bitməz,*
*Sən tək məni qanan hanı?*

*Gözdən-könüldən uzağam,*
*Yağı tükənmiş çırağam,*
*Mən də beş günlük qonağam,*
*Bir halımı soran hanı?*

Dünyadan gileylənir X.Kərimli beləcə.

Yaşadığı dünyanın taleyini düşünür. Adamları həyatın saflığını qoruyub saxlamağa çağırır.

*Əyri xətlər kimi əyri adamlar*
*Birləşə bilirlər istədiyi an.*
*Paralel xətlərtək düz adamlarsa,*
*Birləşə bilmirlər heç vaxt, heç zaman.*

O fəlsəfi söz dünyasında dolaşa-dolaşa dünya ədəbiyyatının zirvəsinə doğru addımlayır beləcə. Bu işdə ona uğurlar arzulayıram.

***Vilayət Nəsirli, "Gərək Haqqa düz olasan",***
***"Naxçıvan", 2015, səh.8 -13***

**2**

## AĞRILARLA DÖYÜŞƏN ŞAİR – XANƏLİ KƏRİMLİ

Xanəli Kərimli fikir və hissləri, yazı maneraları, ideomatik ifadələri yerli-yerində olan bir filosof şairdir. Onun müqəddəs torpağa, xalqa, Vətənə bağlılığını tərənnüm edən şeirləri oxucuda mənəvi həzz yaradır. Bu həzzin mayası onun şair fikirlərində özünü çox parlaq şəkildə göstərir. Onun şeirlərini, hissiz, həyəcansız oxumaq olmur. O, sözün qüdrəti ilə oxucunu ecazkar bir aləmə aparır.

Bədii sözün qüdrəti, incəliyi, böyüklüyü qarşısında oxucunun könlünün dərinliklərinə işləyir, qəlbini riqqətə gətirir. Misralar ürəkdən gəlir, qəlbin dərinliklərindən süzülüb ürəkləri fəth edir. Onun poeziyasına hopmuş hikmətlər, təzadlar, emosional gərginlik Xanəli şeirinə xüsusi rəng verir, bədii sözün qüdrətini artırır. Dərd onun başı üzərində şahlıq etdiyi bir vaxtda o, bundan cuşa gələrək böyük sənət əsərləri yaradır. Bu dərd, bu kədər onun qəlbini ilhama, ehtirasa və riqqətə gətirir, onu alovlandırır. O, dünya boyda kədəri, dərd yükünü ürəyində gəzdirən bir şairdir. Onun poeziyası ağrılı, sərt və döyüşkəndir.

Ən çətin anlarda belə daxilində baş qaldıran dərdlə mübarizə ruhu duyulur misralarında. Xalqı ayağa qaldırmaq,

həqiqəti üzə demək onun daxilindən gəlir, onun daxili qüdrətindən, məramından qidalanır və baş qaldırır.

İnsanlarda vətənin azadlığını görmək, mübarizə meydanına atılmaq ruhu aşılayır.

Onun misralarından şeirlərinin dəyəri, əzəməti duyulur.

Şeirlərindəki haray, dərd, göz yaşları oxuyanların mürgülü ruhunu oyadır.

Saçlarına qar yağan X.Kərimli dost məclislərində söz deyən, başqalarından fərqlənən bir insandır, şairdir, filosofdur.

Həmişə onun haqqında söz düşəndə deyirəm ki, onun şeirlərində Şəhriyar ruhu, X.Rza ruhu, M.Araz ruhu duyulur. Mübarizliyi onun qanından, onun iliyindən gəlir. Nəsimidən, Yunis İmrədən güc aldığı aydın görünür.

Öz taleyi ilə barışanlara, ancaq öz şəxsi rahatlığı üçün əlləşənlərə üz tutur, şimşək kimi çaxmağa çağırır. Əsərlərində sevinclə göz yaşının, xoşbəxtliklə dərdin bir-birini tamamlaması aydın görünür. Poeziyasında üslub, deyim tərzi, xüsusi bir mövqe özünü göstərir. Başı müsibətlər çəkmiş xalqın taleyinə acıyan şair öz yaradıcılığında bunu çox məharətlə ifadə edir:

*"Qeyrət qılıncımız pas arsa qında,*
*Bizə məzarlıqçün torpaq da qalmaz",*

-misraları insanı riqqətə gətirir.

O, *"bu boyda faciəsi olan bir millətin övladlarının başlarına papaq qoyub şax-şax gəzməyə haqları yoxdur"*, - deyir.

Vətənin, xalqın dərdi, kədəri, sevinci onun qəlbini ilhama, ehtizaza gətirir və qələmindən damla-damla süzülür, coşqun çaya çevirir.

***"Azərbaycan"*** şeirində yazır:

*Bəsdi daha özgələrdən çarə umdun dərdinə sən,*
*Dərdlərinin çarəsi də sən özünsən, Azərbaycan!*
*...Daha bıçaq sümükdədir, taleyinə özün qol çək,*
*Əyninə gey kəfənini, kəfəni qan Azərbaycan!..*

Onun poeziyası sanki, böyük oddur, alovdur. Onun özünü də yandırır, oxucularını da!

"Qabaqdadır" şeirində yazır:

*Mən qalxdığım təpə imiş,*
*Zirvə hələ qabaqdadır.*
*Yol aldım Təbrizə gedim,*
*Gördüm, Araz qabaqdadır.*

Burada bədii sözün qüdrəti, incəliyi, böyüklüyü özünü göstərir.

Bədii sözün qarşısında həssas oxucunun dayanması çətinləşir. Poeziya ülvi, müqəddəs duyğulardan yoğrulur. Deyilən hər bir sözün onun ürəyinə dəydiyini deyir:

*Ürəyimi bir köz yaman yandırır,*
*Sən dediyin bir söz yaman yandırır.*

Onun dup-duru bulaq kimi içilən şeirlərinin bir gücü də folklora söykənməsindədir, el sözündən qidalanmasındadır.

Onun poeziyasına hopmuş hikmətlər, aforizmlər, xalq ifadələri, təzadlar, emosional deyim tərzləri poeziyaya xüsusi çalar verir.

O, daxilindən gələn fikirlərini hiss və həyəcanlarını bədii sözün qüdrəti ilə o qədər sənətkarlıqla, ustalıqla təsvir edir ki, oxucu bu sirli-sehirli poeziyanın burulğanında batıb qalır, boğulduğunu hiss edir.

Aşağıdakı misraları ilə müəllif bənzərsiz duyumu ilə həyatın həqiqi mənzərəsini yaratmışdır.

*Toyunda oynamağa,*
*yasında ağlamağa*
*adam tutdu günəmuzd...*
*Nə sevincini bölən oldu,*
*nə də dərdini bilən.*

*Necə ki, əli isti idi*
*dolandılar başına*
*Yer Günəşin başına*
*dolanan kimi.*

ifadələrində çox yüksək duyum və deyim tərzi insanı heyrətləndirir.

Başqa bir misralarında isə poeziya şəffaf bulaq suyu kimi qəlb yanğısını söndürür.

Hörmətli filosof şairimiz X.Kərimliyə öz yaradıcılığında uğurlar arzulayır, qələmin daha da güclü olsun deyirik.

Qoy haqq bağıran səsiniz daha da ucalsın. Pas tutmuş ürəkləri yumuşaltsın, yatmışları oyandırsın, qəlblərə rəhm salsın, ədalət toxumu səpsin.

İşiniz tədqiqata layiqdir.

*"Haqlı ikən haqsızlaşan, haqqı talan Azərbaycan",* sənin dərdini çəkən oğulların vardır.

X.Kərimli məhz belə oğullardandır. Vətənin haqq səsini məhz belə oğullar dünyaya car çəkəcək.

Vətən oğlu, tanrı qələminə qüvvət versin.

Arxayın ol, şair dostum, ədalət qələbə çalacaq... bu qan yerdə qalan deyil!...

İnam, bizim yaşam tərzimizdir. Xoşbəxt gələcəyimizə lap az qalıb... Bəli, lap az!

***Vilayət Nəsirli, "Gərək, haqqa düz olasan",***
***"Naxçıvan", 2015, səh.14-17***

**Vüsal Şəbizadə**
*Sumqayıt Dövlət Universitetinin*
*filologiya fakültəsinin ikinci kurs tələbəsi*

# "BURDA DAŞA DÖNÜB ƏSRİN YADDAŞI"

Müasir dövrdə ədəbiyyatımızda öz dəsti-xətti ilə seçilən şairlərimizdən biri də Azərbaycan Yazıçılar Birliyinin üzvü, ədəbiyyatşünas-alim, filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Dövlət Universitetinin dosenti, həmin universitetin Əcnəbi tələbələrlə iş üzrə dekanı, ikinci çağırış Naxçıvan MR Ali Məclisinin deputatı, Naxçıvan MR-in əməkdar müəllimi Xanəli Kərimlidir. Xanəli Kərimli 1951-ci ildə Şahbuz rayonunun Mahmudoba kəndində anadan olmuşdur. O, bir sıra elmi, ictimai və publisistik məqalələrin, ***"Ay işığında" (1998), "Anamdan məktub" (2001), "Bu da bir nağıldı" (2004), "Mənə elə gəlir ki... (2008)", "Duyğularım, düşüncələrim", "Mənim könlüm bir ümmandır" (İran, 2011)*** kimi kitabların, ***"Ali və orta məktəblərdə Cənubi Azərbaycan ədəbiyyatının tədrisi metodikası (2000)"*** metodik vəsaitin müəllifidir. Şair haqqında ***"Şairə məktub" (2007), "Sözün Əlincə qalası" (2011)*** məqalələr toplusu və Sabir Bəşirovun *"Xanəli Kərimli:Bir ömrün nağılı" (2011)* monoqrafiyası nəşr edilib.

Şairin lirik şeirləri bu kitablardan başqa 2013-cü ildə nəşr edilən ***"Payız duyğuları"*** adlı kitabında da toplanmışdır. Xanəli Kərimlinin bu kitabında onun sosial düşüncələri,kövrək duyğuları öz əksini tapmışdır. Onun bu cür şeirlərini oxuyan oxucu şeirin ecazkar təsirilə şairin dərin, həm də işıqlı qəlbinə enir və oradakı ilham pərisini axtarır. Şairin ***"Payız duyğuları"*** kitabındakı şeirlər bir-birindən maraqlı mövzuları əhatə edir. Kitab altı hissədən ibarətdir ki, bu hissələrdə rəngarəng mövzulu lirik əsərlər toplanmışdır. Kitabda ilk öncə gözə çarpan cəhət şairin vətənlə bağlı olan şeirləridir. Onun bu qəbildən olan şeirlərində vətənin bötövlüyünü qorumağa çağırış, onu sevmək nidaları səslənir. Burada vətənpərvərlik mövzusundan başqa, son nəfəsinə qədər Azərbaycana xidmət

edən, torpaq uğrunda canını qurban verən şəhidlərimizin əziz xatirəsi anılmışdır. X.Kərimlinin vətən haqqında olan ülvi hisləri, şəhidlər haqqında olan hüznlü duyğuları onun ***"Azərbaycan ", "Şəhidlər Xiyabanında", "Harda Azərbaycan bayrağı qalxsa"*** adlı şeirlərində öz bədii inikasını tapmışdır.

*İçi özünü yandıran, çölü düşmən bağrı yaran,*
*Tariximin şəhid yaşı, şəhidləşən, Azərbaycan!*
*Yüz illərdir taleyinə gizli-gizli qol çəkilir,*
*Müəmmalı oyunların baş qurbanı, Azərbacan!*

***"Azərbaycan"*** şeirindən verilmiş bu bənddə Azərbaycan xalqının ta qədimdən başında olan amansız dəhşətlər göz önünə gətirilmiş, xalqın tarix boyu başına gələn müəmmalı hadisələri işıqlandırılmışdır. Nə qədər ürəkağrıdıcı olsa da, şair xalqımızın başındakı bəlaları, danılmaz faktları göstərmiş, məğrur Azərbaycan xalqının keçid dövründəki vəziyyətinə acımışdır. Keçən əsrdən, hələ ondan öncəki əsrlərdə də bu günə tarixin acımasız sınağından üzüağ çıxan, bir ayağını müharibədə itirən əsgər kimi ayaqüstə dimdik duran Azərbaycan xalqının qayğılı məqamlarına toxunmuşdur.

Şairin bu qəbildən olan şeirlərində Azərbaycanın tənqidi məsələsi sırf tənqidi məzmun yox, didaktik səciyyə daşıyır. O, bu şeirlərində tənqidlə öyrətmək yolunu tutur. Onun bu cür şeirləri M.Ə.Sabiri, S.Ə.Şirvanini xatırladır. Sonrakı bəndlərdə şairin nisgili artıq tənqidi məzmundan çıxaraq nəsihətamiz səciyyə daşıyır. Azərbaycan gəncliyinə öz keçmişini, Azərbaycan xalqının şanlı tarixininin qanlı səhifələrini göstərməklə, gəncləri bu yolda mübarizliyə səsləmiş və xalqımıza xor baxanlara haqqımızı tapdalamağa imkan verməməyə çağırmışdır.

Xanəli Kərimlinin *"Şəhidlər bu yurdun tale yazısı, Şəhidlər bu yurdun qan yaddaşıdır"* proloqlu ***"Şəhidlər Xiyabanında"*** şeirində xalqımızın qürur mənbəyi olan şəhidlər hüznlə yada salınır. Şeir bir növ elegiya səciyyəsi daşıyır. Oxucu şairin *"Şəhidlər Xiyabanı"*nda şəhid məzarları önündən

keçərkən, qəlbini paralayan şəhid çöhrələri, onun qəlbində yaratdığı acı təəsüratları sezir. Burada şəhidlərin daşlaşmış, heykəlləşmiş nakam ömrünü əsrin yaddaşına yazmaqla şair öz təlatümlərindən yaxa qurtarmaq istəyir.

*Burda daşa dönüb əsrin yaddaşı,*
*Burda heykəlləşib nakam ömürlər.*
*Burda korun-korun yanıb-yaxılır*
*Yaralı ürəklər, dərdli könüllər.*

İkinci bənddə şairin qəmi daha da artır. Şəhid məzarı üstündə ağlayan, saçlarını yolan ananın, oğlunun başdaşına baş söykəyən atanın, digər tərəfdə şəhidin pərişan bacı və qardaşının bədii portreti çəkilmişdir. Şairin qəmi artıq növbəti bəndlərdə şiddətlənir. Artıq şeirdə söz satirik mövqe tutur. Şeirdə dırnaqarası vətəndaşlar tənqid atəşinə tutulur və Məmməd Arazın dediyi kimi xalqa *"vətəndaş"* yox, hər zərrəsində vətənin bir ünsürünü daşıyan *"vətənin daşı"* olmağı arzulayır.

*Bir ana saç yolur qəbir üstündə,*
*Kasıbçılıq yağır əyin-başından.*
*Bir ata baş qoyub bir baş daşına*
*Min əzab duyulur baxışlarından.*

*Bir bacı heykələ dönübdü sanki,*
*Qardaş məzarının astanasında.*
*Bir əli qabarlı qardaş diz çöküb,*
*Şəhid qardaşının qəbri yanında.*

Nəhayət. şair sonda bütün qəm-qüssəni kənara atır, gələcəyə doğru ümidlə baxaraq *"qanınız yerdə qalmayacaq"* məzmunlu aşağıdakı misraları deyir. Bu misraları həm də şeirin *"şah beyt"*i adlandırsaq, yanılmarıq.

*Ancaq yavaş-yavaş yüksələn yeni*
*Yumruqlar açacaq bu düyünləri...*

X.Kərimlinin şeirlərindəki orijinallığın səbəbi misraların onun xəyal gücünün məhsulu deyil, məhz, ətrafında şahidi olduğu hadisələrdən bəhrələnməsidir. Bu cəhətdən şair romantik yox, realistdir. Bu xüsusun gözləmilməsi oxucuya həqiqəti aşılayır və ona poetik zövq verir.

Şairin 2000-ci ildə Ankarada olarkən yazdığı, özünün də dediyi kimi *"Azərbaycan xalqının böyük öndərlərindən biri olan Məmməd Əmin Rəsulzadə"*yə həsr etdiyi ***"Harda Azərbaycan bayrağı qalxsa"*** şeiri də gözəl vətən lirikası nümunəsidir. Şair M.Ə.Rəsulzadənin məzarını ***"Əsrin məzarlığı"***nda yad edərək ona şeirdə öz ehtiramını obrazlaşdırmışdır. Şeirin adında da M.Ə.Rəsulzadənin *"Bir kərə yüksələn bayraq, bir daha enməz"* şüarı da göstərilmişdir. Bu şeir də şairin yuxarıdakı şeirləri kimi yüksək vətəndaşlıq pafosu, vətəndaşlıq duyğuları ilə seçilir. Burada Rəsulzadənin məzarı önündən keçərkən, şairin ürəyində yaranan isti-isti duyğular qələmə alınmışdır.

*Gəzdim məzarlığı qarışbaqarış,*
*Gözümün heyrətdən saraldı kökü.*
*Bir məzar qəhrini çəkə bilmirəm,*
*Sən necə çəkmisən bir millət yükü.*

Şair qürbət eldə Azərbaycan həsrətilə boylanan bu məzarın onun qəlbində oyatdığı təəsüratları təbii və bədii boyalarla ifadə etmişdir.

Xanəli Kərimlinin ***"Payız duyğuları"*** kitabının ikinci hissəsi ***"Mən tövbələr qapısıyam"*** adlanır. Bu hissədə toplanmış şeirlərin əksəriyyəti dini-irfani, mənəvi- əxlaqi mövzuda yazılmışdır.

X.Kərimlinin şeirlərini təhlil edən professor Camal Mustafayev yazır: *"Şairin sufilik düşüncə tərzi saf dindarlıqla daxilən qovuşur.Ruhunda Allah ideyasını dərk edən, kamilliyə yönəldən sufi eyni zamanda səmimidir".*

Bəli, şairin belə şeirlərində birbaşa dini ehkamlar deyil, insanı paklaşdıran fikirlər yer alır. ***"Mən buyruq quluyam", "Tanrının günahkar bənsədi-şair", "Allah", "Dua"*** v.s.

şeirləridir. ***"Dua"*** şeirində Allahla bəndə arasında ola biləcək ən irfani fikirlər qələmə alınmışdır.

*Daşı tərəziyə düz qoyan Allah,*
*Sən dağıt yolumdan dumanı, çəni.*
*Hər bəndə qəlbində iz qoyan Allah,*
*Düşmən qabağında xar etmə məni.*

Dördüncü bənddə şair cəmiyyətdə olan naqisliklərdən, eybəcərliklərdən söz açır. Bir tikə dünya malına aldanıb insanlıqdan uzaq düşmüş insanların halı göstərilmiş və yenə də çıxış yolunu Allahda görmüşdür.

*Aldanıb bir tikə dünya malına*
*İnsan uzaq düşüb insanlığından.*
*Uyubdu dünyanın qeylü-qalına,*
*Baxışında qəzəb, fikrində də qan.*

Kitabın üçüncü - ***"Dünya və mən"*** hissəsində, onun uşaqlıq illərində başına gələn əhvalatın səbəb olduğu və 25 ildən çox müddətdən sonra qələmə aldığı ***"Küçə iti"*** adlı şeiri yer alır. Şair öz xatirələrində bu haqda belə yazır: *"...Qonşu obadan köç bizim obadan keçəndə, necə oldusa, bir it köçdən azıb qaldı. Bu it ilk vaxtlar özünü məğrur aparır, oba itlərinin gözünün odunu alırdı. Az keçəndən sonra sahibsizliyini duydu, doğmalıq görmədi, yavaş-yavaş mutiləşdi, yazıqlaşdı. Bir tikə çörəkdən ötrü quyruq buladı".* Bu əhvalatın məhsulu olan bu şeirdə, şairin həmin itə acımasından deyil, it xislətində yaşayan insanların durumundan söhbət açılır. İtin bu vəziyyəti sanki, insanlar üzərinə köçürülmüşdür.

*Bir vaxtlar atlnıı salardın atdan,*
*Elatı saxlardın oğrudan, yaddan.*
*Bir quş da qorxundan səkməzdi yurddan,*
*İndi üz-gözündən tulalıq yağır.*

Şairin öz anasının xatirəsinə həsr etdiyi, övladın ana üçün düşündüyü ən sərrast, obrazlı-emosional fikirlərin yer aldığı, sadə, aydın, yığcam bir dillə ifadə edilən şeiri ***"Payız duyğuları"*** kitabının *"Başımın tacı torpaq"* hissəsindəndir. Şair şeirdə obrazlı sözün çəkisini artırmış, ana üçün yazılmış bütün şeirlər kimi sanballı əsər yaratmışdır. Öz doğum günündə vəfat etmiş anasının, hansı ki, özünün də dediyi kimi, *"hərarətilə torpağı oyadan"* ana cəsədinin tərənnümü verilmişdir.

*Mənim ad günümdə, doğum günümdə,*
*Sən köçdün gor adlı təzə mənzilə.*
*Canına can gəldi sanki yerin də,*
*Ana cəsədinin hərarətiylə.*

Sonrakı bəndlərdə anasının vaxtı ilə ona dediyi, hər bir ananın öz övladı üçün arzuladığı xoş arzuları qələmə alınmışdır. Gözü heç vaxt dünya malında olmayan, həyatda yalnız öz övlarları üçün yaşayan, övladlarından maddiyyat ummayan ana, övladına mənəviyyat adamı olmasını arzulamışdır.

*Deyərdyn,gözüm yox dünya varında,*
*Sizdən də ummuram bir çürük dənə,*
*Təki sağ sadənız gəlsin, ay bala,*
*Təki siz çıxasız xoşbəxt, ağ günə.*

Xanəli Kərimlinin ***"Payız duyğuları"*** kitabının beşinci hissəsi ***"Hələ gec deyil"*** adlanır ki, bu hissədə ***"Yaşadıq bu günü yarıyuxulu"*** adlı şeiri diqqəti cəlb edir. Çox güman ki, şairə sevgi haqqında şeir yazmaq sifariş edilib və o da cavabında aşağıdakı misraları demişdir:

*Məndən sevgi şeiri istəyən qardaş,*
*Ruhum o aləmlə vidalaşıbdır.*

Şair sanki bu deyimlə dillərə dastan olan ilahi sevgidən əsər-əlamət qalmadığını bildirir. Sonrakı misralarda o, ona

ilham verəcək Leyli-Məcnun sevgisinin artıq nağıl olduğunu, başdan-ayağa yalanlardan ibarət sevgi eşq ümmanında üzən sevgi gəmisinin artıq suya qərq olduğunu, əvvəl-əvvəl dil töküb, şirin vəd verənlərin, sonradan onları bir göz qırpımında unudan *"sevgi qəhrəmanları"*nı görərək təəssüf hissi keçirmişdir:

*İndi yalanlardır sevgi donunda*
*Təmiz ürəkləri oğurlayanlar.*
*Tökdüyü dilləri, şirin vədləri,*
*Bir göz qırpımında pozub-dananlar.*

X.Kərimlinin sevgi-məhəbbət lirikasını təhlil edən Sabir Bəşirov onun bu cür şeirlərini belə dəyərləndirmişdir: *"...O, insanı bütün duyğuları, ağrı-acıları ilə birgə qəbul edir, onun qəlbinin dərinliklərinə enməyə cəhd göstərir. Buna görə də onun sevgi şeirləri oxucunun qəlbinə asanlıqla yol tapır. Xanəli Kərimlinin sevgisi bu mənada daha çox ruhani sevgidir".*

Həm alimlərin, həm də şairin dostlarının Xanəli Kərimli haqqında fikirləri birmənalıdır. Onlar da şairin şeirlərində hiss olunan mütərəqqi ideyaları alqışlamışlar. Biz də şairə gələcək yaradıcılığında uğurlar arzulayırıq.[2]

***"Möhtəşəm Azərbaycan" qəzeti,***
***24 oktyabr 2015-ci il.***

[2] Bu material həm də İnternet saytında"Xanəli Kərimli" bölmündə Vüsal Şəfəqli (Şabizadə) imzasıyla "Ədəbiyyatşünas alim, əməkdar müəllim və istedadlı şair Xanəli Kərimli"adı ilə oxuculara təqdim olunub – red.

**İradə Əliyeva,**
*Şahbuz rayonu*
*Sələsüz kənd orta məktəbinin müəllimi*

# XANƏLİ KƏRİMLİ

Xanəli Kərimli dünya boyda dərdi-kədəri, qəm yükünü ürəyində gəzdirən şairdir. Bu dərd, bu kədər Vətənin, elin dərdidir. Şair ***"Azərbaycan"*** şeirində yazırdı:

*Yüz illərdir taleyinə gizli-gizli qol çəkilir,*
*Müəmmalı oyunların baş qurbanı, Azərbaycan!*

Xanəli dərdinin mənbəyinin haradan qaynaqlandığı bu misralardan aydın görünür. Bu dərd, bu kədər onun özünü də yandırır, oxucusunu da. Təsadüfi deyil ki, dahilərimizdən biri deyirdi: *"Şeir yazmaq üçün zövq və səfa lazımdır demə, sən dərdindən danış. Şeir müsabiqəsində qələbə qazanan dərddir".* Xanəli şeirinin də qələbəsi dərddən gələn gözəllikdir.

Dərd onun başı üzərində şahlıq etdiyi bir vaxtda şair vəcdə gələrək gözəl sənət əsərləri yaradır. Kədər onun şeirlərinin qüdrətini daha da artırır.

*"İgidlərin" kefxanada badə içir şərəfinə,*
*Yad əllərdə fəryad edir, yarı canın, Azərbaycan!*

Budur, Xanəli kədərinin qaynağı *"Vətənin yarı canı yad əllərdə fəryad edir"*. Ağla, Vətən oğlu, ağla şair, bəlkə, səsin daş ürəkləri yumşalda. Vətənin dərdinə qalan tapıla.

*Sənsiz bizim bundan belə yaşamağa haqqımız yox.*
*Haqlı ikən haqsızlaşan, haqqı talan, Azərbaycan!*

...Nə olardı, xainlər, satqınlar olmasaydı, xalq basılmazdı.

Xanəli şeirinin dərinliyinə hopmuş hikmətlər oxucu könlünün dərinliyinə işləyir. Onun şeirləri ürəkdən gəlir. Ürəkdən

gəlməyən şeir ürəyə yol tapmaz. Xanəli şeirlərini hissiz həyəcansız oxumaq olmur.

Bu şeirlər oxucunu ecazkar aləmə aparır. Onun sözünün sehrinə düşməyən olmaz. O, sözdən yerli-yerində istifadə edən şairdir. Şair *"bu boyda dərdi olan millətin oğullarının başına papaq qoyub gəzməyə haqqı yoxdur"* deyir.

*"Xalq", "xalq" deyib xalqın haqqın yeyənlər,*
*Çəkməsini xalqın üstə silənlər,*
*Şəhidləşən oğullara gülənlər,*
*Bu qan yerdə qqalan deyil!*

Onun şeirlərindəki haray, göz yaşı mürgüləyən ruhları oyadır.

Onun şeirlərində xalqın əzəməti, igidliyi durur. Təqdim olunan poetik toplusunda öz şeirləri ilə göz yaşının, xoşbəxtliklə dərdin bir-birini tamamlaması aydın görünür. Onun şeirlərində özünəməxsus üslub, deyim tərzi vardır.

Başı müsibətlər çəkən xalqın taleyinə yanan Xanəli Kərimliyə yaradıcılığında uğurlar arzulayır və" qoy, bu yanğılı mısralrınız qəlblərə ədalət toxumu səpsin"- deyirik.

***Vilayət Nəsirli, "Gərək, haqqa düz olasan",***
***"Naxçıvan", 2015, səh.20-21.***

Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi,Azərbaycan Yazıçılar Birliyinin üzvü, Xarici tələbələrlə iş üzrə dekan,filologiya üzrə fəlsəfə doktoru, şair Xanəli Kərimlinin 60 illiyinə həsr edilmiş yubiley mərasimi keçirilmişdir. Tədbirdə giriş sözü ilə çıxış edən rektoru, akademik İsa Həbibbəyli Xanəli Kərimlinin yaradıcılığının əsas məziyyətlərindən danışaraq onun müstəqillik dövrü ədəbiyyatının,vətəndaşlıq lirikasının tanınmış nümayəndələrindən olduğunu, Türkiyə, İran, Gürcüstan, Hollandiya və Pakistanda keçirilən bir sıra beynəlxalq tədbirlərdə iştirak etdiyini, şeirlərinin müxtəlif dillərdə tərcümə və nəşr olunduğunu bildirmişdir.

Akademik İsa Həbibbəyli yubilyarı kollektiv adından təbrik etmişdir. Xanəli Kərimli çoxillik səmərəli fəaliyyətinə görə Naxçıvan Dövlət Üniversitetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Universitetin Elmi kitabxanasının direktoru, filologiya üzrə fəlsəfə doktoru Ayapara Behbudova, AMEA Naxçıvan Bölməsinin sədri,akademik İsmayıl Hacıyev yubilyarı poetik amalı ilə həqiqi vətən övladı olan şair kimi qiymətləndirmiş, şairin əqidə bütövlüyü, məfkurə saflığı haqqında danışmış, siyasi lirikasından,poeziyasının fəlsəfəsindən söz açmışlar.

Naxçıvan MR Yazıçılar Birliyinin sədri Asim Yadigar, universitetin "Qeyrət" nəşriyyatının direktoru, tarix üzrə fəlsəfə doktoru Vaqif Məmmədov şair həmkarlarını təbrik etmiş, ona yeni-yeni yaradıcılıq uğurları arzulamışlar.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin və Naxçıvan MR Yazıçılar Birliyinin təbrikləri səsləndirilmişdir.

Azərbaycanın xalq artistləri Rza Xudiyev və Həsən Ağasoy şairin şeirlərindən ibarət ədəbi-bədii kompozisiya təqdim etmiş, Naxçıvan MR əməkdar artisti aşıq Tural Bağırov və Prezident mükafatçısı, muğam ustası Hünər Əliyev yubilyara musiqi ərmağanı etmişlər.

Sonda şair Xanəl Kərimli muxtar respublika rəhbərliyinə, universitet kollektivinə və yubiley təşkilatçılarına dərin minnətdarlığını çatdırmış, yeni şeirlərindən oxumuşdur.

*Naxçıvan Dövlət Universitetinin "Fikir" bülleteni, 2012, N 4, s.36.*

## "İLK SÖZÜM, SON SÖZÜM ŞEİRLƏRİMDİR..."

***(Şair Xanəli Kərimlinin 60 illiyinə həsr edilmiş yubiley tədbiri)***

Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya üzrə fəlsəfə doktoru, şair Xanəli Kərimlinin 60 illiyinə həsr edilmiş yubiley tədbiri keçirilmişdir. Tədbirdə çıxış edən universitetin rektoru,akademik İsa Həbibbəyli müasir Azərbaycan poeziyasının inkişaf istiqamətlərindən, ədəbi proseslərdən, Naxçıvan elmi-ədəbi mühitinin tanınmış simalarının bədii yaradıcılığından bəhs etmişdir.

Qeyd olunmuşdur ki, Xanəli Kərimli müstəqillik dövrü ədəbiyyatımızın vətəndaşlıq lirikasının tanınmış nümayəndələrindən biridir. Onun şeirləri müxtəlif dillərə tərcümə və nəşr olunmuş,bununla da müasir ədəbiyyatımızı Yaxın Şərqdə də tanıtmışdır. Akademik İsa Həbibbəyli şairin maarifçi poetik baxışlarından, poetik duyum tərzindən, tənqidçi-pedaqoq kimi çoxşaxəli fəaliyyətindən danışaraq yubiliyarı kollektiv adından təbrik etmişdir. Xanəli Kərimli çoxillik səmərəli fəaliyyətinə görə Naxçıvan Dövlət Universitetinin Fəxri Fərmanı ilə təltif olunmuşdur.

Şairin yaradıcılığının ardıcıl təbliğatçılarından olan universitetin elmi kitabxanasının direktoru, filologiya üzrə fəlsəfə doktoru Aypara Behbudova məruzəsində ***"Ay işığında", "Anamdan məktub", "Bu da bir nağıldı...", "Mənə elə gəlir ki", "Duyğularım, düşüncələrim"*** şeir kitablarının

müəllifi Xanəli Kərimlini poetik təfəkkür aləmində orijinallığı ilə seçilən, əqidəsi, poetik amalı ilə həqiqi Vətən övladı olan şair kimi qiymətləndirmiş, onun yaradıcılığı barədə ətraflı məlumat vermişdir.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yubiliyarın siyasi lirikasından, poeziyasının fəlsəfəsindən, elmi tədqiqatlarından,ictimai publisistikasından bəhs etmiş,onun aforizmlərinin xüsusi məna çalararından, yaradıcılığındakı etnoqrafik nümunələrdən, folklora bağlılıqdan, Vətənə, xalqa məhəbbət duyğularının tərənnümündən söz açmışdır.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, universitetin "Qeyrət" nəşriyyatının direktoru, tarix üzrə fəlsəfə doktoru Vaqif Məmmədov çağdaş Azərbaycan poeziyasının istedadlı ümayəndəsi, tanınmış ədəbiyyatşünas alim və pedaqoq Xanəli Kərimlinin şəxsiyyəti ilə yaradıcılığının vəhdət təşkil etdiyini vurğulayaraq şair həmkarını təbrik etmiş, ona yeni-yeni yaradıcılıq uğurları arzulamışlar. Qeyd olunmuşdur ki, Xanəli Kərimlinin haqqında ***"Şairə məktub", "Sözün Əlincə qalası"*** adlı məqalələr məcmuələrindən də göründüyü kimi onun yaradıcılığı artıq ədəbiyyatşünaslıq predmetinə çevrilməkdədir.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin və Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin təbrikləri səsləndirilişdir.

Azərbaycanın xalq artistləri Rza Xudiyev və Həsən Ağasoy şairin şeirlərindən ibarət ədəbi-bədii kompozisiya təqdim etmiş, Naxçıvan Muxtar Respublikasının əməkdar artisti, aşıq Tural Bağirov və Prezident mükafatçısı, muğam ustası Hünər Əliyevin ifaları alqışlarla qarşılanmışdır.

Sonda şair Xanəli Kərimli Naxçıvanda elmi-ədəbi mühitə göstərilən yüksək qayğıya görə dərin minnətdarlığını bildirmiş,yeni şeirlərini oxumşdur.

***Mehriban Sultan,***
***"Şərq qaısı"qəzeti, 3 dekabr, 2011-ci il.***

## SÖZÜN ƏLİNCƏ QALASI

"Qanun" nəşriyyatı 2011-ci ildə tanınmış şair, Naxçıvan Dövlət Universitetinin müəllimi,ədəbiyyatşünas alim, Naxçıvan MR-in əməkdar müəllimi, filologiya üzrə fəlsəfə doktoru Xanəli Kərimlinin ***"Sözün Əlincə qalası"*** kitabını çap etmişdir. Şair-alim Xanəli Kərimli haqqında yazılmış məqalələrin,müxtəlif mətbu orqanlarında söylənmiş fikirlərin, müəllifə ünvanlanmış məktublardan nümunələrin verilməsi kitabın oxucular üçün dəyərli olduğunu,insanların şəxsiyyət kimi formalaşmasında böyük əhəmiyyət kəsb etdiyini göstərir. İnanırıq ki, akademik İsa Həbibbəylinin *"Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biridir"*, professor Camal Mustafayevin *"Şair Xanəli Kərimlinin gözəl poeziyası ilə şəxsiyyəti təbiətən bir-birini şərtləndirir, tamamlayır"* ədəbi-nəzəri düşüncələri də şair-alim Xanəli Kərimlinin poeziyasını və elmi fəaliyyətinin uğurlarını öyrənməkdə, tədqiq etməkdə obyektiv yanaşma mövqeyidir, alim məntiqinin gücünün ifadəsidir.

***Sumqayıt Dövlət Universiteti,***
***"Elmi xəbərlər", cild 8, 2012, N8.***

## MƏQAƏLƏR TOPLUSUNUN İŞIĞINDA

Qədim Naxçıvanda yaşayıb-yaradan tanınmış şaır və ədəbiyyatşünas, filologiya üzrə fəlsəfə doktoru Xanəli Kərimlinin özünəməxsus yaradıcılığı haqqında qələm dostlarının, ədəbiyyat və incəsənət xadimlərinin ürək sözlərindən, ayrı-ayrı illərdə qələmə aldıqları məqalələrdən seçmələri özündə əks etdirən ***"Xanəli Kərimli: Sözün Əlincə qalası"*** toplusu bu günlərdə "Qanun" nəşriyyatı tərəfindən işıq üzü görüb. Akademik İsa Həbibbəyli, professorlar Camal Mustafayev, Maarifə Hacıyeva, filologiya elmləri doktorları Adil Bağırov, Həmid Əliyev,Muxtar Kazımoğlu, SevindikVəliyev, filologi-

ya üzrə fəlsəfə doktorları İsgəndər Orucəliyev, Azər Turan, Asif Rüstəmli, Sabir Bəşirov, Vaqif Məmmədov (*tarix üzrə fəlsəfə doktoru - red.)* və başqalarının topluya daxil edilən məqalələrində X.Kərimlinin yaradıcılıq özəlliklərindən dərin səmimiyyətlə söz açılır, uğurları təqdim edilir.

X.Kərimlinin 60 illik yubileyi münasibətilə araya-ərsəyə gələn yeni nəşrdə, həmçinin, yazıçı və şairlərdən Flora Xəlilzadə, Əbülfəz Əsgərli, Elçin Kamal, Binnət Nəsibov, Sərvaz Hüseynoğlu, İbrahim İlyaslı və b. onun yaradıcılığını fərqli baxış bucağından araşdırır, vətənpərvərlik qayəsini önə çəkirlər.

***S.Əsgərli,***
***"Ədəbiyyat qəzeti",***
***25 noyabr, 2011-ci il.***

## YENİ "PAYİZ DUYĞULARI"

Cağdaş Azərbaycan poeziyasının tanınmış nümayəndələrindən biri, Azərbaycan Yazıçılar Bipliyinin üzvü Xanəli Kərimlinin ***"Payız duyğuları"*** adlı şeirlər kitabı "Qanun" nəşriyyatında işıq üzü görüb. Kitabda şairin poetik yaradıcılığından seçmələr yer alıb. Kitabın tərtibatçısı və nəşrə hazırlayanı Nəriman Əbdülrəhmanlı, redaktoru Sabir Bəşirovdur.

Qeyd edək ik, Xanəli Kərimli filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Dövlət UniVersitetinin dosenti və həmin universitetdə Əcnəbi tələbələrlə iş üzrə dekandır. Eyni zamada o,ikinci çağırış Naxçıvan Ali Məclisinin deputatı, Naxçıvan MR əməkdar müəllimidir. O,bir sıra elmi və publisistik məqalələrin ***"Ay işığında" (1998), "Anamdan məktub" (2001), "Bu da bir nağıldı" (2004), "Mənə elə gəlir ki..." (2008), "Duyğularım, düşüncələrim", "Mənim könlüm bir ümmandır" (İran,Urmiya, 2011***) şeir kitablarının, ***"Ali və orta məktəblərdə Cənubi Azərbaycan ədəbiyyatının tədrisi metodikası" (2000)*** metodik vəcaitinin müəllıfidir. Onun bədii yaradıcılığı, əsərləri ədəbi tənqidin də diqqət mərkəzindədir. Belə ki, Xanəli Kərimli haqqında ***"Şairə məktub" (2007), "Sözün***

***Əlincə qalası" (2011)*** məqalələr toplusu və fəlsəfə doktoru Sabir Bəşirovun ***"Xanəli Kərimli: Bir ömrün nağılı" (2011)*** monoqrafiyası nəşr edilib.

Xanəli Kərimlinin ***"Payız duyğuları"*** kitabı altı hissədən ibarətdir. Şeirlər müxtəlif mövzular üzrə qruplaşdırılıb. Şairin yaradıcılığına xas olan haqqa sədaqət, yurda bağlılıq, insana sevgi bu kitabda yer almış şeirlərdə də aşkar nəzərə çarpır.

***NƏZRİN***
***"525-ci qəzet",***
***14 yanvar, 2014-cü** il.*

# MÜASİR ƏDƏBİ TƏNQİD BU GÜNÜN ƏDƏBİ PROSESİ SƏVİYYƏSİNDƏDİR

**Alim-şair Xanəli Kərimli ilə üz-üzə söhbət:**

***– Şair olmaq üçün nə etmək, necə yazmaq, hansı mövzulara müraciət etmək lazımdır? Şairlik Allah vergisidir, yoxsa hansısa mənəvi ehtiyacdan şeir yazılır?***

– Yaradıcılıq, hər şeydən əvvəl, ovqat işidir, köklənməkdir. Necə ki, ustad aşıqlar bir havanı çalarkən sazı o havaya kökləyir, şair də, yazıçı da belədir: bir mövzunu yazmamışdan əvvəl o mövzu üstdə köklənir. Heç vaxt, "Misri" saz havası üstdə, deyək ki, "Yanıq Kərəmi" çalmaq olmaz, yaxud da əksinə. Buna görə də yaradıcı adam bir çox hallarda ovqatın *"quludur"*. Əgər, necə deyərlər, ürəyindən qara qanlar axırsa, sən necə vüsal aləmindən şeir yaza bilərsən? Hər şeri, hər mövzunu yazmağın öz sözləri var. Elə bil ki, bu sözlər İlahidən seçilir: yalnız o şeri, o mövzunu yazmaq üçün. Çünki toyun toy, yasın yas paltarı olduğu kimi, iztirabdan, kədərdən yazılan şeirlərin öz *"paltarı"*, sevgi şeirlərinin də öz *"paltarı"* var. Bunu söz sərrafları yaxşı bilir...

Özümə gəldikdə isə ürəyim nəyi tələb edibsə, onu da yazmışam. Bütün insanların ürəyinin fəaliyyəti və forması, əsasən, eynidir. Ona görə də Səməd Vurğun demişkən: *"Ürəyə ürəklə hökm etmək olar"*. Ürəkdən gəlməyən ürəklərə yol tapa bilməz. O şerin, sənət əsərinin arxasında ürək dayanmırsa, o elə ürəksiz bədən kimidir, yaşamaq haqqı qazana bilməz. Necə ki ustadımız Məmməd Araz deyir:

*Ürəyimsiz kəlmə yazan deyiləm,*
*Nə qədər ki, öz əlimdir yazanım.*

***– Görkəmli yazıçımız İlyas Əfəndiyevin "Geriyə baxma, qoca" adlı bir əsəri var. Siz geriyə baxanda nəyə sevinir, nəyə təəssüflənirsiniz?***

– Bütün ömrümə tale işi kimi baxmışam. Mən o arzularımın dalınca getmişəm və gedirəm ki, onlar mənim imkanım və mənim gücüm daxilindədir. Gücüm çatmayan daşdan yapışmamışam ki, sonra özümə dərd eyləyəm. Yerinə yetməyən arzularım olubsa da, onları da bir tale, qismət işi hesab etmişəm. Bir həqiqəti dərk etmişəm ki, keçmiş üçün göz yaşı axıtmaqla *(əgər o keçmişə göz yaşı axıtmağa dəyərsə),* gələcəyə can atmaqla heç bir şeyə nail olmaq olmaz. Əsas yaşadığın həyatı mənalı və minnətsiz yaşamağı bacarmaqdır. Geriyə baxanda insan o vaxt sevinir və təəssüf hissi keçirmir ki, o, bütün ömrünü əxlaqlı və halal yaşamış olsun.

***– Bugünkü Naxçıvan ədəbi mühiti, xüsusilə də gənc yazarlar barədə nə deyə bilərsiniz?***

– Bu gün Bakı, Gəncə, Qazax, Lənkəran... ədəbi mühitləri fəaliyyət göstərir. Bunlardan biri və mən deyərdim ki, öncüllərdən biri Naxçıvan ədəbi mühitidir. Naxçıvan ədəbi mühitinin dünəni haqqında çox deyilib, çox yazılıb. Naxçıvan elmi-ədəbi mühitinin böyük Azərbaycan elmi- ədəbi mühitinə bəxş etdiyi C.Məmmədquluzadə, H.Cavid, M.S.Ordubadi, Ə.Qəmküsar, Ə.Əylisli, M.Araz, İ.Səfərli, H.İbrahimov, A.Babayev, H.Razi, Ə.Yusifli, M.C.Cəfərov, A.Zamanov, M.Təhmasib, Ə.Sultanlı, F.Hüseynov, İ.Həbibbəyli kimi şəxsiyyətlər bu mühitin nə qədər böyük elmi və ədəbi potensiala malik olduğunu bir daha sübut edir. Bu gün Naxçıvanda bütün sahələrdə olduğu kimi, elmi-ədəbi mühitdə də bir qaynarlıq var. Bilirsiniz ki, ədəbiyyat xalqın mənəvi pasportu, yaddaşının tarixidir. Biz bu gün Naxçıvanın yüz il bundan əvvəlki vəziyyətinin, tarixinin bəzi qaranlıq səhifələrini M.Cəlilin, M.S.Ordubadinin və digərlərinin əsərlərindən öyrəndiyimiz kimi, bu günün də tarixini gələcək nəsillər indiki elmi-ədəbi mühitin bəhrələrindən öyrənəcəklər. İnanıram ki, gələcək qarşısında xəcalətli qalmayacağıq.

Gənclərə gəlincə isə bu, mütləq həqiqətdir və hər bir ədəbi gəncliyin rəngi yetişdiyi, formalaşdığı zamanın rənginə bənzəyir. Bu gün Naxçıvanda incəsənətin, mədəniyyətin digər sahələrində olduğu kimi, ədəbiyyatda da bir gənclik formalaşmaqdadır. Bunun üçün də hər cür şərait yaradılıb. Vaxtilə Naxçıvan televiziyasında şeir oxumaq üçün, yaxud da "Şərq qapısı" qəzetində bir şeir dərc etdirmək üçün nə qədər xahiş-minnətçi olurduq... Ancaq indi Naxçıvan ədəbi mühiti üçün münbit şərait var. İndi kütləvi informasiya vasitələrinin qapıları gənc qələm sahiblərinin üzünə açıqdır. Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyində ayda ən azı, iki dəfə gənc qələm adamlarının şeirlərinin, hekayələrinin dinlənilib müzakirə edilməsi bir ənənə halını alıb. Bəyənilən bəzi nümunələr qəzet və almanax səhifələrində dərc edilir, onlara televiziyanın, radionun efir məkanlarında geniş yer verilir.

Onu da deyim ki, neçə ildir, Naxçıvan Dövlət Universitetində "Gəmiqaya" Ədəbi Birliyi fəaliyyət göstərir. Birliyin ayda bir dəfə keçirilən yığıncaqlarında universitet tələbələri içərisindən çıxan gənc yazarlar fəal iştirak edirlər. Onların bəzi nümunələri elmi mühitdə dəst-xətti olan filoloq alimlər tərəfindən təhlil olunur, gənclərə yaradıcılığın sirləri aşkarlanır. Ümumiyyətlə, Naxçıvan ədəbi mühitində ümidverici bir gənclik yetişməkdədir.

***– Bəs ədəbi tənqidə münasibətiniz necədir?***

– Ədəbi tənqidə münasibətim bir az *"qəribədir"*. Əvvəla, tənqid inkarçılığa yox, islah etməyə xidmət etməlidir. İkincisi, tənqid ünvanlı, inandırıcı və qərəzsiz olmalıdır.

Etiraf edək ki, bu günə qədər tənqid ciddi mənada heç nəyi dəyişməyib. Bir anlığa təsəvvür edin ki, dayanmısan bir bulağın başında, yaxud da bir qızılgül kolunun yanında. Onlara necə axmağı, necə gül açmağı öyrədirsən. Bu, mümkün deyil, bulaq bulaq kimi axacaq, qızılgül də qızılgül kimi açacaq. Çünki yaradıcılıq təbii prosesdir. Ona kənardan müdaxilə etmək heç də həmişə uğur qazandırmır.

Mən dünya tənqidşünaslığından çox yox, iki örnək gətirmək istəyirəm. Şekspir haqqında: *"Şekspirin nə tragik, nə*

*də komik istedadı var. Onun faciələri sünidir, komediyalarında isə o ancaq instinktə arxalanır. "Maqbet"dən gülünc bir əsər tapmaq çətindir" (Forbes, XVII əsr tənqidçisi). "Bu Şekspir kobud və barbar bir zəkadır" (Lord Şeftsberi). "Şekspirin əsərləri tamamilə dumanlıdır, anlaşılmazdır" (XVII əsr, Con Drayden)* və sair.

A.S.Puşkin haqqında: *"Puşkin əsrindən geri qalıb, moddan düşüb" (Nadejdin, 1830), "Yevgeni Onegin" – Puşkinin qəti süqutu deməkdir" (Bulqarin, 1830 və sair).*

Dahilər haqqında onlarla belə faktlar gətirmək olar. Bəs zaman nə dedi? Zaman hər şeyi yerbəyer edən qərəzsiz və əvəzsiz bir tənqidçidir.

***– Demək, tənqid tərəfdarı deyilsiniz. Axı ən yaxşı əsərlər də tənqiddən süzülə-süzülə gəlir...***

– Sizin fikrinizlə razıyam. Belə çıxmasın ki, mən tənqidin əleyhinəyəm, tənqid gərək deyil. Yox, belə düşünmürəm. Tənqid ciddi təhlil, elmi və nəzəri təfəkkürə arxalananda kütlənin, xalqın fikrini ifadə etmiş olur. Ən yaxşı əsərlər o tənqidin süzgəcindən keçir ki, tənqidçinin özü yazıçı və şairdən çox, həyatı və reallıqları geniş mənada dərk edə bilsin. Bu sirr deyil ki, ən yaxşı bədii əsərlər ciddi həyat materialından alındığı kimi, ən yaxşı tənqidi fikirlər də gözəl, bədii kamil əsərlərdən yaranır. Daha doğrusu, bədii əsərlər tənqidçinin fəaliyyəti üçün ona bir stimul verir. Bugünün ədəbi tənqidi bu günün ədəbi prosesi səviyyəsindədir.

***– Xanəli müəllim, qələm sahibləri Naxçıvanın bugünkü mənzərəsini öz əsərlərində canlandıra bilirlərmi? Axı ziyalı həm də cəmiyyətin görən gözü, döyünən ürəyidir...***

– Doğrudur. Hər bir dağ çayı keçdiyi yerlərin rəngini özündə əks etdirdiyi kimi, böyük sənətkarlar da mənsub olduqları millətin və zamanın ruhunu, havasını özlərində əks etdirirlər. Bu mənada şair və yazıçıların üzərinə böyük məsuliyyət düşür. Həqiqətən, Naxçıvan haqqında hələ yazılmamış poemalar qalır. Bu gün Naxçıvan şəhərində, eləcə də ən ucqar kəndlərimizdə belə bir məktəb tikilirsə, o məktəbin mahiyyəti, məzmunu budur ki, orada yaşayan əhalidə böyük bir ümid yaranır. Daş daş üstə qoyulursa, demək, bura-

da həyat var, burada yaşayış var, gələcəyə inam var. Burada insan amili, ona insan kimi yaşamaq üçün şərait yaratmaq var. Son illər Naxçıvanda tarixdə görünməmiş quruculuq işləri aparılır. Ümumiyyətlə, Naxçıvan iki dəfə böyük inkişaf və quruculuq yolu keçib: bir Atabəylər zamanında, bir də, təbii ki, müasir dövrümüzdə. Ümummilli liderimizin uğurlu quruculuq siyasətinin nəticəsində dövrümüzün inikası olan quruculuq işləri bu və ya digər şəkildə bədii ədəbiyyatda da öz əksini tapır. Elə götürək muxtar respublikanın bugünkü güzgüsü sayılan "Şərq qapısı" qəzetində yer verilən publisistik yazı və ədəbi yaradıcılıq nümunələrini. Bu nümunələrdə quruculuq işləri qələm sahiblərinin əsas diqqət obyekti olur. Mənim özüm də Naxçıvanla bağlı yazdığım şeirlərdə bu proseslərə toxunmuşam. Bizim şairlərimizdən Elman Həbibin, Vaqif Məmmədovun, İbrahim Yusifoğlunun, Asim Yadigarın, Zeyqəm Vüqarın, Muxtar Qasımzadənin və başqalarının əsərlərində bu real işlər öz təsdiqini tapıb və tapmaqdadır. Qələm dostlarımdan Elxan Yurdoğlunun, Qafar Qəribin "Şərq qapısı" qəzetinin "Göy qurşağı" əlavəsində dərc edilən şeirləri bu günün ruhunu, çalarını əks etdirən gözəl poetik nümunələrdir. Buna baxmayaraq, biz görülən işləri ədəbiyyata gətirməkdə ləngiyirik.

***– Niyə?***

– Yaradıcı yoldaşlarımdan biri belə bir sual verdi ki, niyə Səməd Vurğun "Muğan" poeması kimi böyük bir əsərlə dövrünün quruculuq yolunu əks etdirdi, bu gün Naxçıvanda yaşayıb-yaradan şairlər belə bir əsər yazmaqda çətinlik çəkirlər? Bu sual istər-istəməz məni düşündürür. Lakin onu da nəzərə alaq ki, Xanəli Kərimli Səməd Vurğun deyil axı. Burası da var ki, ədəbiyyat görülən işlərin qiymətini zamanla verir. Yəni bir az zamana ehtiyac var.

***– Xanəli müəllim, yenə yaradıcılığınızdan söz açmaq istərdik. Şeirlərinizin çoxunda kənd mövzusu qırmızı xətt kimi keçir. Bu şeirləri oxuduqca insan özünə ülvi bir yaxınlıq hiss edir, sanki kənddə keçən uşaqlıq illərinə yenidən qayıdır...***

– Yaradıcı adam üçün ən böyük təcrübə meydanı, laboratoriya, arxiv onun həyatıdır, onun yaddaşıdır. Yaddaşı olmayan bir xalq və yaxud da bir şair heç vaxt yaşaya bilməz. Yəni bu, mümkün deyil. Həyatımda, mənim yaddaşımda kənd psixologiyası böyük rol oynayıb. Məmin mayam kənd psixologiyası ilə yoğrulub. Mən gözümü açıb kətmən görmüşəm, kərpic kəsməkdən, yer şumlamaqdan, kərənti çəkməkdən qaşov dilləri kimi qabarlı əllər görmüşəm. Mənim başımı nə manikürlü ana əlləri, nə də barmaqları qızılüzüklü ata əlləri sığallayıb. Sal qaya üzərində bitən qarağat kolu kimi bütün ömrümü tufanlarla, qasırğalarla başbaşa qalmışam. İlkin layla, bayatı adlı yaradıcılıq mayasını kənddən almışam. Biz kənd uşaqları gözümüzü açıb coşqun dağ çayı, başı qarlı zirvələr görmüşük. Ona görə də böyük ədəbiyyata, sənətə bu zirvədən boylanaraq gəlməyə cəhd etmişik. Mənim üçün mənalı, bundan böyük və şirin ilham qaynağı ola bilməz. Bütün bu sadaladıqlarım bizə, sözün əsl mənasında, bir halallıq tərbiyə edib, torpağa məhəbbət aşılayıb. Uşaqlıqdan bu prinsipi qəbul etmişik*: "Torpağa baş əyən, şaha baş əyməz" (M.Araz).* Naxçıvan camaatı öz torpağına, öz Vətəninə bağlı insanlardır. İndi Naxçıvanın bir ovuc torpağını sıxsan, yüzlərlə şəhidin qanı tökülər. Bax bu, əsl yurd sevgisidir, torpağa bağlılıqdır.

***– Yeri gəlmişkən, necə düşünürsünüz, siz Naxçıvanda, bir az da irəli getsək, Şahbuzda doğulmasaydınız, şair Xanəli Kərimli ola bilərdinizmi?***

– Naxçıvanda yaşayıb-yaradan şairlərin yaradıcılığında, mən bunu cəsarətlə deyirəm, vətənpərvərlik hissi ölkəmizin digər regionları ilə müqayisədə daha yüksəkdir. Niyə, bunun səbəbi nədir? Çünki Naxçıvan tarixən təzyiq altında olan, diqqət çəkən bir yer olub. Bu da insanlarımıza vətənpərvərlik hissi, mübarizlik aşılayıb. 20 ildən artıqdır ki, Naxçıvan blokada şəraitindədir. Bütün bunların hər biri şair düşüncəsinə təsir etməmiş olmur. Bu təkcə mənim taleyimdə yox, Naxçıvanda yaşayıb-yaradan, az-çox sözə sahib olmaq istəyən yaradıcı adamların hamısında var. Əgər şair sıxılmırsa, şairi sıxan,

narahat edən bir qüvvə yoxdursa, o, dolğun düşünməyi də bacarmayacaq.

Şair öz zamanında nəyi isə yerinə qoymaqdan ötrü düşünür, daşınır ki, cəmiyyət üçün faydalı bir iş görə bilsin. Mən bir daha vurğulayıram ki, Naxçıvan ədəbi mühiti Vətənə bağlılıqdan, naxçıvanlı xarakterindən doğur. Böyük öndərimiz Heydər Əliyev də deyirdi ki, naxçıvanlıların xarakteri ətrafdakı sərt qayalar, dağlar kimidir. Yəni bu sərt qayalar, dağlar adamlara dözüm və səbir verir. Təbii ki, mənim də yaradıcılığım öz mühitimdən, öz xarakterimdən yoğrulub.

***– Xanəli müəllim, sonda yuxarıda adını çəkdiyiniz "Göy qurşağı"nın çap olunmasına münasibətinizi bilmək istərdik...***

– "Şərq qapısı" qəzetinin "Göy qurşağı" əlavəsi təqdirəlayiqdir. İlk iki sayı oxucular tərəfindən rəğbətlə qarşılandı. Yaxşı hal budur ki, əlavədə ədəbiyyatımızın dünəni, həm də bu günü vəhdətdə təqdim edilir. Yeni-yeni imzalara yer verilməsi xüsusilə sevindirici haldır. Bütün yaxşı işlər bizimdir, millətimizin, xalqımızındır. Yaxşı işlər uğrunda birgə addımlamalıyıq.

***– Maraqlı müsahibə üçün sağ olun. Sizə yeni yaradıcılıq uğurları arzulayıram.***

*Müsahibəni apardı:*
*Sara ƏZİMOVA*
*"Şərq qapısı" qəzeti,*
*07.04.2012.*

# XANƏLİ KƏRİMLİ - 60

Hörmətli, Xanəli Kərimli!

Sizi – tanınmış şair və filoloq alimi anadan olmağınızın 60 illiyi münasibəti ilə ürəkdən təbrik edirik.

Siz XX əsrin 80-cı illərindən ədəbiyyata və elmə gəlmisiniz. İlk şeirlərinizdən və məqalələrinizdən elmi-ədəbi ictimaiyyətin diqqətini cəlb etmisiniz. Hələ 1970-ci illərin axırı və 80-ci illərin əvvəllərində - sovet imperiyasının qadağaları dövründə Siz ədəbiyyatımızın ayrılmaz tərkib hissəsi olan Cənubi Azərbaycan demokratik ədəbiyyatından namizədlik işi yazanlardan biri kimi bu yolda uğurlu addımlar atmısınız və yaxşı haldır ki bu işi bu gün də davam etdirirsiniz.

Sizin ayrı-ayrı vaxtlarda Bakıda nəşr edilən ***"Ay işığında" (1998), "Anamdan məktub" (2001), "Bu da bir nağıldı" (2004), "Mənə elə gəlir ki...(2008),*** həmçinin 2011-ci ildə İranda bir-birinin ardınca işıq üzü görən ***"Duyğularım,düşüncələrim", "Mənim könlüm bir ümmandır"*** şeir və poemalardan ibarət kitablarınız, elmimizin, ictimai həyatımızın müxtəlif problemlərindən bəhs edən yüzdən çox məqaləniz bir şair, alim kimi Sizin imzanızı çoxdan təsdiq etmişdir. Elə bu səbəbdəndir ki, sizin yaradıcılığınızla bağlı həm respublikamızda, həm də xaricdə elmi-ədəbi ictimaiyyətin tanınmış imzalarından tutmuş sıravi oxuculara qədər 70-dən çox elmi məqalə yazılmış və bu məqalələr *"Şairə məktub" (2007), "Sözün Əlincə qalasi" (2011)* kitablarında toplanaraq geniş oxucu auditoriyasına təqdim edilmişdir. İstedadlı alim, fəlsəfə doktoru Sabir Bəşirovun yazdığı *"Xanəli Kərimli: Bir ömrün nağılı" (2011)* monoqrafiyası da elmi-ictimaiyyət tərəfindən rəğbətlə qarşılandı.

Siz həm də 40 ilə yaxindir ki, gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olan bir pedaqoqsunuz. Azərbaycan ali məktəbləri içərisində öz dəst-xətti olan Naxçıvan Dövlət Universitetinin dosenti və həmin universitetdə Xarici tələbələrlə iş üzrə dekanı, Naxçıvan MR-in əməkdar müəllimisiniz. Sizin ikinci çağrış (2000-2005) Naxçivan MR Ali Məclisinin deputatı olmağınız da, Azərbaycan elmini, poeziyasını dəfələrlə Türkiyədə, İranda, o cümlədən, Pakistanda, Hollandiyada, Gürcüstanda ləyaqətlə təmsil etməniz də Sizin tərcümeyi-halınızın ayrılmaz tərkib hissəsidir. Sizin bu yaxınlarda Tehranda və Şirazda keçirilən "İran və dünya şairlərinin 2-ci şeir konqresi"ndə Azərbaycan poeziyasının təmsilçilərindən biri olmağınız da təqdirəlayiqdir.

Bu gün Sizin şeirləriniz artıq dünyanın aparıcı dillərinə - rus, ingilis, fransız, türk, fars dillərinə tərcümə olunaraq özünəməxsus oxucu auditoriyası qazanmışdır.

Hörmətli Xanəli Kərimli, siz yaradıcılığınızın və yaşınızın kamil bir dövrünü yaşayırsınız. Sizi 60 illik yubileyiniz münasibəti ilə bir daha təbrik edir, sizə cansağlığı, yaradıcılıq uğurları arzulayırıq.

***AZƏRBAYCAN YAZIÇILAR BİRLİYİ
VƏ NAXÇIVAN YAZIÇILAR BİRLİYİ***

***"Ədəbiyyat qəzeti",
25 noyabr 2011-ci il.***

***

***Naxçıvan Dövlət Universiteti
Xanəli Kərimliyə***

Hörmətli Xanəli müəllim!

Sizi həqiqi mənada şərəfli, əlamətdar 60 illik yubileyiniz münasibəti ilə ürəkdən təbrik edirəm. Siz oxucu ictimaiyyətinin rəğbətini, sevgisini qazanmış parlaq istedadlı milli şair şöhrətinə yüksəlibsiniz. Əlbəttə, bu uğurlar əsl sənətkar üçün böyük səadətdir. Bundan başqa, siz nəcib təbiətli

ziyalı nüfuzuna maliksiniz. Sizə şəxsi, ictimai həyatda sevincli günlər, poeziyanızda yeni zirvələr fəth etməyi diləyirəm.

***Camal Mustafayev,***
***fəlsəfə elmləri doktoru, professor,***
***Əməkdar elm xadimi,***
***Bakı, 26 nöyabr 2011-ci il.***

***

Tanınmış şair, ədəbiyyatşünas Xanəli Kərimlinin keçdiyi şərəfli ömür yolu ilə tanış olduqda onda olan böyük vətən sevgisinə, yaradıcılıq enerjisinə, malik olduğu intellektual səviyyəyə, insanpərvərliyə heyran olmamaq mümkün deyil.

Xanəli müəllim çox yüksək insani keyfiyyətlərə, mədəniyyətə və mənəvi zənginliyə malik əsl ziyalıdır. Buna görə də tələbə və müəllim kollektivi, dostları, Xanəli müəllimi tanıyanlar onu ürəkdən sevirlər, onunla fəxr edirlər. Böyük şairimiz Səməd Vurğunun qələmindən çıxan bu misralar sanki ona həsr olunub:

*Adam var bir dəfə görəndə onu*
*Ürək unutmayır ömrü uzunu.*

Uzun illər ərzində bu nəcib və istedadlı insanla birgə işlədiyimə və dostluq etdiyimə görə çox məmnunam.

60 llik yubileyi münasibətilə əziz dostum Xanəli müəllimi ürəkdən təbrik edir, ona möhkəm cansağlığı və daha böyük yaradıcılıq uğurları arzulayıram.

***Qasım Hüseynov,***
***Kimya elmləri doktoru,***
***Bakı Dövlət Universitetinin professoru,***
***həmin universitetin nəzdindəki***
***"Gənc istedadlar" liseyinin direktoru.***
***Bakı,25.11.2011-ci il.***

***

***AZ-7012, Naxçıvan Dövlət Universiteti,***
***Xanəli Kərimliyə.***

Əziz dostum, Xanəli Kərimli!

Sizi - Çağdaş Azərbaycan poeziyasının istedadlı nümayəndəsini, tanınmış ədəbiyyatşünas-alimi, görkəmli pedaqoqu, elm və təhsil təşkilatçısını, səmimi və xeyirxah inşanı, milli məfkurə dayaqlı yurdsevər ziyalını, ictimai xadimi və nurlu şəxsiyyəti dünyayagəlişinizin 60 illiyi münasibətilə təbrik edir, şəxsi həyatınızda və ədəbi-bədii yaradıcılığınızda uğurlar arzulayıram.

***Dərin ehtiramla:***
***Asif Rüstəmli,***
***filologiya elmləri doktoru.***
***Bakı, 27.11.2011.***

***

Əziz Xanəli müəllim!

Anadan olmağınızın 60 illik yubileyi,hesab edirəm, ədəbiyyatımızın bayramıdır. Siz həm şair, həm də alimsiniz. Lətif şeirləriniz ürəkləri riqqətə gətirir. Alimliyiniz gənc nəsli dərkin yoluna çıxarır. Yubileyiniz münasibətilə Sizə Cənub bölgəsinin yazarları adından Əlincə qalası əzəməti, Batabat suyu kimi dərdlərə dərman olan yaradıcılıq arzulayıram.

***Azərbaycan Yazıçılar Birliyinin***
***Lənkəran Bölməsinin sədri***
***İltifat Saleh.***
***Lənkəran, 01.12.2011.***

***

Əziz şair dostum!

Görkəmli şair, ictimai xadim, alim ziyalı kimi 60 yaşınız mübarək olsun.

Sizi öz adımdan, Yazıçılar Birliyi Qazax zona filialından təbrik edirəm. Varlığında Allah nuru, insan qüruru yaşatdığına görə var ol!

***Hörmətlə,***
***Barat Vüsal,***
***Əməkdar incəsənət xarimi.***
***Qazax, 01.12.2011.***

***

Hörmətli dostum, qardaşım Xanəli Kərimli!

Səni anadan olmanın 60 illiyi münasibətilə təbrik edirəm. Sənə cansağlığı, elmi-pedaqoji və yaradıcılıq işində uğurlar arzulayırıq.

***İsgəndər Orucəliyev***[3]
***Bakı, 06.01.2012.***

***

Əzizimiz Xanəli Kərimli!

Bəlkə də, adının əvvəlində həmişə müraciət kimi işlətdiyim *"poeziyamızın Əlincə qalası"* bir dostun öz dostuna, onun yaradıcılığına vurğunluğu, sevgisi ilə bağlı duyğulanmalardan yaranıb. Amma yox yerdən yaranmayıb.

Sənin şəxsiyətinlə yaradıcılığın arasında doğru, düzgün bir münasibət görürəm. Və bu iki fenomenin doğmalığı, qovuşuğu ilə bağlı üçüncü fenomenin obrazı da xəyalımda canlanır. Bu, Əlincə qalasıdır.

Bir qədər də obrazlı desəm, bu üç qardaşı vəhdətdə görürəm. Şəxsiyyət Xanəli Kərimlini, şair Xanəli Kərimlini və qürur, mərdlik rəmzi olan, tariximizin özü qədər əzablardan keçmiş əzəmətli Əlincə qalası.

Sənin yaradıcılığını oxuyanlar, səninlə dostluq edənlər, səmimiyyət körpüsündən keçən adamlar bu üç fenomenin bir-birinə nə qədər bənzər olduğunu təsdiqləyərlər.

---

[3] İsgəndər Orucəliyev filologiya üzrə fəlsəfə doktoru, Azərbaycanın əməkdar müəllimi - red.

Poeziyamızın Əlincə qalası Xanəli Kərimli, yaradıcılığınız sevilir, duyulur, ədəbi ictimaiyyətimiz və daha dəqiq desəm, xalqımız səni başa düşür. Şair üçün bu, böyük yüksəlişdir. Sözü başa düşülən şair xalqının qəlbində özünün halal yerini görə bilir.

Şübhəsiz, sənin tədqiqatçı, pedaqoq və şair kimi uğurlarında Naxçıvan Dövlət UniverSitatının rolu böyükdür. Fəxrlə deyərdim ki, bu mənəvi mühitin yaradılmasında bizə çox doğma olan görkəmli ədəbiyyat və dövlət xadimi, millət vəkili, Naxçıvan Dövlət Universitetinin rektoru İsa Həbibbəylinin rolu çox böyükdür.

Ədəbi simaların öz zamanlarında parlaması, həqiqi-mənəvi haqlarını alması üçün belə mühitlər az-az yaranır. Bu xoşbəxtlik sənin payına düşüb.

Sənin 60 illik yubileyin ədəbi ictimaiyyətimiz tərəfindən geniş qeyd olunur. Əslində, bu böyük bayram Naxçıvan Dövlət Universitetinin mənəvi mühitindən başlanıb. Həqiqi sənətkarların, böyük sənət adamlarının yubileyləri ədəbi bayramdır.

Bu bayram münasibətilə sizi - poeziyamızın Əlincə qalasını - şair Xanəi Kərimlini "Kredo" qəzetinin redaksiya heyəti adından ürəkdən təbrik edirəm.

Müqəddəs Naxçıvan torpağını,mənəvi tariximizin şah əsəri Möminə Xatün türbəsini, əzəmətli Əlincə qalasını,bu tarixi dəyərlərin daşıyıcısı olan Naxçıvanda yaşayıb-yaradan ziyalıları, Naxçıvan Dövlət Universitetinin rektoru, əzizimiz, akademik, millət vəkili İsa Həbibbəylini,onun timsalinda bütün dostlarımızı təbrik edirəm.

Sənin bayramına qatılanlara xoş salamlarımı yetirməyini xahiş edirəm.[4]

*Əli Rza Xələfli,*
*"Kredo"qəzetinin baş redaktoru,*
*şar-publisist,*
*Beynəlxalq Rəsul Rza və Şahmar Əkbərzadə*
*adına Beyəlxalq ədəbiyyat mükafatları laureatı*
*Bakı, 01.12.2011.*

---

[4] Təbrik"Kredo" qəzetinin 17.12.2011-ci il tarixli sayında dərc edilib - red.

# ŞAİRƏ MƏKTUB

Əzizim Xanəli Kərimli, bu yazını elə indi sözə gələn duyğuları heç yaxına buraxmaq istəmirdim. Sanki hər şeyi unutmuşdum. Elə bil, uşaq çağlarımın xatirələri yaddaşıma hardansa yol tapıb, uçub gəlmiş və məni də özümdən, sözümdən almışdı. Heç istəmirim ki, bu dəfə müharibə tariximizin qanla yoğrulmuş səhifəsini duyğu ilə,söz ilə təzədən yoğurum. Açığı, elə indicə *(04.02.2016, saat 15:59)* vaxtın bu anındaca qabağıma çıxan bir şəxs mənimlə təntənə ilə görüşüb *"sən yaxşı kişisən"* - dedi. Vaxtilə Lenin *"yaxşılığın məsələyə nə dəxli var"* - deyirdi. Və əlavə eyləyərdi, *"sən onun əqidəsinin, amalının, mübarizəsinin mahiyyəti haqqında danış".*

Bütün ideoloji ölçülər dəyişə bilər. Necə ki, quruluşlar dəyişdi. Və mən də bu quruluşların dəyişməyinə qətiyyən etiraz etmirəm, çünki amalı,istəyi,mənəviyyatı buxovlayan quruluş dünəndən dəyişməlidir. Biz onun yalançı strukturunu pafoslarımızla saxlaya bilmərik. Qısası, söhbət ona gəlir ki, biz yaxşılığın mahiyyətini əməlimizdə, işimizdə görək. Mən deyə bilmərəm ki, həmin o mənə *"sən yaxşı kişisən"* deyən kimsənin özü bu yaxşılığı hansı ölçüdə, hansı keyfiyyətdə görür? Ancaq onun duğu ilə, səmimiyyətlə əlimi sıxıb dediyi sözlər mənim ruhumun az qala yuxuda olan tərəflərinə bir oyaqlıq gətirdi. Bir səs-səda gətirdi. Əgər, doğrudan da, onun dediyi ölçülərə uyğunamsa,onda mən necə yaddaş ağrılarımın bu kəskin, ağır zamanında Ceyhunu[5] unuda bilərəm. Ceyhunun əmisi Xanəli Kərimlini unuda bilərəm. Yox,əgər mənim ruhumda, varlığımda mənəvi güc olaraq söz özünü diktələyirsə, onda mütləq o *"yaxşı kişiliyin"* cavabını da sözümlə, ruhumdan,varlığımdan gələn duyğularımla verməyə borcluyam.

[5] Ceyhun Oucəliyev X.Kərimlinin qardaşı oğludur.Milli ordunun kapitanı kimi 2014-cü ilin aprel ayının 7-dən 8-nə keçən gecə cəbhənin Füzuli istiqamətində döyüş tapşırığını yerinə yetirərkən şəhid oldu. Haqqında 2015-ci ildə "Qanun" nəşriyyatında "Şəhidlik zirvəsi" adlı kitab yayımlanıb – red.

Açığı, Ceyhun Orucəliyev haqqında yazmağı bir yazıçı qələminin, bir sənətkar ruhunun nəğməsi kimi də qəbul eləmirəm. Çünki bu nəğmədən də o tərəfə bir məsələdir. Özü də elə məsələdir ki,gərək zaman-zaman o səsi, o tərzi öz nəfəsin və ruhun müqabilində elə oxuyasan ki, onu gələcəkdə heç kəs bilməyə ki, bu nəğmə Ceyhunun nəğməsidir, şairin nəğməsidir, yoxsa bu sözü yazanın nəğməsidir.

...Açığı, qalırsan sözün o yan-bu yandan yanan ocağının arasında. Bilmirsən ki, sözü necə deyəsən o yan-bu yandan yanan ocaqlar səni kül etməsin. İndi mən soruşuram, bizim ədəbi mühitimizin söz-sənət bilicilərindən şair haqqında, amma o şair haqqında ki şəhid olan oğulun əmisidir, yazın görüm necə yazacaqsınız? Görüm sizin yazdığınız bu şairin içindəki yanğıların közünü, lap ocağının yanarlığından başlayan işığını göstərə bilirmi? Yox, əgər yazılan söz, sənət əbədi dəyər baxımından bir qiymət kəsb eləmirsə, əgər nə şairin yazdıqlarına, nə şəhidin taleyinə əsaslanmırsa, onda... daha kimin nə haqqı ola bilər danışmağa?

Ancaq mən belə düşünürəm ki, həyati proseslərin içindən gələn, ədəbi, mənəvi dəyərin özünə qiymət verən yazı, əslində, həm də ədəbi prosesin dəyəridir. Əzizlərim, gəlin etiraf edək ki, söz də, sənət də insanın ucalığına xidmət etməlidir. Əgər söz, sənət hansısa bir məqamda özünü yenirsə, dəyərini itirirsə, demək, insanlığın özünə də xidmət eləmir.

Əzizim, Xanəli Kərimli, sənə qəribə gəlməsin, bu ədəbi məktubum da - bəlkə də, heç ədəbi məktub deyil, psixoloji, ruhı, mənəvi sarsıntılarımı ifadə eləyən bir müraciətdir - danışıram, özü də düşünə bilərsən ki, nə olub ki, bu qədər yolu astagəlliklə, səbirlə, özü də özünəməxsus hiss və həyacanlarla gələn müəllif birdən-birə belə tüğyanlıqla çıxış eləyir.

Əziz dostum, bax, elə bu sözləri diqtə elədiyim zamanda Azərbaycan ədəbiyyatının təbliğində qədərincə yeri olan mənim əziz dostum, ruhuma doğma olan bir ziyalı Hacı Rafiq də yanımdadır, ancaq həyat bir-birinə yaxın olan adamların birinin digərinə diktəsi ilə idarə olunmur. Qısası, əziz dost, çətindir, bizə İslam səbirşünaslığı təlqin eləyirdi ki, su

tapmaq, çörək tapmaq, duz tapmaq yaşamağa bəs eləyir. Sən demə, belə deyilmiş. Gərək axtarasan, həqiqətin hansı küncdə olduğunu tapasan. Bu, sənin, mənim... və bütün insanlığın həyatını təmin edən, yaşamağı mənalandıran mənəvi havadır. Bunun üçün düşünürəm ki, heç də özünü ölümə vermək cəbhədə həlak olmaqdan az əhəmiyyətli deyil.

Şair, sənin dağ boyda dərdinə mən sözümlə şərik ola bilmərəm. Ən azı ona görə ki, hərdən sözü-qələmi əlinə götürüb, kağızı qabağına qoyub yazı yazmaq istəyəndə, bir gənc, cavan, qüdrətli bir oğlan gəlib gözlərimim qabağında dayanır. Sən ona baxırsan, lap elə gözünü bağlasan da, görürsən. Ən azı, bəsirət gözlərinin içində onun kimliyi qədərincə özünü göstərir. Sən də bir şair olaraq həmin şəhid qardaşın oğlunla üzbəüz dayanırsan.

Onun varlığını yalnız qardaşın oğlu kimi yox, Vətənin özü kimi düşünürsən, yurdun özü kimi düşünürsən. Axı o, sözü kamına çəkən kimi gəlib sənin ruhunun, varlığının, mənəviyyatının dünyasında qürurla dayanıb, deyir ki, sən məni qardaşın oğlu kimi görə bilməzsən, sən məni Vətən oğlu, yurd oğlu kimi görə bilərsən.

Əziz dostum Xanəli Kərimli, Ceyhun Orucəliyevin taleyini yazmaq mənim üçün asan deyildi. Özü əslən Qarabağdan olan və gözünün qabağında yüzlərlə Vətən şəhidi görmüş müəllif üçün bu hissləri təzədən yaşamaq bilirsən ki, nə qədər ağırdır. Ən azı ona görə ki, insanın da bir kədəri, ağrını yaşamaq həddi var. Bu həddin, bu ölçünün ötərindən sonra insanın dözüm mərhələsi gəlir, insanın dayanıb, durmaq həddi gəlir. Özündən arxaya və qabağa baxmaq zamanı gəlir. Qardaşım, hesab elə ki, mən də bu ağrı, iztirab mərhələlərini təkcə xəyalımla yox, həyatımla görmüşəm. Söz, iş, real əməl, ən dəqiqi, beynimizin, düşüncəmizin, zəkamızın diktə elədiyi budur ki, biz hər hansı bir şəhid üçün zamanın, dövrün timsalında bir kimsənin oxuduğu nəğməni unutmayaq. Zənnimcə, bu yerdə Təranə Arifqızının "Əbədiyyət yolu" adlı yazısını elə buradaca diqqətə çəkməliyəm. Naxçıvan Dövlət Radiosunun İctimai-Siyasi Verilişlər Redaksiyasının Hərbi vətənpərvərlik

silsiləsindən olan "Əbədiyyət yolu" verilişi şəhid Ceyhun Orucəliyevin əziz xatirəsinə həsr olunub. Veriliş 20 avqust 2014-cü ildə efirdə səsləndirilib. Açığı,bəlkə heç bu qeydləri yazının içinə gətirməyə lüzum olmazdı, amma əgər müəllifin şəxsi hislərini, duyğularını Ceyhunun möhtəşəm şəxsiyyətini bu qədər səmimiyyətlə sözə gətirməsəydi.

Bəzən, bizə elə gəlir ki, hər hansı bir sözü,duyğunu başqasından daha yaxşı yaza bilərik. Amma başqasının sözünü, duyğusunu sözə gətirən formaya daxil olan kimi, heyrətlə baxırıq, əgər qərəzimiz yoxdursa, mənim üçün nə fərqi var bu sözləri kim yazıb:

*Şəhid olmaq - bu torpağı ürəyinlə qucaqlamaq,*
*Vətən daşın xəzinə tək varlığıyla ovuclamaq.*
*Düşmənini yox etməyə gözündə qılınc saxlamaq.*

*Şəhid olmaq - bir arzuya çatmaq üçün,*
*Min arzunun yollarını açmaq üçün*
*Varlığıyla Vətən olmaq, Vətən demək, Vətən sevmək!..*

*Kim sevəcək bu Vətəni, biz sevməsək?!*
*Kim deyəcək düşmənlərə sözümüzü, biz deməsək?!*

*Şəhid olmaq xəyanətə dözümsüzlük,*
*Şəhid olmaq - mən demədən Vətən deyib,*
*Sinəsini bu torpağa sipər edən bölümsüzlük!*
*Şəhid olmaq ölmək deyil -*
*Dünya boyda ölümsüzlük!*

Nə qədər duyğulu, nə qədər əbədi yaşarlı sözlərdir. Amma lap elə veriliş müəllifinin, ya kiminsə - başqasının ünvanında adı olmağının dəxli yoxdur. Bu gün poeziyanın forma baxımından dağıldığı bir çərçivədə bu sözlərin həqiqi poetik ruhda olduğunu inkar etmək olmaz.

Əzizim Xanəli Kərimli, mən indiki məqamda, durumda, bəlkə də, daha artıq özümə şöhrət gətirəcək sözlərə, sitatla-

ra üz tuta bilərdim, ancaq indiki anımda, indiki zamanımda mənim əsas məqsədim Ceyhun Orucəliyevin timslında bir gəncin, özü də o gəncin ki, özünü general ola biləcəyi təqdirdə Vətənə qurban verməyə hazır olub.

Əziz dostum, vallah, məni düz başa düş. Qəhrəmanlığı, igidliyi, özünü ölümə verməyi başa düşmək olar. Ancaq tam bilə-bilə ki, sənin yolun generallığa qədər açıqdır, amma yolüstü dönüb ölümün də sifarişini qəbul edəsən və heç şübhəsiz ki, həmin anda düşünməyəsən ki, sənin geridə generallığın vardı. Bu, artıq qəhrəmanlıqdır. Ölümə meydan oxumaqdır. Gələcəyə örnəkdir. Qəhrəmanı isə təkcə gördüyü qanlar yox, həm də ruhu ölməzliyə çağıran söz böyüdür.

Əziz dost, həyat mənim üçün də, sənin üçün də görünməyən tərəfləri ilə sürprizlər verə bilər. Demək, bu qeyri-adi məqamlar qabağımızı kəsəcək ölümə qədər müəmmalı olraq qalacaq. Bəlkə də, həyatın gözəlliyi, qeyri-adiliyi də elə bundadır. Amma o şairə-jurnalist qızın düşüncələrinin də üzərindən keçə bilmirəm. Qoy, onun da düşüncələrini gələcək nəsillər oxusunlar. Heç olmasa, görsünlər ki, öz zəmanələrindəki şəhid üçün yaşayan qələm adamı nə düşünüb: *"Bəli, ölümsüzlüyə gedən yolun yolçuları heç zaman qəhrəman olmaq arzusunda olmurlar. Onları ölümsüz edən amallları, məqsədləri olur. Belə bir məsəl var, deyirlər, igid insan təhlükədən qorxmayan yox, təhlükəyə qalib gəlmək istəyən adamdır. Həyatını,ailəsini düşünmədən təhlükənin üstünə getmək ancaq əsl Vətən oğluna xas olan cəhət ola bilər. Həmin an ancaq bir şey fikirləşir Vətən oğlu - təhlükəni dəf etmək! Vətən oğlu - bu torpaqda doğulub boya-başa çatan hər kəs Vətən oğludur: pisi də, yaxşısı da. Necə deyərlər, beş barmağın beşi də bir olmaz. Dar gündə alçaqlı, ucalı onlar hamısı Vətən üçün birləşir. Düşmənin başını əzmək üçün düyünlənmiş yumruğa dönür.*

*Bir də əsl Vətən oğulları, övladları var. Onlar öz mənliyi, əxlaqı, xarakteri ilə ayrıcalıq təşkil edirlər. Kapitan Ceyhun Orucəliyev kimi. İndi bu adı çoxları tanıyır. Mən də onu 2014-cü ilin aprelindən tanıyıram. Amma çoxları kimi, onu mən də şəhid adıyla tanıdım.*

*Həmin gün 2014-cü il aprelin 8-də ürəkləri göynədən bir xəbərlə başladı bu tanışlığım".*

Təranə Arifqızının bu *"tanışlığım"* sözünün arxasında nə qədər hiss, həyəcan, nə qədər mənəvi güc dayanır. Bəzən insan unudulduğuna, anılmadığına görə şikayətlənir, narazılığını bildirir, ancaq kimsə bir adamın onu tanıdığını eşidəndə nə qədər fərəh duyur. Bütün bunların hamısının arxasında insani hisslərin hətta qarşı-qarşıya gələn görüşlərin təsiri, çarpışmasindan sonrakı əhvalın özü dayanır. Mənim düşüncəmdə böyük tanışlığın arxasında mənəvi güc dayanır, qüdrət dayanır, ya həqiqətini qırılmaz məntiqlə sübut edəsən, ya da gərək ideal bildiyin, amal bildiyin və səni çağıran işıq uğrunda həlak olanacan döyüşəsən. Bunun özü adi, həyati bir hadisə deyil, məişət hadisəsi deyil. Bu elə bir ali duyğudur ki, insan bütün ömrü boyu yol gəlir. Ya gərək ideal uğrunda axıracan yol gedəsən, axıracan, ölümünəcən yol gedəsən, ya da yarı yolda geriyə dönəsən, gizlənəsən, heç idealın sənin üçün bir qüdrət əhəmiyyəti kəsb etdiyini də gizləyəsən. Amma belə deyil, şəxsiyyət üçün tale, həyat ona imkan verir ki, öz gücünü, qüdrətini diqtə eləsin. Kimliyini araya qoysun.

Əziz dostum, qardaşım Xanəli Kərimli, biz kimliyimizi bəzən - bəlkə də, daha çöx özümüzdə axtarırıq, amma unuduruq ki, bizim kimliyimizi, sözümüzün dəyərini, gücünü, ən nəhayət, Vətən adlı idealizə gücündə olan əfsanəvi varlığımızı qoruyacaq və onu tərənnüm eləyəcək tanımadığımız, bəzən adının üstündən sükutla keçdiyimiz kimsələr var.

Ceyhun Orucəliyev bizim mənəvi dünyamızın ruhən, mənən yaşayan obrazıdır.

Əzizim Xanəli Kərimli, bizdən qeyri bu obrazı kim görə bilirsə, biz daha çox ona borcluyuq. Hə, dostum, bir də onu deyəcəkdim; sən yaxşı kişisən. Səmimiyyət, saflıq, sözübütövlük... yaxşı kişi olmağın əsas tərəfləridir.

***Əli Rza Xələfli, "Söz və qan" povest-xronika***
***Bakı, 2016, səh., 136-142.***

***

Çox hörmətli və əziz Xanəli müəllim, mənə göndərdiyiniz son kitabları *("Bir ömrün nağılı" və "Sözün Əlincə qalası")* aldım. Qış fəsli olduğundan, elə bil, mənə məşğul olmaq üçün böyük bir töhvə göndərilmişdi. Dərhal hər iki kitabın lik vərəqlərini çevirəndə qədirbilən bir şagird kimi müəllimi haqqında xoş sözləri—aftoqrafı oxuyanda həm sizin haqqınızda yazılmış kitablara, həm də mənə yazılmış xatirə sözlərə görə iftixar hissləri keçirdim,məmnun oldum. Bunlara görə sizə öz minnətdarlığımı bildirirəm.

Xanəli müəllim, bir həqiqətdir ki, siz həyatda, elmdə, bədii yaradıcılıqda fəlsəfi düşüncə və deyimlərdə irəliləyir, oxucu kütləsinin diqqətini cəlb edir, dərin hörmət və məhəbbətini qazanırsınız. Qəti deyə bilərəm ki, sizi yaxşı tanımaq üçün gərək əsərlərinizi diqqətlə oxuyasan, hər bir sətrin məna variantlarını ayırd edəsən, sonra sizinlə izahlı söhbətlər edəsən.

Şəxsi görüşlərdə, adi danışıqlarda o qədər sadə və mehribansan ki, adam ilk baxışda bu dərinliyi hiss edə bilməz. Sonra fikirləşəndə, müqayisə edəndə bir daha aydın olur ki, dərin mühakiməli, mənalı yaradıcılığa malik olan adamlar çox sadə və mehriban olurlar. Onlar hər bir adama fərdi yanaşır, onu öz dilində, səviyyəsində danışdırırlar.

Bunu sizin haqqinizda yazılmış əsərlərdə,söylənmiş fikirlərdə daha aydın görə bilərik.

Sizin həyatınıza,yaradıcılığınıza aid deyilmiş sözlərin, yazılmış elmı məqalələrin müəllifləri elm sahəsihdə, bədii yaradıcılıqda çox tanınmış akademik, professor, doktor və cəmiyyətdə sayılıb seçilən admlarıdır.

Xüsusən, sizin yaradıcılığınızı, həyat yolunuzu geniş, mənalı və elmi şəkildə araşdıran, bədii faktlarla təhlil edən çox dəyərli və yaradıcı alim olan Sabir Bəşirovun *"Xanəli Kərimli: Bir ömrün nağılı"* monoqrafiyası mənim qəlbimdən oldu. Çox monoqrafiyalar oxumuşam, tədris prosesində onlardan istifadə etmişəm. Adını çəkdiyim monoqrafiya ustad qələmindən çıxdığından və böyük zəhmətlə yazıldığından daha maraqlı, daha əhatəlidir.

Yaradıcı adamlara diqqət və səyinə görə mən Sabir Bəşirova töşəkkür edirəm, minnətbarlığımı bidirirəm.

Professor Yavuz Axundlunun *"Dünənki tələbəm, bugünkü iş yoldaşım"* yazısını oxuduğum vaxt sizin təvəllüd tarixinin 1951-ci il noyabr ayının 27-si olduğunu öyrəndim və belə qərara gəldim ki, sizin yaşınızın 60 illik yubileyini bu kiçik yazımla təbrik edim.

Əziz Xanəli müəllim, bir müəllimin kimi,müəllim yoldaşın kimi, başlıcası oxucun kimi sizi 60 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, sizə xoşbəxt həyat, uzun ömür və yaradıcılıq üfüqləri arzulayıram! Sizi bağrıma basıb öpürəm!

***Müəllimin***
***Əbülhəsən Cəlilov***
***Şahbuz,1.12.2011-ci il.***

***

Çox hörmətli Xanəli müəllim!

Qarası ağını üstələmiş, nizamı pozulmuş bu dünyamızın qəm yükünü çiynində daşıyan, özünüdərkin ən yüksək zirvəsinə ucalan çox hörmətli tələbə yoldaşım, əziz qardaşım Xanəli, ömrünün müdriklik çağı - 60 yaşın mübarək!

Çox təəssüf edirəm ki, sənin yubileyin keçilən məqamda iştirak edib layiq olduğun ürək sözləimi deyə bilmədim. Bunu çox, lap çox istəyirdim. Məncə, insana layiq olduğu gözəl sözləri deməkdən qiymətli heç nə yoxdur.

Fədakar maarifçi, gözəl alim, alovlu vətənpərvər, fəlsəfi düşüncələri ilə düşündürrməyi bacaran qardaşım Xanəli, bu sözləri yaza-yaza sənin kitabının üstündəki şəklinə baxıram. Ürəyinə yüklənmiş kədərin yükü sifətində dərin şırımlar açmış,hələ illər öncədən saçların ağappaq qara bürünüb. Səni həm özün kimi, həm də şeirlərindən tanıyan mən bu kədərin param-parça olmuş vətən torpaqları, əsir Qarabağ dərdi olduğunu bilirəm.

Sənə düşündürməyi bacaran poetik düşüncələrinin çiçəklənməsini arzulayıram - bəlkə, düşünənlər çoxala!..

Uca Tanrı sənə mənalı ömür yolunun uzun olmasını, ədalətin zəfərini, Vətən torpaqlarının bütövlüyünü gormək nəsib eləsin.

***Hörmət və ehtiramla Şərqiyyə***[6]
***25.11.2011.***

[6] Şərqiyyə Məmmədova, filologiya üzrə fəlsəfə doktoru, şairin tələbə yoldaşı.

...Azərbaycan şairlərindən Bəxtiyar Vahabzadə, Məmməd Araz, Hüseyn Razi şeirlərinin mahiyyətində, cövhərində dünyanı dərketmək, həyat hadisələrini düzgün qiymətləndirmək kimi məsələlər xüsusi yer tutmuşdur. Onları filosof şair kimi də yüksək qiymətləndirirlər. Bu sıraya Naxçıvanda yaşayıb fəaliyyət göstərən şair Xanəli Kərimlini də aid etmək olar. Xanəli Kərimli (1951) şeir yaradıcılığı ilə çox erkən məşğul olsa da, ilk kitabı 1998-ci ildə işıq üzü görüb. ***"Ay işığında" (1998), "Anamdan məktub" (2001), "Bu da bir nağıldı" (2004)*** şeir və poemalar topluları nəşr olunmuşdur. X.Kərimli həm bir alim, həm bir şair kimi sözün məsuliyyətini dərindən dərk edən, özünə və sözünə tələbkarlıqla yanaşan şairlərdəndir. Onun şeirləri sadə və səmimidir, gördüklərini, duyduqlarını şeirə çevirməyi bacarır, yeni söz deyə bilir. ***Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biridir (İsa Həbibbəyli).*** *"Vətəndaşlıq lirikası təkcə mövzu xüsusiyyətlərinə görə deyil, eyni zamanda vətəndaşlıq haqqı qazanmış dilin üslubu imkanlarından bacarıqla istifadə etmək yolu ilə yaranır".* X.Kərimlinin şeirlərində xalq dilinin üslubu imkanları həmişə təzə və yeni çalarlarla təzahür etdiyindən poetik dil canlı və təravətlidir. Çünki o, bir şair kimi hər bir sözün daxili anlamına, gizli qatlarına müraciət etməyi bacarır. O, sözlə insanla davranan kimi davranır.

X.Kərimlinin yaradıcılığı xalqımızın milli-mənəvi dəyərlərinin tarixi yaddaşının yaşantısıdır. Şairin şəhidlərimizlə bağlı yazdığı ***"Ağrı", "Bütövlük",*** tariximizin və günümüzün gerçəkliklərini əks etdirən ***"İnam", "Təbil"*** poemaları və bir çox şeirləri bu reallığı əks etdirir. Onun ***"Azərbaycan bayrağı"*** şeirində dövlətimizin atributlarından olan bayrağimizin simasında xalqımızın milli qürur və əzəməti ön plana çəkilir.

Şairin ümummilli liderimiz Heydər Əliyevə həsr etdiyi ***"Onu zaman doğmuşdu"*** şeiri də bu mövzuda yazılmış şeirlər sırasında milli-mənəvi yaddaşımızı əsk etdirən layiqli poetik nümunələrdən biridir:

*O, dünyaya gələndə*
*Təkcə özü ağladı.*
*Dünyadan köçəndəsə,*
*Cahan qara bağladı.*

*...Heydər kimi bir düha*
*Yeribdirsə bu xalq,*
*Bu xalqa ölüm yoxdur,*
*Əbədi yaşayacaq.*

Ədəbi tənqidin fikrincə, X.Kərimli poeziyası, sözün gerçək mənasında əbədiyaşar poeziyadır.

Xanəli Kərimlinin yaradıcılığı haqqında S.Bəşirovun ***"Xanəli Kərimli: Bir ömrün nağılı" (2011)*** monoqrafiyası, ***"Şairə məktub" (2007)*** və ***"Xanəli Kərimli: Sözün Əlincə qalası" (2011)*** məqalələr toplusu çap edilmişdir.

***İsmayıl Hacıyev,***
***Akademik.***
***Naxçıvan tarixi, 3 clddə, 3-cü cild,***
***VII fəsil, "Mədəniyyət" bölmü, s. 529- 530.***
***Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya***
***Birliyi, 2015.***

***

Tanınmış şair Xanəli Kərimlinin bu mövzuda *(şəhidlik mövzusunda - red.)* ən yaxşı əsərlərindən biri ***"Ağrı"*** və ***"Bütövlük"*** poemalarıdır. Bu poemalarda şəhidlik mövzusu daha geniş miqyasda həllini tapır. 20 Yanvar hadisəsi şairə illər uzunu qəlbində və şüurunda yığılıb qalmış hiss və fikirləri, dərin köks salmış milli iztirabları, ağrılı həqiqətləri ifadə etməyə əsas verir. Bununla belə, poemada *("Ağrı"da - red.)* mübarizəmizin çox mühüm bir məqamı, imperiya ordusu ilə xalqımızın üzləşməsi, mərd oğul və qızarımızın onun qarşısında diz çökməməsi faktı qələmə alınmışdır. Poemanın sonunda şair bu zülmün yerdə qalmayacağını, gec-tez intiqamın alınacağını inamla söyləyir:

*Azərbaycan - tarix boyu için qovğa,*
*çölün düşman.*
*Dünənin qan,bu günün qan.*
*Azərbaycan - hər yerində şəhidistan!..*
*And veirik, səndən ötrü şəhidləşən*
*mərdlərinin al qanına!*
*And veririk, öz adına,öz şanına,*
*...Möhkəm dayan!!..*

Poemanın əsas motivi,əsas poetik pafosu da məhz xalqın tarixində baş verən qanlı tarixi hadisənin lənətlənməsindən və ibrət götürülməsindən ibarətdir.

***Aypara Behbudova,***
***Filologiya üzrə fəlsəfə doktoru,***
***Naxçıvan Dövlət Universiteti.***
***"Qanlı Yanvarın ədəbı əks-sədası" məqaləsi,***
***"Ədəbiyyat qəzeti", 20 yanvar 2012-ci*** il.

***

Filoloq alim, şair Xanəli Kərimli *"nənnisi, beşiyi Toğluqayada qalan"* Məmməd Arazın hətta öz doğma kəndinə belə gəlməyə imkanı olmadığından Toğluqayanın dilindən belə qələmə alıb:

*Duman daşlarımdan uzaq düşübdü,*
*Heç bilinmir nə payızım, nə yazım.*
*Tale dizlərimi yaman bükübdü,*
*Niyə gəlməyirsən, Məmməd Arazım?!*

*...Bulaqlarım axarını dəyişib,*
*Gədiklərim baxarını dəyişib,*
*Şimşəklərim çaxarını dəyişib,*
*Dəyişibdi səsim, ünüm, avazım,*
*Gəl görüşək, mənim Məmməd Arazım.*

*...Şair balam, ömrüm-günüm yarıdı,*
*Sinəm üstə cicəklərim qarıdı,*
*Nəyim varsa, təbiətin varıdı...*
*Çalxalanıb dərinliyim, dayazım.*
*Gəl görüşək, mənim Məmməd Arazım!..*

Lakin Məmməd Araz gələ bilmir, addım ata bilmirdi. Əlindəki əsa da sözünə baxmırdı...

***Qaşdar Əliyev,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü,***
***fenoloq, əməkdar təbiəti mühafizə işçısı.***
***"Məmməd Araz və Azərbaycan təbiəti" məqaləsi***
***"Oğuz səsi" qəzeti,24 sentyabr 2013-cü il.***

***

***"Azərbaycan", "Azərbaycan bayrağı", "Harda Azərbaycan bayrağı qalxsa", "Naxçıvanım mənim", "Xalqım"*** və sair şeirlərində Vətəni tərənnüm edən şairimiz Xanəli Kərimli bu şeirlərində Azərbaycanın keçdiyi kəşməkəşli yolu sənətkarlıqla təsvir etməyi bacarmışdır. Onun *"Naxçıvanım mənim"* şeiri də bu baxımdan diqqət çəkir:

*Naxçıvanım - şanım mənim!*
*Qəlbimim şah damarında*
*Axan təmiz qanım mənim!*
*İftixarım, şərafətim,*
*Basılmaz ad-sanım mənim!*

***Nərgiz İsmayılova,***
***"Müstəqillik illərində Naxçıvan şairlərinin yaradıcılığında Naxçıvan və Vətən***
***mövzusu" məqaləsi,"Şərq qapısı" qəzeti,***
***14 avqust 2014-cü il.***

***

...Şair Xanəli Kərimlinin ***"Bayraq"*** (*"Azərbaycan bayrağı" - red.)* şeirində deyildiyi kimi:

*Mənim başımın üstdə*
*İki səcdəgahım var:*
*Biri uca Allahım,*
*Biri yenməz bayrağim.*

*Bayrağımın rəngində*
*Yerin,Göyün rəngi var.*
*Yurdumun azadlığı,*
*Pozulmaz ahəngi var.*

*Mən onu qoparmışam*
*Köləlik zəncirindən.*
*Ona səcdə edirlər*
*Dünyanın hər yerindən.*

Bayrağımız milli vəhdətimizin rəmzidir. Bu vəhdət uçrəngli bayrağımızı daha uca zirvələrə qaldıracaq və onu Qarabağa, Şuşaya, Xankəndinə daşıyacaqdır...

***Ədalət Cəfəroğlu,***
***"Naxçıvandan yüksələn üçrəngli bayrağımız" məqaləsi,***
***"Arazın səsi" qəzeti, 17 noyabr 2015-ci il.***

# ƏLİ RZA XƏLƏFLİNİN “ŞAİRİN QARDAŞI OĞLU” ƏSƏRİNDƏN

## (Sonra əsər “Söz və qan”, Bakı, 2016, adı ilə nəşr edilmişdir)

1

...Şair Xanəli Kərimlinin ***(“Payız duyğuları”, Bakı, ″Qanun″ nəşriyyatı, 2013)*** mənə sonuncu olaraq verdiyi kitabına baxıram. Bu kitab mənim üçün bir şair öncəgörməsinin ən dəyərli nümunəsi təsirini bağışlayır. Ümumi ənənəyə uyğun olaraq kitabın mahiyyətini özündə ehtiva edən nəşriyyat annotasiyasını da diqqətdən qaçırmıram: *″Çağdaş Azərbaycan poeziyasının tanınmış nümayəndələrndən biri, pedaqoq, tədqiqatçı Xanəli Kərimlininbu kitabında poetik yaradıcılığından seçmələr toplanmışdır. Şairin əsərlərinin cövhəri olan vətəndaş yanğısı, Haqqa sədaqət, yurda bağlılıq, insana sevgi bu şeirlərdə aşkar görunür″.*

***″Payız duyğuları″*** ilk baxışdan sanki şairin özünün şəxsi həyatı, taleyi ilə bağlı bədii təəssüratlar kimi anlaşılır. Amma kitabın elə ilk səhifələrindəcə Azərbaycan uğrunda bir savaşçını görürük. Müasir gəncliyi mənəvi cəhətdən silahlandırmaq naminə səfərbər edilmiş düşüncəni görürük. Əlbəttə, o, bir şair olaraq təkcə kitablarından görünmür. Həyatından da, bütöv yaradıcılığından da, alimliyindən də və həm də pedaqoji fəaliyyətindən də, bir sözlə, bütöv həyatının işıqlı tərəfindən tam təzahür eyləyə bilir. ...Bu, bizim müasirimiz, poeziyamızın, ədəbiyyatımızın kifayət qədər yaxşı tanınan simalardan biri Xanəli Kərmlidir. ...şairin özü haqqında qısa məlumatı da bu qeydlərin arasında verməyə gərək qızırqanmayaq:

″Xanəli Kərimli (Kərimli Xanəli Abbasəli oğlu) 1951-ci ilin noyabr ayının 27-də Şahbuz rayonunun Mahmudoba kəndində anad olub, şair, ədəbiyyatşünaş, filologiya üzrə fəlsəfə doktoru, Naxçıvan Dövlət Universitetinin dosenti və həmin universitetdə Əcnəbi tələbələrlə iş üzrə dekan, ikinci

çağırış Naxçıvan MR Ali Məclisinin deputatı, Naxçıvan MR-in Əməkdar müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

O, bir sıra elmi, ictimai və publisist məqalələrin, ***"Ay işığında" (1998), "Anamdan məktub" (2001), "Bu da bir nağıldı..." (2004), "Mənə elə gəlir ki..." (2008), "Duyğularım, düşüncələrim", "Mənim könlüm bir ümmandır" (İran, Urmiya, 2011)*** şeir kitablarının, ***"Ali və orta məktəblərdə Cənubi Azərbaycan ədəbiyyatının tədrisi metodikası" (2000)*** metodik vəsaitin müəllifidir. Haqqında ***"Şairə məktub" (2007), "Sözün Əlincə qalası" (2011)*** məqalələr topluları və fəlsəfə doktoru Sabir Bəşirovun ***"Xanəli Kərimli: Bir ömrün nağılı" (2011)*** monoqrafiyası nəşr edilib".

Əlbəttə, bunlar adi fakt yığını deyil, bunlar bir şair ömrünün hissələri, parçaları, illəridir.

Şair ömrünün bütövlüyünü, əzəmətli obraz gücünü göstərən sistemli, ardıcıl məlumat mənbəyidir. Burada bir-iki məqama da diqqəti çəkmək istəyirəm. *"Sözün Əlincə qalası"* məqalələr toplusunun - yəni Xanəli Kərimli haqqında düşüncələrin sırasında mənim də bir yazım verilib. Həmin yazıda mən Xanəli Kərimlini *"Sözün Əlincə qalası"* adlandırmışdım və elə portret-essenin başlığını da beləcə ifadə etmişdim: *"Sözün Əlincə qalası".*

Obraz o vaxt özünü tapır ki, onun həyatda əsası olsun, prototipi olsun. Mən Xanəli Kərimlinin yaradıcılığında sözün mükəmməlliyini Teymur istilaları qabağında gücünü, qüdrətini göstərmiş Əlincə əzəməti görürəm. Və həmin ifadənin necə yerində olduğunu sonralar qələmə aldığı və Xanəli Kərimlinin yaradıcılığını özündə ehtiva edən esse-monoqrafiyasında Sabir Bəşirov da yüksək dərəcədə dəyərləndirmişdi.

Yeri gəlmişkən, Sabir Bəşirov dövrümüzün çox istedadlı filosof-tənqidçilərindəndir.Ədəbiyyatşünaslıq fəaliyyətində də, sənətşünaslıq tədqiqatlarında da sözə, sənətə fəlsəfi yöndən nüfuz edir. Başqa sözlə, o, filosof yanaşması ilə tədqiq etdiyi əsərlə birgə həyata, cəmiyyətə, təbiətə, bir sözlə, mənəvi

ekologiyamıza daha dərindən nüfuz edə bilir. S.Bəşirov Xanəli Kərimli haqqında çox dəyərli bir esse-monoqrafiya yazmışdır.

***"Bir ömrün nağılı"*** kimi yaradılan obraz şairin daha çox görünməyən tərəflərinə işıq salır.

...Xanəli Kərimlinin ***"Payız duyğuları"*** kitabında ***"Bu da bir nağıldı..."*** adlı şeiri - ön söz kimi verilib - bir kitaba bərabər şeir. İnsanlığın - insanın necə iztirabla, necə ağrı ilə yaşadığına güzgü tutan bir şeir... Şeirin əvvəlində *"övlad istəyi"* kimi çox maraqlı bir epiqraf verilib: ***"Ata, bir nağıl kitabı tap, oxuyaq".*** ...Şeirin ümumi bədii təəssüratını qorumaq naminə yüksək estetik zövq aşılayacağına inamla olduğu kimi təqdim edirəm.

Hər kəs hansı tərəfdənsə-yaxşı olsun, ya pis... burada özünü görə bilər:

*"Mən özüm canlı bir nağılm, bala,*
*Hələ oxunmayıb bir xəttim belə,*
*Oxunsam, görərlər qaya ömrümü*
*Necə əritmişəm mən gilə-gilə.*

*Od oldum, ocağım,külüm olmadı,*
*Yandım duyğularda, ürəklərdə mən.*
*Ağrısız, acısız günüm olmadı,*
*Alışdım ümid tək bəbəklərdə mən.*

*Çox olub dəndnə daşına dönüb*
*Qoymadım uçula bir komanı da.*
*Səhrada nişangah daşına dönüb*
*Həqiqət eylədim çox güanı da.*

*Bəzən bir dilsizə dil olmuşam mən,*
*Dili söz tutanda kəsib dilimi.*
*Bəzən bir əlsizə əl olmuşam mən,*
*Əli əl tutanda kəsib əlimi.*

*Bir vaxt damarımdan qan verdiyim də*
*Məni div tanıtdı Məlikməmmədə.*
*Mən isə haqq deyib Haqqa sığındım,*
*Çünki inanmadım başqa qüvvətə.*

*Demirəm peyğəmbər övladıyam mən,*
*Mənim heç günahım, suçum olmayıb.*
*Yox, mən də insanam, adi bir insan...*
*Heç insan andan pak doğulmayıb.*

*Mənim də qəlbimdə şeytan hissi var,*
*Allah eşqi ilə durub döş-döşə.*
*Ancaq bir şər işə sərpəndə əlim*
*"Lənət kor şeytana" dedim həmişə.*

*Nə müti olmuşam, nə də başkəsən,*
*Mənim də meydanım, atım olubdu.*
*Hər ucuz başlara baş verməmişəm,*
*Mənim öz nəcabət zatım olubdu.*

*...Keçən ömür-günü ələklədim mən,*
*Gələn ömür-günüm nə ola-ola.*
*Yaxşım,yamanım da göz qabağında,*
*Bu da bir nağıldı danışdım, bala".*

Əvvəla, tam mənim ruhumdan xəbər verdiyi üçün Xanəli Kərimlinin on beş il bundan əvvəl yazdığı bu şeiri bütün ovqatı ilə mənə doğmadı. Əsərin lirik qəhrəmanının lirik mənin özü kimi özümü də görürəm. Və heç şübhəsiz, bu nağıl, özü də ecazkar nağil olan ömürnaməni oxuyan hər hansı bir gənc düşünməyə bilməz. Nağıl cazibədarlığı, nağıl şirinliyi ilə yazılmış şeirin ruhu zaman-zaman yaddaşlarda yaşayacaq gücdədir. Müasir gəncliyi silahlandırmaq üçün, ona sarsılmayan daxili təpər vermək üçün bu şeirin lirik qəhrəmanının ruhu kifayət qədər güclüdür. İnamla demək olar ki, Əməkdar elm xadimi, akademik, AMEA-nın vitse-prezidenti, Niza-

mi adına Ədəbiyyat İnstitutunun direktoru, millət vəkili İsa Həbibbəyli Xanəli Kərimlinin yaradıcılığını,onun mənəvi həyatını ehtiva edən mükəmməl tezisində tam haqlıdır: ***"Xanəli Kərimli yeni dövr Azərbaycan şeirində vətəndaşlıq lirikasının əsas yaradıcılarından biridir".***

Dədə Qorquddan üzü bəri gələn həqiqətdir. Övlad atasından öyrənər, mənəvi saflığı da, dəyanəti də, etibarı, hünəri də... burada ata anlamı nə qədər real və həqiqidirsə, bir o qədər məcazidir. Yəni bugünkü nəsil ən üstün keyfiyyətləri özündən əvvəlki nəsildən əxz edir.

...***"Payız duyğuları"*** kitabının ayrı-ayrı səhifələrini vərəqlədikcə ...ən azı bir kitabda cəmlənmiş altı kitabın birincisində - ***"Vətən və vətən daşı"*** kitabda oxucunu çağıran alovlu Vətən sevgisi və yanğısı ilə qələmə alınan ***"Azərbaycan", "Azərbaycan bayrağı", "Onu zaman doğmuşdu", "Harda Azərbaycan bayrağı qalxsa...", "Naxıvanım mənim", "Öz dilimsən", "Xalqım", "Şəhidlər xiyabanında", "Bu qan yerdə qalan deyil", "Kimsə yaşamasın", "Xiyabani demiş", "En ruhların arasından", "Ula, qurdum", "Yuxuda gördüyüm dağ", "Məramsız yaşamaq"***... və s. kimi şeirlərin təkcə adları bəs eləyir ki, bu şeirlər hansi yanğı ilə yazılıb və nə demək istəyir. ***"En ruhların arasından"*** şeirindən iki parçanın təqdimi Xanəli Kərimli dünyasındakı vətəndaşlığın, eləcə də Vətənin, vətən daşının, onun göyünün, yerinin, torpağının, meşəsinin, suyunun... həm də tarixinin keçdiyi yolun faciələrinin və bu günün özündəki Qarabağ yarasının... hansı mahiyyət kəsb etdiyini anlayaq:

*...Qan birliyi olmayanın din birliyi yalan imiş*
*Bu haqq sözü unutmağin sənin böyük bəlan imiş.*
*Axı niyə belə etdin, ey xaqanım, ey öndərim?!.*
*Sən özünü suçlamısan,mən başıma nə əndərim?!.*
*Səpdiyin o bəd toxumlar indi qalxıb meşə olub,*
*O meşənin üfunəti içimizə yaman dolub.*
*Səndən sonra məmləkətin dilim-dilim paralanıb,*
*Heç bilinmir qəbir daşın, gorun harda haralanıb?..*

*...Zəngəzurum, Göyçə gölüm, Dərbəndim də getdi əldən,*
*Borçalim da, Təbrizim də - o tayım da getdi əldən.*
*Qarabağım gedir əldən, dərdi düşmür dilimizdən,*
*Belə getsə, bütöv Vətən çıxacaqdı əlimizdən.*
*Təklənmişəm ortalıqda, sağım düşmən, solum düşmən,*
*İndi səni hansı üzlə üzə tutum, nə deyim mən?!.*
*Sən, ey mənim türk xaqanım, qiblə daşım!..*
*Savabınla, günahınla haçanadək, de uğraşım?!.*

Bu,Vətənin tarixi,mənəvi xəritəsidir.Tarixi bütün faciəviliyi ilə ğöstərən xəritədir. Hər bir gəncin oxumalı olduğu, dərk etməli olduğu, dərinliyinə, mənasına varmalı olduğu bir xəritədir...

***"Kredo" qəzeti,***
***18 dekabr 2015-ci il.***

2

...Xanəli Kərimli bir sənətkar olaraq və həm də bir pedaqoq olaraq yaxşı bilir ki, yeni nəslin formalaşmasında tarix,tarixi mənəvi sərvətlər, Azərbaycan xalqını şöhrətləndirən tarixi ədəbi simalar xüsusi əhəmiyyətə malikdir. Ona görə də onun yaradıcılığında bu motivlər - tarixi-ədəbi obrazlar xüsusi çəkiyə malikdir. Məsələyə bir qədər aydınlıq gətirmək üçün yeni nəsil formalaşdıran son 30 ilə qədərki dövrü, zənənnimcə, yada salmaq yerinə düşərdi. Müasir Azərbaycan gəncliyinin müstəqillik dövrü azadlıq ideyalarının formalaşmasında 20 Yanvar hadisələri özül mahiyyəti daşıyır. Bəlkə də, tənqidçi-estetik Sabir Bəşirov Xanəli Kərimlinin yaradıcılığında ayrı-ayrı tarixi dövrlərə önəm verməsinin səblərini açıqlayanda, məhz gəncliyin-müasir gəncliyin mənəvi tərbiyəsinin əsasında dayanan hadisələri təsadüfi xatırlatmır: *"XX əsrdə Azərbaycan böyük faciələrlə,böyük hadisələrlə üzləşib. XX əsrdə Azərbaycan türklərinin tarixində iki dəfə təkrarlanan böyük bir hadisə də baş verib - əsrin əvvəllərində Azərbaycan 23 aylıq müstəqillik əldə edib, bir də əsrin sonunda.*

*İndi Azərbaycan 20 ilə yaxındır ki, müstəqil dövlətdir. Problemlərimiz, çətinliklərimiz var və bunu heç kim inkar etmir. Ancaq bütün problemlərimizi, çətinliklərimizi, mənəviyyatımıza... dəyən zərərləri tərəzinin bir gözünə, müstəqilliyimizi isə digər gözünə qoysaq, şübhəsiz, müstəqillik olan tərəf ağır gələr... 50 milyonluq Azərbaycan türklərinin yeganə müstəqil dövləti azadlığımızın rəmzidir..."*

Professor Camal Mustafayev də Xanəli Kərimlinin poemalarına xüsusi önəm verir. Onun qeyd etdiyi kimi, *"...Xanəli Kərimli qarşılaşdığımız şərin yeniləcəyinə inambəsləyir. Bu cəhətdən kiçikhəcmli "İnam" poeması maraq doğurur. Memar Əcəmiyə həsr edib onu, ancaq müasir səslənir. Şairin Əcəmi dühası ilə söhbəti kimi qələmə alınıb. Söhbətin canı Vətəni parçalanmaqdan qurtarmaq, mərdlik ənənəmizə güvənməkdir. "Təbil" poemasında isə daha bir dərdimizdən söz açır. Bu, kəndlərimizin artıq kimsəsizləşməyə doğru getməsindən doğan dərddir... Bunun özü yurdun taleyi üçün həyəcan doğuracaq hadisədir..." (Camal Mustafayev, "Şair şeirindən tanınır", "Xəzər-xəbər", N 141, 2003, s.17)*

Göründüyü kimi, Xanəli Kərimlinin tarixə münasibətini - Əcəmi obrazı əsas götürülməklə, Əməkdar elm xadimi Camal Mustafayev də diqqətdən kənarda qoymur. Eləcə də, Azərbaycan cəmiyyəti sağlam, Vətəni bütöv, təbiəti toxunulmaz, kəndləri abad, urbanizasiya problemlərinin çözülməsi məsələləri də professorun diqqətini cəlb etmişdi. Nə Xanəlinin *"İnam"poeması, nə də "Təbil" poeması müasir Azərbaycan cəmiyyətindən kənarda deyil. Bu əsərlərin hər birində bizim düşündüyümüz, gördüyümüz problemlər öz əksin tapıb" (Sabir Bəşirov, "Xanəli Kərimli: Bir ömrün nağılı" ədəbi portret, "Qanun" nəşriyyatı, 2011, s.92).*

Bəli, tənqidçi doğru deyir, bizi düşündürən və eyni zamanda gördüyümüz problemlər bədii yaradıcılıqda kifayət qədər öz əksini tapır.

...Sabir Bəşirov Xanəli Kərimli yaradıcılığından daha bir məqama da diqqəti çəkir. Və burada bizim də diqqətimizi xüsusilə səfərbər edib saxlayan X.Kərimlinin məkan, Vətən məhfumunu özündə ehtiva edən Şəhidistan obrazıdır. Əcəmi

Şəhidistan önündə dayanır, sanki ...bugünkü gənc tarixi yolu dərk etməsə, nə Vətəni, nə də Şəhidistanı dərk eləməz.

Minlərlə insanın Şəhidlər xiyabanını ziyarəti gözlərimizin önünə gətirək. Və tənqidçi Sabir Bəşirovun Xanəli yaradıcılığına tutduğu güzgüdə gördüyümüzə baxaq: *"Poema Xanəli Kərimlinin bütün yaradıcılığın da olduğu kimi nikbin ovqatla, gələcəyə inamla bitir:*

*Elə ki, Əcəmi şəhidistanın*
*Önündə salavat çəkib dayandı,*
*Onda Vətənində hələ mərdlərin*
*Tükənmədiyinə qəlbən inandı.*

*İnandı keşikdə duran əsgərin*
*Başının üstdəki o al bayrağa.*
*Bir də ki, intiqam odu püskürən*
*Şəhid dağı görmüş ana torpağa.*

*Dedi ki, bir arxdan su gəlibdisə,*
*İnanın ki, bir də çağlayıb gələr.*
*O əsgər başının üstdəki bayraq*
*Bütöv Azərbaycan üstə yüksələr!..*

*Fəlsəfi və ictimai fikir tarixində Azadlıq anlayışı qədər izah, şərh, müraciət olunan, həm də bir-birinə zidd fikirlər söylənən ikinci bir anlayış tapmaq çətindir" (Sabir Bəşirov, ... s.96 - red.).*

*"...Xanəli Kərimli Azərbaycan türkünün bütün həyatını, varlığını Vətənin bütövlüyü ilə bağlayır: "Vətəni bütöv olanın ürəyi də bütövdür, çörəyi də, yumruğu da... Mənimsə ürəyim də, çörəyim də, yumruğum da paradır; onuncun də yüzillərdir qoymadılar görəm ki, qibləm haradır, yolum haradır..."*

*"...Xanəli Kərimlinin poemaları Azərbaycan tarixinin çox önəmli səhifələrinə, Azərbaycan türklərinin böyük ideallarına həsr olunmuş gözəl poetik nümunələr kimi yadda qalır.*

*Həmin poemaların geniş təhlili,hətta orta məktəb dərsliklərində böyüməkdə olan nəslə çatdırılması faydalı olardı. Bu poemalar eyni*

*zamanda müəllifin vətəndaşlıq lirikasının mühüm bir qolunu təşkil edir" (Sabir Bəşirov, ... s.98 - red.).*

Heç şübhəsiz, gələcəkdə Azərbaycan cəmiyyəti son 30 illik mərhələni xüsusi tədqiqata cəlb olunması üçün şərait yaradacaq, yəni qəhrəmanlıq vətəni istiqlal dövründə qorumağın yolu ayrıca öyrəniləcək. Mühit bütün əlvanlığı ilə bir həqiqəti diqtə edir: Şair şəhiddən təcrid olunmayıb, eləcə də, şəhidin, qəhrəmanın taleyi poeziyadan, ədəbiyyatdan kənarda deyil. Qəhrəmanın əlindəki silahdan başqa bir əsas silahı da yetkin vətəndaşlıq düşüncəsi, Vətən sevgisidir. Bu hisslər üçün əsas mənbə, bir daha təkrar etməyə dəyər ki, ədəbiyyatdır, sözdür.

***"Kredo" qəzeti,***
***25 dekabr 2015-ci il***

3

Xanəli Kərimli Azərbaycanın kifayət qədər tanınmış alimi olsa da, o həm də bir şair kimi, poetik söz ustadı kimi mənəvi mühitimizdə tanınır. Artıq qeyd etdiyimiz kimi, onun yaradıcılığı kifayət qədər tanınmış elm və sənət adamları - professor Camal Mustafayev, filosof Sabir Bəşirov *(bura akademiklərdən İsa Həbibbəylinin, İsmayil Hacıyevin, AMEA-nın müxbir üzvlərindən Muxtar İmanovun, Səfərəli Babayevin, Adil Bağırovun, professorlardan Yavuz Axundlunun, Maarifə Hacıyevanın, Vaqif Yusiflinin, Asif Rüstəmlinin, Sevindik Vəlıyevin, Elbəyi Maqsudovun, Hüseyn Həşimlinin, Yaşar Qasımbəylinin, İsa Kayacanın (Türkiyə), Camal Ayrımlının (İran), Həmid Əliyevin, Akif İmanlının, Sərdar Zeynalovun, Sədaqət Həsənova, fəlsəfə doktorlarından Azər Turanın, Əbülfəz Əzimlinin, Vaqif Məmmədovun, İsgəndər Orucəliyevin, Avtandil Ağbabalının, Hüseyn Adıgözəlovun, İslam Beytulla Erdinin (Türkiyə), A.Erbil Hüryurtun (Türkiyə), Fərqanə Kazımovanın, Firudin Rzayevin, Süleyman Alıyevin, Arif Ağalarovun, Qənirə Əsgərovanın, Abbas Mehdiyevin, Kamal Camalovun, Ramiz Qasımovun, Aypara Behbudovanın, Seyid Surənin, Sədaqət Nemətovanın, Zülfiyyə İsmayılovanın, elmi ad və titulları olmayan 20 dən çox müəlliflərin adlarını da əlavə etmək olar - red.)* və

qeyriləri tərəfindən həmişə diqqətdə saxlanılıb, öyrənilib və şərh olunub. Bütün bunlar o deməkdir ki, Xanəli Kərimli yalnız alim deyil, həm də şairdir. Və mütləq bunu da qeyd etmək gərəkdir ki, o, alimliyindən cox şairdir. Sənət adamı kimi poetik, həssas kimi ayrı-ayrı məqamlarda görünən təkrarsız, bənzərsiz həyat ğörüntülərini - bənzərsiz anların poeziyasını da çox böyük uğurla qələmə alir.

Həqiqətən, sənətdə böyük doğruluq, böyük düşüncə birmənalılığı bədiiliklə həyatiliyin qovuşmasından cox asılıdır. Qısası, o qədər aydın olan bir həqiqəti etiraf etməliyik ki, sözdə, ədəbi düşüncədə həyati istinad həmişə uğur gətirir. Bu uğurun gücü, dəyəri cəmiyyətdə, insanlar arasında qəbul olunan tərəfi, əsasən, o mahiyyətlə bağlıdır ki, nəticənin, görünən tərəfin həyatla - mənəvi həyatla güclü daxili bağlılığı olsun. Və elə bu yerdə şairin qardaşı oğlu haqqında danışırıqsa, həmin şəhidin atasının qardaşı olaraq şairin düşüncələrinə də önəm verməyə borcluyuq.

...Və elə buradaca deyirəm ki, Xanəli Kərimlinin - şairin özünün qardaşı oğlu haqqında yazdığı və bəlkə də haqqında yox, onun özündən sonra qoyduğu hiss və duyğu vərəsəsi haqqında yazdığı söz də mənim üçün xüsusi əhəmiyyət kəsb edir. Bəli, Xanəli Kərimli şəhid övladlarının gözlənti duyğularını 18 oktyabr günündə varlığından gələn səslə mütləq uzlaşdırmalı idi.

Ən uca həqiqətlər Vətən uğrunda döyüşüb həlak olanların arzuladıqları azad və bütöv Vətən anlamıdır. Şair Xanəli Kərimli ***"Hələ inanmırlar"*** adlı şeir yazıb. Daha doörusu, ruhunda, varlığında ağrı olan duyğuları sözə çevirib. Və həmin sözün əvvəlindəcə belə bir şərh də verib: *"Milli ordunun kapitanı, şəhid Ceyhun Orucəliyev haqqında televiziya verilişi hazırlayanda məsləhət görüldü ki, ondan yadigar qalan iki körpə qız balaları atalarının məzarı üstünə gül qoymaq kadrı da çəkilsin. Dedilər ki, qızları atalarının ölümündən xəbərsizdirlər. İnanırlar ki, ataları nə vaxtsa gələcək".*

Nə qədər dəqiq və aydın və poetik mənzərə... Bütün ağrısıyla,bütün dərdi və kədəri ilə yaşanan bir dünyanın işıqlı və

qaranlıq tərəflərinin hamısının öz əksini tapdığını görməmək mümkün deyil. Amma daha üstün olan tərəf odur ki, şair bu ağır və kəskin, ancaq real və aydın mənzərəni özündə ehtiva edən duyğularını yazmağı ilə də kifayətlənmir.

Və ən başlıcası, poeziya gəlir:

*Sənin ölümünü bilmir qızların,*
*Elə bilirlər ki, qayıdacaqsan.*
*Elə bilirlər ki, bir ata kimi*
*Onları qoynunda qoruyacaqsan.*

*Yollardan yığılmır hələ gözləri,*
*Ata axtarırlar baxışlarıyla.*
*Bəzən də şəklinin durub önündə*
*Səni çağırırlar göz yaşlarıyla.*

*Elə bilirlər ki, günün birində*
*Bir ağ göyərçinə dönüb gələssən.*
*Oyuncaq üstündə "sözləri olan"*
*Hər kəsin payını özün bölləssən.*

*Göyə bulud gəlcək, bir külək əscək*
*Dil boğaza qoymur bir cüt bənövşən.*
*"Yəqin səngərdədir atamız indi" -*
*O anda bir sənsən tək yada düşən.*

*Sən öldün Tanrıya borcunu verdin,*
*Qalanlar min dəfə ölüb-dirilir.*
*Hər gecə yuxuda görürlər səni,*
*Hər gecə xəyalın salama gəlir.*

*Bir zaman gələcək şəhid adınla*
*Qürur duyacaqdır bu körpələrin.*
*Ancaq... bu gün onlar yol gözləyirlər...*
*Onların halından yoxdur xəbərin.*

*Sənin əllərinə qalıbdır həsrət*
*Duyğunun, Alinin qıvrım saçları.*
*Bilirəm, yolun ta gedər-gəlməzdir...*
*Onları yuxuda ovundur barı.*

*Hələ inanmırlar, ölərmiş ata,*
*Hələ inanmırlar sənsizliyinə.*
*Hələ inanmırlar döyüş paltarın*
*Soyunub, atalar kəfən geyinə.*

*Elə bilirlər ki, qayıdacaqsan.*
*Elə bilirlər ki, dönəssən bir gün.*
*Ümidlə qatırlar başların hələ,*
*Ümidlə qoy hələ üzləri gülsün.*

*Ümidlə qoy hələ üzləri gülsün,*
*Bir sevinc çilənsin baxışlarına.*
*Dönüb yol daşına vaxtı gələndə,*
*Səni gəzənlərin çıx yollarına...*

Xanəli Kərimlinin bu şeiri yazması üçün bir ildən artıq vaxt sərf olunub. Bəlkə bu şeirə qədər də çox poetik çalar-da ədəbi-publisistik düşüncələrdə fikirlərini ifadə etməyə çalışıb,ancaq əsl poeziyaya gələnə qədər ağrının düşüncədən keçən yükünü daşıyıb. Və nəhayət bu şeiri bu tarixdə qələmə alıb - *"18.10.2015"*. Bəlkə də bu tarix kiməsə bir təsadüf kimi də görünə bilər. Amma bu tarix təsadüfi tarix deyil, Azərbaycanın dövlətçilik tarixidir.

***"Kredo" qəzeti,***
***31 dekabr 2015-ci il.***

4

İstər-istəməz Xanəli Kərimlinin ***"Arazın dilindən"*** lirik monoloqu bunu deməyə əsas verir ki, bizim düşündüyümüzdən daha artıq təsirlə, yanğıyla ***"Araz düşünür".*** Məhz şairin də

məqsədi Arazlığın təlqin elədiyi hissləri açmaqdır. Araz və Kür haqqında qədim əfsanədə onlar sevgililər kimi obrazlaşır. Ancaq Xanəli Kərimlinin əsaslandığı əsatiri düşüncədə Arazın və Kürün iki bacı obrazı görünür. Biz şairin ***"Payız duyğuları"*** arasından danışan Arazın dilini, dərdini, ağrısını, acısını daha yaxşı anlayırıq. Araz danışır:

*Mən bir nazlı gəlin idim*
*Yüz altmış il bundan əvvəl,*
*Nə bir dərdim, qəmim vardı...*
*Qulac-qulac hörüklərim*
*Dağılardı bu torpağın sinəsinə,*
*Oxuyardım şirin-şirin...*
*Xoş avazım qarışardı*
*Dan üzünün meh səsinə.*

Şeirdə-ədəbi parçada, hətta, əsərin kitabda yazıldığı tarix göstərilməsə də, ədəbi lövhənin özündəki *"yüz altmış il bundan əvvəl"* misrası bizə əsas verir deyək ki, Xanəli Kərimli bu əsəri 70-ci illərin sonlarında qələmə alıb. Bu da onu deməyə imkan yaradır ki, ayrı-ayrı zamanların səngiməlvalərinə şair duyğuları sinə gəlib, xalqın birliyinə doğru yerişini mənəvi təsirlə təmin etməyə çalışıb. Göründüyü kimi, Araz özü də tarixin çox uzaqlıq tərəfində qalmış günlərini xatırladır, özü də həsrətlə, yanğı ilə. Bu, o zaman idi ki, ayrı-ayrı işğalçı ölkələrin qəddar qılıncları ilə bölünməmişdi, parçalanmamışdır. Amma Araz həmin taleyin o xoş günlərini ötəri, şirin-şirin xatırlamalarla yad etsə də, tezcə ağrı və dərd zamanına qayıdır. Və özünün necə qolları zəncirli, ayaqları qandallı bir dustaq olduğunu xatırlatmalı, yada salmalı olur:

*İndi gözlərinin odu səngiyən,*
*Taleyi kür gəlib, bəxti ləngiyən,*
*Bir namərd toruna düşüb təngiyən*
*Qolları zəncirli dustaq olmuşam.*

Araz səbri daşmış, dözümü tükənmiş bir obraz kimi görünür. O, doğma bacısı Kürə danışır. Arazın ricətlərindən, Kürə ünvanlanan duyğulanmalarından onu başa düşürük ki, deyəsən, Kür onu səbrə, dözümə səsləyir, təmkinə çağırır. Biz burada Kürün timsalında bu dünyanın üzünə baxıb necə müəmmalar içərisində çırpıntılarla, nigarançılıqlarla çarəsizliklə dözümü, təmkini daha üstün tutan öz dünyamızı, özümüzü görürük. Sanki Araz dözmür, ancaq biz dözürük, çünki başqa yol görmürük. Şair o tayda haqsızlıqların necə həddən aşdığını, qnunsuzluqların dilə,mənəviyyata başqaların hüdudsuzluğunu göstərmək üçün Səməd Behrəngini xatırladır:

*Ay mənim pənahım,*
*ay ümidgahım!..*
*Ürək-dirək verib mənə*
*deyirsən ki, səbrin olsun,*
*axır hər şey düzələcək...*
*Nə vaxtadək?!*
*A Kür bacım, nə vaxtadək?!..*

*Gözüm baxa-baxa mənim*
*Behrəngimi öldürdülər,*
*Sonra mənə şər atdılar:*
*"Araz boğubdu", - dedilər.*
*Balasını anasına boğduranlar,*
*Ürəklərə çalın-çarpaz dağ vuranlar,*
*Qapımıza böhtan daşı yağdıranlar*
*Bax, beləcə qara yaxır, ləkə vurur*
*mənim xal-xal ürəyimə.*
*Zəhər qatır, ağu qatır*
*mənim yavan çörəyimə.*

Səməd Behrəngi o tay Azərbaycanda Şəhriyarla, Səhəndlə, Sönməzlə mübarizlik ruhu ilə bir cərgədə dayanan sənətkardır. Səməd Behrəngi ədəbiyyata gəlişi ilə sanki Azərbaycan ruhunun ölməzliyinə inamı qaytardı. O, dilin,

sözün milli varlığın sanki qaraçuxası idi. Ona görə də şah rejiminin "SAVAK" cəlladları onu gənc ikən Araz sularında boğub öldürdülər. Ancaq gec idi. O, parlaq istedadı ilə artıq az qala kül altında qalan qorları üfürüb, təzədən alova çevirmişdi, ocaq təzədən yanmaqda idi.

Bu gün Arazboyu Naxçıvandan ta Xudafərinə, Xudafərindən Mil düzünə - Daşburuna qədər keçilən yol boyu öz nəhrində çırpınmaqları ilə danışan Araz xalqın taleyüklü bir ağrısının daşıyıcısıdır. Bütün sərhəd boyu hər yerdə Arazın o tay sahilində biz Vətən yolunda həlak olmuş Səməd Behrəngini görürük. ...***"Bütövlük nəğməsi"***ni oxuyan,daha doğrusu, bu nəğməni çağıracaq şən ellərin birlik yaşamını görmək istəyini söz-söz, misra-misra anlayırıq, hərçənd ki, Araz danışdıqca, bizə də anladır ki, kim desə, bu yaralar sağalıb, inanmayın.

Budur, həmin yanğı ilə danışan sətirlər:

*A Kür bacım,*
*Qanını da qaraldıram hərdən sənin,*
*Danışdıqca oyalanır dərdim mənim:*
*Öz balası anasının gözlərinin qabağında*
*şikəst qalan analar tək*
*gündə bir kərpici düşən*
*Xudafərin körpüsünün*
*nisgilini ağlayıram.*
*Gündən-günə qabar atan,*
*qanı sızan yarasına*
*məlhəm qoyub bağlayıram-*
*sağalmayır...*
*sağalmayır...*
*sağalmayır...*

Bu misrları ruhumdan keçirib mənə aşıladığı duyğularla təzədən danışmaq asan olmur.

Çünki bir vaxt biz Arazın sahilində dayanıb o tayla da - Arazın özü ilə heç olmasa səssiz-səssiz danışırdıq. Amma indi

bu imkanlar da bizdən alınıb. Yaxşı yadımdadır, X.Kərimli ilə ilk tanışlıq günlərində söhbətimizin mövzusu Arazboyu olub. Əslində, elə bizim doğmalığımızın özülü də Arazdır. Mən Xanəliyə ünvanım haqqında danışarkən, Səməd Vurğunun məşhur ***"Körpünün həsrəti"*** şeirini yada saldım. *"Araz qırağında dayandı qatar, Elə bil, qəlbim də dayandı bu dəm, Sıxlaşdı göydəki seyrək buludlar, Elə bil, başıma dolandı aləm".*

Qırxıncı illərin xırında S.Vurğun qatarla gedərkən körpünün yanında bir dəqiqəlik Xudafərin dayanacağında yaşadığı hissləri qələmə alıb. Körpüdən bir qədər aşağıda aşağı axar boyü Xələfli kəndi yerləşirdi. Yanını tikanlı məftillər didən Xələfli kəndi. Yaxşı bağ-bağatlı, sərin sulu Xələfli stansiyası. Naxçıvana gedən müsafirlər hökmən bu stansiyada düşər, sərin bulaq suyu ilə yuyunar, su içər və təzədən qatarla yollarına davam edərdilər. Bu, Diri dağının ətətindəki Xələfli kəndi idi:

*"Mən həmişə həmin stansiyada düşüb su içəndən sonra, üzü dağlara sarı baxardım. Bilirdim ki, bu dağlar Diri dağlarıdır. Dədə Qurbanın doğulub, böyüdüyü yerlərdir. Həmişə düşünərdim ki, bu dağlar Dədə Qurbanın sazını, sözünü eşidib. Həmişə düşünürdüm ki, o söz də, o saz da bu daşlara hopub və bu gün də elə o daşlarda yaşayır"* - bunları Xanəli Kərimli deyirdi. Sanki bu danışıqları ilə mənim də həsrət çəkən yaddaşımın yanğısını bir daha oyadırdı. Bütün bunlar artıq yaddaş mahiyyəti kəsb edən Arazın və Arazboyu sıralanan dağların aşıladığı duyğulardır. X.Kərimli də bu duyğyların dilini bildiyi üçün Arazın dillindən lirik monoloqu qələmə ala bilib:

*A Kür bacım,*
*Dərdlərimin hansın deyim?..*
*Axşam-səhər sahilimdən*
*neçə-neçə qatar keçir,*
*Vaqonlardan boylanırlar*
*min arzuyla, min diləklə mənə sarı,*
*Hamının da ürəyini*
*oxuyuram gözlərindən:*

*Kimi mənə ağı deyir,*
*Kimi mənə yağı deyir,*
*Kimi də göz dağı deyir...*
*Eh... nə bilim,*
*üzü dönsün bu dünyanın-*
*"toxun acdan,*
*atlının da piyadadan nə xəbəri?".*
*Bir də axı, a Kür bacım,*
*dağları yarğa eyləyən,*
*qartalı qarğa eyləyən,*
*köhləni yorğa eyləyən*
*bu dünyadan nə gözləyim?!.*

Əgər sənətkarın ürəyində Vətən eeşqi çağlamasa, tarix yarası göynəməsə,o,öz oxucusu ilə özü arasında körpü yarada bilməz. Milli Hökumət dövrünü xatırlayır. Birləşməyə bircə addım qalmış... xalqın işğal boyunduruğundan xilas imkanı yaranmış... amma yenə düşmən hiyləsi üstün gəlir. Araza da, şairə də o qalır ki, həmin anların həsrətini yanğılı misralarla ovutsun:

*Sevindim ki, Günəş doğdu,*
*Azalacaq ağrım-acım.*
*Bu günəşin istisi də*
*Isitmədi məni, bacım!..*

Bəlkə də, ***"Payız duyğuları"*** kitabını ilk əlimə alanda, gözlərimi, nəzərlərimi gözəgörünməz min tellərlə özünə çəkib bağlayan çoxlu səbəbləri sayram. Ən başlıcası, Xanəli Kərimlinin hikmət dolu aləmini, vətəndaşlıq yanğısını, idealına sədaqət qayəsini... bir çox mətləbləri. Amma X.Kərimlinin ruhundan, varlığından qopub gələn bir səs də var, o səs mənə təlqin eləyir ki, mən sözün örtüdə qalan tərəfinə diqqət yetirim. Eləcə də,bütün oxucular üçün də bunu - əlbəttə, duyğulu oxucular üçün, sözə doğru yeriməyi bacaran oxucular üçün də demək olar:

*"Sirr tək gəldim dünyaya,*
*Sirr tək çıxıb gedirəm.*
*Cismsm torpaq tək ölü,*
*Ruhum ilə diriyəm".*

Təkcə elə bu dörd misranın içindəki gücü, enerjini duymaq bəs eləyir ki, mənən nə qədər silahlı olduğunu dərk edə biləsən. Ceyhun Orucəliyev kimi gəncləri Vətən sipərinə çevirən ***"Payız duyğuları"***nın da danışdıqları da budur.

Xanəli Kərimli Araz savaşının arxasında dayanıb,mücadilə açan qələm sahibidir. Onu oxuyan hər bir əsgərin, duyan döyüşçünün komandiridir, bayraqçısıdır, ələmdarıdır. Araz isə X.Kərimlinin özünün varlığından keçib gələn duyğularla danışmaqdadır:

*A Kür bacım,*
*Mən kiməmsə, nəçiyəmsə,*
*Tarix özü yaxşı bilir...*
*Daha bəsdir!..*
*Bu zillətə,bu əzaba dözməmişəm,*
*dözməyəcəm!.*
*Dərdlərimə əlac üçün*
*qapı-qapı gəzməmişəm,*
*gəzməyəcəm!.*
*Ya məcramı dəyişəcəm,*
*ya da üsyan qaldıracam...*
*Döyüşəcəm!..*
*Döyüşəcəm!..*
*Döyüşəcəm!..*

Araz bizim yaddaş mexanizmimizin açarıdır,özü də tarixi mexanizmimizin açarı. Tarixin sərt dönəmlərində Araza Azərbaycan xalqının ruhunu oyadan əsas istinad kimi baxılıb.

Hər halda, insanın özünü bərpası üçün, ruhun qorunması üçün yaddaş əsas vasitədir.

...Əsər "döyüşəcəm" sözü ilə, manifest duyğularla başa çatır. Sanki silahlanıb, düşmən qabağına yeriyən əsgərin varlığında oyanan mübarizə əzminin manifestini hiss edirik.

Xanəli Kərimlinin bu duyğulanmaları zaman boyu öz tarixini danışan Arazın öz səsi ilə nə qədər həmahəngdir, doğmadır, bir-birini tamamlayandır.

İndi Araz boyunda da qışdır. Daha sərt qışdır, daha ağrılı qışdır.

***"Kredo" qəzeti,***
***03 yanvar 2016-cı il.***

5

Xanəli Kərimlinin ***"Bir vulkan püskürməsi"*** adlı və həcmcə kiçik bir şeiri var. Hərbi formada böyüyən, daxilən qan-qan deyən ruhundan, varlığından enerji yağan gəncin məhz sonuncu anını mən Xanəli Kərimlinin son misrasında ğörürəm. Sanki şeirin əvvəli taleyin zərbələrinə dözüb-dayanan bir insandan danışır. Həmin insanın içində başqa bir insan baş qaldırır. Bu, yeni nəsildir:

*Ürəyim bomboşdur...*
*Yel vurur, yengələr oynayır.*
*Ürəyimin boşluğu*
*bəsarətin korluğu,*
*beynimin karlığıdır.*
*Məstəm -*
*ya ağlın yoxluğundan,*
*ya dərdin çoxluğundan.*
*Tükənir yavaş-yavaş*
*səbrim də, gücüm də,*
*Ancaq...*
*bir vulkan püskürməsi*
*gözlənilir içimdə...*

Göründüyü kimi, şairin varlığında, ruhunda böyüyən yeni insan artiq onun arzularının gerçəkləşməsi üçün mövcud olan imkan deməkdir.

Mənsub olduğu xalqın, yurdun, Vətənin həqiqətlərini diqtə etmək üçün ağilla birgə, həm də güc gərəkdir. Bu güc şairin içində vulkan püskürməsi kimi maqmaya çevriləcək anın övladıdır.

Xanəli Kərimlinin möhtəşəm obrazlarının arasında dənizin də öz yeri var. Əlbəttə, kimsə deyə bilər ki, dəniz şairə öz istək və arzularını – özünü ifadə üçün seçililmiş obrazdır. Amma elə obrazdır ki, biz həmin obrazın arxasında yeni, daha zəngin mənəvi dünyanı görə bilirik:

*Dəniz tufanlanmasa,*
*kükrəməsə, coşmasa,*
*Üfunət iyi gələr dənizdən.*
*Nə sahilinə çixan olar,*
*nə hüsnünə baxan,*
*Yavaş-yavaş düşər gözdən.*
*Dəniz olmaq istəyirəm-*
*kükrəyən, coşan,*
*tufanlı bir dəniz.*
*Hər qasırğam, fırtınam*
*məni məhbəstək sıxan*
*qayaların köksündə*
*şırım-şırım açsın iz.*

...Söhbət onda deyil ki, Xanəli Kərimli bu dəniz tərənnümünü verərkən son nəticədə bir Azərbaycan gəncinin, lap elə olsun qardaşı oğlunun daxilindəki özünəsığmazlığı verib, ya verməyib? Bunun məsələyə dəxli yoxdur. Gərək unutmayaq ki, Azərbaycanı meydan epopeyasına gətirən güc mənbəyi Azərbaycan ədəbiyyatı idi. Səməd Vurğunun qanadlı poeziyası idi. Bəxtiyarın fikir, düşüncəyə çevrilmiş və sıyrılmış qılıncı idi, Rəsul Rzanın rənəgləri idi. Bir sözlə, Azərbaycan ədəbiyyatındakı Azərbaycan obrazı idi. X.Kərimli də mənəvi

saflığı, daxili aləmin duruluğunu, fikir və düşüncə təmizliyini arzulayırdı dəniz olmaq istəyəndə. Müasir Azərbaycan gənci - Ceyhun Orucəliyevlər bu fikir və duyğuları ruhuna yeyə-yeyə böyüyürdülər:

*Dəniz olmaq istəyirəm -*
*göz yaşıtək dumduru*
*cilvəli sularımda*
*asimanlar sığal versin özlərinə.*
*Mışıl-mışıl çırpıldıqca*
*sahilimə ləpələrim,*
*qıvırcaqlar səpələsin*
*sevənlərin*
*yalınayaq izlərinə.*

*Dəniz olmaq istəyirəm-*
*Azman-azman dağ çayların*
*ovundurum köksüm altda.*
*Dəniz olmaq istəyirəm -*
*görsün özün hər zərrəmdə*
*Yer də, Göy də, Kainat da...*

***"Kredo"qəzeti,***
***08 yanvar 2016.***

6

Şairin qardaşı oğlunun xarakterik cizgilərini gözə gətirmək üçün şairin - Xanəli Kərimlinin özünün yeni nəslə, daha dəqiq desək, mənəvi vəsiyyətlərini burada yada salmaq yerinə düşərdi:

*"Vətəni işğal olmuş millətin birici edam edilməlidi şairləri, müəllimləri. Sonra alimləri, zabitləri, əsgərləri. Daha sonra, vaxt qalsa, həvəs olsa, o biriləri..."*

***

*"Ata babam deyərdi: "Qorxan gözə çöp düşər, neçə ki, canında can var, arxanda arxan, Qorxma nə soldan, nə sağdan".*

*Ana babam deyərdi: "Qorxulu baş salamat olar, Qorx Alahdan, bir də allahsızdan".*

*İkili ömür yaşaya-yaşaya çatdım babalıq yaşına. Heç bilmirəm, bu yaşda mən nə ağıl qoyum nəvələrin başına"?..*

***

*"Mənim ömrüm zamanın ocağında korun-korun odlanan, için-için əriyən çinar kötüyü ömrüdür. Qana-qana yanıram, yana-yana qanıram..." (Xanəli Kərimli,"Payız duyğuları", Bakı, 2013, s.449).*

Xanəli Kərimlinin bu misralrını oxuya-oxya onun zamana aydın münasibətini görməmək mümkün deyil. Şair bu misralarla bu oddan, kürədən çıxmış düşüncə ilə özündən sonrakı nəsillərə sanki yurdu, torpağı əmanət edir. Ən başlıcası, özünün *"korun-korun odlanan, için-için əriyən"* ömrünün təkcə görünən tərəflərini yox, həm də görünməyən tərəflərini göstərir. Filosof-tənqidçi Sabir Bəşirov *"Dünya-şair" (burada şairin qardşı oğlunu da görmək mümkündür)* konteksində həyatı belə görür: *"Hansı dövrdən yzmaqda sənətkar azaddır - bir əsas şərtlə: dövrləri qəsdən qarışdırmaya! Tarixin "paxıl və xəbis" dövrünə "qızıl dövr" deməyə!!!.*

*Xanəli Kərimlinin yaratdığı dünya gerçək dünyadır və bu dünyada tarixin hər dövrü düzgün əksini tapıb.*

*Bu dünyanın, əgər belə demək mümkündürsə,baharı da,payızı da,qışı da təsvir olunur insanın yaddan çıxmayan, hər zaman ona xoş əhval gətirən günləri,anları, insanın görmədiyi yarımçıq işlərini tamamlamaq, başa çatdırmaq cəhdi, qəmi, kədəri, dərdi..." (Sabir Bəşirov, ..., s. 222).*

***"Kredo" qəzeti,***
***22 yanvar 2016-cı il.***

7

Bir vaxt Xanəli Kərimlinin - şəhidin əmisinin haqqında onun sözünün içindən gələn ruhun dili ilə danışmağa çalışmışdım. Çalışmışdım ki, Xanəli Kərimli sözün özündə necə görünür, yaxud onun sözü özünə necə bənzəyir. Bunu izah edim, amma son nəticədə belə qənaətə gəlmişdim ki, söz sahibinə bənzəməlidir. Lap elə belə də yazmışdım: *"Söz*

*sahibinə bənzəsə yaxşıdır".* Bu gün də şair haqqında 31 dekabr 2010-cu ildə dediklərimə təzədən imza ataram: *"Mənə elə gəlir ki,ən səmimi şairin sözündə özünəbənzərlik var: məsələn,elə Xanəli Kərimlidə olduğu kimi".*

***

Xanəli Kərimlinin şeirləri haqqında ilkin obraz mənim üçün nə oldu: ÖMÜR KƏRPİCLƏRİNİN RƏNGLƏRİ... Bu rənglərin cazibəsi, ecazkarlığı nədədir?

***

...Şair Xanəli Kərimli ömrüün yetkinlik çağlarında, kifayət qədər kamillik mərtəbəsindədir. Bu gün onun ötəri hisslərdən, bu gün var, sabah olmayan duyğulardan keçib gələn vaxtıdır. Elə ona görə də, şairin mənəvi dünyasında fəsil də, ömür də, həyatın minbir rəngəri də ömrün, taleyin qismət çaları olan kərpiclər də xüsusi obrazlar kimi mənalandırılır.

Çox qəribədir, şair Xanəli Kərimli üçün ümidlərin göyərməyi, yolların ağarmağı qarşılaşan təzadlar kimi görünür. Ümidin göyərməyi yaxşı haldır, əgər yollar ağarmasaydı. Şair bunu mənəvi ideala qovuşmanın mümkünsüzlüyü kimi də xarakterizə edə bilər. Amma bunun həyati çalarları da var. Axı biz istədiyimiz vaxt asanlıqla, necə deyərlər, ayaqlarımızla yeriyib Naxçıvana gedə bilmirik. Yolların ağarmağı, əslində, gözləyən gözlərin qaralmağı qədər dərdlidir. Bir sözlə, şair günü-günə calasa da, ümidləri ilə baş-başa qalsa da, gündüzündən, gecəsindən bir haray görmür. Bu, elə bir zəmanədir ki, ömür haqq üçün girov qoyulsa da, əvəzində haqqı almaq mümkün olmur. Və bir sözlə, daş üstə daş qoyulur, amma ümid sarayının souncu qüllələri hörülüb qurtarmır. Və şair sual eyləyir, *"nə üçün?"* Bu sualın cavabını isə nə onun müasirləri vemək ğücündədir, nə də dünyanın haqq-ədalət divanı olacaq missiyasını daşıyan beynəxalq təşkilatlar. Bütün bu dünya iqtidarları şairin *"nə üçün?"* sulının qabağında həmişə gücsüzdürlər.

Ümumiyyətlə, X.Kərimli öz poeziyasının nüvəsində həmişə xalq fikir və düşüncəsini nüvə kimi görür. *"Gündə bir kərpic düşər ömrümün sarayından".* Xalq bunu deyib. Amma Xanəli Kərimli bu ifadənin nüvəsindən yapışaraq onu özünəməxsus şəkildə mənalandırır. Yük altda qəzəbindən, küründən boğulub-qaralan kərpiclər onun ruhunun sarayında ağır daşlar kimi görünür. Bu kərpiclər həsrətin qürubundan bağrı yanan köz kimi qızarır.

Onsuz da kərpici qırmızı rəngdə təsəvvür edirik. X.Kərimli isə bu qırmızılığa həsrətin yandırıcı rəngi kimi baxır.

...Ömür kərpiclərinin rəngləri bənzərsizdir, qeyri-adi görüntülərdədir. Elə onun özünün təbiəti kimi.

...Xanəli Kərimlinin poeziyası özünə çox bənzəyir. Bir az yöndəmsiz,bir az yanıb közərmiş, bir az da isti-isti, buğlana-buğlana. Asanlıqla əlinə götürə bilmədiyin qızarmış dəmir külçəsi kimi.

...Söz sahibinə bənzəsə yaxşıdır. *("Kredo"qəzeti,31 dekabr 2010-cu il).*

***"Kredo"qəzeti,***
***29 yanvar 2016-cı il.***

8

Xanəli Kərimlinin ***"Bu dünya bir dəyirmandı..."*** qəsidəsi Xaqaniyə *(Allah rəhmət eləsin)* həsr olunub. Əslində, elə qəsidənin ruhu Xaqaninin "Qəsideyi-şiniyə"sini yada salır: *"Mənim könlüm müəllimdir, dizim üstü dəbistanı, Ol şagirdəm ki, öyrəndim sükut ilə əlifbanı".* Xaqaninin bu fikrinin dərinliklərindən gələn düşüncə yükünü, tərcüməçinin də saxlamağa çalışdığı təntənə ilə X.Kərimli öz qəsidəsində davam etdirir. Sanki dünyanın təbiətinə bu günün gözü ilə təzədən baxır:

*Bu dünya bir dəyirmandı, ey insan, sən də çax-çax,*
*"Dəyirman bildiyin eylər, çax-çax başın ağrıdar".*

*Hey fırlanır bu dəyirman... milyon ilmi... bilinməz,*
*Hər anında min qan eylər, neçə qapı bağladar.*

*Düşünmə ki, nərdtaxtada zərlər sənə şeş verir,*
*Axır səni xəcil eylər, axır səni ağladar.*

*Sən dəyirman dəniyində bəslənsən də can kimi,*
*Zamanında un eyləyər, unluğunda ağladar.*

*Çox öyünmə dəyirmanda üstü unlu gəzirsən,*
*Bir vaxt səni çırpındırar, nə veribsə aldırar.*

*O, bir tikə çörək üçün səni ta ömrün boyu*
*Dizin-dizin süründürər, dizin-dizin oynadar.*

*Ömrün güllü-çiçəkli, təzə-tər bir çağında*
*Bir də gördün ömrünə qəfildən yağdırdı qar.*

*Ta əzəldən sən olsan da dəyirmanın incisi,*
*Səndən üzü döndüyü an donuzluqda boğdurar.*

*Dəyirmançı ömrü boyu ona qulluq etsə də,*
*O da daşına toxunsa, qabığını aldırar.*

*Nə dəyirman sənsiz olub, nə sən onsuz olmusan,*
*Ancaq sənə axıracan olmayıb bir vəfadar.*

*Bu pərdəli dəyirmana çox da uyma, Xanəli,*
*Bir gün nəzərdən salar, ömrünə möhrün vurar.*

Göründüyü kimi, Xanəli də sələfləri kimi dünyanın tamah mahiyyətinə uymamağa, ona aldanmamağa səsləyir. Bu səsləyişin əsas motivi də elə həyat və insan arasında, dünya və insan arasındakı həqiqətləri danışır.

***"Kredo" qəzeti,***
***12 fevral 2016-cı il.***

## 9

Axı bu dünya adlanan güc mərkəzi, həm də üumi nizam mərkəzidir. Bu mərkəzin mahiyyətində bizim kimliyimiz özümüzdən, istəyimizdən asılı olmayaraq, necə varıqsa, o cür görünür. Ancaq poetik anlamda dünya ilə bizim aramızda çoxlu təzadlar var. Və bu təzadları ilə söz və qan təzadı ilə eyniləşdirə bilərik. Qısası, söz qandan kənarda deyil, qan da sözdən uzaqda. Qayıdıram dünya illə insan savaşına. Sözün və qanın ayrı-ayrı tərəflər kimi gücünü göstərməyə ən yaxşı tarazlığı elə yenə söz yaradır. Çünki qan üçün də hökm də sözlə verilir. Çünki qanın insanlıq üçün, bəşər üçün dərd və bəla olduğunu da elə söz şərh eləyir. Yenə də söz-qan savaşında, əgər belə demək mümkünsə, Xanəli Kərimlinin sözü ilə sılahlanmağın haqq və həqiqət naminə qan tökməyin güc mərkəzini axtarırıqsa, yenə də üzü dünyaya tərəf gəlirik. Açığı, dünyada bir barış var, dünyada bir insanı tovlamaq var, insanı aldatmaq var. Əlbəttə, yaxşı tərəflərə - insani duyğylarla yaşamaq tərəflərə tovlamaq var. Elə şair tovlamağı budur. Şair insanı qeyri-insani tərəfə tovlamaz ki?! Şair həmişə özü ilə, başqa sözlə desək, bütün insanlıq ilə dünya arasında oxşarlıq axtarır. Və bu,o deməkdir ki, dünya ilə özü arasında uyğun gələn tərəfləri axtarmağı ilə xüsusi bir niyyəti var. Bu niyyət həyatı nizama qaytarmaqdır. Şair Xanəli Kərimli, bəlkə də, hər hansı bir şeirini yazarkən heç ağlına da gəlməyib, heç düşünməyib ki, bir vaxt onun yaradıcılığının ayrı-ayrı məqamları müəyyən həyati əhəmiyyət, güc kəsb edəcək. Heç onun ağlına da gəlməyib ki, onun şeirlərini dünyanı ittiham edəcək bir əhvalla oxuyacaqlar. Yoxsa heç dünya bu ironik tərz və bəlkə də, bir tənə ilə duyğularını ünvanlamazdı:

*Üzün ağ olsun, a dünya,*
*Saldın məni öz gününə.*
*Mənə qalsaydı, birtəhər*
*İşi qoyardım yönünə.*

*Mən deyirəm "həmdən-həmə",*
*Sən deyirsən "dəmdən-dəmə".*

*Yoxsa sən də ta uymusan*
*Şeytan adlı ağlı kəmə?..*

*Əl çəksən mənim yaxamdan,*
*Özüm bilərəm işimi.*
*Get, öz işinlə məşğul ol,*
*Pozma mənim gərdişimi.*

Xanəli Kərimlinin bu misraları dünyanın üzünə deyilmiş həqiqətlərdən, bəlkə də, çox az bir qismidir. Biz insan olaraq çox vaxt yaxşı ilə pisin yerini, soyuq ilə istinin yerini səhv salırıq. Bəlkə də, olur ki, qapını bağlamaq lazım olanda açıq qoyuruq...

***"Kredo" qəzeti,***
***19 fevral 2016-cı il.***

10

*...O vətən uğrunda şəhid oldun ki,*
*Sənə can vermişdi doğma canından.*
*Sən, ey bu Vətənini şəhid övladı!..*
*Qanın mayalanıb şəhid qanından.*

Nə qədər aydın, aydın olduğu qədər də emosional, duyğulu misralardır. İlk baxışdan bizə elə gəlir ki, *"canından"*, *"qanından"* qafiyələri ilə təzə heç nə yoxdur. Həqiqətən də bu dörd misranın içərisindəki sözlərin hər biri özlərini Vətənə qurban vermiş oğulların haqqında dəfələrlə işlədilmiş, deyilmiş sözlərdir.

Xanəli Kərimlinin sözləri bir yerə yığma,məntiqi ardıcıllıqla düzmə fikri, düşüncəni sözə gətirmə istedadı ayrı-ayrı sözlərin hamısını qabaqcadan cana gətirir, onlara nəfəs verir, ruh verir və sanki bundan sonra komandan kimi əmrinə tabe olmağa çağırır. Bununla da işarə və səslərdən ibarət olan sözlər cana gəlir və şairin təbiətinə uyğun məntiqi ardıcıllıqla düzülür. Yalnız bu zaman biz X.Kərimlinin yanğı ilə və elə bu yanğıya bərabər bir qürurla səslənən poetik harayını,

duyğulanmasını, elegiyasını - bütün bunlarla bahəm fəxarət nəğməsini dinləyirik. Həm də buradan o nəticəni də alırıq ki, Ceyhyn Orucəliyev nə birinci, nə də Vətən üçün sonuncu şəhiddir. Nə qədər Vətən var və nə qədər bu vətənə göz dikən xainlər, xəbislər var, Vətənə canını qurban verməyə hazır olan yeni nəsil-nəsil Ceyhunlar da doğulub dünyaya gələcək. Və demək, şair özü də axırıncı o şair deyil ki, qardaşı oğlunun ölmünə, şəhidliyinə elegiya - ölməzlik nəğməsi yazmış olacaq:

*Onunçün də qanın Vətən rəngidir,*
*Qan qana qovuşub döndü ümmana.*
*Köksünə sığmayan məşəl ürəyin*
*Sənlə qurban getdi Azərbaycana!..*

X.Kərimlinin böyük hiss və duyğu ilə qələmə aldığı ***"Şəhidlik nəğməsi"*** şeiri göründüyü kimi, qəribə bir sonluqla bitir. Əvvəldə Vətən torpağının şəhid qanı ilə yoğrulduğundan danışırdısa, sonluqda şəhid qanının Vətən rəngində olduğunu bildirir. Və bir daha bizim yadımıza salır ki, Şəhid, Vətən və Bayraq - Şəhid qanı obrazları bir canda, bir ruhda təzahür edə bilər. Və bu zaman müqəddəs ölümlərin ucalığından danışmaq olar.

Şair bu şeiri ən ağır, ən kədəli anlarında, ağır xəbər eşitdiyi ...günlərdə yazıb. Və şeir "Palitra" qəzetində, 12 fevral 2015-ci ildə dərc olunub. Əlbəttə ki, elə bu səbəbdən də C.Orucəliyevin tale yoluna işıq tutan kitabda *("Şəhidlik zirvəsi", Bakı, 2015, səh.56)* yer alıb.

Göründüyü kimi, şair müxtəlif obrazları, amma bir-birini tamamlayan obrazları bir poetik məkanda vəhdətə gətirir. İstər-istəməz şair təxəyyülünün müraciət elədiyi obrazların bir-birinə yaxın tərəfləri onları birləşdirməyə şairə yardımçı olur. Bu da ədəbi qəhrəmana əzəmilik verir. Onun hələ başlanğıcda hansı ehtiras gücünə Vətən və özü arasındakı münasibəti tənzimləyən necə qarşısıalınmaz bir hissə sahib olduğunu təsəvvür etməyə imkan verir...

***"Kredo" qəzeti,***
***25 mart 2016-cı il.***

## ***YARADICILIĞINDAN NÜMUNƏLƏR***
## ***ŞEİRLƏR***

### TOĞLUQAYANIN MƏMMƏD ARAZA MƏKTUBU

Duman daşlarımdan uzaq düşübdü,
Heç bilinmir nə payızım,nə yazım.
Tale dizlərimi yaman bükübdü,
Niyə gəlməyirsən, Məmməd Arazım?!

Mənim gözlərimin qarası sənsən,
Mənim ürəyimin parası sənsən,
Dərdimin əlacı, çarası sənsən,
Sənsiz nə çənim var, nə də ayazım,
Ay mənim bəzəyim Məmməd Arazım.

Ürəyimi bir köz yaman yandırır,
Sən dediyin bir söz yaman yandırır:
"Gecikmişəm, Məmməd Araz,
Yəqin dağlar küsüb məndən".
Sən mənim tarımsan, köklənmiş sazım,
Mən səndən küsmərəm, Məmməd Arazım.

Bulaqlarım axarını dəyişıb,
Gədiklərim baxarını dəyişib,
Şimşəklərim çaxarını dəyişib,
Dəyişibdi səsim, ünüm, avazım,
Gəl görüşək, mənim Məmməd Arazım.

Şair balam, ömrüm, günüm yarıdı.
Sinəm üstə çiçəklərim qarıdı.
Nəyim varsa təbiətin varıdı.
Çalxalanıb dərinliyim, dayazım,
Gəl görüşək, mənim Məmməd Arazım.

İndi mənim səbrim yaman daralıb.
Gözüm kökü həsrətindən saralıb.
Yollarımı boran alıb,qar alıb,
Qalmayibdı nə şənliyim, nə nazım,
Gəl görüşək, mənim Məmməd Arazım.

İllər boyu yollarına baxmışam,
Xısın-xısın ürəyimi yaxmışam,
Gah da olub şimşək kimi çaxmışam,
Bundan belə nə düşünüm, nə yazım...
Gəl görüşək, mənim Məmməd Arazım.

## DƏLİLİK BİR AZADLIQDIR

Mən Tanrının Yer üzünə
göndərilmiş dəlisiyəm.
Sirri-xuda elçisiyəm,
Haqqın qulu, vəlisiyəm.

Dəliliyin şiddətindən
sığışmadım yerə-göyə.
Onunçün Hatifi-Haqdan
nida gəldi: "Çıx kürsüyə"

Bu yolda da gördüm hər an
cəhənnmin min üzünü,
Ancaq Haqdan dönməyərək
dedim Haqqın haqq sözünü.

Daşlayaraq Yer üzündən
qovdu məni əhli-nadan.
Mən dəlini dəliliyim,
sağ qurtardı hər qovğadan.

Dəlilik bir azadlıqdır
ağllı bilməz ləzzətin.
Kim dünyaya aşiq isə
onun da çəkər zillətin.

Ey həccin paltarın geyən
şeytanın sağ əli adam,
Bil ki, Haqqı tanmasan,
olanmazsan dəli adam.

Dəlilik Haqq aşiqidir.
Aşiq gəldim Yer üzünə.
Tanrının xoş məqamında
dönəcəyəm Göy üzünə.

## SONRA GEC OLAR

Baş alıb gedirəm dərdimlə qoşa
Arxadan boy verən göz yaşlarıdır.
Üfüqdən əl edən nigaran ruhlar
Ömrümün, günümün sirdaşlarıdır.

Bir boş yer görünür ruhlar yaında,
O mənim ruhumun yeridir bəlkə.
Təpədən-dırnağa gəzdim dünyanı,
Tapmadım ruhuma doğma bir ölkə!..

Doğmalıq qalmayıb daha dünyada,
Sərhədlər yıxıldı, sərhədlər bitdi.
Bir ocaq başında çörək kəsənin
Qəlbində mərhəmət, insanlıq itdi.

Bu "Ali bəşərin", "Ali varlığın"
Nə astarı bəlli, nə üzü bəlli.
Dünən bir, bu gün bir sifət içində
Nə əməli bəlli, nə sözü bəlli.

Hara gedirik biz, hara, ay İnsan?!
Tükənib, bitib ta yol, ünvanımız.
Sənin öz dünyandan xəbərin yoxdur.
Qalmayıb nə ədəb, nə ərkanımız.

Quşda, qarşqada, böcəkdə belə,
Olan ünsiyyətdən insanda yoxdur.
Soyuyub, yadlaşıb, daşlaşıb insan –
Daşdan da daş olub, əsəri yoxdur.

Bəzən düşünürsən, donur qəlbdə qan.
Gündə bir möcüzə kəşf edən insan,
Bəs niyə özünü kəşf edə bilmir!?
Küllü-kainatı "dərk edən" insan
Niyə bəs özünü dərk edə bilmir!?

Hələ ki, bir damla sevgimiz qalıb,
Hələ ki, bir damla əxlaqımız var,
Abırla köçməyin vaxtıdır, Allah!..
İnsanlıq can verir-
sonra gec olar...

## ƏLİNƏ ƏL YETMƏZ...

Taleyin öz yolu, öz ünvanı var,
Nə qədər cəhd etsən, dəyişməz yolun.
Tale var, gədanı şahənşah edər,
Tale var, sahın da bağlar əl-qolun.

“Səadət hər kəsin öz əlindədir”
Deyən qələmdaşım, bəlkə də, haqdır.
Ancaq qismətində yoxsa səadət,
Dağa-daşa düşmək, vallah, nahaqdır.

Başı ucaldan da, yendirən də Haqq.
Beləysə, baş qızıl olsa, nə gərək.
“Yazıya pozu yox” deyir kitablar,
Onda yazımızla bəs biz neylyək?

Ha qaçdım, yüyürdüm, gah da ki, qovdum.
Mənim öz əzabım qaldı özümə.
Min dəfə diz çökdüm Haqqın önündə,
Haqq məhəl qoymadı bircə sözümə.

Haqqın ucaltdığı qaçaqdır haqdan.
Haqqa əyilәndən haqq qaçaq düşüb.
Fələyin gərdişli tərəzisində
Nahaqq ağır gəlir, haqq qaçaq düşüb.

Əlinə əl yetmir, dilinə də dil,
Deyəsən “Özün seç yaxşı-yamanı”.
Haqqı dananların kef üstə kefi,
Bəs Haqq aşiqinin xoş günü hanı!?..

## BİR AZ DA SEVGİDƏN DANIŞ

Burax kini-küdurəti,
Bir az da sevgidən danış.
Hörmətdən salma nifrəti,
Bir az da sevgidən danış.

Bir az da sevgidən danış.
Görək necə olur sevgi.
Sevən sevəni sevəndə.
Qorxma, dünya dağılmaz ki,

Varsa qəlbdə sevgi odu
Yaşayassan qəlb dolusu.
Kədərə dustaq qəlblərin
Çiçəklənməz bir arzusu.

Sev ki, səni sevən olsun,
Duyan olsun əhvalını.
Nə çıxar nifrətdən, kindən,
Çürütmə ömür malını.

Dünya sevgi dünyasıdır.
Sevənə həmdəmdi dünya.
Sevməyi sevməyənlərə
Başdan-başa qəmdi dünya.

Bir az da sevgidən danış.
Xatirələr təzələnsin.
Qönçə-qönçə sevənlərin,
Yollarına nur çilənsin.

Bir az da sevgidən danış...

## TƏBİƏT İTİRİB TƏBİƏTLİYİN

Bu il ərəzənə qalıb çöl, çəmən.
Nə bir laləsi var, nə bir nərgizi.
Şaxtadan, borandan gözləri qorxan
Bənövşənin də heç görünmür izi.

Otlar boy verməmiş saralıb rəngi,
Torpağın rəngində torpaq rəngi yox.
Nəğməli bulaqlar, nağıllı çaylar,
Nəğməsin itirib, nağılı da yox.

Sanki soyuqlayıb təbib təbiət.
Gecələr yuxusu çəkilib ərşə.
Neçə min illərdir, milyon illərdir
Bəlkə rast gəlməyib belə gərdişə?

Torpaqda, havada barıt qoxsu var,
Güllədən quşların yarılıb bağrı.
Mərmidən təpələr oyuq-oyuqdu,
Meşələr saç yolub çəkirlər ağrı.

Çiçəklər, güllərin əvəzində, bax,
Torpaqdan minalr gül-çiçək açır.
Hər mina ağzından ölüm püsgürür,
Hər mina ölümə bir cığır açır.

Bulaqların suyu dadıqsayıbdır.
Tamından, duzundan xəbər-ətər yox.
Talada qarın da qaçıbdı rəngi,
Xəncər qayalarda daha təpər yox.

Hər şeyə, hər kəsə analıq edən
Təbiət anasız qalıbdı indi.
Əli çənəsində, baxışı məchul,
Minillik qayğıya dalıbdı indi.

Təbiət itirib təbiətliyin,
Buludlar yağışa qısırlayıbdır.
Təbiət öldürüb təbiətliyin,
Elə bil, dünyayla vidalaşıbdır.

## ARAMA

Sən sevda dəlisisən,
Mən sözün mübtəlası,
Mən günü gündən keçən,
Sən Allahın bəlası.

Sən duyğusu təzə-tər
xumar gözlü bənövşə,
Mən ruhu bəndə düşən
qəlbi qırıq bir şüşə.

Sən nazı nazdan şırin,
gözəllərin gözəli,
Mən ağacı bar verməz
bir bağçanın xəzəli.

Onunçün də sən məni
arama son ümüd tək,
Get öz bəxtini ara,
Sən Allah, məndən əl çək.

## DÖNƏ TALEYİMİZ QAĞAYILARA

Əgər sən özündə özünü tapsan,
Hərdn bir məni də xatırlayarsan.
O şirin dəmləri, xoşbəxt günləri,
Büküb gözyaşına ağırlayarsan.

Onda bilərsən ki, nə imiş həyat--
Zəhəri içində gizləyən şəkər.
Neçə ki, ağzının dadı qaçmayıb,
Səni əzizləyib nazını çəkər.

Görüm ağzının heç qaçmasın dadı,
Mənim ki, arzumla dövr etmir zaman.
Çox qönçə budağın, tər puçurların,
Gözünü açmağa vermədi aman.

Ancaq bu ömürdür, yaşamalısan,
Yaşamaq bir yana - yaşatmalısan.
Susqun təbiətlə, qəmlə, kədərlə,
İnsan tək yaşamaq deyildir asan.

Onsuz olan olub, olan olacaq.
Əlindən, əlimdən nə gəlir, axı,
Mən öz taleyimi yarıdammadım.
Sənin taleyinə ...neyləyim axı?...

Dor ağacı sınan gəmiyə dönüb.
Batdıq talesizlik ümmanında biz.
Barı son təsəlli, son ümüd kimi,
Birləşək, ümmanda qalsın izimiz.

Hərdən dalğaların qanadlaryla,
Çırpına qəlbimiz ağ ləpələrdə.
Dönə taleyimiz qağayılara
Qayıdaq o çağlar, günlərə bir də...

## ŞƏHİDLİK NƏĞMƏSİ

*Milli ordunun kapitanı, şəhid*
*Ceyhun Orucəliyevin əziz xatirəsinə*

Sən, ey bu Vətənin şəhid övladı!
Qanınla yoğrulub Vətən torpağı.
Ölümü öldürən ölməzliyinə
Nəğmələr oxuyur Vətən bayrağı.

Əbədi kəfənin olan o bayraq
Canından, qanından güc alır hər an.
Dünən bir ananın oğlu idinsə,
Bu günsə anandır bu Azərbaycan.

...O Vətən uğrunda şəhid oldun ki,
Sənə can vermişdi doğma canından.
Sən, ey bu Vətənin şəhid övladı!
Qanın mayalanıb şəhid qanından.

Onunçün də qanın Vətən rəngidir.
Qan qana qovuşub döndü ümmana.
Köksünə sığmayan məşəl ürəyin
Sənlə qurban getdi Azərbaycana!...

***26.09.2014***

## BİR DƏ GERİ DÖNMƏYƏCƏK BU QATAR

Yorğun-arğin yaşadiğim bu ömür
Az qalıbdı yetişə son mənzilə.
Son nəfəsin dərib duran qatar tək
Fit verərək haray salır boz çölə.

Bir də geri dönməyəcək bu qatar,
Qalmayıbdı o yolları yoran güc.
İnadımdan, inamımdan güc alıb
Qadağalar sədlərini yaran güc...

Bir ömürlük yük daşıyıb bu qatar,
Nə bezikib, nə təngiyib, nə durub.
Min tufana, min borana düşsə də
Şərəfini, qürurunu qoruyub.

Bu ömürdən qalan miras bir odur,
Gələn gəldi, gedən getdi birbəbir.
Zaman axdı damarımdan qan kimi,
Daha məni bir addım da gözləmir.

Son duracaq, dayanacaq sonmudur?!
Hər sonluqda bir başlanğıc anı var.
Bundan belə yaşanacaq ömrümün,
Nə əvvəli, nə axırı, sonu var...

## ƏVVƏLİ DƏ SİRDİR,
## SONU DA SİRDİR

Quş öz balasını yemləyən kimi
Mən də yemləyirəm şeirlərimi.
Sevinclə, kədərlə, qəmlə, fərəhlə
Bəyan eyləyirəm diləklərimi.

Hər dilək bir nişan, bir əlamətdir,
Onlarda ürək tək döyünür aləm.
Hər aləm içində canlı bir aləm,
Hər canlı aləmin canı da mənəm.

Məndə təcəlladır küllü kainat,
Məndən kənarda yox canlı bir həyat.
Sirat körpüsüyəm yaranışımdan,
Keçəcəkdir məndən cümlə mövcudat.

Əvvəlim, axırım bir şeydir elə,
Dönüşüm gəldiyim yerədir ancaq.
Yolumun başında qarşıma çıxan,
Yolumun sonunda qarşılayacaq.

Ən qədim köhnədir ən yeni təzə
Dünyanın astarı, üzlüyü kimi.
Nə qədər çək-çevir etsə də ağlım,
Çözülməz Tanrının sözlüyü kimi.

Haradan gəldiyim özümə ayan,
Hara gedəcəyim – Tanrı işidir.
Mənim hər zərrəmdə bir gizli ümman,
Əvvəli də sirdir, sonu da sirdir...

## SÖZÜ SÖZLƏ YAŞATDIM

Şeirlərimi səpdim
toxumluq dənlik kimi
zamanımın, xalqımın
əbədi yaddaşına,
Baharına, yayına,
payızına, qışına,
Bir də -
Şəhid qanı çilənmiş
torpağına, daşına.

Bəlkə, beşi göyərdi,
Bəlkə, üçü, ikisi,
Bəlkə, biri göyərdi,
Bəlkə də, heç birisi...

Ancaq zamanında mən,
səpdim o toxumları –
gerçəkli gümanları,
gələcək arzuları.

Bacardığı bu oldu
əvvəl-axır ömrümün,
zülmət gecələrimin,
ümid dolu günümün.

Nə ağac əkə bildim,
nə də yol çəkə bildim.
Nə daş üstə daş qoyub
bir daxma tikə bildim...

Sözü sözlə yaşatdım
özümü yaşadan tək.
Nəyim var, nəyim yoxdur,
gələcək göstərəcək.

***Tehran, 01.06.2014.***

## HƏYAT TABLOSU

Üzü yumşaq olanın
qəlbi də yumşaq olur.
Səksəni adlasa da
yenə günəş tək təmiz
südəmər uşaq olur.

Pislik, nə şər-şamata
gəlməz heç vaxt əlindən.
Nə yalan, nə də böhtan
eşitməzsən dilindən.

Həyatını, varını
qurban verər büs-bütün
öləziyən ocağın
közün yaşatmaq üçün...

Onun istək, arzusu
hamıya cansağlığı,
xoş günlər diləyidir.
Ən böyük amalıysa
Vətəninin, xalqının
xoşbəxt gələcəyidir.

Di gəl, başı açılmaz
dünyanın kələyindən.
fitnə-felli şərindən.
Ancaq yenə incimir
dünyadaş nəfərindən.
Onunçün də yaşamaq
cəhənnəm əzabıdır.
Ürəyinin hər teli
bir kədər rübabıdır:
Çaldıqca o rübabı
qırılır öz içindən.
Nə bir qayğı, nə diqqət
görmədi, ömrü boyu
ayağa qaldırdığı
yıxılanın birindən.
Yaşayır yana-yana...
Yaşayır qana-qana.
Çətin ki, bu zamanda
ürəyi yumşaqları
ürəyi daşlar qana...

## HƏRDƏN

Yumuram gözlərimi
görmək üçün içimi,
bir də
altmış üçdən sonra
çəkəcəyim yükümü.

Hərdən də susuram,
dinləyim
vaxtaşırı oyanan
vicdanımın səsini.
Və bu səs işığında
anlamağa çalışım
bütün Yer kürəsini.

Bəzən də
qapayıram qulaqlarımı -
bilə-bilə, qana-qana
Eşitməyim
çölümdəki zamanımın
aldadıcı küyünü,
Eşidim içimdəki
yaşanan zamanımın
“toyunu-düyününü”.
Bir də duyğularımın
narahat ahəngini,
ruhumu qarsalayan,
Azadlığın cəngini...

## DƏLİSƏN, DƏLİ...

Sən Allahdan sağlıq istə,
Qalan şeylər bekarədir.
Tanrı sənlə olsa əgər,
Şeytan-şüytan nə karədir.

Cah-cəlalın cəlalı çox,
Fərəhindən məlalı çox,
Baş ağrısı, qey-qalı çox,...
Axırı da bez xarədir.

Var içində varsan özün,
İçindədir odun, közün,
Bu dünyaya yoxsa sözün,...
Qələm, kağız nə çarədir.

Çox axtardım öz-özümü,
Axırda tapdım sözümü.
Məh haqq bildim Haqq dözümü,...
Haqdan qeyri - əfsanədir.

Halallıqdan halal yaxşı,
Hərənin var öz baxışı.
Şeir yazdım - yaz yağışı,...
Hər damlası dürdanədir.

Xanəli, dəlisən, dəli!..
Kürəyində Haqqın əli.
Bir şeirinin əssə yeli,...
Yer də, Göy də viranədir!...

## VƏTƏN DƏ QƏRİB ÖLÜR...

*Vətəndən qəriblikdə ölənlərin ruhuna*

Dədə-baba yurdunu
tərk elədi sərçələr -
bozalaq adamların
bozarmış boz üzündən.

İndi ala qarğalar,
İndi qara qarğalar
su içirlər bir zaman
sərçələr su içdiyi
bulaqların gözündən.

Uzaq-uzaq ellərdə
qərib-qərib yuxular
görür qərib sərçələr.
Yuxular qanadında
soyuq, boş yuvasına
dönür qərib sərçələr.

Bir vaxtlar bu yerlərin
xırmanbəyi idilər
sərçələr dan üzündən,
Nəğməsi oyadardı
xırmanda yatanları
səhərin lap gözündən.

İndi nə xırman qalıb,
nə də ki, xırmanlıq var.
Yaxşı deyib babalar:
"Aclar qılınca çapar".

Sərçələr köçən gündən
kəsilibdi elə bil
təbiətin gülüşü.
Soluxubdu çayları,
bulaqları, gölləri,
örəniyib örüşü...

Öyrənmişdi Xan çinar
sərçələrin səsinə.
Qışın qışlığında da
qızınırdı onların
isticə nəfəsinə.

Xeyir-bərəkətiydi
sərçələr bu torpağın.
Bəzəyi-düzəyiydi
həm aranın, həm dağın.

...Siz ey bomboz bozalaq,
bozarmış boz adamlar,
Təbiətin qənimi,
Vicdanı kar,
gözü kor,
goreşən canavarlar,

Sərçə qədər xeyriniz
yoxsa da bu Vətənə,
Utanıb – qızarmadan,
yaxşı-pisə varmadan
Vətəni dirigözlü
ötürdünüz gödənə.

Onunçün də, dərddaşım,
anam, bacım, qardaşım,
bu Vətənin quşu da,
daşı da qərib ölür
Vətənin içində də...
Qəriblərin içində
Vətən də qərib ölür -
qəriblə bir biçimdə.

## VƏTƏNİMİN YAŞI ÇİNAR

***Parkların birində susuzluqdan***
***quruyan çinar gördüm***

Susuzluqdan ölən çinar,
Sənin suyunu kim kəsdi?
Dərdi dərdlə bölən çinar,
Sənin suyunu kim kəsdi?

Puçur-puçur qarıyırsan,
Budaq-budaq quruyursan,
İçin-için zarıyırsan,
Sənin suyunu kim kəsdi?

Dilin yox ki,dil deyəsən,
Kimi qarğıyıb söyəsən.
Kim qalıb ki, inciyəsən...
Sənin suyunu kim kəsdi?

Daha kölgən səngiyibdir,
Hövsələn də təngiyibdir,
Qol-budağın çəngiyibdir,
Sənin suyunu kim kəsdi?

Torpağımın adı çınar,
Ocağımın odu çinar,
Ruhumun da dadı çinar,
Sənin suyunu kim kəsdi?

Vətənimin yaşı çinar,
Ürəyimin başı çinar,
Qəlbimin göz yaşı çinar,
Sənin suyunu kim kəsdi?

Çinarların baxtı olmaz,
Çinarların taxtı olmaz,
Ölməyə də vaxtı olmaz,
Sənin suyunu kim kəsdi?

Su kəsənin suyu olmaz,
Köku olmaz, soyu olmaz,
Sənin kimi boyu olmaz,
Sənin suyunu kim kəsdi?

***12.08.2015.***

## ADSIZ ŞEİRLƏR

1

Çölüm insan yığnağı—
"ağız deyəni qulaq eşitmir".
İçim gözdən,könüldən
uzaq tənha bir ada -
Üstündən allahın
mehi də əsmir...

2

Mənim ömrüm
üstü bərli-bəzəkli,
icisə pul-pul olan
termos ömrüdür:
Çölüm özgəni,
Içim içimi çürüdür...

3

Kiminin əli istidir,
kiminin ürəyi.
Əli istilərin
hasil olur diləyi,
Ürəyi istilərin
daşdan çıxır çörəyi...

4

Qış bahara,
Bahar yaya,
Yay payıza
Payız qışa
qalib gəlir,
məğlub olur
zamanında.
Mənim ömrüm-günüm isə
bu döyüşlər meydanında
qalıb Allah amanında...

5
Üzümdə gülüş görən
"Xoşbəxt adamsan" dedi:
"Araz aşığından,
Kür topuğundan".
- İçimi ğörənlər bilər
necə qara qanlar axır
ürəyimin çapığından...

6
Eh...
İnsanlar,insanlar!..
Görəsən,bir-birini
bəs nə vaxt anlar?!..

## SAXLA QƏLBİNİ BUZ TƏK...

*Bir şəhid atasına*

Ağatlı oğlanların
həsrtilə yaşayan,
ay əziz vətəndaşım!.
Yaşım çox olmasa da,
çox şeylər çəkib başım...

...Ağatlı oğlanları
Öldürdü zaman-zaman
qara atlılarımız.
Onunçün yad əllərdə
qalıbdı Vətənimiz,
namus, qeyrət, arımız!.

İndi verib peysərə
yaşasaq da "vüqarla",
Saxla qəlbini buz tək...
Bu Vətənin ağ günü
getdi Ağatlılarla!..

***26.02.1994.***

## HƏLƏ İNANMIRLAR...

***Milli ordunun kapitanı***
***şəhid Ceyhun Orucəliyev haqqında***
***televiziya verilişi hazırlayanda***
***məsləhət görüldü ki, ondan***
***yadigar qalan iki körpə qız balalarının***
***atalarının məzarı üstünə gül qoyduğu***
***kadrlar da çəkilsin. Dedilər ki, onlar***
***hələ də atalarının ölümünü bilmirlər.***
***İnanırlar ki, ataları qayıdacaq...***

Sənin ölümünü bilmir qızların,
Elə bilirlər ki, qayıdacaqsan.
Elə bilirlər ki, bir ata kimi
Onları qoynunda qoruyacaqsan.

Yollardan yığılmır hələ gözləri,
Ata axtarırlar baxışlarıyla.
Bəzən də şəklinin durub önündə
Səni çağırırlar göz yaşlarıyla.

Elə bilirlər ki,günün birində
Bir ağ göyərçinə dönüb gələssən.
Oyuncaq üstündə "sözləri olan"
Hər kəsin payını özün böləssən.

Göyə bulud gəlcək, bir külək əscək
Dil boğaza qoymur bir cüt bənövşən.
"Yəqin səngərdədir atamız indi"
O anda bir sənsən tək yada düşən.

Sən öldün, Tanrıya borcunu verdin,
Qalanlar min dəfə ölüb-dirilir.
Hər gecə yuxuda görürlər səni,
Hər gecə xəyalın salama gəlir.

Bir zaman gələcək şəhid adınla
Qürur duyacaqdır bu körpələrin.
Ancaq... bu gün onlar yol gözləyirlər...
Onların halından yoxdur xəbərin.

Sənin əllərinə qalıbdır həsrət
Duyğunun, Alinin qıvrım saçları.
Bilirəm, yolun ta gedər gəlməzdir...
Onları yuxuda ovundur barı.

Hələ inanmırlar, ölərmiş ata,
Hələ inanmırlar sənsizliyinə.
Hələ inanmırlar döyüş paltarın
Soyunub, atalar kəfən geyinə.

Elə bilirlər ki, qayıdacaqsan.
Elə bilirlər ki, dönəssən bir gün.
Ümidlə qatırlar başların hələ,
Ümidlə qoy hələ üzləri gülsün.

Ümidlə qoy hələ üzləri gülsün,
Bir sevinc çilənsin baxışlarına.
Dönüb yol daşına vaxtı gələndə,
Səni gəzənlərin çıx yollarına ...

***18.10.2016***

## ONDA YAZILACAQ...

***Mən elə bilirdim ki, təkcə pul, var-dövlət, ucuz karyera üçün mafiozlar, dəstəbazlar yaranır. Sən demə, ədəbiyyatı, xüsusilə də poeziyanı “monopoliyasına keçirməyə “ çalışan mafiozlar, dəstəbazlar da varmış...***

Sözdən söz çıxardır sözanlamazlar,
Salamı samanla salır qarışıq.
Astarı üz bilir, üzü də astar,
Ürəkdə yox işıq, gözdə yox işıq.

Di gəl, söz allahı sanır özlərin,
Bir sapını çəksən, düşər min sözü.
Öz gözündə tiri görməz nadanlar,
Özgənin közünə kor olur gözü.

İstedadı qısır, qələmi kütlər
Min “dastan” bağladır puç adlarına,
Kor atın nalbəndi kor oğlu korlar
Təriflər döşəyir ünvanlarına.

Meydangir oynadır meydan atını,
Alqışlar yağdırır söz dəllalları.
Meydana yad kimsə atıla bilməz,
Atılsa, atılar öz dəllalları.

İndi şairlər ta düşüb dəyərdən,
“Şeir” yazanlarsa miniblər dəbə.
Ötəri, itəri vızltıları
“Tərənnüm edərək” gəlirlər təbə.

...Vicdanı korların görməz gözləri
Bölünən, talanan, bitən Vətəni.
Şəhid məzarında alqan içində
Çürüyən kəfəni, itən kəfəni.

Ancaq bu, Zamandır -
Dəyirman Zaman,
Üyüdür dənliyin boğaz dənin də,
Kozarın ununu buğda unundan
Seçənlər tapılar günün birində.

Onda şairlərə çatacaq növbə,
Düşəcək ayağa "şeir" yazanlar.
Bir çeynəm saqqıza mənliyin satan
Əsl şairlərə quyu qazanlar.

Onda öz taxtında oturacaq SÖZ,
Onda şeirin də güləcək üzü.
Onda dəllallara yer qalmayacaq,
Onda yazılacaq ZAMANIN ÖZÜ,
Bir də ki,
hər kəsin astarı, üzü...

***25.10.2015.***

## TƏSƏLLİ

***Ruhuyla yaddaşlara***
***köçən əvəzsiz ana, istedadlı***
***və ləyaqətli alim Fərqanə xanım***
***Kazımovanın əziz xatirəsinə.***

Elə bil, heç yoxmuşsan
bu dünyada,
Fərqanə, bacım!
Yazdığın kitablar,
böyütdüyün övladlar,
bir də
sinəsi dağlı yaxınlar
olmasaydı,
elə bil, heç yoxmuşsan
bu dünyada!..

Bir də ki,
İnsan ömrü nədir axı,
bir kəpənək ömrü qədər
ömrü də yox,
gözünü açıb yumunca
görürsən ki,
bu ömrün də vəfası yox.
Bəlkə, elə bununçün də
çox erkəncə uçub getdin,
qızılgülün üstündən
şeh uçub gedən kimi.
Elə bil ki, bu dünyaya
bir az acıq, bir az da
ərk edən kimi.
Getdin ki, yerin görünsün
qəfil yıxılan
çinarların yeri kimi!..
Ancaq sən
həmişə yaşayassan
"dirilərin" arasında "ölü",
ölülərin arasında diri kimi.

***15.06.2015***

## SƏN DEMƏ...

***Qələmdaş dostum,***
***şair Vaqif Məmmədovun ruhuna***

Sən demə,
təkcə millətlər, xalqlar deyil,
ölülər də qaçqınlıq,
köçkünlük həyatı yaşayırmış,
Son anda
tabutunda
o dünyaya ömürlük

qəm, kədər
daşıyırmış -
rəhmətlik
Vaqif kimi...
Yaman tez qırıldı
bir şair ürəyinin sarı tel simi!..

Sədərəkdə doğulmuşdu,
Sədərəkdə böyümüşdü,
Sədərəkdə “döyülmüşdü”,
Sədərəkdə öyülmüşdü...
İlk şeirini, son sözünü
Sədərəkdə yazdı...
Ancaq -
məzarını
Bakıda qazdı!..

...Atasını Sədərəkdə
dəfn etmişdi Vaqif,
Qardaşını, anasını Bakıda.
O vaxtdan da ağrıyırdı,
için-için ağlayırdı
Sədərəkdəki ata evinin
son kərpici, daşı da...
Görünür,
ana məhəbbəti güc gəldi
Sədərək torpağına,
ata məzarının
acı intizarına!.
Basdı ciyərparasını
ana isti bağrına...
Bununla nöqtə qoydu
Sədərəkdə çatılmış
bir ümid ocağına!..
...Qəribə zamanda yaşayırıq,
vallah, qəribə!..

Bu zamanda
təkcə millətlər,
xalqlar deyil,
sən demə, ölülər də
dönürmüş qəribə..

***07.02.2016.***

## ZAMANIMA, NAKAM DOSTLARIMA VƏ ÖZÜMƏ ELEGİYA

- Bu şəhərdə ta kim qaldı?
- Heç kim -
köçən köçdü,
ölən öldü...
Bir zamanlar çiçək-çiçək
çiçəkləyən bu şəhər ta
boz küləklər uladığı
quru çöldü...
- Heyif...
min heyif ki,
nə köçəndən xəbər tutdum,
nə öləndən...
Başım elə qatıldı ki,
özümdən də yox xəbərim!..
Onunçün də qalmayıbdı
nə qəpiklik dəyərim,
nə kimsəyə gərəyim,
nə də -
Alahın itinə də
atılası çörəyim!..
Yadlaşmışam özümə də,
Yadlaşmışam Yerə, Göyə,
Tanrı verən dözümə də!
Qara qorxu içindədir

Ömrüm, günüm, həyatım!
Səksəkəli gün keçirdir
təzəm, köhnəm, boyatım!
Tale çöndü,
Ocaq söndü,
Köz də küldü!.
Bu da belə bir yazıdı,
Bu da belə türlü gündü...

## NƏ MUTLUYAM...

***24 mart 2000-ci il türk xalqları tarixinin qızıl səhifələrindən biri kimi xatırlanacaq. Çünki həmin gün qardaş Türkiyənin Samsun şəhərində VIII türk dövlət və toplumlarının ənənəvi dostluq, qardaşlıq və iş birliyi qurultayı öz işinə başladı. Ourultaya Azərbaycandan dəvət olunmuş nümayəndə heyətinin tərkibində mən də vardım.***

Samsun,türkün qədim eli, türk yurdunun məşəldarı!
Atatürkün güvənc yeri, istiqlalın bayraqdarı!
Həmdəmindir dənizlərin tacı olan Qara dəniz,
Dalğaları ayağını yumaqdadır gecə-gündüz.
Təmiz havan, təmiz suyun, günəş qəlbin, uca adın
Yaddaşına yaddaş yazdı həm yaxının, həm də yadın.
Bu gün əsl başkəndisən "türəkəm" deyən hər bir kəsin.
Hər bir türk də ləyaqətlə təmsil edir öz ölkəsin.
Bu, dostluğun, qardaşlığın səkkizinci birliyidir,
Türkün şeytan nəzərindən təmizlənən pak yeridir.
Gəlib bura soydaşlarım İsveçrədən, Belçikadan...
Bir türk bacım gözü yaşlı dərd danışır Kosovadan.
Gəlib bura Çeçenistan savaşından çeçen qardaş,

Deyir:
″Düşmən yenməyincə bitməyəcək yurdda savaş″!..
Min illərin qaranlığın yara-yara gəlib bura
Alp Ər Tunqa alqış deyə yurdundakı bu bahara.
Gəlib bura Qorqud Ata, Oğuz Xaqan, Bilgə Kağan,
Halay tutub yallı gedir Dəli Domrul, Qara Coban.
Güc aldıqca bir-birindən dalğalanır bayraqlarım,
Bu bayraqlar birliyində bükülməzdir ayaqlarım.
Hər bayraqda bir mavi rəng - soyluğumun nışanəsi,
Hər bayrağin al rəngində Bozqurdumun əfsanəsi...
İndi dünya çalxalanır, indi dünya təzələnir,
İndi hər xalq öz köküylə, öz soyuyla qürrələnir.
Bir süfrənin arxasında ətmək kəsən şirin-şirin
Qazax, özbək, qırğız, tükman ...ləngəridir Göyün,Yerin.
Bu birliyin məhvərində Od yurdumun öz payı var,
İş birliyi, güc birliyi, ən müqəddəs söz payı var.
"Azərbaycan!" deyiləndə salon coşur ümman kimi,
Alqış, alqış sədasıyla vəsf edilir bir şan kimi.
Uç yüz otuz miliyonluq bir sırada mən də varam.
Onunçün də bu günümdə dünənimdən bəxtiyaram.
Bu birliyin hərarəti sığışmayır Yerə, Göyə,
Qürur ilə hayqırırıq:
"Nə mutluyuq türkəm deyə"!..
"Nə mutluyuq türkəm deyə"!..

***Türkiyə/Samsun***

## İNDİ

Könüllərdən uzaq, gözlərdən iraq
Bir ömür yaşadım alayarımçıq.
Daha gədiklərdə qar püsəkləyir...
Daha çətin olar bu yollar açıq.

Duyğumdan, hissimdən, könül varimdan
Silinib çox şeylər, çox kimsənələr.
Hərdən seyrək-seyrək, hərdən dumanlı
Bir atam, bir anam yuxuma gəlir.

O anda yuxuda uşaq oluram,
Saçımda dolaşır isti, məhrəm əl.
Üzümdə bir kədər görcək deyirlər:
“Əgər darıxırsan,yanımıza gəl”.

Bu dünyaya məni bağlayan ancaq
Məni arxa bilən bir cüt qızımdır.
Tək mənəm onların ümid çırağı.
Onlar haqdan gələn tale yazımdı.

Uçub getsələr də köçəri quş tək
Ata ocağında qalıb istisi.
İndi şəkillərdən baxırlar mənə,
Sanki şəkillərdən gəlir nəfəsi.

İndi bir dörd divar,bir qələm,kağız,
Bir də sirdaşımdır ömür yoldaşım.
Keçən günlərim ta ünyetməzimdir.
Qayğıdır, kədərdir bir də dərddaşım.

Ömür tənhalaşdı vaxtsız, vədəsiz,
Vaxtsız vağamlayan bir zəmi kimi.
Hələ də gözlərim yol çəkir yaman
Sərnişinə həsrət bir gəmi kimi.

Zaman çox arzumu çıxartdı boşa,
Ünvanı olmayan məktub kimiyəm.
İndi yolum gəlib dirənib daşa,
Özüm də bilmirəm kiməm,nəçiyəm.

Yaxşı ki, hələlik nəfəsim gəlir,
Hələ ki, düşməyib dizim təpərdən
Demək, xoş müjdələr gözləmək olar
Gecənin bətnindən doğan səhərdən.

***15-16.12.2009.***

## İŞIĞA CAN ATIB ÜRƏYİM HƏR AN

Mənim ürəyimə işıq ver, Allah,
Dünya işığını, qoy, məndən alsın.
Bu nə bir şöhrətdir, nə də ki qərəz,
Sadəcə arzudur, arzum yer alsın.

İşığa can atıb ürəyim hər an,
Əritsin qəlbimin qaranlıqların.
Yoğursun işıqla yoğrulanları,
Qoysun ortalığa könlünün varın.

İşıqdan işığa işıq tutaraq
Qovuşsun ürəyim söz işığına.
Sözdən işıq alan işıqlı sözlər
Dönsün bu dünyanın yaraşığına.

Dünyanın dünyası söz işığında
Arınıb, durulub, saflaşsın bir az,
Sözə təslim olsa insanlıq əgər,
Kimsənin qəlbində işıq azalmaz.

Sözün işığından güc alıb bəlkə,
Günəşin işığı sönməz olubdu.
Yerdən kainatın sonsuzluğuna
Tək sözün işığı dönməz olubdu.

...Mənə söz işığı,söz nuru göndər,
Açım bu dünyanın kilidlərini.
Sözə tapındırım, sözə yenildim
Şeytana baş əyən hər bəşərini

***24 mart 2015.***

## YAZIM Kİ...

Elə bil,
tikan üstə oturmuşam...
Nəsə yazmaq istəyirəm.
Ancaq hələ bimirəm ki,
nədən yazım,
kimdən yazım?
Yerdən yazım,
Göydən yazım?
Daş-qaşlı kəcavəli,
Qotazlı dəvədən yazım?
Nənəmin çörək ağacı
kirgitdən,həvədən yazım?
Ya da
rəngi sarı çıçək rəngi alan
övladdan-nəvədən yazım?
Bilmirəm ki,
kimdən yazım,
nədən yazım?
Bəlkə,
mən özümdən yazım?
Gah sozalan, gah közərən,

odamı da isitməyən
ocağım, közümdən yazım?
Ürəyimi parçalayan,
dilimi də qarsalayan,
kağız-qələmi yandıran
fikrimdən, sözümdən yazım?..

Yazım ki,mən
hər zaman
yad əllərdə sıxılan
bir ovucluq torpağam.
yüz illər ayaq altda
didim-didim didilən
sahibsiz bir papağam...

Yazım ki,mən
hər kəsin
asanlıqla içdiyi,
üstündən də
saymazyana keçdiyi
bir udumluq suyam.
Hərdən-hərdən silkinsəm də,
kükrəsəm də, coşsam da,
Əslim, kököm nədirsə -
elə buyam!..

Yazım ki...
(yazmaqdan da
bezmişəm ta)
Mən bunları -
olanı, olmayanları
yazsam da, yazmasam da,
onsuz da,
məni məndən yaxşı bilir bu dünya.
Bəlkə, elə bununçün də
nə keçmişim,

nə bu günüm,
nə də "şanlı" gələcəyim
qoyulmadı heç vaxt saya...

Və
nəhayət,
yazım ki,
mənim balalarım -
nəvələrim,
nəticələrim,
kötücələrim,
nə bilim,
daha nələrim,
nələrim...
Bütün olanlar üçün,
Olub, qalanlar üçün
axtarmayın kimsədə
nə günah, nə də ki suç!..
Mən özüm öz əlimlə
öldürdüm keçmişimi,
bu günümü,
gələcəyimi -
hər şeyimi...
Onunçün də,bu dünyada
əli boş, üzü qara
bir ömür yaşadım ki,
axırı da ...
oldu puç...

***26-27.03.2016***

## RUHUN ŞAD OLSUN

*Yazıçı, filoloq alim Rafiq Babayev üçün*

Ruhun şad olsun, Rafiq,
Bu axşam radioda
hekayəni dinlədim.
Sonra sənsizliyini
yada salıb
için-için inlədim...
Gözlərimin önündə
canlandı
Ordubadın Aza kəndində,
təpənin üstündə
"tikilən" qəbir evin,
Bir də, yeri gələndə
dostun Firiduna[7]
altdan-altdan söz atıb
şirin məzələnməyin.
Yadındadır?..
Siqaranın külündən
dolmuşdu otağında
güllərin dibçəyi də?..
Tüstüdən saralmışdı
əzizin Əkrəmin[8]*
qəttəzə pençəyi də?..
Elə bilirdin,
burula-burula qalxan
siqara tüstüsündən
*(özün demiş)*
ciyərin bayram edir.
Özün də,bilirdin ki,
hər siqara dənəsi

---

[7] Firudin Rzayev, dilçi alim.

[8] Əkrəm Hüseynzadə, folklorşünas alim.

ömrünü-gününü
özü boyda tükədir.
...Ömrünün son illəri
sənin dostun, sirdaşın
"Ölüm mələyi"n oldu.
Ancaq səndən sonra da
biri-birindən gözəl
"Axırıncı axşam"ın,
"Yoçu daşı"n,
bir də,"Zühür"un qaldı.
...Bilmirəm, qardaşım,
yerin rahatdır,
ya ruhun...
Allah eləsin ki,
hər ikisi rahat olsun...
Çünki sən
bu qısır, bəduğur düyada
rahatlıq nədir - bilmədin,
ürək dolusu da gülmədin.
Ağrını-acını
Ordubad havası tək
çəkib içinə
kimsəyə dərd vermədin...
Yaşadın taleyin hökmünü,
bir də təqvimdə olan
qırmız damalı
"istirahət günü"nü...

...Yadıma düşəndə
yerişin, duruşun
yaman göynədir məni
gülüşünün ətri,
qələminin sətri
və iş otağında
ustünü toz, tor basmış
sahibsiz masanın yeri...

***02.08.2016.***

## NƏNƏM NAĞIL DEYƏRDİ

Nənəm bir gün bizi yığıb başına
Söykəndi həyətdə ocaq daşına.
Bir nağıl başladı çox qədimlərdən,
Bizim ayağımız üzüldü yerdən...
...”Babamın buynuzlu öküzü vardı,
Yerindən durana buynuz atardı.
İş gəlib o yerə çatdı ki,bir gün,
Babamın özünə eylədi hücum.
Babam da fürsəti vermədi əldən,
Öküzün buynuzun kəsdirdi dibdən.
Buynuzu kəsilmiş öküzü görcək,
Buynuzlu öküzlər qorxdular, gerçək.
Bir müddət gəzdilər gözdən iraqda,
Buynuz oynatdılar küncdə,bucaqda.
Elə ki, dünyadan köç etdi babam,
Buynuzlu öküzlər çoxaldı yaman...
Buynuzu olmayan buynuz çıxartdı,
Beş günün içində göyərdi, artdı.
Tarlalar, örüşlər talandı belə,
Kimsə cürət edib gəlmədi dilə.
Acından mələşdi dana-dunalar,
Buynuzlu öküzlər, bəlkə, qanalar.
Buynuz atılmamış qalmadı yerdə,
Buynuz oynatdılar Allaha göydə.
Zülm yeri deşib göyə dirəndi,
Dedilər ki, Allah görən, biləndi...
Hələ də səs-səda yoxdur göylərdən,
Yer də ki az qalıb çıxa məhvərdən.
Nə babam təzədən diriləcəkdir,
Nə də ki, buynuzlar kəsiləcəkdir...
Buynuzlu öküzlər olbular “kələ”,
Dana-dunalarsa mələşir hələ”!.

*

Nənəm nağılını qurtarb susdu,
Bizimsə gözümüz göyləri pusdu
ki,
bəlkə, göylərdən bir alma düşdü...

***18.03.1990.***

## DÖRDLÜKLƏR

Ağzımda sözüm yandı,
Baxmaqdan gözüm yandı,
Mən dözüm anasıyam,
Dözməkdən dözüm yandı.

***

Ocağın közü mənəm,
Zamanın sözü mənəm,
Rəngim Vətən rəngidir,
Astarı, üzü mənəm.

***

Qəmə tuş yeri mənəm,
Qəm, sənsiz yerimənəm,
Vətən bir bədəndirsə,
Ağrıyan yeri mənəm.

***

Sözüm özümə bağlı,
Özüm sözümə bağlı,
Bir sözün ucbatından,
Gəzirəm sinədağlı.

***

Haqdan gələn söz mənəm,
Haqqı görən göz mənəm,
Nar tək dənələnsəm də,
Haqq əyilsə, dözmənəm.

***

Bu daş Vətən daşıdı,
Yol yoldaşım naşıdı,
O bilmir, bu daş deyil -
Ürəyimin başıdı...

***

Durma yolumun üstdə,
Könlüm yox o həvəsdə,
Nə oldu, bizdən oldu,
Günah gəzmə heç kəsdə.

***

Bu dünya qalmaqaldı,
Yolum yollarda qaldı,
Tanrım nə vrermişdisə,
Hamısın bir-bir aldı.

***

Saldı məni dil dilə,
Kim ağlaya, kim gülə,
Dərdli dərdini çəksin,
Kimdir göz yaşın silə!.

***

Göylərin qatı mənəm,
Torpağın altı mənəm,
Nə var, nəyi görürsən -
Hər şeyin zatı mənəm.

***

Haqqı tanı haqq ilə,
Nahaqqı alma dilə.
Haqqı nahaq bilənlər
Çətin imana gələ....

***

İnsan insan olan gün
Qovuşacaq Göylə Yer.
Onda şeytan, mələk də..
Olacaqlar yerbəyer.

## BİR DƏ ÇƏTİN GƏLƏ ƏLƏ BU DÜNYA

Bir vaxtlar "dost-tanış" başımda idi,
İndi bir zəngə də yoxdur gümanım.
Özüm öz içimdə təlatümdəyəm,
Tufanlı dənizdir mənim hər anım.

Hər anım qərq olur düşüncələrdə,
Ələyib kəpəyin qatıram una.
Nə qədər çalışıb-çapalasam da,
Düşürəm zamanın burulğanına.

Nə qədər çəkəcək bu qovhaqovlar...
Elə hey vuruşda, döyüşdəyəm mən.
Təzədən dünyaya gəlməyəcəm ki,
Bir yol da xoş üzün göstərsin aləm.

Kim nə aparıbdır qara torpağa?
Mənim apardığım nə olacaqdır?
Kimdən nə qalıbsa bu ac dünyaya,
Məndən də bir quru ad qalacaqdır.

Nizamı pozulub nizam quranın,
Sanki Ayla Günəş dəyişib yerin.
Az qalıb Yer çıxa öz məhvərindən,
Qaçıbdı rəngi də dibsiz göylərin.

Bir də çətin gələ ələ bu dünya,
Nə dağda qarı var,nə bağda barı.
O qədər gözümdən düşdü ki dünya -
Bir toz dənəsi tək yox etibarı...

***08.07.2016.***

## İNANIRAM Kİ...

İnaniram ki,
hər şey yaxşı olacaq.
Bütün xəbislikləri,
qərəzli pislikləri,
maskalanmış üzləri,
batini əyri-üyrü,
zahiri dümdüzləri
qara torpaq udacaq.
Şeytan da əl çəkib
şeytanlığından
əslinə qayıdacaq.
Onda
təzədən başlayacaq həyat,
Yenidən doğulacaq bütün kainat.
Günəş bir qüdrət kimi
bütün yaranmışlara
eyni gözlə baxacaq.
Çaylar çaylar kimi,
bulaqlar bulaq kimi,
meşələr meşə kimi,

quşlar quşlar kimi...
nəğmələr oxuyacaq.
Göylər də göy kimi
guruldayacaq,
Yağış da yağış kimi
yağacaq.
Dünya başdan-başa
əlvan çiçək ətrində
məst olub uyuyacaq.
Qurd qoyunla oturacaq
bir süfrənin başında.
Həmişə qənimləşən
yazıq itlə pişik də
günah axtarmayacaq
dostunda,qardaşında.
Onda
nə günahsız
qantökən olacaq,
nə günahsız başkəsən,
nə də acgöz, acgödən.
Sərhədlər də yıxılacaq.
Dünya olacaq azad,
şəriksiz bir Vətən.

Bütün bu olacaqlar
o vaxt ki çin olacaq,
onda dünya üzündə
nə bir Allah bəndəsi,
nə də şeytan qalacaq!.

## MƏNƏ ELƏ GƏLİR Kİ...

*1. Şəxsiyyət vəsiqəsi almaq hələ şəxsiyyətli olmaq demək deyil.*

*2. Nəfsi öldürmək insanın həyat fəaliyyətini, həyat eşqini öldürmək deməkdir. Buna görə də nəfsi öldürmək yox, ona daima nəzarət gərəkdir.*

*3. İnsanın yaratdığı qanun təkcə bir tarixi şərait və məkan daxilində işlək olsa da, əbədi deyil. Yalnız bir qanun əbədidir ki, onun müəııifi Allah, adı isə Əxlaqdır.*

*4. İnsanda həyat eşqi, yaşamağa inam yaratmaq üçün deyiblər: "Qara günün ömrü az olar". Əslində, deyilməlidir: "Qaragünlünün ömrü az olar".*

*5. Şeirlərim mənim içliyimin kimliyidir.*

*6. Mən məxsusi olaraq gündəlik yazmamışam. Amma şeirlərim həm də mənim gündəliyimdir.*

*7. Ernest Heminquey deyir: "Yalnız bir siyasi sistem var ki, heç vaxt yaxşı yazıçı yetirə bilməz, bu - faşizmdir". Mənim fikrimcə, həm də yaltaqlıq, məddahlıq və möhtəkirlik üstündə qurulan bir cəmiyyət də nəinki yaxşı yazıçı, ümumiyyətlə, yaxşı sənətkar yetirə bilməz.*

*8. Hörməti elə et ki, özün hörmətdən düşməyəsən.*

*9. Dahilərin faciəsi ondadır ki, onları yetirən zaman və xalq vaxtında və gərəyincə başa düşmür. Bu, həm də qarşılıqlı olaraq zamanın və xalqın faciəsidir.*

*10. Dahilər Günəşə bənzəyirlər. Günəş bir nöqtədən doğsa da, bütün kainata mənsub oldupu kimi, dahilər də bir məkanda doğulsalar da, onlar həm də bəşəriyyətə mənsubdurlar.*

*11. Dahilər mümkün olmayanları mümkün edənlərdir.*

*12. Beyin ağlın, ürək hisslərin, duyğuların beşiyidir. Bunlar vəhdətdə olanda kamillik, müdriklik yaranır.*

*13. Allahı özündən kənarda axtaranlar cahillər, özlərində axtaranlar kamillərdir.*

*14. "Günah" sözü "gün" və "ah" sözlərindən yaranıb. Ona görə də Allah qarşısında ən böyük günahkarlar günlərini ah-vayla keçirənlərdir.*

*15. Hər bir xalq iki varlığı ilə yenilməz olur - elmi və çörəyi ilə.*

*16. Böyük şəxsiyyətlər tarixin və zamanın hərəkətverici nüvəsidir. Nüvə nə qədər güclü olsa, tarix və zaman da bir o qədər irəli getmiş olar.*

*17. İnsan dərk etməlidir ki, onun qürrələnəcəyi heç bir şeyi yoxdur. Onun az-çox özününkü bildiyi bir candırsa, o da Allahın əmanətidir. Allah da əmanətini alandan sonra quru cəsədi qaytarır əsl sahibinə - qara torpağa...*

*18. Allah insanın başına ona görə müsibətlər gətirir ki, insan hərdən Allahla bərabər özünə, ağlına, idrakına da tapınsın, öz varlığını dərk etsin.*

*19. Toyun toy, yasın yas paltarı olduğu kimi, hər mövzunun da ovqatdan asılı olaraq özünəməxsus söz paltarı var.*

*20. Sənətkar ömrü bağban ömrüdür. Əsl bağbanlar min zəhmətlə ərsəyə gətirdiyi bağda məqamında yaşıl və quru budama işi apardığı kimi, əsl sənətkarlar da özlərinin bağbanı olmalı, artıq şeylərdən yaradıcılığını təmizləməlidir.*

*21. Öz doğma övladı üzərində cərrahiyyə əməliyyatı aparan cərrahın əlləri əsmədiyi kimi, zəif və qüsurlu əsərlərinin məhv edilməsində də sənətkarın əli əsməməlidir. Əsl və böyük sənət də özünə qarşı ciddi məsuliyyət və tələbkarlıqdan yaranır.*

*22. Cəmiyyət köklü-budaqlı bir ağaca bənzəyir. Əgər o ağacda bir yarpaq saralırsa, bir budaq quruyursa, bu, saralan yarpaqdan, quruyan budaqdan çox ağacın bəlasıdır. Saralan yarpaq, quruyan budaq sadəcə bir siqnaldır və bu siqnal ağacın gələcək taleyindən xəbər verir. Bağban əgər bağbandırsa, bunu vaxtında görməli və qarşısını almalıdır.*

*23. Fikrimcə üç varlıq var ki, onun konkret olaraq düsturu yoxdur: yaşamağın, sevməyin və yaradıcılığın.*

*24. Təbiətdəki gözəllik həm də onun təhlükəsizliyinin müdafiəsinə xidmət edir. İnsanlardakı gözəllik isə bir çox hallarda onun üçün təhlükə mənbəyinə çevrilir.*

*25. Təbiət murdarlığı, cəmiyyət də, bir çox hallarda, təmizliyi qəbul edə bilmir.*

*26. İnsanları ağaclara bənzədirlər. Qəribədir, insanlar öləndə, adətən, torpağa basdırırlar, ağaclar "öləndə" torpaqdan çıxarırlar.*

*27. Bir bağçada əkilmiş ağaclar eyni torpaqdan, eyni su və havadan qidalansalar da, onların hər biri torpaqdan, su və havadan yalnız öz genlərinə uyğun qidalanırlar. Alma ağacının aldığı qidanı ərik ağacı, ərik ağacının aldığı qidanı şaftalı ağacı almır. Müxtəliflik də buradan yaranır. Hər ağacın meyvəsinin rəngi, dadı, görkəmi onların öz genlərinin daşıyıcısıdır. Sənət aləmi də belədir. Eyni ictimai-siyasi, coğrafi mühitdə yaşayan sənətkarlar da xarakterlərindən və istedadlarından asılı olaraq müxtəlif çalarlarda, janrlarda, mövzularda əsərlər yaradırlar...*

*28. Gərək elə yazasan ki, sən olmayanda sənin foto şəklin keçmiş varlığını təsdiq etdiyi kimi, əsərin də canlı ruhunun, daxili aləminin portretinə çevrilsin.*

*29. Çıraq dibinə işıq salmadığı kimi, böyük zəkalar da özlərinə maddi olaraq bir gün ağlamayıblar.*

*30. Vaxtsız sevgi də vaxtsız ölüm kimi adamı yandırır.*

*31. Qızılın rəngi alov, alovun rəngi qızıl rəngində olduğu üçündür ki, hər ikisi də məhv etmək gücünə malikdir.*

*32. Zaman hər şeyə qadir olsa da, vurumuş yaraları heç vaxt sağalda bilmir.*

*33. Şairlər və ümumiyyətlə bütün istedadlı yaradıcılar ən doğmalarının əhatəsində olsalar da, onlar batində Allahın qərib bəndələridir. Ona görə də R.Rza yazırdı:*

*Dünya dolu adamdı,*

*Dərdimi kimə deyim...*

*34. Allahın ən böyük həqiqəti insandır. Ona görə də insan özünü nə qədər dərk edirsə, onun qavradığı həqiqət də o qədərdir.*

*35. Türk ədəbiyyatının tanınmış şairi Nəcib Fazil Kısakürəyə görə "Şeir mütləq həqiqəti arama işidir". Bu fikri söykək edərək demək istəyirəm ki, növündən, üslubundan asılı olmayaraq bütün yaradıcılığın başlıca qayəsi həqiqəti aramaq işidir. Bizim min illik nağıllarımızda, dastanlarımızda qəhrəmanın öz butasını - həqiqəti axtarması, tapması üçün apardığı mücadilə də son anda haqqa qovuşmaq işindən başqa bir şey deyildir.*

*36. Allah yaratdığı bütün canlılardan fərqli olaraq yalnız insana gülmək bacarığın və utanmaq hissini vermişdir ki, insan gülmək yolu ilə həm eyiblərini, həm də dərdlərini aradan qaldıra bilsin;utanmaq hissini qorumaqla insanlığını qoruyub, insan aliliyini dərk etsin.*

*37. Vaxtında yazılmış yaxşı şeirlər torpağa basdırılmış minalar kimidir. Zamanı gələndə partlayacaqlar.*

*38. Bütün bəşəriyyətin bir şəriksiz vətəni var - o da Haqqın dərgahıdır.*

*39. "Hər yeməyin arxasında bir xəstəlik dayandığı" kimi, hər sözün də arxasında bir baş ağrısı var.*

*40. Papaq qoymaq asandır, papağı qorumaq çətindir.*

*41. Səmimiyyət insanlığın duzudur, o da qədərincə olsa yaxşıdır.*

*42. Ən böyük intihar yaşamağa haqqı olan duyğuları, düşüncələri bilə-bilə məhv etməkdir. Ananın övladını boğub öldürməsi nə dərəcədə dəhşətlidirsə, yaşamaq haqqı olan hissləri, duyğuları öldürmək də o qədər dəhşətlidir.*

*43. Bu dünya qananlara həm dərd, həm də dərsdir.*

*44. Sözlərin adını şeir yazanlar, dadını isə şairlər bilir.*

*45. Tənqidçilər bədii əsərdən aldığı təəssüratları, yazıçı və şairlərsə həyat materialı əsasında gəldiyi qənaətləri oxucularla bölüşürlər.*

*46. Söz meyvə kimidir. Vaxtında dərilməyən meyvə gərəksiz olduğu kimi,vaxtında deyilməyən söz də gərəksizdir.*

*47. Hər şeyin mahiyyəti bir şeydə, bir şeyin mahiyyəti hər şeydədir.*

*48. İnsan yaranışından ölən günə qədər həqiqət - yəni özünü axtarır. Nə vaxt özündə özünü tapsa, onda axtardığı həqiqəti də tapır.*

*49. Hər bir bədii əsər və ümumiyyətlə incəsənət əsəri zamanın sənətkar qarşısında qoyduğu sualın cavabıdır.*

*50. KİŞİLİK elə bir mərtəbədir ki, ora hər "erkəyin" əli çatmaz.*

*51. "Dəvənin ovsarını eşşəyin uşqununa bağlamaq" deyimi, adətən, mənfi mənada yozulur. Amma müdrik babalar yaxşı bilirdilər ki, dəvə on dəfə getdiyi yolu bələdçisiz yenidən gedə bilmədiyi üçün dəvənin ovsarını eşşəyin uşqununa bağlayıblar ki, dəvə karvanı mənzil başına salamat çatsın. Çünki eşşək elə bir şüur sahibidir ki, zülmət gecədə belə bir dəfə getdiyi yolu on ildən sonra da səhvsiz və təhlükəsiz gedə bilir...*

*52. O, dünyaya qurd kimi doğuldu, tülkü kimi öldü.*

*53. İnsana 60-dan sonra dünya da, qəbir də doğma görünür...*

*54. Keçmişindən nigaran olma, çünki keçmiş əlçatılmazdır, indindən də nigaran olma, tale, qismət nədirsə, onunla uğraşacaqsan; gələcəkdən heç nigaran qalma – sonu ölümdür.*

*55. Yuxarıya qalxdıqca havanın sıxlığından nəfəs almaq çətinləşdiyi kimi,insanın şöhrəti artdıqca onun azadliği da "məhdudlaşır".*

*56. Əxlaqsız cəmiyyətdə namus və ləyaqət uğrunda döyüşmək, sadəcə, dəlilikdir.*

*57. Sağlam cəmiyyətdə hamının inkişafı üçün eyni şərait yaransa da, hər kəsin qazandığı nailiyyət onun şəxsi keyfiyyətindən, istedad və bacarığından asılıdır.*

*58.Yaşamaq ictimai anlayış olduğundan o, insanın özündən çox düşdüyü mühit və şəraitdən asılıdır. Sağlam yaşamaq sağlam mühit deməkdir*

*59. Varlıq - bu, özü enerjidir.*

*60. Bütün materiya (kainat...) bir dəfə yarandığı kimi, mənəvi, əxlaqi dəyərlər də (istər mənfi, istərsə müsbət) bir dəfə yaranmış və tarix boyu dəyişilməz olaraq qalmışdır.*

*61. Ağ və qırmızı çiçəklərin ömrü sevgi və vüsal qədər qısa olduğu halda, sarı çiçək uzun ömürlüdür,çünki ayrılıq rəmzidir.*

*62. Astarı üzündə gizlənən adamlar qəlblərə asanlıqla yol tapdıqları kimi, asanlıqla da unudulurlar.*

*63. Döyüş meydanında,bəlkə də, hay-küy, çığır-bağır salmaqla nəyəsə nail olmaq, hətta döyüşü də bəzən udmaq olar, amma sənət meydanının bir dili var:səmimiyyət dili. Bu dil olmadan heç nəyə nail olmaq olmaz.*

*64. Elə "qaranlıqlar" var ki, insana mənəvi rahatlıq, elə qaranlıqlar da var ki, mənəvi əzab verir.*

*65. Ən böyük yaxşılıq insanlığın mənəvi sağlamlığı keşiyində dayanmaqdır.*

*66. İnsanlığı dərk etmək - bu,sadəcə mümkün deyil.*

*67. Sağlam düşüncəni qəbul etməyən cəmiyyət müalicə üçün heç bir dəriman qəbul etmək imkanında olmayan xəstə orqanzmə bənzəyir...*

*68. Bulanıq su durulduqca hər cür çöküntülər suyun təkinə gömüldüyü və gələcəkdə də ən yaxşı tədqiqat obyektinə çevrildiyi kimi, kasıb və dilənçilər təbəqəsi də cəmiyyətin təkinə çökmüş çöküntülərdir ki, onlar hər bir cəmiyyətin yaşam tərzini göstərən barometrlərdir.*

*69. Həkim cəmiyyətin fiziki, hakimsə mənəvi sağlamlığı deməkdir. O cəmiyyət bədbəxtdir ki, onun həkimi də, hakimi də xəstədir.*

*70. O adam xoşbəxtdir ki, o həm fiziki, həm də mənən saglamdır.*

*71. Bir oxucum soruşdu:*

*- Siz niyə iri həcmli kitablar nəşr etdirmirsiniz?*

*- Mənə Həmədan sandığı gərək deyil ki, içərisinə hər nə gəldi yığıb dolduram, mənim kitablarım mücrü qədər zərif və balaca olsalar da içindəki daş-qaşlarla (qeyri-təvazökarlıq olmasın) dünyanı satın almaq olar..*

*72. İnsan sözü,söz də insanı kəşf edib.*

*73. Üç varlıq insan qəlbinə sorğusuz-sualsız hakimdir: Allah, Allaha özünü rəqib sayan iblis, iblisə və iblisliyə qarşı daima mübarizədə olan Sənətkar. Ona görə də M.Müşfiq yazanda ki:*

*Ah, nə böyük şərəfdir sənətkar olmaq,*

*Könüllər dünyasından xəbərdar olmaq.*

*Nə xoşdur bir hiss kimi qəlblərə dolmaq*

*Sualsız, sorğusuz,*

*Bütün fənalıqları yıxıb devirmək-*

*Qansız, qorxusuz*

*74. İnsan şəxsiyyəti yaranışından bu və ya digər dərəcədə o qədər məkirli və ziddiyyətlidir ki, heç bir tarixi və ədəbi şəxsiyyət, bəzən bütün zamanlarda belə, özünün layiq olduğu qiyməti ala bilməyib...*

*75. Bəlkə də, "kölə" sözü "kölgə" sözündən yaranib. Çünki kölgə varlığın köləsidir.*

*76. Bir çox hallarda bir ictimai-siyasi quruluşu başqa bir icti-*

*mai-siyasi quruluşla əvəzlənməsində şəxiyyətlərin və xalqın rolunu ağılagəlməz dərəcədə qabardırlar və bütün nailiyyətləri onların adıyla bağlayırlar. Məncə, bu ən böyük yanlışlıqdır. Çünki hər bir inkişafın, dəyişkənliyin ilkin modeli beynlərdə, düşüncələrdə yaranır, formalaşır sonradan, necə deyərlər, nəzəriyyədən praktikaya, təcrübəyə keçirilir. Beynlərdə, düşyncələrdə çevriliş yoxdursa, ictimai, sosial, mədəni həyatda da heç bir çevriliş ola bilməz. Beynlərdəki, düşüncələrdəki çevrilişi isə "millətin ağrıları" olan şair və yazıçılar yaradırlar. Çox da uzağa getməyək: Qardaş Türkiyənin əgər Tofiq Fikrət kimi bir şairi deməsəydi ki,*

*...Millət yoludur, haqq yoludur tutduğumuz yol,*
*Ey haqq, yaşa! Ey sevgili millət yaşa, var ol!..*

*Mehmet Əmin Yurdaqul yazmasaydı ki:*

*Bırak beni haykırayım, susarsam sen matem et;*
*Unutma ki, şairləri haykımayan bir millət,*
*Sevdikləri topraq olmuş öksüz çocuq gibidir -*
*Yaxud da, Midhat Cemal Kuntay haykırmasaydı ki:*

*Bayraqları bayraq yapan üstündəki qandır!..*
*Topraq - əgər uğrunda ölən varsa, Vatandır -*

*onda, çətin ki,nə Mustafa Kamal Atatürk yetişərdi, nə də bugünkü əzəmətli Türkiyə Cümhuriyyəti olardı. Yaxud da 1918-1920-ci illər Azərbaycan Demokratik Respublikası həm də özündən əvvəlki milli ədəbiyyata və milli düşüncəyə borcludur.*

*77. Mən inanmıram ki, elə bir "dözümlü" adam olsun ki, gecənin yarısı dişinin, ürəyinin ...ağrısından şirin yuxudan oyanmasın, sa-*

*kit, rahat yata bilsin. ...Bədbəxt o millətdir ki,onun şair və yazıçılarının ağrı sinir sistemi ya anadangəlmə yoxdur,ya da sonradan "kəsilib" çıxarılib...*

*78. Sokrat deyir:"Mən şairləri öyrəndim,onlara istedadlarının özlərini və özgələri aldadan kimi baxıram.Onlar özlərini müdrik qələmə verirlər, ancaq onlar müdrik deyillər. "(Sitat Camal Mustafayev "İdrakın şeriyyəti", Bakı, 1999, səh. 263-dən alınıb)*

*Ay rəhmətlik Sokrat, əgər şairlər müdrik deyillərsə, niyə onların poeziyası olmadan müdrikliyin rəmzi olan fəlsəfə keçinə bilmir? Əgər belə olmasaydı, Aristotel yazmazdı ki: "Poeziya tarixdən daha ciddi, daha fəlsəfidir" (Sitat yenə oradan - səh. 115-dən alınıb)*

*Fəlsəfənin ilkin qida mənbəyi poziyadır, daha doğrusu, poeziyasız fəlsəfə, fəlsəfəsiz poeziya yoxdur.*

*79. Xalq içərisində geniş yayılmış "əl əli yuyar,əl də üz" prinsipi, məncə, cəmiyyətdən çox təbiətlə bağlıdır. Bəlkə də, cəmiyyət qanunları təbiət qanunları əsasında formalaşıb. Çünki insan da təbiətibiatn bir parçasıdır. ...Ağac bütün güc və qüvvəsini kökləri vasitəsi ilə torpaqdan alır. Köklər üstə ucalan, pərvəriş tapan budaqlar da yarpaqları, puçurları vasitəsi ilə kökləri Günəş ziyası ilə təmin edir. Yəni nə köklər budaqlara, nə də budaqlar köklərə borclu qalmır. Sirr də ondadır ki, köklər budaqlarsız, budaqlar da köklərsiz yaşaya bilmir...*

*80. Ürəklə beynin bağlılığı da köklərlə budaqların biri-birinə bağlılığı kimidir. Budaqlar kökdən güc aldıqları kimi, beyn də ürəkdən güc alır.Bəlkə də,elə buna görə ilahi sirr olaraq ürək beyndən aşağıda yerləşdirilmişdir. Ürək hissin, duyğunun, emosiyanın beşiyidirsə, beyn ağılın, düşüncənin, təfəkkürün mənbəyidir. Ağlı, düşüncəni, təfəkkürü qidalandıran, zehni cəhətdən inkişaf etdirən hisslər, duyğular, emosiyalardır. Bunun qarşılığı olaraq ağıl da, düşüncə də, təfəkkür də hisslərə, duyğulara,emosiyalara bir çox hallarda nəzarət edir,onların fəaliyyətlərini nizamlayır. Ancaq bunların hər birinin öz yaradıcılıq sahəsi var: poeziya, geniş mənada incəsənət hissin, duyğunun, emosiyanın məhsuludursa, elm ağlın, düşüncənin,*

*təfəkkürün məhsuludur. Lakin elmlə poeziya, incəsənət arasında Çin səddi çəkmək olmaz. Çünki elm də, poeziya və incəsənət də heyrət və heyranlıq adlanan bir ananın döşlərindən süd əmmişlər.*

*81. Hər bir xalqın folkloru, geniş mənada, onun kimliyidir. Bu kimliyi dərindən mənimsəmədən onun nəyə qadir olduğunu dərk etmək olmaz.*

*82. "Quran"ın "Səcdə" surəsinin 7-ci ayəsində deyilir: "O (Allah) ki, yaratdığı hər şeyı gözəl yaratmış və ilk başda insanı çamurdan yaratmışdır". İblisi də yaradan Allahdır. Demək, iblis də gözəldir. İblis hər kəsin yox, əxlaqi, mənəvi cəhətdən zəif, nəfsinin qulu olanların "dostudur". Mələklər içərisində iblis qədər insanı daima məşğul edən, onu bərkə-boşa salmaqla kamiləşməyə çalışan ikinci bir mələk yoxdur. Təəssüflər olsun, bəşər tarixində bütün düşüncə adamları (istər idealist, istərsə də materialist) iblisi yalniz mənfi planda dərk etmiş və bu yöndən də təhlil və təbliq etmişlər. Əslində bu, heç də belə deyil. Çünki elə bir varlıq yoxdur ki,onun müsbət tərəfi olmasın.İblis də eləcə. Sadəcə onun müsbət keyfiyyətlərini tapmaq və görmək lazımdır. Məsələn, iblis olan yerdə həqiqət üzə çıxır, bən qatı cinayətkar belə bir anlığa olsa da əməlindən çəkinir, insnlar danışığına, hərəkət və fəaliyyətinə nəzarət edir və sair. Hər kəslə olduğu kimi, iblislə də dil tapmaq,onun kimliyini dərk etməyə çalışmaq lazımdır...*

*83. Yaşlı adamlar bir çox hallarda uzağı yaxşı gördükləri kimi, ağıl və düşüncələri də gələcəyi, əsasən, yaxşı dərk edir.*

*84. Özümü aldada bilmədiyim kimi, özgələri də aldada bilmirəm. Xoşbəxt (həm də bədbəxt) o adamdır ki, özünü və özgələri aldada bilir.*

*85. Özünü və özgələri aldada bilməyən siyasətçi ola bilməz.*

*86. Özünü və özgələri aldada bilməyənlər ən böyük əzabkeşlərdir..*

*87. Dil bilmək elm, dilini bilmək helmdir. Dil bilmək təfəkkürün, dilini bilmək ağılın işidir. İnsan dil bilmədən yaşaya bilər, nəyinsə, kiminsə "dilini bilmədən" yaşaya bilməz.*

*88. İnsanları dörd ünsür (varlıq) bir araya gətirib toplum halına çevirir: torpaq, od, su və SÖZ. Torpaq olmasa məskunlaşmaq, od və su olmasa yaşamaq üçün həyat şəraiti yaratmaq mümkün deyil. Lakin bütün bunların fövqündə SÖZ durur. Çünki ən firəvan həyat iki adamın belə sözünün bir-birini tutmaması ucbatından alt-üst olur, dağılır. Buna görə də SÖZ əxlaqdır, mənəvyyatdır, onun qüdrəti TANRI qüdrəti qədər böyükdür.*

*89. Həyatını elə qur ki, elə yaşa ki, mənən sənə borclu qalsınlar, sən borclu qalma.*

*90. İnsan inkişaf etdikcə həm zamanı, həm də özünü dəyişidirir. Bu dəyişilmə, əslində, zahiri dəyişiklikdir. Əsl alt qatda, gendə insan kimdirsə, nədirsə o dəyişilməz olaraq qalır, gec-tez zatını büruzə verir. Ona görə də varlıqlar içərisində insan çətin dərk olunan, çətin anlaşılan varlıqdır.*

*91. Hər şeyin öz həddi olduğu kimi, qanmağın, anlamağın da öz həddi var. Həddindən artıq qanmağın özü də bir növ "qanmamazlıqdır".*

*92. Mədə ac qalanda içini,beyin ac qalanda gücünü "yeyir".*

*93. Bəlkə də çoxları üçün qəribə anlaşılar, mən həmişə yoluma "yaşıl işıq" yndıranlardan çox,"daş helləyənləri", üzümə qapı bağlayanları sevmişəm. Çünki həmişə, hər yerdə "yaşıl işıq" yandıranlar içərisində təmənnalı adamlar da az deyil. Onlar, bir şerimdə yazdığım kimi, "bir udum su verib əvəzində dənizi ərmağan istəyənlərdir". Yoluma daş helləyənlər, üzümə qapıları bağlayanlar məni həmişə düşünməyə,özümü təhlil etməyə, sağıma, soluma, irəliyə, geriyə baxmağa "məcbur" ediblər, mənə özləri də bilmədən yaşamağın, bir növ, qanunauyğunluqlarını öyrədiblər. Mən hər çür inkişafım üçün bu adamlara - məqamında yoluma daş helləyənlərə, qapıları üzümə bağlayanlara daha çox borcluyam. İnsana həddini,yerini başa salan, göstərən adamlar mənim üçün daha çox hörmətə, ehtirama layiqdirlər.*

*94. Heyvanlar qulaqları, insanlar ürəkəri ilə eşidirlər. Ona ğörə də Məmməd Araz yazır:*

*Yüz il qulağımın dibində qışqır,*

*Ürək eşitmirsə,qulaq eşitmir.*

*95. İnsan şəraitin məhsulu olduğu kimi, şəraitə uyğun da hərəkət etməlidir. Koroğlu qılıncın işləmədiyi yerdə saza, sazın işləmədiyi yerdə qılınca əl atmasydı, Koroğlu olmazdı.*

*96. Əgər sözlə-nəsihətlə,təbliqatla hər şey yoluna düşsəydi, anlaşılmazlıqlar həll olunsaydı, böyük səbir və təmkin sahibi Peyğəmbərimiz belə məqaminda qılınca əl atmazdı.*

*97. Türk şairi Nihal Atsız yerində deyib:*

*Qələm, fırça, mərmər nədir - birər oyuncaq,*

*Şahanə əsərlər süngülərlə yazılır ancaq.*

*98. Söz insan mənəviyyatının və düşüncəsinin kardiaqrammasıdır.*

*99. Şərəfsiz adamdan şərəf ummaq yay günü təbiətdən qar ummaq kimi bir şeydir.*

*100. Vətən insanın doğulduğu yer yox, ruhunun yaşadığı yerdir.*

*101. Məzmun və mənbəinə görə iki növ ilham var: Allahdan və şeytandan gələn ilham. Allahdan gələn ilham xeyirə, şeytandan gələn ilham şərə xidmət edir...*

*102. Dənizin üzünün sakitliyi onu seyr edənlərə mənəvi rahatliq, ruhi sakitlik gətirsə də, dərinliyindəki həyat uğrunda gedən ölüm-dirim savaşından coxunun xəbəri yoxdur. Əsl şair dünyası da belədir:üzü sakit, içi təlatümlü, qovğalı, qasırğalı...*

*103. Şairlər və yazıçılar yaşadığı zaman və cəmiyətin, bır növ, "qara qutularıdır".*

*104. Mənim fikrimçə, insan adlanan məxluq xeyirxah ola blməz. Xeyirxahlar insan cıldində (şəklində) təcəlla eyləyən mələklərdi.*

*105. Ölüm də torpaq kimi eyib örtəndi.*

*106. Yaltaqlıq və alçaqlıq da Allah vergisi olduğundan bunları hər adam bacara bilməz.*

*107. Özümlə bağlı ən böyük duam: "Allah məni öz nəzərindən başqa, bütün nəzərlərdən uzaq etsin"duasıdır.*

*108. Pişik oynatdığı qozun məzmun və mahiyyətindən nə qədər agahdırsa, dünya haqqında baş sındıranlar da dünyanın məzmun və mahiyyətindən bir o qədər xəbərdardırlar.*

*109. Allah şeytanı ona görə xəlq edib ki,insanlar seçim qarşısında qalıb Allaha daha yaxın olsunlar.*

*110. Bir ölkənin xəzinəsi boşdursa, iqtisadiyyatı çökübsə, bu, o qədər də qorxulu deyil. Ən böyük qorxu o ölkədə mənəviyyatsızlığın, əxlaqsızlığın hökm sürməsidir.*

*111.Yedəkləmək üçün yeməkləmək gərəkdir.*

*112.Yaratmaq üçün yaranmaq lazımdır.*

*113. Böyük və istedadlı adamlar xalqın canlı mənəviyyat abidələridir, daha dəqiq desək, onlar Vətən içində Vətəndirlər. Vətən sərhəddini qorumaq nə qədər namus işidirsə, onları qorumaq da bir o qədər namus işidir. Təəssüflər olsun ki, biz zamanında nə Vətənimizin bütövlüyünü, nə də canlı mənəviyyat abidələrimizi qoruya bildik...*

*114. Sözlərdə ahəng olduğu kimi, poeziyada da mükəmməl bir ahəng qanunauyğunluğu var. Əgər sözlərdə eynicinsli saitlərin bir-birini izləməsinə ahəng qanunu deyilirsə, şeirdə, geniş mənada poeziyada hər misradakı sözlərin, hər bənddəki misraların, hər şeirdəki bəndlərin arasındak hər cəhətdən ciddi bir ahəngdarlıq olmalıdır ki, bu da şeirin əbədi yaşarlılığı üçün başlıca stimuldur. Başqa cür desək, ahəngdarlıq şeirin elmiliyidir...*

*Ancaq min təəssüf ki, özüm bu qanunauyğunluğa bir çox hallarda əməl edə bilmirəm. Bu da ondan irəli gəlir ki,yaradıcılıq da insan kimi azadlıq sevir, sərbəstlik istəyir. Yaradıcılıq elə bir qarşısı alın-*

*maz qüvvədir ki, onun qarşısında sənətkar ürəyi, sənətkar arzusu çox gücsüz görünür.*

*115. Deyirlər ki, yaradıcılıq işi ilham işidir ki, o da gərək vaxtında gələ. Burda bir həqiqət var. Ancaq mən ilhamı həmişə çöldə, kənarda fövqəladə bir qüvvə kimi yox, içimdə, qəlbimdə, düşüncəmdə axtarmışam. Əgər, el demişkən, quyuda su yoxdursa, ondan necə su çıxarmaq olar.*

*116. Elmi təfəkkürlə bədii təfəkkürün başlıca fərqi ondadır ki, elmi təfəkkür daha çox görünənlərin görünməyən, bədii təfəkkürsə görünməyənlərin "gorünən" tərəflərini görür.*

*117. Qələm adamının borcu kiməsə əxlaq dərsi vermək deyil, o elə yazmalıdır ki, oxucu seçim qarşısında qalsın.*

*118. Oxucu yazıçını seçir, yazıçı oxucunu yox.*

*119. Deyirlər ki, böyük şəxsiyyətləri anmaqdan çox anlamaq lazımdır. Amma bilməlidirlər ki, böyük şəxsiyyətlərin böyüklüyü anlanıldığı üçündür ki, onlar anılırlar.*

*120. Topu, topxanası güclü olan dövlətlər əbədi yaşaya bilməz. O dövlət əbədi güücə malıkdir ki, onun güclü psixoloqları var. Psixoloji cəhətdən güclü olanlar həmişə qalibdirlər.*

*121. İnsan adlanan varlığı daha çox üç şey  vaxtsız məhv edər: paxıllıq, intirqa və şöhrət azarı.*

*122.Yalnız öz keçmişi ilə öyünən millətin gələcəyi sual altındadır.*

*123.Toyuqlar piyləndikcə yumurtlamaq vərdişini ittrdiyi kimi, bəzi adamlar da vəzifəyə, mala-pula sahibləhdikcə insanlığını, ləyaqət və şəxsiyyətini itirirlər.*

*124.Ən dəhşətli, yandırıcı göz yaşları insanın içinə ərinmiş qurğuşun kimi tökülən kimsənin görmədiyi, duymadığı və görə, duya bilmədiyi göz yaşlarıdır.*

*125. Münbit və bərəkətli torpağın məhsuldarlığı zəngin olduğu kimi, müdrik düşüncə və təfəkkürə malik olan xalqın da ədəbiiyatı, mədəniyyəti bir o qədər zəngindir.*

*126. Azadlıq güc deməkdir, kim güclüdürsə, o da azaddır.*

*127.Yaşamaq əlacsızlıqdan doğan mübarizədir.*

*128. Həyatda ən çətin şey insanın özü-özü ilə dil tapmasıdr.*

*129. İnsan əzab verdikcə vəhşiyə, əzab çəkdikcə mələyə dönür.*

*130.Tarix tarixin yaddaşını, ədəbiyyat yaddaşın tarixini yazır.**

*131. İnsan insanın xidmətçisidir...*

*132. Elədikləri yaxşılıqlara görə əvəz gözləyənlər ağılsız adamlardır.*

*133. O, ömrü boyu şeir yazdı, amma şair ola bilmədi.*

*134. Ariflər bu dünyaya dəm,"həriflər"sə qəm çəkmək üçün gəlirlər.*

*135. Hərdən mənə elə gəlir ki, bəşər dühasının ilk dahisi "biri vardı, biri yoxdu" düşüncə düsturunu ortaya qoyan İNSANdır. Sonralar da bu düstura söykək olaraq belə bir fikir formalaşdı ki, "at olanda meydan, meydan olanda da at olmur". Və hər iki deyimdə "yoxluq" anlamının sonda gəlməsi də təsadüfü deyil. Bu, o deməkdir ki, İnsan yox olan varlığı əldə etmək üçün daima mübarizə aparmalı, həmişə fəal həyat mövqeində olmalıdır...*

*136. Xalqımızın belə bir deyimi var: "Dəlidən doğru xəbər". Bu da bir həqiqətdir ki, doğru xəbəri peyğəmbərlər, hatiflər, övliyalar... xalqa, kütləyə çatdırırlar. Buna görə də, xalqın anlamında DƏLİLİK elə bir əxlaqi, mənəvi dəyərə malik olan kamillik mərtəbəsidir ki, bu mərtəbəyə İnsan adlanan hər kəsin əli çatmaz.*

*Dəlilik azadlıqdır, mənəvi, əxlaqi təmizlikdir. Daha doğrusu, DƏLİLİK Haqqa qovuşmağın bir yoludur, bir məqamıdır.**

**** Hörmətli oxucular, bu deyimlərin əksəriyyəti ayrı-ayrı vaxtlarda (07.02;13.02.2010 və 13.03.2015) "Kredo"qəzetində dərc edilib. Ancaq bir məsələni qeyd etmək istətəyirəm ki,***

*yaradıcılığımın mühüm sahələrindən birini təşkil edən butpli deyimlərin böyük bir qismi - 286-sı "Mənə elə gəlir ki..." (Bakı, "Nurlan", 2008) kitabımda sizlərə təqdim olunmuşdur. Və o kitabın "Əziz oxucu" başlıqlı xitabnaməsində yazmışdım: "...dünyada elə bir meyvə yoxdur ki, tarix boyu insanlar yaşadığı və düşdüyü coğrafi şəraitdən asılı olaraq bu və ya digər səviyyədə o meyvədən dadmasın və ya həyatın zəruri tələbatı kimi ondan istifadə etməmiş olsun." Fikir də insan fitrətinin, düşüncəsinin "ağıl budağının"(M.Araz) meyvəsidir. Hər meyvə öz ekoloji mühit və şəraitinin ab-havasını, torpağının dad və duzunu özündə əks etdirdiyi kimi, hər müdrik fikir də yadandığı dövrün,zamanın və mənsub olduğu millətin xarakterik mənəvi cizğilərini özündə əks etdirir. Bu da bir həqiqətdir ki, min illərin axar-baxarından süzülüb gələn və insanlığın mənəvi aləmini əks etdirən elə dünyəvi fikir və düşüncə yoxdur ki, çağımıza qədər müxtəlif forma və variantlarda, əsasən, deyilməmiş, yazılmamış olsun...*

*Buna görə də mühakimənizə,müzakirənizə cəsarət edib məsləhət bildiyim duyğu və düşüncələrimlə, fikirlərimlə kimlərinsə fikir və düşüncələri arasında paralellik, yaxınlıq, oxşarlıq axtaranlar,hiss edənlər də olacaq. Bu, təbiidir. Çünki mənim də yazdıqlarım heç də "Quran" ayəsi deyil... Amma etiraf edim ki, cəsarət edib sizlərə təqdim etdiyim bu deyimlərlə bağlı Sizin kimi dyərli oxucuların fikir və mülahizələrini eşitməyə, oxumağa həmişə olduğu kimi bu gün də,sabah da böyük ehtiyacım var və bunun üçün də Sizə minnətdar olaram. (Xanəli Kərimli, "Mənə elə gəlir ki..." s.15-16.)*

*Mən bu gün də bu fikirdəyəm, əzizlərim!..*

## CƏLİLSİZ VƏ CƏLİLLİ GÜNLƏRİM [9]

18 avqust 2008-ci ildə günortaüstü evə təzəcə gəlmişdim ki, dedilər, Cəlil müəllim (Cəlil Vəzirov) zəng vurmuşdu. Günorta fasiləsi olduğundan zəng vurub onu narahat etmək istəmədim. Axşamüstü saat 19-20 radələrində evlərinə zəng vurdum. Telefona cavab verən olmadı…

Səhərisi günü saat 10-da yenidən Cəlilgilə zəng vurdum. Dəstəyi qaldırdılar. ''Sabahınız xeyir'' – deyib Cəlili istədim. Dəstəkdən xırıltılı, yorğun və üzücü səs gəldi: ''Cəlil Vəzirov vəfat edib''. Çaşıb qaldım. Bir anlığa özümü itirdim. ''Eşitmədim, nə olub?'' – deyə şoruşdum. Yenə də eyni cavabı aldım. Kiminlə danışdığımı soruşanda ''oğludur'', – dedi. ''Həbib, sənsən?'' – həyacanla soruşdum və adımı dedim. Həbib adımı eşidib hönkürdü…

Cəlilin qəfil, heç kəsin inanmadığı, bütün dost və tanışları şok vəziyyətinə salan ölüm xəbərini beləcə eşitdim və onsuz da vəfasına inamadığım dünyaya olub-qalan inamım da tükəndi…

Son günlər yox, bəlkə də son aylar görüşə bilmirdik. İşi çox idi. Naxçıvan teatrının 125 illik salnaməsini yazırdı. Çox şərəfli bir işin yükü altında idi. Hər bir faktın, cümlənin, tarixi həqiqətin üstündə əsirdi. Amma mayın 9-da təsadüfən görüşümüz baş tutdu. Qələm dostum Həmid Arzulu zəng edib bildirdi ki, mənimlə çay içmək istəyir. H.Cavidin məqbərəsi önündə görüşməyi qərarlaşdırdıq və saat 10-11 arasında görüşdük. O vaxt gözləmədiyimiz halda digər qələm dostlarımızdan Akif Axundov və Cəlil Vəzirov da gəldi. Mən bu xoş fürsəti əldən verməyib birlikdə şəkil çəkdirməyi təklif etdim və yaxınlıqdakı foto-atelyedən fotoqraf çağırdım. Ca-

[9] Bu məqalə cüzi ixtisarla "Ədəbiyyat qəzeti"nin 19 sentyabr 2008-ci il tarixli sayında "Mənim haqqımda bir yazı yazarsan..." başlığı ilə dərc edilib.

vidin abidəsi önündə birlikdə şəkil çəkdirdik. Bu, bəlkə də, bir təsadüf, yaxud da tale yazısı idi, deyə bilmərəm, amma dördümüz üçün də arzu olunan bir an idi ki, bu gün artıq o an Cəlilin ölümü ilə tarixə və xatirəyə çevrildi…

Bu şəkil Cəlillə mənim birlikdə çəkdirdiyim ilk və sonuncu şəkil oldu. Şəkli, məndən asılı olmayaraq, Cəlilə ölümündən, təxminən, üç-dörd gün qabaq verdim. O, şəklin dəqiq çəkilmə tarixini öyrənəndən sonra şəklin arxasına qeyd etdi və ''bu da bir tarixdir'' – dedi: Naxçıvanda Böyük bağın çayxanasında çay içdik. Həmişə olduğu kimi, elmi-ədəbi,mədəni həyatımızın ayrı-ayrı sahələrindən söhbət etdik. Yorğunluqdan, göz ağrısından şikayətlənirdi. Bir də şəklə baxıb hamımızı mənalı şəkildə süzdü. Bir anlığa susdu və gözləmədiyim halda dedi:

– Qardaş, birdən ölüb-elərəm,mənim haqqımda yazı yazarsan.

– Allah eləməsin, qardaş, Allah o günü bizlərə nəsib etməsin – dedim.

Ortalığa ağır, üzücü bir sükut çökdüyünü görüb söhbətimizi xoş ovqatla kökləməyə çalışdım:

– Xəbərin var, zarafatla, jurnalist qardaşımız *(Azərbaycanın Əməkdar jurnalısti, Cəlilin və mənim yaxın dostumuz Cəfərqulu Paşayev nəzərdə tuulurdu - X.K.)* bekar qalmasın deyə roman yazmağa başlayıb. Deyir, əsərin qəhrəmanını sizin acığınıza aparıb Ərəbistan çöllərində öldürəcəm.

Güldü…

Biz çayxanadan sonuncu və sən demə, əbədi olaraq belə ayrıldıq.

Cəlil Vəzirovun imzasını xüsusi ilə ''Şərq qapısı'' və eləcə də digər dövrü mətbuat səhifələrindən otuz il idi ki, tanıyırdım. İlk şəxsi tanışlığımızın və dostluğumuzun on illik tarixi var.

Ötən bu on ildə onun iki kitabı haqqında respublika mətbuatında məqalələrlə çıxış etdim, yeni kitab və məqalələri ilə bağlı vaxtaşırı fikirlərimizi bölüşmüşük. C.Vəzirov mənsub olduğu, Naxçıvanda və onun hüdudlarından uzaqlarda

məşhur olan Vəzirovlar şəcərəsinə layiq ləyaqətli, şərəfli bir ömür yaşadı. Baxmayaraq ki, o, Azərbaycanı şöhrətləndirən nəsildaşları - Vəzirovlar kimi hərbçi deyildi, amma o da qələmin, sözün əsgəri idi, hərbiçisi idi. Əgər muxtar respublikamızdan respublika mətbuatında iki nəfər ardıcıl çap olunurdusa, bu diyarın elmi-ədəbi, mədəni, sosial uğurlarını təbliq və təqdir edirdisə, onun biri Cəlil idi. Cəlil, sözün gerçək mənasında, mədəni, ziyalı adam idi. Təkcə geyimində, davranışında deyil, yazılarında, çıxışlarında özünə hörmət qoymağı bacarar, mizan-tərəzini gözləyərdi. Güclü yaddaşa malik olan bu adam sanki canlı arxiv idi. Bir çox aktyorların, teatr və sənət adamlarının həyatları, tərcümeyi-halları ilə bağlı fakt və məlumatları onların özlərindən də dəqiq bilirdi. Onunla bu sahədə mübahisə etmək olmazdı. Çünki, özüzün dediyi kimi, Naxçıvan teatrının son 40 illik tarixinin gündəliyini yazmışdı ki, bu gündəlik bundan sonrakı teatr tədqiqatçıları üçün əvəzsiz mənbədir.

Prezident mükafatçısı olmuş, R.Rza adına Beynəlxalq ədəbi mükafat almış, teatrla bağlı ‘’Qızıl Dərviş” mükafatı laureantı, Azərbaycanın Əməkdar mədəniyyət işçisi Cəlil Vəzirov Azərbaycan ziyalılığının çoxdan bəri etiraf olunmuş potensial qüvvələrindən biri idi. Onun itkisi təkcə bir ailə, bir şəcərə üçün deyil, ümumən Azərbaycan ziyalılığının itkisidir. Bəlkə də, çoxumuz bu reallığı bu gün görmürük, yaxud da görməzliyə vururuq, amma zaman hər şeyi gerçəkləşdirəndir…

Cəlil 25 ildən artıq idi ki, Azərbaycan Teatr Xadimləri İttifaqı Naxçıvan Təşkilatının sədri idi. Azərbaycan Teatr Xadimləri İttifaqının, Jurnalistlər və Yazıçılar Birliklərinin üzvü olan Cəlilin son iş yeri isə AMEA-nın Naxçıvan Bölməsinin Dil, Ədəbiyyat və İncəsənət İnistitutunun elmi katibliyi oldu.

Cəlil çoxlarına nümunə olan yaxşı ailə başçısı, iki oğul, bir qız atası idi. Hər gün, bəlkə də, hər an onların həyatı, taleyi ilə məşğul idi, sevincli, bəzən də narahat günlərini yaşayırdı.

…İnanıram ki, qədirbilən qələmdaşları Cəlil haqqında vaxt, zaman keçdikcə məqalələr, kitablar, xatirələr yazacaq, bəlkə film də çəkəcəklər, rəssam dostları portretini yaradacaq. Amma bütün bunlardan əvvəl Cəlil heç kəsə zəhmət vermədən özü öz portretini yaratdı, özü öz xatirəsini əbədiləşdirdi, özü öz filmini çəkdi - qırx illik zəngin yaradıcılığı ilə.

Min illərin tarixi gerçəkliyindən süzülüb gələn bir həqiqət var: heç kəs heç kəsin əvəzinə doğulmur, heç kəs heç kəsin də əvəzinə ölmür. Allah mizanında bu haqq şəriksizdir. Və vaxtsız doğum olmadığı kimi, vaxtsız ölüm də yoxdur. Bu da Allahın yaratdıqlarına verdiyi bəxşişdir…

Cəlilsevərlərə, Cəlil üçün göynəyənlərə bir dost təskinliyi olaraq böyük türk şairi Nəcib Fazil Kısakürəyin iki misrasını xatırlatmaq istərdim:

*Ölüm gözəl şey, budur pərdə ardından xəbər,*
*Heç gözəl olmasaydı, ölürdümü Peyğəmbər?..*

Məncə, bu misraları şərh etməyə ehtiyac yoxdur.

Artıq Cəlil cismən Vətən torpağına, rühən haq dərgahına qovuşdu. Bir həftədir ki, sabahları Cəlil kimi bir dost itkisi ilə açıram. Və beləcə bir dostumun da telefon nömrəsini telefon kitabçamda qara çərçivəyə alıram. Daha bu nömrəni barmaqlarım heç vaxt yığmayacaq, Cəlili soraqlamayacağam. Amma bu barmaqlar Cəlilin öz xətti ilə yazıb bağışladığı kitabları vərəqləyəcək.Vərəqlədikcə hər vərəqə isti nəfəsini hopdurmuş, gözlərinin nurunu tökmüş qələmdaşımla yenidən görüşəcəyik. Onda yeni bir gün – Cəlilli günlərim başlıyacaq…

*P.S: Mənim üçün əzablı olsa da, Sənin son arzunu, son tapşırığını yerinə yetirdim, Cəlil!.. Bilmirəm, ürəyim və əlim əsə-əsə yazdığım bu yazı alındı, ya alınmadı, amma bir həqiqətə inanmaq istərdim ki, bu kiçik dost ''payı'' ilə görmədiyin xeyir işlər, yarımçıq qalmış planların üçün narahat ruhun azacıq da olsa təskinlik tapar.*

*Ruhun şad olsun, qəbrin nurla dolsun, qardaş…*

# ZİYALILIĞIN İŞIĞI

Ağsaqqallıqla ziyalılıq birləşəndə müdriklik yaranır. Nə ağsaqqallıq, nə ziyalılıq, nə də müdriklik yaş həddi ilə ölçülmür. Bəzən yaşın çoxluğu aldadıcı rol oynayır…

Qəribədir ki, sadaladığımız bu üç amilin əsas göstəricisi və təsdiqi insanın yaşayışı, əxlaqı və əməlləri ilə şərtlənir. Ziyalılıq bir çox hallarda iki vərəqlik diplomla ölçülür, ağsaqqallıq və müdrikliyin isə xüsusi diplomu yoxdur. Bu diplomu xalq, cəmiyyət verir. O cəmiyyət, o xalq ki, onun özü müdrik cəmiyyət, müdrik xalqdır.

İyirmi ilə yaxın bir vaxtda tanıdığım, az-çox *''daxili laboratoriyasına''* bələd olduğum biologiya elmləri namizədi, dosent, bir vaxtlar Naxçıvan Dövlət Universitetinin təməl daşı rolunu oynayan Naxçıvan filialının inkişaf və formalaşmasında xidmətləri olan filial direktorlarından biri kimi, sonralarsa müxtəlif illərdə elm və tədris işləri üzrə prorektor, fakültə dekanı, kafedra müdiri vəzifələrində çalışan, indi isə zəngin ənənəyə malik Naxçıvan Dövlət Universitetinin biologiya kafedrasının dosenti statusunda fəaliyyət göstərən Abbas Mehdiyev, sözün gerçək anlamında, ağsaqqallıqla ziyalılığı özündə sintezləşdirən  insandır. Abbas müəllimdə müsahidə edib gəldiyim nəticə budur ki, bir qayda olaraq öz yaradıcılığında o, elmi təfəkkürlə bədii təfəkkürün vəhdətini həmişə qoruyub saxlayıb. Abbas müəllimin elmi məntiqi budur ki, bədii təfəkkür elmi təfəkkür üçün bir növ məhək daşıdır. Çünki kainatın sirlərini açan elm sübut etmişdir ki, *''dünya gözəllik qanunları ilə inkişaf edir''*. Gözəllik isə elmi təfəkkürdən çox, bədii-estetik təfəkkürün tədqiqat obyektidir. Buna görə də elmi təfəkkür bədii təfəkkürə can atdığı kimi, bədii təfəkkür də elmi təfəkkürə can atır, lakin bunlar bir-birini əvəz etmək deyil, bir-birinə arxa dururlar".

Xüsusilə, mikro elektronika əsri olan zamanımızda, etiraf edim ki, ixtisası dairəsində özünü təsdiq etmək məqamına çatmış elm adamlarımızın içərisində çox az adama rast gəlinir ki, onlaın istər klassik, istərsə də günümüzün ədəbiyyatından

və incəsənət sahələrindən məlumatı olsun. Abbas müəllim təbiəti, onun min bir çalarını, spesifikasını bildiyi kimi, həm də xalq musiqisinə, ədəbiyyatına, xüsusən də aşıq musiqisinə bağlılığı onun mənəvi dünyasının əzəli və əbədi yol yoldaşıdır.

Mən Abbas müəllimi səfərlərdə daha yaxından tanıdım. Ondan hələ bir kimsənin qarasınca danışmaq, ünvanına nəsə *''daş atmaq''* meylini sezmədim. Söhbətimiz insanlığın fəlsəfəsindən *(bəşəriyyətin heç zaman açılmayan əbədi mövzusundan),* poeziyadan, musiqidən, əxlaq və mənəviyyat məsələlərindən olub.

1997-ci ilin mart ayının 21-də Türkiyənin Van Yüzüncü il universitetində keçirilən Novruz bayramı ilə bağlı tədbirə universitetdən ikimiz göndərilmişdik. Abbas müəllim o tədbirdə Novruz bayramının Şərq mənbələri əsasında fəlsəfəsini açdı. Bəzi iddiaçıların *''milli təəssüb''*dən doğan fikirlərini elmi fakt və dəlillərlə təkzib edərək göstərdi ki, Novruz bayramı təkcə Orta Asiya türkdilli xalqlarının deyil, ümümbəşəri dəyər statusu qazanmış bütöv Türk xalqlarının ortaq bayramıdır. Abbas müəllimin elmi məntiqi ilə fikirlərə verdiyi düzəliş salonda alqışlarla qarşılandı. Bu zaman Van universitetinin ozamankı rektoru, soyuna görə Azərbaycandan olan mərhum Çingiz bəyin Abbas müəllimi hərarətlə təbrik etməsi bizə baş ucalığı gətirdi.

Abbas müəllimlə ikinci səfərimiz 2005-ci il may ayında İranda, Urmiya şəhərində keçirilən ''Xaqanişünaslıq'' elmi konfransında iştirak etməyimizlə bağlı oldu. İclaslararası fasilə zamanı özünün geniş auditoriyasını yaradan Abbas müəllim İran alimləri ilə sağlam elmi mübahisələr aparır və uzun illərdən bəri tədqiqat obyektinə çevirdiyi, bir sıra dəyərli kitab, məqalələr yazdığı Şərq renessansı və Azərbaycan milli düşüncə tərzi fonunda Xaqani yaradıcılığının özünəməxsusluğunu açıb ortaya qoyurdu. İlk dəfə olaraq mən Abbas müəllimdən eşitdim ki, XII əsr Azərbaycan ədəbiyyatı iki qolla - romantik və realist qolla inkişaf edirdi. Romantik qolun başında Şeyx Nizami, realist qolun başında

Xaqani dururdu. Təbii ki, bu fikri bir ədəbiyyatşünas alim yox, ədəbiyyata yaxından bələd olan və məntiqlə yanaşan bir bioloq alim deyirdi.

Abbas müəllim elmlə müəllimliyi, pedaqoji fəaliyyəti mükəmməl şəkildə özündə birləşdirən bir pedaqoqdur. Bu bir həqiqətdir ki, hər elm adamı heç də yaxşı müəllim, pedaqoq ola bilmir və əksinə, hər müəllim də, pedaqoq da yaxşı elm adamı ola bilmir. Müəllimliklə, pedaqoji fəaliyyətlə elmi araşdırma işini vahid bir müstəvi üzərinə gətirməsi Abbas müəllimin yuxarıda xatırlatdığımız ağsaqqallığı ilə yüksək ziyalılıq mənəviyyatının birliyindən irəli gəlir. Abbas müəllim üçün müəllimlik, elmdə olduğu kimi, bir estetik zövq mənbəyidir. Zövq isə ziyalı mənəviyyatının nümayişidir.

Bir ali məktəb müəllimi kimi Abbas müəllimin özünəməxsusluğu ondadır ki, o, auditoriyanı bir çoxları kimi imtahan, zaçot hədə-qorxusu ilə deyil, yalnız ağsaqqal təmkini, pedaqoji məharəti və dolğun elmi fikirləri, düşündürücü məntiqi, səlist nitqi ilə ram etməyi bacarır. Abbas müəllim tədris etdiyi mövzuyla bağlı poetik ifadələrdən də məharətlə istifadə edir. Mən onun poeziyamızda ekoloji motivlər haqqında danışarkən S.Vurğun, M.Rahim, B.Vahabzadə, M.Araz, H.Razi, B.Azəroğlu və digər şairlərimizdən səxavətlə şeirlər dediyinin, kamil bir ədəbiyyatşünas kimi təhlil etdiyinin çox şahidiyəm. Bəlkə də bizi bir-birimizə yaxınlaşdıran, bəzi hallarda fikir baxımından birləşdirən də elə poeziyadır, ədəbiyyatdır və bütünlükdə incəsənətə olan maraq dairəmizdir.

Abbas müəllim hər yazısında yeni bir fikir və ideya irəliyə sürməyi bacaran alimdir. Bir dəfə universitet Elmi Şurası iclaslarının birində Abbas müəllimin diyarımızın ekolji mənzərəsini əks etdirən *''Naxçıvan MR-in faydalı həşəratları və onların mühafizəsi''* monoqrafiyasının nəşrinə icazə verilməsi məsələsi səsə qoyulanda əsərin adında işlədilən *''faydalı həşəratlar''* ifadəsi mənə qəribə gəldi. Düzü, bu çağa qədər elə bilirdim ki, həşarat anlayışı ancaq mənfi mənada simvolik ifadə kimi işlədilir. Monoqrafiyanın nəşrinə icazə verildi.

Kitab nəşr edildi. Və mən Abbas müəllimdən xahiş etdim ki, o kitabdan mənə versin. Kitabı oxudum. Sən demə, *''həşarat''* deyib beynimizdə və düşüncəmizdə daima ikirahla andığımız təbiətin bu zəngin konponenti nəinki təbiətin ekoloji tarazlığını qoruyub saxlayan, həm də təbiətin qurucuları və estetik cəhətdən zənginləşdirən titanik qüvvəsi imiş. Onlarsız təbiət məhv olarmış. Mən düşündüm ki, bu kitabı təbiətə qənim olan, ona amansız düşmən münasibəti bəsləyən ikiayaqlı *''həşəratların''* oxuyub faydalanmasına çox böyük ehtiyac var. Bu faktı bir də ona görə xatırladım ki, Abbas müəllimin hər bir yazısında, hətta cümləsində belə elmimizin inkişafı, mənəviyyatımızın zənginləşməsi üçün faydalı şeylər tapmaq olur.

Abbas müəllim öz dünyası, parametrləri olan adamdır. O, nə kimsəyə borclu qalar, nə də kimisə özünə borclu salar. Nə kimdənsə, nədənsə gileylənər, nə umar, nə küsər. O maddi və mənəvi dincliyini bir çox hallarda elmdə tapır. Bu çağa qədər on səkkiz dəfə keçmiş Sovetlər Birliyinin bir sıra şəhərlərində və İranda, Türkiyədə keçirilən beynəlxalq elmi konfranslarda məruzələrlə çıxış edən, 7 monoqrafiyanın, 20-dən çox elmi-metodiki vəsaitin, yüzdən artıq elmi məqalənin, bir xeyli publisist yazıların müəllifi olan Abbas müəllim, qoy sözüm qəribə gəlməsin, cəfakeş bir nəslin sonuncu bayraqdarlarındandır. O nə yazıbsa, təmənnasız yazıb, ürəyinin hökmü, mənəviyyatının tələbi ilə yazıb və yazır da.

Onun ümummilli liderimiz Heydər Əliyevlə əlaqədar yazdığı və respublikamızın müxtəlif nüfuzlu mətbuat səhifələrində, elmi jurnallarında dərc edilən on beşə qədər məqalə təkcə elmiliyi, geniş nəzəri-psixoloji təhlili ilə deyil, həm də yüksək mənəvi dəyəri,vətəndaşlıq mövqeyi ilə də seçilir. Təkcə *''Dahiliyin Heydər Əliyev zirvəsi''* məqaləsi fikrimizə canlı sübutdur.

Abbas müəllimin zəngin kitabxanası var. Bəlkə də, yeganə alimlərdəndir ki, onun kitabxanasında, əksər şərq mütəfəkkirlərinin, o cümlədən Biruni, Əl-Fərabi, İbni-Sina, Ömər Xəyyam, Nəsrəddin Tusi, Marağalı Əvhədi və digər şərq fi-

losoflarının, şairlərinin əsərləri kompleks şəkildə toplanılıb, qorunub saxlanılır. Ancaq etiraf edim ki, Abbas müəllimi çox narahat edən məsələlərdən biri bu zəngin xəzinənin kimsəni maraqlandırmamasıdır. Bu kitabların sonrakı taleyi bir ziyalı-alim kimi onu düşündürür…

Abbas müəllimin bir alim, ziyalı kimi maraq dairəsi, elmi aurası genişdir. Onun bir çox elmi mühitdə söz demək, fikrini bölüşmək, qiymət vermək qabiliyyəti bəzən insanda təəccüb doğurur. Ancaq, başlıcası odur ki, ən çətin anlarda belə o, mənəviyyatını ağsaqqallılıq missiyasını, ziyalılıq mövqeyini həmişə qorumağı bacarıb. Ona nüfuz və hörmət gətirən də məhz budur.

Əxlaq və ləyaqətlə yaşamağın başlıca prinsiplərindən biri insanın özünün-özünə nəzarətidir. Bu, təbii ki, çətin prosesdir. Amma özünə hörmət və ehtiramla yanaşmağı bacaranlar üçün özünə nəzarət gündəlik həyat normativinə çevrilir. O insan ki, özünə nəzarət missiyasını qoruyub saxlaya bilmir, o,öz yolundan çıxıb özgə yoluna girən və hər an ağır qəza vəziyyəti yaratmağa hazır olan sərxoş sürücüyə bənzəyir. Abbas müəllimin diqqətəlayiq cəhətlərindən biri və bəlkə də, birincisi odur ki, o daima özü-özünə nəzarət etməyi, özünə uzaqdan baxıb qiymət verməyi bacarır. İstər ictimai davranışına, istər geyiminə, istərsə də süfrə mədəniyyətinə həmişə ciddi estetik münasibəti olan adamdır Abbas müəllim.

Abbas müəllim həddini bilən və həddi gözləyən ziyalıdır. Və bu keyfiyyət ağsaqqıllıq və ziyalılıq üçün vacib məsələdir. Bu mənəvi keyfiyyəti özgələrin, təbii ki, onunla münasibətdə olanların da gözləməsini arzulayır. Daha doğrusu, öz şəxsi keyfiyyətləri ilə müsbət mənada nümunə olmağı bacarır Abbas müəllim.

Təbii ki, Abbas müəllim də hamımız kimi eyni cəmiyyətin, zamanın, ictimai mühit və şəraitin övladıdır. Heç kəs peyğəmbər doğulmur və peyğəmbər də deyildir. Amma hər kəsin borcudur ki, cəmiyyətdən hansı mənəvi-əxlaqi dəyərləri mənimsəyirsə, özününküləşdirirsə, əvəzində cəmiyyətə də imkanı daxilində mənəvi-əxlaqi borcunu qaytarsın. Bunsuz

nə ağsaqqallıq, nə ziyalılıq, nə də yüksək vətəndaşlıq amalı mövcuddur. Abbas müəllim bu cəhətdən də cəmiyyətlə özü arasında tarazlığı qoruyub saxlayan adamdır.

İstər keçmiş sovetlər birliyinin, istərsə Azərbaycanın tanınmış elm adamlarından Əməkdar elm xadimi, bioloq M.Ə.Axundov, professor Z.Məmmədov, Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru İ.Rüstəmov, professor F.Ramazanov, Smolensk Pedaqoji İnstitutunun kafedra müdiri, fəlsəfə elmləri doktoru, şərqşünas A.V.Slavin və başqalarının əsərlərinə yüksək qiymət verdiyi Abbas müəllim öz sözü, təfəkkürü, düşüncə tərzi olan alimdir. O, heç kəsin elmi fikrinə şərikləşməyi, heç kəsi də öz elmi fikirlərinə şərik etməyi xoşlamır. Elə buna görədir ki, akademik, filologiya elmləri doktoru, professor İsa Həbibbəyli Abbas müəllimlə bağlı çıxışlarının birində demişdir: *''Abbas müəllim Azərbaycanda,bəlkə də, yeganə alimlərdən biridir ki, o, fəlsəfə ilə biologiya elmini birləşdirərək maraqlı elmi nəticələr almışdır".*

Abbas müəllim 2007-2008-ci tədris ilinin elmi yekunlarına, tədris sahəsindəki nailiyyətlərinə görə Naxçıvan Dövlət Universiteti rektorluğunun təsis etdiyi ''İlin alimi'' və ''İlin müəllimi'' fəxri adlarına layiq görülmüşdür.

İndi ömrünün 77-ci baharını yaşayır. 77 mifoloji təfəkkürə görə sonsuz rəqəmdir, yəni əsl alim ömrünün sonu yoxdur. Buna görə də o yeni-yeni araşdırmalar aparır, elmə gələn gənc nəsl üçün qayğıkeş insan, sağlam təfəkkürlü məsləhətçi rolunu oynayır.

Qoy bu yaradıcılıq çeşməniz və mənəvi-əxlaqi dəyərləriniz tükənməsin, Abbas müəllim!..

***"Möhtəşəm Azərbaycan" qəzeti,***
***29 avqust 2008-ci il.***

***P.S.80 illik yubileyi ərəfəsində Naxçıvan MR-in Əməkdar müəllimi fəxri adına layiq görülən Abbas Mehdiyev 83 yaşında - 2014-cü ildə dünyasını dəyişdi. Allah rəhmət eləsin!..***
***26.04.2016-cı il.***

## TANIDIĞIM HƏMZƏ MÜƏLLİM

İnsanın böyüklüyü onun, müsbət mənada, əməllərinin miqyası ilə ölçülür. Kimin əməlləri, gördüyü iş, özündən sonra qoyub getdiyi nədirsə, onun maddi və ruhani aləmdə yaşamı da odur...

Bu gün elmi-ictimaiyyətin, geniş mənada sosial mühitin tanıyıb, qəbul etdiyi Həmzə Cəfərovu mən də qırx ildən artıqdır ki, tanıyıram və bu yazı da qırx illik müşahidələrimin, bir növ, hesabatı kimidir.

Mən 1969-cu ildə Azərbaycan Pedaqoji *İnstitutunun (indiki APU-nun)* Naxçıvan Filialının tarix-filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı ixtisasının birinci kursuna daxil olanda Həmzə filialın tarix ixtisası üzrə üçüncü kurs tələbəsi idi. Sadə, səmimi, üz-gözündən yorğun, bir az da qayğılı tələbə təbəssümü yağan bir kənd uşağı idi. Elə bu zahiri və mənəvi görüntülər bir neçə tələbə kimi, Həmzəni də mənə doğmalaşdırdı. Demək olar ki, hər gün onunla dərsarası görüşür, hal-əhval tutur, sevincimizi və nigarançılığımızı bölüşürdük. Aradan il keçdi, Həmzə filialın ilk 75 nəfərlik məzunlarından biri oldu...

...1991-ci ildə onunla görüşəndə artıq Həmzə müəllim kimi tanınırdı, tarix elmləri namizədi, Naxçıvan Dövlət Universitetinin dosenti, yuxarıda qeyd etdiyim kimi, universitetdə və ictimai mühitdə sözü olan bir ziyalı idi. Mən onda universitetin ilk mətbu orqanı olan "Fikir" qəzetinin redaktoru idim. Universitet həyatında və ümumiyyətlə o dövrki Azərbaycanın çalxanan-durulan və bir çox hallarda kükrüyən mühitində Həmzə də alim kimi yalnız xalqın, millətin tələblərinə xidmət edən ziyalı yolunu tutdu. O da xalqın qabaqcıl ziyalıları kimi nicat yolunu yalnız ümummilli liderimiz, böyük şəxsiyyət və dövlət xadimi Heydər Əliyevdə, onun uzaqgörən siyasətində görürdü və bu yolda da üzərinə düşən vəzifəni layiqincə yerinə yetirməyə cəhd edirdi.

Yeni Azərbaycan Partiyasinin təməli, məlumdur ki, ulu öndər Heydər Əliyevin böyük dəstəyi ilə tarixi inqilablar beşi-

yi olan Naxçıvanda yarandı – 1992-ci ilin noyabr ayının 21-də. Ondan sonra yerlərdə xalqın və ziyalıların tələbi ilə partiyanın ilk təşkilatları təşkil olundu. Könüllülük prinsipi ilə bu partiyanın sıraları az müddətdə orduya çevrildi. O cümlədən də Naxçıvan Dövlət Universitetində. Universitetdə bu təşkilatın ilk sədri ictimai əsaslarla Həmzə Cəfərov seçildi. Həm "Ümumi tarix" kafedrasının müdiri *(bu vəzifəyə də 1992-ci ildə seçilib),* həm də YAP-ın Universitet şəhərciyi ərazi ilk təşkilatının sədri kimi Azərbaycançılıq, dövlətçilik baximından bir sira işlər görürdü. Xüsusilə, gənc nəslin Azərbaycançılıq naminə ideya-siyasi baxımdan formalaşmasında fəal və dəyişməz mövqe tutdu.

İkinci çağırış *(2000-2005-ci illər)* Naxçıvan MR Ali Məclisinə bərabər deputat seçildik. Sonra o MR-in Təhsil Naziri təyin olundu. Harda işləməyindən, fəaliyyət göstərməyindən asılı olmayaraq Həmzə müəllim həmişə öz sədaqətini, işgüzarlığını əsirgəməmişdir.

Həmzə Cəfərov bir çox azərbaycanlı tarixçi alimlərimiz kimi, namizədlik işini sovet totalitar rejimi dövründə yazdı. *"Gənclərin inqilabi, döyüş və əmək ənənələri əsasında tərbiyə edilməsi sahəsində Azərbaycan komsomolunun fəaliyyəti (1966-1975-ci illər Naxçıvan MSSR materiallari üzrə)"* yazdığı namizədlik işini 1987-ci ildə uğurla müdafiə etmiş, tarix elmləri namizədi, alimlik dərəcəsi almışdır.

Yeri gəlmişkən, qeyd etməliyəm ki, keçmiş sovet rejimində bir sıra mövzular var idi ki, o mövzuları məhz Azərbaycan alimlərinə qadağan etmişdilər. Bizi məcbur edirdilər ki, qondarma *"sosializm yarışından"*, partiya-sovet, komsomol, hətta, bir kolxoz briqadasının həyatından, fəaliyyətindən namizədlik işi yazaq. Amma xalqımızın qədim və zəngin milli tarixi olan Alban tarixindən, Səfəvilər dövlətinin təşəkkülündən, Azərbaycan Demokratik Respublikasından yazmaq olmazdı. Xüsusilə Cənubi Azərbaycan ədəbiyyatından söz açmaq belə qadağan idi. Bunun əksinə olaraq əzəli və ədəbi düşmənlərimiz erməni tarixçilərinin üzünə isə məqsədli şəkildə bütün qapılar açıq idi. O cümlədən də tariximizin bü-

töv bir mərhələsini təşkil edən Alban tarixini saxtalaşdırmaq, *"özününküləşdirmək"* işi Moskva tərəfindən onların qarşısında birnömrəli vəzifə kimi qoyulmuşdur. Bizim tariximiz, milli düşüncəmiz belə çirkin tarixi *"anlaşılmazlığın"* fəsadlarını onda da, bu gün də və gələcəkdə də yaşayıb, yaşayır və uzun illər də yaşayacaq. Bunları ona görə yazıram ki, mən də Cənubi Azərbaycan demokratik ədəbiyyatından 70-ci illərin axırında namizədlik mövzusu təsdiq etdirəndə, Azərbaycanın çörəyini yeyib özgə qapılarda kölgələnənlərin çox tənələri və qadağaları ilə rastlaşdım. Amma o vaxt Azərbaycana rəhbərlik edən ümummilli liderimiz Heydər Əliyevin 1981-ci ilin iyununda keçirilən Azərbaycan Yazıçılar Birliyinin VII qurultayındakı tarixi məruzəsindən sonra *"millət fədailəri", "vətənpərvər"* mövqe tutaraq Cənubi Azərbaycan ədəbiyyatı, mədəniyyəti, tarixinin tədqiqi məsələsini bir nömrəli vəzifə kimi elmi-ictimaiyyətin qarşısında qoydular...

Azərbaycan müstəqillik qazanandan sonra tarix, ədəbiyyat sahələrində aparılan tədqiqat işlərinin ana xəttini Azərbaycançılıq, müstəqil dövlətçilik ənənələri və xalqımızın milli tarixi, elmi, mədəni problemlərinin tədqiqi təşkil etdi. Yaranmış tarixi şəraitdən səmərəli istifadə edib vətəndaş alim kimi ilk addım atanlardan biri də Həmzə Cəfərov oldu. O uzun illərin gərgin əməyinin nəticəsi kimi 2008-ci *ildə "Azərbaycanda gənclər hərəkatı (XX əsr)"* mövzusunda uğurla doktorluq işi müdafiə etdi. Bu gün Naxçıvan Dövlət Universitetinin professoru, universitet Həmkarlar İttifaqı Komitəsinin sədri olan H.Cəfərov 1979-cu ildən elmi və dövrü mətbuatda məqalələri ilə çıxış edən yaxşı bir fikir və düşüncə adamıdır. Onun Azərbaycan, türk, rus, ingilis, ərəb, fars və s. dillərində dərc edilmiş 100-dən çox elmi məqaləsi və bir neçə kitabları, o cümlədən, Rusiya, Türkiyə, Misir kimi xarici ölkələrdə tarixçiliyin dünəni, bu günü ilə bağlı keçirilən beynəlxalq elmi konfrans və simpoziumlarda fəal iştirakı da, son illərdə bir-birinin ardınca işıq üzü görən "Azərbaycanda gənclər hərəkatının təşəkkülü və inkişafı" *(2007) "Azərbaycan gənclər hərəkatı yeni inkişaf mərhələsində" (2007), "Azərbaycan sonda*

*gənclər hərəkatı (XX əsr)" (2009)* kimi kitabları artıq imkan verir deyək ki, o, elmə təsadüfi gələn alim, pedaqoq deyil. Onun nəşr etdirdiyi kitabları təkcə bir tarixçi alim kimi şəxsi həyatında yox, geniş mənada elmi-ictimai həyatımızın yaxçı göstəricisidir. H.Cəfərovun, Azərbaycan təhsilinin ayrılmaz tərkib hissəsi Naxçıvan təhsilinin son yüz illik inkişaf dövrünü zəngin arxiv materialları əsasında əks etdirən *"Naxçıvanda təhsil: İnkişaf yolu və imkanları"* adlı 345 səhifəlik kitabı (*Bakı, "Elm və təhsil", 2011*) həm Naxçıvan təhsilinin inkişafına, həm də özünə qoyduğu canlı bir abidədir. Xüsusilə, son 15 ildə Naxçıvan təhsilinin əsrlərə bərabər keçdiyi inkişaf yolunu göstərən faktlar kitabın heç bir şeylə əvəz olunmaz səhifələridir. Bu kitab Həmzə müəllimin on illik gərgin və şərəfli əməyinin üzağardan nəticəsi kimi, bu gün təhsil işçilərinin, bu sahənin tədqiqatçılarının stol üstü kitabıdır. Kitaba *"Naxçıvan təhsili: Yüz illik inkişaf yolunda"* adlı dəyərli ön söz yazan akademik İsmayıl Hacıyev haqlı olaraq bu qənaətə gəlir ki, *"professor Həmzə Cəfərovun "Naxçıvanda təhsil: İnkişaf yolu və imkanları" əsəri muxtar respublikamızın çoxminli təhsil işçilərinin layiqli əməklərinə təqdim edilmiş elmi töhfədir".* Bu qiymət həm də Həmzə müəllimə verilən qiymətdir, onun alim, ziyalı və ən başlıcası insanlığına verilən dəyərdir.

Həmzə müəllim mənim üçün dost adamdır. Onun xarakterində *"tez alışıb, tez sönmək"* psixoloji anları olsa da, o yediyi çörəyin qədrini bilən, sədaqətinə üz çevirməyən adamdır.

Həmzə müəllim mənimçün, həm də dərddaşdır. Bir çox hallarda fikirlərimizi, ağrılarımızı bölüşəndə onun iç dünyası aydın görünür.

...Mən yazılarımın birində yazmışdım ki, insan şam kimidir, yandıqca içi görünür. Həmzə müəllim də, bu ifadə çox işlənsə də, deməliyəm, şam ömrü yaşayan ata, ziyalı, alim-vətəndaşdır - bütün görünən və görünməyən tərəfləri ilə.

*P.S. Mən bir dost, yoldaş haqqında yazanda ustadımız M.Füzuli yadıma düşür: "Hər söz ki gəlir zühura məndən, yüz tənə bulur hər əncüməndən". Olsun. Amma onu da unutmaq lazım deyil ki, italyanlı Françesko Petrarka yaxşı deyib. "Əgər səni tanıyan bir adam*

*sağdırsa, əsl qiymətini ala bilməyəcəksən". Bu münasibət hamımıza aiddir, o cümlədən də ziyalı dostum, mərhum Həmzə Cəfərova da...*

***05.05.2013.***

***P.S.Həmzə müəllimin özü haqqında nəşrini planlaşdırdığı kitab üçün yazılmış bu məqaləni onun qəfil ölümündən sonra "Kredo" qəzetinin 10 avqust 2013-cü il sayında dərc etdirdim. Ruhu şad olsun.***

## TƏKLİKDƏN TƏNHALIĞA

***İstedadlı yazıçı, bacarıqlı tədqiqatçı alim***
***Rafiq Babayevin nakam xatirəsinə***

Rafiq Babayev 62 yaşında (1953-2015) dünyasını dəyişdi. Nakamlıq elə bir tale yazısıdır ki, o insanla yaşının bütün çağlarında, hətta beşikdən qəbir evinə qədər də yol yoldaşlığı edir, onu *"sıxılmağa","darıxmağa"* qoymur. Bu mənada yanaşanda Rafiq Babayev yer üzünün ən *"xoşbəxt"* bəndəsi idi, çünki nakamlıqla əkiz doğuldu, nakamlıq *da "vəfalı dost","sadiq sirdaş"* kimi vəfa borcunu axıradək yerinə yetirərək onu qəbir evinə də çiyinlərində yola salıb rahat nəfəs aldı...

İnsanın ömür yolu təkliklə tənhalığın arasındakı yoldur ki, bu yolun son ucu da ölüm adlı qaçılması mümkün olmayn bir qanunauyğunluqdur. İnsan varlıqlar içərisində yeganə varlıqdır ki, dünyaya tək gəlir, getdikcə tənhalaşır və əbədiyyətə qovuşur. Ona görə də M.Araz insanlığın batmış qulağına vaxtında həyəcan təbili çalanda ki:

*Təklikdə çaylaq daşıyam,*
*Məni qoymayın təklənim!*
*Əl dəydi, çaxmaq daşıyam,*
*Məni qoymayın təklənim!*

- nə qədər haqlı imiş.

Mən də *"adsız, ünvansız"* bir şeirimdə yazmışdım ki:

*Çölüm insan yığnağı*
*"ağız deyəni qulaq eşitmir".*
*İçim*
*gözdən-könüldən uzaq*
*tənha bir ada -*
*Allahın mehi də*
*üstündən əsmir.*

***

Təklik, tənhalıq həm hərfi,həm də ictimai məna yükü kəsb edən elə bir fəlsəfi anlamdır ki, onun əsl mahiyyəti hələ gərəyincə açılmayıb desək, səhv etmərik. Fikrimizcə, hər təklik tənhalıq, hər tənhalıq da təklik deyil. Əgər bir guşəyə çəkilib təklik həyatı yaşayırsansa, ancaq çoxlarının yaddaşının əbədi sakinisənsə, demək, sən tək deyilsən, səni sevənlər, səni duyaraq əzizləyənlər var. Əksinə, əgər sən daim insan axınındasan və özünə görə fəal həyat tərzin, mövqeyin olduğu halda bilərəkdən *(və həm də bir çox hallarda qəsdən)* əhlinadanların davamlı təhriki ilə göz görə-görə gözdən-könüldən uzaqlaşdırılırsansa, unudulursansa, sənin varlığın görməzliyə, qulaqardına vurulursa, sən tənhalaşır və özün də bilmədən *"artıq"* adama çevrilirsən. Bu mənada, sözün əsl mənasında qələm, düşüncə və təfəkkür admlarını bir çox hallarda cəmiyyətin ögey övladlarına çevirirlər – bilə-bilə, qana-qana.

Bəs bu *"oyunda"* udan kimdir, uduzan kim?!

*"Udanlar"* əhli-nadanlar, uduzansa millətdir,xalqdır!

İstedadlı yazıçı, dəyərli tədqiqatçı-alim, filologiya uzrə fəlsəfə doktoru, AMEA-nın Naxçıvan Bölməsində Folklor şöbəsinin müdiri və AMEA-nın Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun "Axtarışlar" elmi toplusunun baş redaktoru, Naxçıvan Universitetinin müəllimi, dostumuz Rafiq Babayevin qəfil və vaxtsız ölmünün əsl səbəbkarı əcəldən çox, tənhalıq və laqeydlik oldu. Onu, bir çoxlarımız kimi, *"biz"* və *"bizim"* bir-birimizə olan pərdəarxası biganə və laqeydliyimiz öldürdü...

Bu məqamda yadıma E.Heminqueyin "Əcəl zəngi" romanı üçün XVII əsr ingilis şairi Con Donndan seçdiyi məşhur epiqrafdan bir hissə düşür: *"Hər insanın ölümü mənim ömrümü gödəldir. Çünki mən bəşəriyyətin ayrılmaz bir parçasıyam və elə ona görə də kilsə zənginin harayını eşidəndə heç vaxt soruşma ki, kimdir dünyadan köçən: Sənsən dünyadan köçən."*

Unutmayaq ki, Rafiq və Rafiq kimilərin belə bir *"gözəl"* taleyi bütün düşüncə və təfəkkür sahiblərinin taleyidir. Neçə ki cəmiyyətimizin əsas kütləsini *"soyuqcanlı, daş-qəlbli"* insanlar təşkil edir. Çoxumuz bu *"alın yazısı"*nın qurbanı olmuşuq və qurbanı da olacağıq...

***

Bir dəfə "İctimai" radioda "Həmsöhbət" verilişinin müəllifi və aparıcısı Kamil Məhərrəmoğlu mənimlə veriliş apararkən soruşdu: "Xanəli müəllim, M.Araz deyir ki, *"anadan, bacıdan gizlətdiyimi, qələmdən, kağızdan gizlətməmişəm"*. Siz necə, elə bir duyğunuz, düşüncəniz olubmu qələmdən, kağızdan gizlədəsiniz?"

Cavab verdim ki, şeirlərimin birində *("Yaşayıram" şeirində)* yazmışam ki:

*Ürəyimi yeyə-yeyə yaşayıram,*
*Əvəzində*
*bu dünyanın dərd yükünü*
*ürəyimə daşıyıram.*
*Elə dərd var, ürəyimi*
*zərrə-zərrə,qram-qram*
*əritsə də, çürütsə də,*
*kağıza da, qələmə də*
*açmaq olmur.*
*Dərd də var ki,*
*bir dost ilə, sirdaş ilə*
*bölüşməkdən qaçmaq olmur...*

***

...Naxçıvan Dövlət Universitetini bitirmiş, mənim də dərs dediyim oğlu Orxanın 2004-cü ilin fevral ayının 12-də hərbi xidməti vəzifəsini yerinə yetirərkən həlak olması Rafiqi bir ata kimi nə qədər sarsıtmışdısa, bir o qədər də məğrur və əyilməz etmişdi. Onda Rafiqin dərdinə doğmaları, yaxınları, dostları kimi, mən də şərik çıxaraq ***"Çətin isinə..."*** adlı bir şeir yazdım:

*Üzümüz soyuyub:*
*Vaxtsız sönən ocağın*
*daşları kimi;*
*Ölüm ayağında*
*bir nakamın*
*solğun yanağında*
*son hıçqırıqdan donan*
*son göz yaşları kimi.*

*Üzümüz soyuyub:*
*Sahibini itirən*
*təndirin badları tək;*
*Uçuşu yarimçıq qalan*
*quşun qanadları tək.*
*Üzümüz soyuyub:*
*Qu quşlarının yuvası kimi,*
*Günəşin qar üstünə*
*sızan ziyası kimi.*

*Üzümüz soyuyandan*
*soyuyub içimiz də.*
*Çətin isinə... çətin*
*Içimiz-bir də...*

***

Yaxşı deyiblər, Allah bir tərəfdən bağlayanda bir tərəfdən də açır. Rafiq nakamlıqla əkiz doğulsa da, ilahi ona çoxlarına

nəsib olmayan təkrarsız istedad və dərin təfəkkür, düşüncə vermişdi. Bu sarıdan da bəxti gətirmişdi. Yadımdadır, Rafiqin namizədlik işininin Naxçıvan Dövlət Universitetində müzakirəsi zamaını dedim ki, Rafiq, ola bilər ki, orta səviyyəli bir tədqiqatçı-alim olsun, amma Allah eləsin ki, ədəbiyyatımız onu bir yazıçı kimi itirməsin. Çünki namizədlik işini yazana qədər o, 80-ci illərdə bir nasir kimi ədəbiyyata gələn və o dövrün ciddi ədəbi mühitinin qəbul etdiyi qələm adamı idi. Onun qələmindən çıxan ***"Axırıncı axşam" (1986), "Yolçu daşı"(1992), "Zühur"(1999)*** kimi povest və hekayələrdən ibarət kitabları kifayət qədər oxucu auditoriyası toplamış, müəllifinə ədəbi mühitdə hörmət və nüfuz qazandırmışdı. Ancaq çox çəkmədi ki, Rafiq elmi mühitdə də ciddi bir folklor tədqiqatçısı, folklor araşdırıcısı kimi də nüfuz qazandı və özünəməxsus söz sahibi oldu; gərgin və inadcıl fəaliyyəti nəticəsində namizədlik işini az müddətdə tamamlayıb uğurla müdafiə etdi və bu işi 2008-ci ildə ***"Naxçıvan folkloru: bəşərilik, türklük, regionallıq"*** adlı monoqrafiya şəklində nəşr etdirib folklor tədqiqatçılarının istifadəsinə verdi. Zəngin və tarixi ənənələri olan Naxçıvan folklorunun toplanmasında, ayrıca antologiyalar şəklində nəşr edilərək elmi dövrüyəyə daxil olmasında da Rafiqin əməyi danılmazdır. O, bu sahədə işlədiyi doktorluq işini də tamamlamaq üzrə idi...

***

...Təkcə Naxçıvan elmi-ədəbi mühitində deyil, ümümən Azərbaycan elmi-ədəbiə mühitində özünəməxsus aurası olan filologiya üzrə fəlsəfə doktoru, dosent, AMEA-nın Naxçıvan Bölməsinin əməkdaşı, hamımıza bacı qədər doğma və əziz olan Fərqanə xanım Kazımovanın ölümü *(13.06.2015)* Rafiqi də bir dost, həmkar və şəxsyyət kimi çox mütəəssir etmişdi. Əlindən yazı-pozu işi gələn və Fərqanəyə yaxın olan, onun xatirini əziz tutan hər bir kəsə deyirdi: *"Jurnalımızın (özünün baş redaktor olduğu "Axtarışlar" jurnalının) növbəti sayının böyük bir hissəsini Fərqanə xanım üçün nəzərdə tutmuşam, kimin nəyi var, mənə təqdim etsin"*. Amma, el demişkən, sən saydığını say, gör fələk nə sayır...

***

...Həyatı qəfil qəribəliklərlə dolu olan Rafiqin meyti yuyulmaq üçün Naxçıvan Respublika Xəstəxanasından Naxçıvan şəhərindəki camaat arasında "İran məscidi" adı ilə tanınan məscidə gətiriləndə saat 21-dən 22-ə işləyirdi. Hamının üzündə dərin bir sükut,ağır və üzücü bir kədər vardı. Hər kəs öz içində danışırdı. Elə bil, bununla da hər kəs Rafiqin müqəddəs ruhu qarşısında öz içində hesabat verirdi. Bu dəhşətli sükutu, qəribədir ki, meyit yuyulmağa hazırlanarkən kimsənin gözləmədiyi halda məscid minarələrindən yüksələn axşam əzanının ecazkar və möcüzəli səsi pozdu. Elə bil, hamımız o dünyanı görüb qayıtmış adama dönmüşdük, çaşqın-çaşqın bir-birimizin üzünə baxdıq...

Bu da Allahın bir möcüzəsi idi ki, Rafiqin meyiti Allahın ən sevimli bəndəsinin meyiti kimi əzan sədaları altında yuyulub kəfənləndi...

***

...Bilmirəm, nədənsə, elə o anda Rafiqin yaxın dostu və həm də tələbə yoldaşı olmuş, şair qələmdaşım Zeyqəm Vüqarın yaddaşımda yaşayan bir bənd şeiri dilimə gəldi. Və bu bir bəndi elə sakit, elə kövrək səslə öz-özümə pıçıldadım ki, qoy bu bəndi mələklərdən savayı kimsə eşitməsin:

*Yazın başdaşıma: ömrün etdi pay,*
*Yazın başdaşıma: söz adamıydı.*
*Şairlər Allaha yaxın olurlar,*
*Yazın ki, Allahın öz adamıydı...*

O anda, o dəqiqədə mənə təskinlik üçün Allahın ən böyük bəxşişi olan bu bir bənd məndə bir daha yəqinlik yaratdı ki, doğrudan da əsl şairlər, əsl yazıçılar elə Allahın öz admıdar - rəhmətlik Rafiq Babayev kimi...

***

...Rafiq istək və arzularının çox cüzü hissəsini 2014-ü ildə oxucularina ərmağan etdiyi *"Ölüm mələyi"* adlı dəyərli romanında açıb-ağartsa da, ürəyinin dərin qatlarında qövr edən niskillərini elə ölüm mələyinin qanadlarında özü ilə əbədiyyətə apardı...

Rafiqi o dərdlər, o ağrılar, o qayğılar apardı ki, o dərdləri, o ağrıları, o qayğıları heç kimə, hətta əzəli və əbədi dərddaşı, qəlbdaşı olan kağıza, qələmə də ürəyincə aça bilmədi.

***

...Bilmirəm, bu, kimin sözüdür: *"Bütün dahilər zamanının yetimləri, ariflərsə qəribləridir".*

Mənə elə gəlir ki, türk şairi Kəmaləddin Kamu da yaxşı deyib:

*Mən qürbətdə deyilim,*
*Qürbət mənim içimdə.*

***

*SON SÖZÜN SON ANI:*
*Eh...*
*İnsanlar,*
*Insanlar...*
*Görəsən,*
*bir-birini,*
*bəs,*
*nə vaxt*
*a n l a r?!..*

***P.S. Məndən soruşa bilərlər ki, yazıdan da göründüyü kimi, Rafiq Babayev ağlı kəsəndən ömrünün son anına qədər cəmiyyətin və elmi-ədəbi mühitin qaynar həyatında olub, bəs, necə oldu ki, o, unutqanlığın, biganəliyin qurbanına çevrildi?..***

***Bu sualın cavabını Rafiq Babayevi yaxından tanıyanların öz ixtiyarına buraxıram...***

***30.09.2015.***

## BİR VAQİF DƏ KÖÇ EYLƏDİ DÜNYADAN...

Ədəbi-elmi fikrimizin böyük təəssübkeşi və cəfakeş tədqiqatçısı olan akademik İsa Həbibbəyli istedadlı şair, tarixçi alim, Naxçıvan MR-in Əməkdar mədəniyyət işçisi, Azərbaycan Yazıçılar və Jurnalistər Birliyinin, həmçinin İLESAM-ın *(Türkiyə Elm və Ədəbiyyat Əsəri Sahibləri Məslək Birliyi),* Avrasiya Yazıçılar Birliyinin üzvü Vaqif Məmmədov *(1948, Sədərək - 2016, Bakı)* haqqında yazdığı ***"Sənətində vaqifik"*** adlı məqaləsini bu cümlələrlə başlayır: *"Azərbaycan ədəbiyyatında Molla Pənah Vaqifdən başlayaraq Vaqiflər ədəbi nəsilləri ənənəsi davam etməkdədir. Vaqiflərin demək olar ki, hamısında bənzərsiz sənətkarlıq imkanları, özünəməxsus istedad və ilham, ədəbiyyata, şeirə-sənətə vaqiflik müşahidə olunmaqdadır. ...İstedadlı şair Vaqif Məmmədovun da Molla Pənah Vaqifdən Səmədoğluna qədərki Vaqiflərin sırasında Vaqifliyi bir daha nümayiş etdirmək və təsdiqləmək mənasında öz yeri,mövqeyi və xidmətləri vardır.*

*Hətta şeirimizdəki çoxsaylı Vaqiflər arasında elmi fəaliyyətlə məşğul olan, tarix elmləri namizədi alimlik dərəcəsi qazanan tək Vaqif Məmmədovdur".*

...Mən Vaqif Məmmədovun imzasını yerli mətbuat səhifələrindən hələ ötən əsrin 80-ci illərindən tanısam da, onunla şəxsi tanışlığım 1998-ci ilin iyunundan başladı. O zaman Naxçıvan Dövlət Universitetinə redaktor *(16.10.1996)* təyin olunan, indi AMEA-nın vitse prezidenti, Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, millət vəkili, akademik İsa Həbibbəyli universitetdə çox ciddi quruculuq işlərinə başladı ki, bu işlərdən biri və ən əsası universitetdə müstəqil, müasir tələblərə cavab verən nəşriyyat açmaq işi oldu. Düzdür, universitet həyatını vaxtlı-vaxtında işıqlandıran və 1991-ci ilin oktyabr ayının 15-dən bu sətirlərin müllifinin redaktorluğu ilə nəşr edilən "Fikir" qəzeti (*bu qəzet də birbaşa o vaxt universitetin elmi işləri üzrə prorektoru İsa Həbibbəylinin ciddi nəzarəti altında idi*) çıxırdı. Amma, təbii ki, yeni və həm də inamlı bir inkişaf yoluna çıxmaqda olan universitet üçün ayda bir dəfə nəşr edilən bu qəzetin gücü hər şeyi həll etmək imkanına

malik deyildi. Buna görə də az bir zamanda universitetdə nəşriyyat açıldı və bu nəşriyyat Mirzə Cəlilin əbədi xatirəsinə hörmət əlaməti olaraq "Qeyrət" adlandırıldı. Nəşriyyata direktor vəzifəsinə haqqında yazmağı özümə həmişə borc bildiyim və İsa müəllimin də illərlə yaxından tanıdığı, sənətinə və şəxsiyyətinə yüksək dəyər verdiyi Vaqif Məmmədov təyin olundu və yuxarıda qeyd etdiyim kimi, Vaqiflə şəxsi tanışlığım da o vaxtdan başladı. Sonralar Vaqif mənim haqqımda qələmə aldığı *"Kimin ki, qəlbində Tanrı eşqi var, yaxud, Xanəli Kərimlinin portret cizgiləri"* məqaləsində tanışlığımızın tarixi haqqıda yazacaqdı: *"Xanəli Kərimli imzası ilə qiyabi tanışlığımın 20-25 illik tarixi olsa da, onunla şəxsi tanışlığım 1998-ci ildən başlanıb. Həmin ilin iyun ayının əvvəllərində Naxçıvan Dövlət Unuversitetinin rektoru, akademik (onda professor idi) İsa Həbibbəylinin dəvəti və qayğısı ilə universitetin yeni yaranmış "Qeyrət" nəşriyyatına direktor təyin olunduğum gün iş otağıma ilk dəfə gəlib məni təbrik edən Xanəli Kərimli oldu. Maraqlıdır ki, mən o vaxt onu şəxsən tanımasam da, o, məni tanıyırmış və elə ilk görüşdəcə ən doğma adamı kimi mənimlə əl verib çox mehribancasına görüşdü: "Xoş gəlibsən, qardaş, işində uğurlar arzulayıram!" - dedi... Mən bu səmimi münasibətə görə minnətdarlıq edib onu tanımadığımı bildirəndə bərkdən şaqqa çəkib güldü, gülə-gülə də əlavə etdi ki, bəs şairlər özləri bir-birini tanımayanda kənardan onları kim tanıyacaq?..*

*Beləcə başlandı ilk tanışlığımız..."*

On yeddi illik şəxsi tanışlığımız bizim üçün əbədi tanışlığa, doğmalığa çevrildi. Vaqiflə hər görüşüm şirin bir duyğu kimi indi tarixə dönsə də, taleyimdən, həyatımdan keçən unudulmaz bir xətt kimi yaşayır.

Tale elə gətirdi ki, Vaqiflə mən Hollandiyada, Pakistanda, Türkiyədə, İranda və Vətən daxilində bir sıra Beynəlxalq elmi konfranslarda, ədəbi-mədəni tədbirlərdə həm universitetimizi, həm də geniş mənada Vətənimizi ləyaqətlə təmsil etmişik. Geniş milli düşüncəyə, yüksək əxlaqi-mənəvi dəyərlərə malik olan Vaqifin çox gözəl yol yoldaşlığı vardı. Vaqif çox səbirli, təmkinli, həm də ifallı davranışı ilə mənim üçün də bir

nümunə idi. Köhnə kişilər kimi yaxın və uzaqlığına baxmayaraq, hər bir səfərində ehtiyat üçün yol çörəyi götürərdi və onun götürdüyü çörəyinin şirinliyi, dadı hələ də unudulmaz dad, ləzzət kimi damaqlardan getməyib.

Vaqifdə özünəməxsus bir ağsaqqalyanalıq vardı. Heç vaxtı kimsənin sözünü kəsməz, kimsəyə toxunan,kimsənin ləyaqət və şəxsiyyətini aşağılayan hərəkət etməzdi. Bu da onun, hər şeydən əvvəl, şairliyindən, insan dünyasının sirlərinə bələdliyindən irəli gəlirdi. Vaqif, bəlkə də, yeganə şair, qəlb adamıdır ki, onunla mənim ailə tərbiyəm, ailə mühitim üst-üstə düşürdü. Vaqifin özü də haqqımda yazdığı məqaləsində bu nöqtəyə işarə vurur: *"Hər ikimiz ayrı-ayrı rayonlarda, ucqar kənddə (o, Şahbuz rayonunun Mahmudoba kəndində, mən Sədərək rayonunun Sədərək kəndində) on nəfərik böyük ailədə doğulub, kənddə boya-başa çatmışıq. Hər ikimizin atası Böyük Vətən Müharibəsində ağır döyüş yolu keçib, ikimiz də məktəb illərində ailəyə kömək etmək məcburiyyətində qalmışıq. Hər ikimiz..."* və Vaqif bu kimi oxşalıqların sayını daha da artırır ki, bu da bizim aramızda təkcə şəxsi münasibətlərdə deyil, həm də yaradıcılıq münasibətlərində də özünü göstərirdi. Vaqif mənim, mən Vaqifin yaradıcılığı haqqında məqalələr yazmaqla bərabər, bir-birimizə ithaf şeirlərimiz də az olmayıb...

***

Vaqiflə bağlı bu yazını işləyərkən gördüm ki, çağdaş elmi, ədəbi və ictimai mühitimizdə fəal həyat mövqeyi olan və *"Vaqif Məmmədov"* adı və soyadı ilə tanınan bir sıra soydaşımız var ki, onların hamısı Vətənə, millətə xidmət naminə bir amal, bir qayədə birləşirlər. Vaqif Məmmədovlardan biri texnika elmləri üzrə akademik, biri fizika-riyaziyyat elmləri namizədi, başqa biri kino rəssamı, həm də ssenarist, digər biri rejissor və biri də ssenarist olduğu kimi, mənim dostum və qələmdaşım Vaqif Məmmədov da qeyd etdiyim kimi, şair, tərcüməçı, publisist, tarixçi alim idi. Ədəbi mühitə 13 şeir, elmi dövrüyəyə 12 bir-birindən dəyərli kitab, 100-dən çox elmi-publisist məqalə bəxş edən qələm dostumun gözlənilməz

qəfil ölümü çoxları kimi məni də sarstdı... və bu sarsıntı həzin duyğu kimi ölümündən bir gün sonra *(07.02.2016)* son xatirə şeirinə çevrildi:

*Sən demə,*
*təkcə millətlər, xalqlar deyil,*
*ölülər də qaçqınlıq,*
*köçkünlük həyatı yaşayırmış,*
*Son anda tabutunda*
*o dünyaya ömürlük*
*qəm, kədər daşıyırmış—*
*rəhmətlik Vaqif kimi...*
*Yaman tez qırıldı*
*bir şair ürəyinin sarı tel simi!..*
*Sədərəkdə doğulmuşdu,*
*Sədərəkdə böyümüşdü,*
*Sədərəkdə "döyülmüşdü",*
*Sədərəkdə öyülmüşdü...*

*İlk şeirini,son sözünü*
*Sədərəkdə yazdı...*
*Ancaq... məzarını*
*Bakıda qazdı!..*

*...Atasını Sədərəkdə*
*dəfn etmişdi Vaqif,*
*Qardaşını, anasını Bakıda.*
*O vaxtdan da ağrıyırdı,*
*için-için ağlayırdı*
*Sədərəkdəki ata evinin*
*son kərpici, daşı da...*
*Ğörünür,*
*ana məhəbbəti güc gəldi*
*Sədərək torpağına,*
*ata məzarının*
*acı intizarına!.*

*Basdı ciyərparasını*
*ana isti bağrına...*
*Bununla nöqtə qoydu*
*Sədərəkdə çatılmış*
*bir ümid ocağına!..*
*...Qəribə zamanda yaşayırıq,*
*vallah,qəribə!..*
*Bu zamanda*
*təkcə millətlər,*
*xalqlar deyil,*
*sən demə, ölülər də*
*dönürmüş qəribə..*

***

1968-ci ildə Naxçıvan şəhər pedaqoji məktəbini və 1975-ci ildə Naxçıvan Dövlət Pedaqoji İnstitutunun *(indi universitetinin)* tarix müəllimliyi ixtisasını bitirən Vaqif Məmmədov ömrü boyu əsl vətəndaş ömrü - müəllim və şair ömrü yaşadı. O, doğma Sədərək kənd məktəbində ilk pedaqoji fəaliyyətə sıravi müəllim kimi başladı, az sonra gənc kadr kimi uzun müddət bu mərtəbin direktoru vəzifəsində çalışdı və ömrünü Naxçıvan Dövlət Unuversitetinin müəllimi - dosenti kimi də başa vurdu.

1995-2000-ci illərdə xalqın etimadı ııə Sədərəkdən 1-ci çağırış Naxçıvan MR Ali Məclisinə deputat seçilən Vaqif bu etimadı və etibarı hələ 1990-cı ilin yanvar ayının 18-19-da mənfur erməni faşistlərinin Sədərəyə azğın hücumları zamanı *"müsəlləh bir əsgər kimi"* başladığı bir vətəndaş, müəllim, şair fəaliyyəti ilə qazanmışdı. 1990-1993-cü illər arasında erməni faşistləri Sədərəyə 14 dəfə ağır hücum əməliyyatı keçirdiyi və bu hücumlar zamanı 100-dən çox şəhidin, 500-dən çox yaralının meydana gəldiyi bir vaxtda Vaqifin Sədərəkdə dişi-dırnağı ilə tikdiyi bir müəllim-şair evı öz təkidi ilə Vətən və millət naminə hərbi qərargaha çevrildi, üç ilə yaxın davam edən Sədərək döyüşləri də bu qərərgahdan idarə olunurdu. Təkcə Vaqifin bu fədakarlığı, məncə, onun kimliyi haqqında aydın

təsəvvür yaradır. Sonralar Vaqifin yazıb nəşr etdirdiyi kitablarda - ***“Sədərək şəhidləri” (1998),” Qeyrət qalası” (şeirlər) (1999), Erməni xəyanəti: Naxçıvan” (2000), ”Heydər Əliyev və Sədərək rayonu” (2003), ”Sədərəkdə yazılan gündəlık” (2010)*** 90-cı illər Azərbaycan tarixinin qeyrətli səhifələrindən birin təşkil edən Sədərək hadisələri geniş təfsilatı ilə istər bədii, istərsə də elmi-xronoloji baxımdan öz əksini tapmışdır. Buna görə də Vaqif Məmmədov həm də bir ictimai xadim, əli qələmli Vətən əsgəri kimi yaddaşlarda yaşayan Vətən oğludur.

***

Deyirlər ki, sənətkarlar iki ömür yaşayır: biri sağlığında həm sənətkar ömrü, həm də sıradan *”adi”* insan ömrü - ata ömrü, qardaş ömrü, dost-tanış ömrü və s. Mənim fikrimcə, əsl sənətkarlar dörd ömür yaşayırlar ki, onların ikisi də ölümündən sonrakı ömrlərdir: biri əsərlərinin yaddaşında əbədiləşən ömür, digəri isə onu tanıyan, qəlbində bir ümid, arzu kimi yaşadan sonuncu insanın bu dünyadan köçdüyü ana qədər davam edən ömürdür. Vaqif belə bir çeşidli ömrə layiq olan Allahın əziz bənəsi kimi sələfləri Molla Pənah Vaqifin, Vaqif Səmədoğlunun... ardınca əbədiyyətə qovuşdu.

Beləcə,bir Vaqif də köç eylədi dünyadan!..

Ancaq onun xatirəsi, S.Vurğun demişkən, *“şirin bir xatirə tək qalacaqdır dünyada”* - sevənlərinin və sevdiklərinin əbədi yaddaşında...

Allah sənə rəhmət etsin, əziz qələmdaş dostum, əziz qardaşım!...

***02.04.2016***

# MİLLİ ONOMASTİKAMIZIN FƏDAKAR TƏDQİQATÇISI

Bu gün Azərbaycan dilçiliyində öz imzası, dəsti-xətti olan AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutu Onomalogiya şöbəsinin müdiri, filologiya elmləri doktoru Adil Bağırov ədəbi-elmi mühitə Məmməd Araz, Firudin Hüseynov, İbrahim Bağırov kimi onlarla görkəmli elm və düşüncə adamı bəxş etmiş Şahbuz rayonunun Nursu kəndində doğulmuşdur.

Adil müəllim zəngin yaradıcılığı ilə özlüyündə ayrıca bir məktəb təşkil edən Bağırovlar məktəbinin ən layiqli davamçılarından biridir. Ömrünün 47 ilindən çoxunu müəllim kimi yaşayan və bu gün də gənc nəslin tərbiyəsində səy və bacarağını əsirgəməyən Adil müəllim uzun illər Naxçıvan Müəllimləri Təkmilləşdirmə İnstitutunda, Naxçıvan MR Təhsil Nazirliyində işləmiş, elmin, maarifin, mədəniyyətin daim təbliğatçılarından biri olmuşdur. Adil müəllimin uzun müddət təhsil sahəsində çalışması, ümumtəhsil məktəblərində Azərbaycan dili və ədəbiyyat tədrisi ilə yaxından tanış olmaq imkanı yaratmış, ona böyük həyat təcrübəsi qazandırmışdır. Onun dərs dediyi, vaxtilə əlindən tutub məktəbə, elmə gətirdiyi bir çox adamlar bu gün Azərbaycan təhsilinə, elminə çox böyük ləyaqətlə xidmət edir, respublikanın ictimai-siyasi həyatında fəal iştirak edirlər.

Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini bitirmiş Adil Bağırov müəllimliklə başladığı şərəfli əmək yolunu həm də ciddi elmi tədqiqat işi ilə davam etdirmiş, dilçiliyin müxtəlif sahələrinə dair məqalələr, elmi əsərlər yazmışdır. A.Bağırovun elmi axtarışları və tədqiqat dairəsi çox genişdir. O, elmi axtarışa türk dillərində aktual məsələlərdən biri olan yarımçıq feillərin tədqiqi ilə başlamış, bu mövzuda namizədlik dissertasiyası müdafiə etmişdir.

A.Bağırov təvazökarlığı, sadəliyi ilə fərqlənən bir insandır. O məhsuldar, işgüzar, tədqiqat dairəsi geniş, nəzəri cəhətdən hazırlıqlı, orijinal fikri və mövqeyi olan alimlərimizdəndir.

Elə bu səbəbdən də elmi ictimaiyyət və yaxın dostları Adil Bağırovu ixtisasını yaxşı bilən, hazırlıqlı, dərin elmi təfəkkürə malik insan, işinə məsuliyyətlə yanaşan, bacarlıqlı, istedadlı bir dilçi kimi tanıyır, onun elmi pedaqoji fəaliyyətini yüksək qiymətləndirir. Onun mühazirə və məşğələləri həmişə elmi-nəzəri cəhətdən yüksək səviyyədə keçir, tələbələr tərəfindən böyük diqqət və maraqla qarşılanır.

A.Bağırov həyatsevər, yaradıcılıq zəhmətinə tablaşan, məhsuldar, dilçiliyin müxtəlif sahələrinə cəsarətlə müraciət edən alimlərimizdəndir. Onun elmi tədqiqat dairəsi Azərbaycan müstəqillik əldə etdikdən sonra daha geniş və məhsuldar olmuşdur. O, bu müddətdə doktorluq dissertasiyası müdafiə etmiş, son 20 ildə milli yaddaşımız olan onomastik vahidlərin tədqiqi ilə bağlı ***"Naxçıvanın hidronimləri" (Bakı, 2000), "Naxçıvan toponimlərinin linqvistik xüsusiyətləri" (Bakı, 2002), "Naxçıvan Muxtar Respublikasının onomastik vahidlər sözlüyü" (Bakı, 2003), "Naxçıvanın oykonimləri" (Bakı, 2008), ikicildlik "Onomalogiya problemləri" (Bakı, 2010, 2012) kimi monoqrafiyaları, "Oronimlərin linqvistik xüsusiyyətləri" (Bakı, 2011)*** adlı dərs vəsaitini yüksək səviyyədə işləmiş, ***"Türk dillərinin müqayisəli qrammatikası" (Bakı, 2008), "Türkologiyaya giriş" (Bakı, 2008)*** adlı tədris proqramlarını hazırlamış, ***"Naxçıvanın hikmət xəzinəsindən" (Bakı, 2005, 2007) adlı folklor toplusunu (Kamilə Bağırova və Bəxtiyar Məmmədovla birlikdə)*** oxucuların ixtiyarına vermişdir. 200-dən çox dəyərli elmi məqalənin, ağır zəhmətlər bahasına başa gələn kitab və monoqrafiyaların, ali məktəblərin filologiya fakültələri üçün proqram və dərs vəsaitlərinin müəllifi olan bu zəhmətkeş və təmənnasız insan respublika və xarici ölkələrdə keçirilən bir sıra beynəlxalq elmi konfransların, simpozium və tədbirlərin iştirakçısıdır. Onun 6-cı və 7-ci Uluslararası Türk Dil Qurultaylarında *(2008, 2012),* Bakı, Naxçıvan, Rize, Qars şəhərlərində keçirilən beynəlxalq elmi simpoziumlardakı çıxışları dinləyicilər, elmi ictimaiyyət tərəfindən rəğbətlə qarşılanmışdır. A.Bağırovun

elmi fəaliyyəti, çap etdirdiyi məqalə və monoqrafiyaları onun məhsuldar bir yararadıcılıq yolu keçdiyinə əyani sübutdur.

A.Bağırov bir ziyalı kimi həmişə dilimizin, ədəbiyyatımızın, mədəniyyətimizin mənafeyi keşiyində durmuşdur. O, Naxçıvan Muxtar Respublikası onomastik vahidlərinin tarixi linqvistik cəhətdən öyrənilməsini tədqiqat obyekti seçmiş, müxtəlif mənbələrdə əksini tapan, bu günə qədər gizlidə qalmış adlarımızı araşdırıb üzə çıxarmış, dilçilik süzgəcindən keçirmiş, indiyə qədər olan mülahizələrə öz münasibətini bildirmişdir. Naxçıvan bölgəsindəki onomastik vahidləri sistemli şəkildə öyrənmək, xüsusi adların etimologiyasını açmaq, onları ciddi faktlar əsasında tədqiq edib geniş oxucu kütləsinə, elmi, ədəbi ictimaiyyətə təqdim etmək əsl vətəndaşlıq mövqeyində dayanan bir alimin üzaqgörən fəaliyyətinin bəhrəsidir.

A.Bağırovun tədqiqatçılığını şərtlədirən və bir çox tədqiqatçılardan fərqləndirən ən mühüm iki cəhət var ki, onlardan biri elmi faktlara, digəri isə düşüncə və milli əxlaqa söykənmək bacarığıdır. O, nədən yazırsa-yazsın, ən etibarlı mənbələrə, etibarlı variantlara əsaslanıb yazır. Məsələn, "Dədə Qorqud kitabı"nda adı çəkilən Qaraçuğ yer adıyla bağlı təbii ki, bu çağa qədər Azərbaycan, türk və digər türkdilli xalqların tədqiqlərində müxtəlif yanaşmalar mövcud olmuşdur və bu gün də var. Bu toponimə A.Bağırov, fikrimizcə, tamamilə yeni düşüncə tərzi ilə yanaşaraq, təkzibolunmaz elmi faktlara söykənərək bu nəticəyə gəlir ki, *"Qaraçuğ"* yer adı *"Qara"* və *"çuğ"*, yəni *"çöl, bayır"* mənalarını bildirən sözlərdən yaranmışdır ki, bunun da mənası "Böyük çöl" deməkdir. Müəllif "Dədə Qorqud kitabı"nda Qazan xanla bağlı işlədilən *"Qaraçuğun qaplanı"* ifadəsinə söykənir və haqlı olaraq bu nəticəyə gəlir ki, qaplanlar geniş böyük çöldə yetişir. Bu həm də türklüyün tarixində mühüm rol oynamış *"çöl mədəniyyətinin"* daha bir göstəricisidir. Yaxud da, Bütöv Naxçıvan tarixinin ayrılmaz tərkib hissəsi olan ***"Dağ adları dilin "tarix kitabı"***dır" adlı dəyərli məqaləsində kökü minillərin o üzünə gedib çıxan Qapıcıq, Əlincə, Haçadağ, Soyuqdağ, Nəhəcir, Qazangöldağ, Salvartı, Ağdaban, Darıdağ, Duzdağ,

Keçəldağ, Əshabi-kəhf, Təkəlik, Vəlidağ, Göydağ, Gəlin qayası kimi dağ adlarını da araşdırarkən eyni tarixilik və millilik prinsipinə riayət etmişdir.

Onu da qeyd edək ki, Adil Bağırov haqqında yazan bir çox tanınmış dilçi mütəxəsislər də bu fikirdədirlər ki, tarixilik prinsiplərinin həmişə gözlənilməsi bu tədqiqatçı alimin yaradıcılığının əsas məziyyətlərindən biridir. AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Tofiq Hacıyev A.Bağırov yardıcılığı haqqında belə yazır: *"...Adil Bağırovun əsərini oxuduqca gözlərinin qarşısında Naxçıvanın tarixi və tarixi coğrafiyası canlanır. Aşkarca görürsən ki, bu tarix türkündür, bu coğrafiyada bütün tarix boyu məhz türklər yaşayıblar. Dünya mədəniyyəti, dünya elmi, dünya tarixşünaslığı bunu həqiqət kimi qəbul edir ki, toponimlər torpağın tarixi yaddaşıdır. ...Adil Bağırovun tədqiqatındakı bu qəbildən yüzlərlə Naxçıvan toponimlərindən bir neçəsinə baxmaq da yetər ki, tarixi mənzərəni əyani şəkildə təsəvvür edək, reallığı sənədlərlə qavrayaq. Budur həmin etnotoponimlərin "vəkilləri" - nümunələri olan coğrafi adlar: Kəngərli, Xalxal, Keçili, Türkeş, Bəydilli, Böyükdüz, Xələc, Qazançı, Qarkun, Oğuzdaşı, Cığatay, Biçənək, Qarabağlar, Maxta"* və s.

A.Bağırovun yaradıcılığı çoxşaxəlidir. Qeyd etdiyimiz kimi, Azərbaycan elmi-ictimaiyyəti A.Bağırovu bir dilçi alim kimi tanıyır və qəbul edir. Fikrimizcə, A.Bağırov həm də səriştəli tədqiqat prinsiplərinə malik olan yaxşı bir salnaməçidir. Çünki o, nə yazıbsa, nədən yazırsa, onun kökündə, məğzində bir tarixçilik prinsipi dayanır, kökə, milli dəyər və düşüncəyə bağlılıq durur. Çünki istər dil faktorlarından, istərsə də ayrı-ayrı şəxsiyyətlərin elmi, ədəbi, ictimai fəaliyyətindən yazmaq elə mənsub olduğun Vətənin, millətin tarixindən yazmaq deməkdir. Bu mənada yanaşanda, bəli, A.Bağırov həm də tarixçidir, diqqətəlayiq salnaməçidir.

Onun Naxçıvan maarifçiliyinin inkişafında xidmətləri olan bir sıra qabaqcıl maarif xadimləri haqqındakı araşdırmaları, onların iş təcrübələrini öyrənib yayması bugünkü təhsilimizin inkişafında da müsbət rol oynayır. Xüsusilə, tarixçi alim, ictimaiyyət adamı olan İbrahim Bağırov haqqında

yazdığı ***"İbrahim Bağırov"***, keçmiş SSRİ-nin xalq müəllimi fəxri adını almış İsrafil Şükürovun həyatı və pedaqoji fəaliyyətini əks etdirən ***"Xalq müəllimi İsrafil Şükürov"*** monoqrafiyaları A.Bağırovun elmi yaradıcılığının mühüm tərkib hissəsi kimi diqqəti cəlb edir.

2005-ci ildə kütləvi tirajla nəşr edilən və uzun illərin gərgin, əzablı axtarışlarının nəticəsi kimi oxucuların və folklor araşdırıcılarının diqqət mərkəzində olan ***"Naxçıvanın hikmət xəzinəsindən"*** kitabı Adil Bağırovun xalqla, milli düşüncə və milli dəyərlərimizlə nə qədər bağlılığının aydın bir təzahürüdür. Kitaba ***"Tükənməz el sərvəti"*** adı ilə verdiyi ön sözdə tədqiqatçı yazır: *"40 ilə yaxın Azərbaycan folklorunun Naxçıvan qolu üzrə apardığımız axtarışlar sübut edir ki, dünyanın digər qədim xalqları kimi Azərbaycan xalqının da tarixi keçmişi, dünəni və bu günü şifahi xalq yaradıcılığı nümunələri ilə zəngindir. Bu zənginlik özünü Odlar yurdunun bir parçası olan Naxçıvanda da göstərir. ...Bu yurdda müdrik Ana qoynundan qidalanmaq üçün oymaq-oymaq gəzib, qarşısında diz qatlayıb handan-hana söz gözlədiyimiz nənə və babalarımızla söhbət etdikcə tarixin solmuş səhifələri dilə gəlir, daşa, torpağa hopmuş xalqın taleyi varaqlanır, əsrlər dil açır qərinələr danışır".*

Tədqiqatçı dəqiq və məntiqli müşahidəsində haqlıdır. Doğrudan da, bir xalqın tarixi taleyinin bəzən ən qaranlıq, *"anlaşılmaz"* səhifəsinin açarı o xalqın xalq ədəbiyyatının iki misralıq şerində və ya dörd misralıq bayatısında gizlənib saxlanılır. Bu mənada yanaşanda ***"Naxçıvanın hikmət xəzinəsindən"*** kitabı Naxçıvan tarixinin mənəvi pasportunun bir səhifəsidir. On iki bölmədən ibarət olan bu kitabda həm də bu günə qədər tədqiqatlardan kənarda qalmış bir sıra el sənətkarları haqqında da dəyərli faktlar və tədqiqlər əksini tapmışdır. Etiraf edək ki, Adil Bağırov bu kitabı ilə də özünü zəhmətkeş və bacarıqlı tədqiqatçı kimi bir daha təsdiq etmişdir.

Uzun illərin müşahidəsi göstərir ki, ciddi elmi və bədii əsərlər, özünə daim nəzarət etməyi bacaran xarakterlərin qələmindən çıxır. Çünki ciddi xarakterlər birinci özlərinə, sonra da mühitinə təsir edərək onda varlığını təsdiq edirlər.

Belə adamlarda yaradıcılıq intizamı, yaradıcılıq əxlaqı daha qabarıq üzə çıxır. A.Bağırov həm də bu xüsusiyyətləri nümayiş etdirən örnək bir alimdir. Bu gün A.Bağırov ömrünün və yaradıcılığının barlı-bəhərli illərini - ömrünün 65-ci baharını yaşamaqdadır. O yenə də araşdırır, axtarır və yeni-yeni uğurlar qazanır...

*P.S. Dörd il bundan əvvəl yazdığım və bir neçə yerli mətbuatda, həmçinin Türkiyənin Qars şəhərində nəşr olunan nüfuzlu "Hüryurt" qəzetində yayımlanan bu məqalədən bir vergülü belə dəyişməyə əlim gəlmədi. Ancaq onu əlavə etməyi borc bilirəm ki, Adil iki il bundan əvvəl AMEA-ya növbəti seçkilər zamanı mütləq səs çoxluğu ilə AMEA-nın müxbir üzvü seçildi. Bu uğur Adilin uzun illərin əzablarına qatlaşaraq,iynəylə gor qaza-qaza araya-ərsəyə gətirdiyi zəhmətinin halal bəhrəsi idi.*

*Sağlığında bu fədakar alim, təmənnasız ziyalı hər bir məqaləsi, kitabı, monoqrafiyası ilə elmi mühitimizi,müsbət mənada, nə qədər təəcübləndirirdisə, qəfildən, kimsənin gözləmədiyi halda, bir anın içində 69 yaşının başlanğıcında ayaqüstə, gəzə-gəzə camaatın gözü ğabağında dünyasını dəyişməsi də hamımızı şok vəziyyətə saldı, əbədi, ağır bir təəccüb içində buraxdı...*

*Adil bütöv şəxsiyyət idi. Kimsənin minnətini çəkmədən halal və əxlaqlı ömür yaşadı. Bir oğul, üç qız övladını halal müəllim maaşı ilə kipriyində od qovura-qovura böyütdü, ali təhsil verdi, onları xoşbəxt ailə həyatına qovuşdurdu. Oğlu Elnurun İqtisad elmləri üzrə fəlsəfə doktoru olması üçün ata kimi öz borcunu ləyaqətlə yerinə yetirdi.*

*Adilin ən gözəl cəhətlərindən biri o idi ki, Adil öz-özüylə dil tapmağı bacarırdı. Özü ilə daxili məni arasında bəzən anlaşılmazlıq yarananda ortaq məxrəcə gələ bilirdi. Bu, şəxsiyyət üçün böyük keyfiyyətdir. Çünki özü özü ilə dil tapa bilməyən adam, geniş mənada,bəşəriyyətlə də dil tapa bilməz. Bəlkə də, elə bu keyfiyyətinə görə o vaxtından əvvəl elin, obanın ağsaqqalı statusunu qazanmışdır.*

*Böyük şəxsiyyətlər xalqın canlı mənəviyyat abidələridir, daha dəqiq desək, Vətən içində Vətəndirlər. Biz Vətən sərhədlərini namusumuz kimi qoruduğumuz qədər də Adil Bağırov kimi canlı mənəvi abidələrimizi də qorumağa həmişə, hər zaman borcluyuq!..*

*Və nəhayət:*

*...V.Hüqo Balzakın dəfn mərasimində çıxışı zamanı (20.08.1850-ci il) ölümə də münasibət bildirir və deyir: "...o ölüm ki hamını birləşdirir və hamıya azadlıq gətirir". Bu mənada, Adil də Haqqın dərgahına - azadlığına qovuşdu, öz doğmalarının, əzizlərinin və həsrətini çəkdiklərinin ruhlarına qovuşdu, bir ruhi, mənəvi və ən başlıcası, əbədi rahatlığa qovuşdu... Allah rəhmət eləsin!.*

***"Ədəbiyyat qəzeti",***
***30 aprel 2016-cı il.***

## ÖMÜR DƏ BİR İŞIQDIR

İnsan ömrünün şama bənzədilməsi, heç də, təzə fikir deyil, amma kimsə deməyib ki, insan şam kimidir, yandıqca içi görünür. Haqqında, gecikmiş olsa da, vida sözlərimi, xatirələrimi dəyərli oxucularla bölüşdüyüm geniş ürək, təmkin və səbir sahibi filologiya elmləri doktoru, Azərbaycanın Əməkdar müəllimi, Naxçıvan Dövlət Universitetinin professoru və həmin unuversitetdə iki seçki Pedaqoji fakültənin dekanı, Azərbaycan dili kafedrasının müdiri, universitet Elmi Şurasının və filologiya üzrə ixtisaslaşmış Müdafiə Şurasının üzvü olmuş Sevindik Vəliyev özlüyündə bir saz-söz məktəbi idi. Çünki onun dünyaya gəldiyi ailə bütövlükdə folklor xəzinəsi idi. 1945-ci ildə Şahbuz rayonunun Biçənək kəndində Aşıq İslamın ailəsində dünyaya göz açan Sevindik Vəiyev böyük qardaşı, bü-tün mahalın toy şənliklərini yola salan, sənətinin ustadlığına görə bir sıra təltiflərə layiq görülən Hidayətin döşündə sazı, böyük bacısı Sərfinazın dilində sözü görəndə onda da saza-sözə köklü bağlantı yarandı. Sevindiyin sazı dillındirən, onun ruhunu sərin su kimi saz eşqi ilə, söz həsrətiylə qovrulan könüllərə səpən şirin barmaqları var ki, bu barmaqlar *"hər pərdədə min əsrar"* açırdı.

Saza, sözə bağlılığın nəticəsi idi ki, bir dəfə universitetdə keçirilən tədbirlərin birində bilmirəmsə,nədənsə, söz tar-

dan, sazdan düşmüşdü, onda Sevindik müəllim yaxşı bir söz dedi. Dedi ki, Azərbaycanda 30-cu illərin bolşevik ab-havası tara mənfi münasibət bildirməkdə əsas səbəb tarın *"yad"* bir musiqi aləti kimi musiqimizə sonradan gəlməsini bəhanə edirdilərsə, bu bəhanəni milli musiqi alətimiz olan saza gətirə bilmədilər. Çünki saz xalqımızın ruhuna elə hopub ki, onu heç bir qüvvə bu xalqın ruhundan çıxara bilməz və çıxara da bilmədi.

Bu, tamamilə doğru fikir idi ki, həmin fikri də yalnız Sevindik kimi sazın böyüklüyünü duyan, onu varlığına hopdura-hopdura dərk edənlər deyə bilərdilər...

Mən Sevindik müəllimi lap gəncliyimdən - 1973-cü ildən tanıyırdım. Sevindik hələ o vaxtlar, yəni iyirmi səkkiz yaşlı bu gənc ikən Biçənək kənd məktəbinin direktoru, kəndin və rayonun sayılıb seçilən admlarından idi. Ovaxtki Lenin adına APİ-nin filologiya fakültəsini qiyabi yolla bitirən Sevindik müəllim sonra elmi iş dalınca getdı və uzun illərin əzablı, çətin yollarından keçərək kənd müəlliyimliyindən filologiya elmlər doktoru və Naxçıvan Dövlət Universitetinin professoru səviyyəsinə qədər uğrlu bir yol keçdi.

Sevindik müəllim həyatın və zamanın nəbzini tutan adam idi. Harada, nə vaxt və necə davranmağı onun həyat kredosu idi. Ona görə də o, çoxlarının qəlbinə yol tapmağı, onları şər xisləttdən, insanlığa, dostluğa xələl gətirəcək əməllərdən uzaqlaşdırmağı bacarırdı.

2001-ci ilin may ayının 15-i idi. Saat 18 radələrində Elmi Şuradan təzəçə çımışdıq ki, İsa müəllim *(o vaxt universitetin rektoru)* mənə tapşırıq verdi ki, sabah Sevindik müəllimlə Vana gedərsən. Van 100-cü il Universitetində may ayının 17-18-də "Quran və dil" adlı Beynəlxalq simpoziuma Azərbaycandan iki alim dəvət etmişdilər ki, onun biri Sevindik müəllim idi. Səhər Vana yola düşdük. Doğru deyirlər ki, insanı yoldaşlıqda, yolçuluqda tanıyarlar. Sevindik müəllimin səmimiyyəti, yoldaşlığı onu mənə daha da yaxından tanıtdı. Simpoziumdakı çıxışı, növbəti iclasların birinə sədrlik etməsi məndə unudulmaz və xoş təəssürat yaratdı.

Bu səfərdən yadımda çox şeylər qalsa da, məni və simpozium iştirakçılarının da diqqətini çəkən son qonaqlama tədbirində Sevindik müəllimin çıxışı oldu. Sevindik müəllim çıxışını öz yaradıcılığının məhsulu olan bir bəndlik şeiri ilə bitirməsi alqışlarla qarşılandı:

*Burası Vandı,*
*Yolu rəvandı.*
*Qonaqlar gedir,*
*Van pərişandı.*

Etiraf edim ki, bu bəndin doğurduğu emosional təsirdən kövrələnənlər də az olmadı. Cünki Sevindik həmişə olduğu kimi, o anda da həmsöhbətlərinin qəlbinə yol tapmağı bacarmışdı.

2005-ci il iyunun 23-də universitet rəhbərliyinin təşəbbüsü ilə Sevindik Vəliyevin 60 illik yubileyi çox təntənəli şəkildə keçirildi. Cünki universitetin rektoru, akademik, özlüyündə bütöv bir təşkilatçı və elm məkəbi olan İsa Həbibbəylinin təbirincə desək, bu, Sevindik müəllimin mənəvi haqqı idi. Universitetin inkişafında, gənc nəslin formalaşmasında Sevindik müəllimin də fəaliyyəti az deyildi. Hər kəsin fəaliyyətini bütün yön və istiqamətlərdən zərgər dəqiqliyi ilə qiymətləndirən və hər kəsə də layiq olduğu dəyəri verməyi bacaran rektorumuz Sevindik müəllimə həmişə müsbət münasibət göstərirdi ki, bu təntənəli yubiley tədbiri də elə o münasibətin göstəricisi idi.

Tədbiri giriş sözü ilə açan rektorumuz İsa Həbibbəyli yubiliyar haqqında çox elmi və hərtərərli məlumat verdi və qeyd etdi ki, Sevindik Vəliyev, mən bunu uzun illərin müşahidəsinə əsaslanıb deyirəm, dostluğa səaqətdə, etibarda barmaqla sayılacaq qədər az tapılan insanlardandır, xüsusilə indiki zamanda Sevindik müəllim kimi insanlara hamımızın bəlkə də hava kimi, su kimi ehtiyacımız var.

Yubiley mərasimində Sevindik müəllimin öz arzusu ilə mən *"Filologiya elmlər doktoru, professor Sevindik Vəliyevin ömür*

*yolu, elmi və pedaqoji fəaliyyəti"* adlı məruzə etdim. Məruzə zamanı dedim ki, Sevidik atalı-analı böyüsə də həyatda, elmdə, ictimai mühitdə, şəxsi həyatında nə qazanıbsa, hamısını dişiylə, dırnağıyla, əzab çəkə-çəkə qaznıb. Mən bu ifadəni gəlişi gözəl söz kmi demirdim, Sevindiyin keçdiyi ehtiyac dolu əzablı günlərinə bələd olduğum üçün deyirdim. Sevindik müəllim maddi sıxıntılar ucundan orta məktəbin gündüz - davamlı şöbəsini deyil, gecə şöbəsini bitirmiş, sonra, FZO-da, indiki anlamda, texniki-peşə məktəbindində təhsil almışdı. Ailəsini maddi cəhətdən sıxıntıya salmasın deyə, öz çörəyini özü qazanmağa məcbur olmuşdu. Bəlkə də, Sevindik *"həyatın dibindən"* gəldiyi üçün idi ki, gələcək həyatını çox ayıq başla,ayiq düşüncə ilə qura bildi və sayılıb-seçiən Sevindik müəllim oldu.

Sevindiyi yaxından tanıyanlar,onunla səfərdə olanlar da haqq üçün etiraf edərlər ki, Sevindik çörəkli kişiydi, dost üzünə, hətta onu sevməyənlərin də üzünə, süfrəsi həmişə açıq idi. Çünki o, yaşamağın və yaşatmağın düsturunu yaxşı bilirdi...

Çoxdan tarixə qovuşmuş yubiley tədbirində ədəbiyyat kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Yavuz Axundlu, AMEA-nın Naxçıvan Bölməsinin sədri akademik İsmayıl Hacıyev, Naxçıvan Özəl Universitetinin rektoru, pedaqoji elmlər doktoru İsmayıl Əliyev, indi haqq dünyasına qovuşmuşlardan pedaqogika və psixologiya kafedrasının müdiri, pedaqoji elmlər namizədi, dosent Nəriman Orucəliyev, Naxçıvan Müəllimlər İnstitutunun direktoru, fizika-riyaziyyat elmləri namizədi, dosent Sadıq Vəliyev... kimi elm adamları da çıxış edib Sevindik müəllim haqqında ürək sözlərini dedilər.

Sevindik müəllim xalqın bağrından sıyrılan əsl el adamıydı, xalq adət- ənənələrini ruhunda, canında daşıyan ziyalı idi. Əgər muxtar respublikadakı və respublikadan kənardakı dost-tanışlarının, qohum-əqrabalarının toy şənliklərində çəkilmiş videolentlərin yaddaşından Sevindik müəllimin təbriklərini, saz çalıb oxumalarını, şeir demələrini, bir çox dost

toylarındakı tamadalığını... bir araya gətirmək mümkün olsaydı, onda onun nə qədər böyük ürək sahibi olduğunun bir daha şahidinə çevrilərdik.

***

Hamı kimi Sevindik Vəliyev də Allahın verdiyi ömür payını yaşadı və 2014-cü ilin may ayında... 69 yaşında Haqq dünyasına qovuşdu. O da hamı kimi, bu simic, əli bərk, üzü dönük, ətəyi dolu, gözü ac dünyadan maddi olaraq heç nə aparmadı, əksinə, dünyaya görk olsun deyə, özündən sonrakı nəslə örnək olan bir çox müsbət mənəvi dəyərlər qoyub getdi ki, onların da başınında İNSANlLIQ dayanır. Bu adın şərhinə heç bi ehtiyac yoxdur...

***

Hər insan ömrü bir işıqdır.Bu işıqlardan bəzisi bir komanın, bəzisi bir elin, bəzisi bir xalqın, millətin, bəzisi də bəşəriyyətin könül dünyasının nuruna çevrilir, əbədi yaşarlı olur. Qoy insanlığın işığı Günəş kimi sönməz və yaşarlı olsun! Amin!..

***27-28.04.2016***

**Гусейн Адыгезалов,**
*доктор философии по филологии*
*Нахчыванский Государственный Университет*

# МОРАЛЬНО-НРАВСТВЕННАЯ НАПРАВЛЕННОСТЬ ПОЭТИКИ ХАНАЛИ КЕРИМЛИ
# THE MORAL DIRECTIONS OF KHANALI KAZIMLI'S POETICS

**Huseyn Adigozalov**
*doctor of philology*
*Nakhchivan State University, Azerbaijan*

***In the article the poetic creativity of Khanali Kazimli who was a well-known representative in Nakhchivan literary environment was investigated. The moral directions of the poetic world of Khanali Kazimli, focusing to the development features of Azerbaijan poetry in the modern era on the basis of his " the light of moon(1998)", "Letter from my mother(2001)", "It is a tale(2004)", "It seems to me that(2008)", "Autumn feelings(2013)", which are from the collection of poems, on the basis of translation, to Russian languages of R.Qapharov and J.lovkovon. It is motivated that the unique poetics of Khanali Kazimli reflects development features of modern Azerbaijan poetry.***

Наблюдая современную азербайджанскую поэзию, можно делать выводы о жизни наших братьев, какие мысли их волнуют, какие у них мечты, какие у них заботы, печали и радости… Необходимо подчеркнуть, что и тематика современной азербайджанской поэзии очень разно-

образна: во многих стихах затрагивается общая боль азербайджанского народа – тема Карабаха, также воспеваются красота природы, прекрасные человеческие качества, любовь к Родине, к матери, к ребенку, к земле. И, конечно же, самой главной темой поэзии является отражение души человека, ее стра-дания и поиски, ее стремление познать себя, свою сущность, значимость человеческой жизни. В современный период одной из главных особенностей поэзии является ее верность традициям устного народного творчества, их развитие в новых условиях. Именно это обусловило содержательность, поэтичность современной азербайджанской поэзии, опиравшейся на фольклор, способствовало решению важнейших проблем на высоком художественном уровне, верному отображению духовного мира наших современников *[1].*

Художественное воплощение духовно-нравственных проблем в современной азербайджанской поэзии занимает особое место. Основу активного отношения к духовно-нравственным ценностям обуславливает исторически сильное обращение к проблеме в азербайджанской литературе. Необходимо отметить, что воплощение духовно-нравственных проблем в классической поэзии очень часто реализуется на фоне художественных об-разцов дидактического характера. В современный же период поэтическое воплощение духовно-нравственных ценностей требует своеобразного подхода, что не должно быть упущено из виду в отношении к литературному наследию.

Творчество поэта Ханали Керимли, о котором поведем речь, также составляет стержневую линию и своеобразно характеризует путь развития данной поэзии в морально-нравственном направлении. Фактически это наше второе обращение к творчеству Нахчыванского стихотворца. В статье ***«Постижение выси»*** *(2)* автор этих строк, характеризуя поэтический творческий путь Ханали Керимли в основном на основе его последнего к тому времени сборника стихов ***«Мне так мнится...»*** **(*2008*)**, пытался разобраться

в вопросах, волнующих наверняка многих его читателей: *«Чем же конкретно привлекательно художественное слово Ханали Керимли? Какие авторские мысли и чувствования оно выражает?»*. И так определил основную черту творчества поэта: *«Ханали Керимли настойчиво доносит до читателя ту сентенцию, что от осмысления собственного бытия каждым гражданином зависит в конечном итоге не только, его, гражданина, личное нравственное здоровье, но и моральное состояние всей нации» [2, с. 103].* А в настоящей статье ставим себе цель рассмотреть поэтическое мастерство поэта в морально-нравственном направлении, необходимом для всех граждан в период независимого Азербайджана.

Как и в прежних периодах творчества поэта, в написанных и в последние годы стихотворениях в обширном виде духовно-нравственные проблемы нашли свое воплощение в его творчестве. ***«Жизнь вершины», «Мечта поэта», «Я – вопрос времени», «Бесцельно жить», «Равнодушие», «Желание», «Молитва», «Боль», «В безумии - свобода», «Скорбная песня», «Кто мы?..»*** и другие поэтические образцы были написаны в духовно-нравственном ключе. Так, поэт в своем стихотворении ***«Элегия»***, посвященном народному поэту Азербайджана, певцу свободы Халилу Рзе, акцентируя внимание на том, что честная жизнь представляет собой самую счастливую жизнь, таким образом обобщает свои выводы:

*Ты голосом эпохи барабанной был,*
*Ты мыслью о свободе долгожданной жил,*
*Кричащей совестью Азербайджана был…*
*И в этом смысл, Халил Рза.*

*Ты Родиной был для народа своего,*
*Ты зрящим оком был для народа своего,*
*По воле Господа благословил его…*
*И в этом смысл, Халил Рза.*

***(пер. Инессы Ловковой)[3, с. 23-24]***

Несколько меньше по объему стихотворение ***«Кто мы?..»*** представляет собой одно из наиболее ценных образцов современной азербайджанской поэзии, посвященных духовно-нравственным проблемам. Стихотворения, написанные поэтом на эту тему, характерны и с точки зрения отображения живой картины нашего современного времени. По соображениям стихотворца, духовное совершенство и нравственная чистота должны относиться к качествам, достаточно ценимым каждым человеком. Человек, у которого духовность и нравственность совершенны, в то же время, должен уметь прививать эти качества и другим. Ответственность человека за свои действия должна находиться в основе его совершенствования.

Впрочем, давно уже утверждено, что признак духовного родства с Аллахом – это способность творить, что дано Всевышним только избранным людям, способным творить ради цельности и нравственности характеров земных обитателей – своих современников и, наверное, будущих поколений. Талантливый представитель современной азербайджанской поэзии, выходец из Нахчыванской литературной среды, поэт Ханали Керимли выделяется среди мастеров художественного слова своим оригинальным образом мышления, сознательным и ответственным отношением к поэзии. Его прежде всего отличает чуткое отношение к слову, стремление искать все новый смысл и значение в слове. Он высоко ценит значение и мудрость каждого употребляемого им слова.

Для широких читательских масс отметим, что на поэтическую стезю Ханали Керимли вступил еще в пору школьничества, однако официальной датой начала его творческой биографии считается год 1983-й, когда в журнале «Азербайджан» появилось первое опубликованное произведение стихотворца – «Беседа с матерью». Ко времени же написания настоящей статьи Ханали Керимли успел выпустить целых пять сборников стихов – ***«В лунном свете» (1998), «Письмо от матери» (2001), «Еще одна***

***сказка» (2004), «Мне так мнится...» (2008),*** и, наконец, ***«Осенние чувства» (2013).*** Следует напомнить, что если азербайджанскому читателю поэзия Ханали Керимли известна по выше перечисленным сборникам его стихов, то русскоязычные любители поэзии могут судить о ней по подборкам, опубликованным в журнале «Литературный Азербайджан» *(№№ 4, 12 за 2013 г. №№ 4, 6 2016 г.),* в переводах Ровшэна Кафарова и Инессы Ловковой.

О поэтической музе Ханали Керимли написано немало. Из литературы этой следует особо отметить статьи академика И.А.Габиббейли, доктора филологических наук, профессора М.Гаджиевой, доктора философских наук, профессора Дж.Мустафаева и многих других. В работах перечисленных авторов подробно исследуется все аспекты творчества нахчыванского поэта – от идейных предпосылок до индивидуально-стилевых особенностей. Также были изданы о его творчестве труды, содержащие литературно-критические статьи и рецензии на поэтические сборники литературоведов и соратников пера: ***«Письмо поэту» (2010), «Алинджинская крепость слова» (2011),*** где вынесены самые разнообразные оценки его поэтике.

Особую значимость в определении места и значения творчества нашего современника представляет монография доктора филологических наук Сабира Баширова ***«Ханали Керили: Сказка одной жизни. Литературный портрет» (2013),*** где литературовед в предисловии к монографии следующим образом сформулировал литературную стезю поэта: «*Во всех проявлениях стихи и личность, в особенности богатый нравственный мир Ханали Керимли логически дополняют друг друга. Даже явно выраженная гражданская позиция в его творчестве, выполняет такую же предопределяющую миссию в определении характера поэта и его отношения к обще-ственной жизни» [4, с. 6].*

Действительно для Ханали Керимли «*слово является самым неиссяка-емым источником энергии, и нет никакой*

*другой силы, заменяющей мощи его влияния» [5, с. 65].* Потому что каждое стихотворение, созданное в творческой лаборатории поэта, питается народным языком, поэт, мастерски применяя богатые и изящные художественно-выразительные средства родного азербайджанского языка, привносит к стиху новый смысл, новый оттенок и новую краску. Именно поэтому можно считать, что Ханали Керимли является агитатором и выразителем народного языка, отличающегося особенным поэтическим звучанием и богатыми художественно-изобразительными средствами.

Показательно и отношение поэта к средству своего искусства. Слово для него есть некая священная субстанция, в которой прозреваем самый Господь:

*Я тебя как Бога истово страшусь,*
*Ведь единосущны Слово и Господь.*
*Слово – свет небесный, людям данный в дар,*
*С духом плоть в нем слиты и с лицом – испод.*

***(пер. Р.Кафарова) [2, с. 106]***

Поэт, владеющий своеобразным языком и стилем, образом художественного мышления в современной азербайджанской поэзии, он *«ищет себя в своем внутреннем мире и духе своих творений, в пламенной души, в чутком, беспокойном, неустанно бьюшемся сердце» [6].* Читатель убеждается в том, что свои стихи он создает на чистом азербайджанском языке. Его слова – это слова, идущие из сердца народа. Его стихи так же, как и народные слова и пословицы, столь же убедительны, его изречения отшлифованы и отполированы, и поэтому они очаровывают читателей, находя путь в их сердца и становясь популярными. Он высоко оценивает призвание поэта, наверное каждый истинный поэт, честно проходящий свой путь, непременно задумывается над вопросом, чему он должен служить? Чуткий и беспокойный Ханали Керимли долго

размышлял над этим вопросом, пытаясь найти ответа на интересующегося многих вопроса: **«*Поэт – кто?*»** и ответ выразил в следущем стихотворении:

*Поэт, ты должен истине служить*
*Стихом, рожденным вдохновеньем,*
*Поэт по совести обязан жить*
*И правду не делить на звенья.*

*Себе и правде должен верным быть,*
*Добром та правда отзовется,*
*Очаг хранить, как знак судьбы*
*В нем истина огнем взовьется.*

***(пер. Инессы Ловковой) [3, с. 20]***

Таким образом, во многих стихах поэт решает нравственные проблемы, призывая к личной ответственности перед народом и обществом. Последовательно знакомясь с керимлинским творчеством, мы имеем возможность видеть в динамике этапы не только профессионального, но, что более важно, нравственного развития автора. Однако есть фундаментальные вещи, которым в мастере – подлинном рыцаре духа должно во все его дни оставаться неизменными. В числе таковых понимание им своего ремесла как духовного служения:

*Поэт – приспешник правды суть,*
*А правды путь – тернистый путь.*
*Самоотверженцев стезя –*
*Родной отчизны истый путь.*

***(пер. В.Кафарова) [2, с. 104]***

Воспевание высоких духовных ценностей нашего народа в многолетнем литературном творчестве Ханали Керимли составляет одну из ярких страниц азербайджанской поэзии конца XX – начала XXI столетия. Исходя из

этого, всецело можно согласиться с оценкой академика Исы Габиббейли, констатирующего, что *«Ханали Керимли – первостепенный из гражданских лириков азербайджанской поэзии нового времени» [7, с. 579].* Эти строки важны для нас не только оценкой творчества поэта, но и выраженной в них мыслью о том, что составляло в глазах академика основную сущность поэзии представителя Нахчыванской литературной среды, залога ее роста и процветания в системе современной азербайджанской поэзии.

По убеждению Ханали Керимли, точно так же, как в каждом слове явит себя Всевышний, в каждом произведении поэта всецело выражена его, поэта, суть. И в этом смысле в лице нахчыванского стихотворца мы имеем счастливое двуединство красоты и силы – красоты поэтической музы и силы человеческого духа. В этом отношении поэт всецело реализовывал свой духовный потенциал, отдавая людям плоды своего творчества. Поэтому имя замечательного человека, кандинтата филологических наук, поэта, публициста, автора пяти сборников стихов, истинного патриота Азербайджана и своей малой родины – дорогой его сердцу Нахчывана – Ханали Аббасали оглы Керимли не нуждается в особом представлении поклонникам азербайджанской поэзии современности.

Он родился в 1951 году в селе Махмудоба Шахбузского района. Здесь не только духовные, но и земные его корни, тут жили его родители, деды и прадеды, прошли его детство и юность. Природа родного села и величавые горы Шахбуза сформировали характер и выбор будущей профессии. «Родная природа и горы, окружающие населенные пункты района, в моей судьбе означали все: я научился жить и расти в соприкасании с родной природой, с малых лет приобщился к земле, над которой крепко держались горы, почувствовал теплоты лучи солнца, рано утром заглянувшегося из-за гор, озаряя всю окрестность, заряжая природу и здешних людей сильной бесконечной энергией, секреты жизни узнал в щедрой природе рань-

ше, чем начал читать и мыслить, умел сочувственно общаться с горной тропой, скалами, журавлиными ручьями прежде, чем говорить с людьми, встречающимися мне в разные периоды моей жизни, вникал в мудрость здешних природных картин до того, как черпал знания в книгах, раньше учителей первыми моими наставниками были мои родители, в каждом слове которых таилась народная мудрость, сохранившаяся испокон веков, формирующая настоящего гражданина» - не раз вспоминает он в беседе с близкими. С детства поэт впитал в себя соки родной земли, ее ауру, ее неповторимую природу, прикрасы, ее дух, ее соль, ее нравственность.

Образы мира, преломившиеся в призме авторской души, предстают у Ханали Керимли неизменно опоэтизированными, даже самые, казалось бы, обыденные и непримечательные. После учебы в школе Ханали Керимли поступает в педагогический институт в Баку, избирая священную профессию учителя, там же начинал заниматься первым литературным творчеством под влиянием своих педагогов и замечательных поэтов. С отличием окончив высшее учебное заведение, всю свою жизнь посвятил воспитанию подростающего поколения, стал ученым, стремящимся подготовить своих подопечных в духе высокой нравственности, полноценного гражданина своего Отечества.

Ханали Керимли – поэт из провинции, из Шахбузского района Нахчыванской АР. Видимо поэтому так сильны в его творчестве мотивы любви к родной природе и к отчему краю. Безыскусные, без всяких формальных изысков, стихи его трогают за душу, заставляют сопереживать, напоминают о каком-то первозданном чувстве подлинности. Проницательный читатель сразу ощущает, что у него нет никакого желания следить за рифмами или иными экспериментами формы ради благозвучания поэтического образца. Во-первых, потому, что среди его стихов таковых нет, а во-вторых, содержание написанных

им стихотворений насколько глубоко и жизненно, что способ их воплощения ощущается как второстепенный элемент. Поэт выступает вдохновенным певцом прекрасного в человеке и природе, в то же время чутко подмечая все негативное и порочное:

*Высотой быть – вот уж истая беда,*
*Выси – туч исконно грозовых приют.*
*Меж собой высоты не в ладах всегда,*
*Каждый миг подвоха друг от дружки ждут.*

***(пер. Р.Кафарова) [2, с. 104]***

В этом отрывке ясно просматривается этическое кредо, нравственный идеал автора, отрицающие возможность его самоизоляции от общественных нужд и чаяний. Ко всем явлениям жизни Ханали Керимли относится с позиций ее, жизни, преобразователя, умудрнного учителя, наставляющего человеческие души в добре, справедливости и гражданской доблести.

Ханали Керимли начал писать стихи еще в юности, но сборники его стихов начали выходить на суждение читателей значительно позже, в преклонном возрасте поэта. Имея в виду это, я как-то задал ему вопрос, почему вы надолго замолчали? Задумавшись, он выложил буквально следующее: «*Я могу писать только о том, что мне близко и дорого, чего жаль, что хочется спасти в памяти. И я душу отдал этому, я кружу возле одного и того же, мне нравится подольше жить с тем, что хочется удержать*». А позднее появление сборников своих стихов объяснил тем, что «*Чувствуя огромную ответственность выйти на встречу с читателями, я колебался сильно, оно заставляло меня размышлять долго, а набравшись опыта, не мог оставаться в стороне*», что отчетливо характеризует весь пройденный творческий путь поэта.

Определяющее все его творчество качество – это синтез высочайшей стихотворной культуры с проницатель-

ностью проговорок о себе. Ханали Керимли отмечает: *«Я работаю над стихотворением до той поры, пока слова не взбунтуются против меня. Как почувствую, что они стали утаивать от меня свои эмоции и краски, тотчас откладываю перо и занимаю себя другими делами… Недопустимо насилие над словом, должно пребывать с ним в согласии...» [8, с. 10].*

Если обобщенно охарактеризовать весь поэтический потенциал Ханали Керимли, то в ум критика приходит следующие мысли. Поэт, как правило, обращается к внутреннему миру, духовной составляющей жизни человека. Думы и переживания лирического героя, его сокровенные чувства, оценки происходящего вокруг составляют содержание практически всех его сочинений. Смышленные читатели постепенно замечают, что каждый очередной сборник заметно отличается от прежнего тем, что помимо лирического напора появляется размеренно-осмысленное философское понимание, что способствует стихам быть более стремительными в интонационном отношении и более вескими по смыслу. Читатель явно ощущает, что авторскую манеру отличает сюжетность, наличие жизненно-бытовых эпизодов.

Чтобы почувствовать поэта, надо услышать биение его сердца. В стихотворении ***«Флаг»*** все пропущено через себя. С какой нежностью и гордостью, с каким восторгом звучат его поэтические интонации, когда поэт обращается к государственному флагу! Хочется полностью привести стихотворение, посвященное трехцветному государственному флагу независимого Азербайджана. Примечательно, что если в начале XX века Мухаммед Хади горько сетовал по поводу того, что *«Свои вписали имена народы в Книгу жизни, / Нет имени средь них народа моего»*, то в конце этого же века его земляк-преемник Ханали Керимли имеет уже все основания гордиться независимостью своей страны. В стихотворении ***«Флаг Азербайджана»*** поэт вдохновенно воспевает ее государственный символ:

*Под сенью двух святынь*
*Я шествую по жизни:*
*Аллаха длань – одна,*
*Другая – флаг Отчизны.*

*Цвета Земли и Неба*
*На знамени моем,*
*Страны огней свободной*
*Дух воплотился в нем.*

*Того, кто мной от рабских*
*Избавлен был колод,*
*Приветствуя сегодня,*
*В почтенье мир встает.*
*Когда он гордо реет*
*Среди флагов прочих стран,*
*Средь всех – его возвышен*
*Земли бывает сан.*

*Он мне в чужой сторонке*
*Родного слова мед,*
*Мой кров, моя опора,*
*Мой – край и мой – народ!*

*Зачатый в битвах грозных,*
*День нынешний наш – благ.*
*Всем флагам флаг вовеки*
*Азербайджанский флаг!*

***(пер. В.Кафарова) [2, с. 107]***

Невольно думается, что только горячо любящий родину человек мог написать такие строки о своей стране, которые можно отнести к гимну. Обращенный к согражданам призыв к борьбе за упрочение государственного суверенитета Азербайджана своеобразным лейтмотивом проходит через все творчество Ханали Керимли. Доста-

точно в данной связи назвать такие произведения поэта, как ***«Азербайджан», «Беседа с дочерью», «Бесцельно жить», «Ящерный нрав», «Целостность», «Боль»*** и др., которые отличают зрелость политической мысли, идейная глубина и художественная состоятельность.

Ханали Керимли из тех поэтов, для которых боль родной земли является их личной болью. Черный январь, Ходжалинская трагедия – устами мучеников-шехидов поэт в стихотворении ***«Боль»*** разражается страстной отповедью по адресу тех из своих соотечественников, которых беды Родины не сотрясают до основ души:

*Народ, который сам с собой сызвеку в розни пребывает*
*И тем сызвеку ж сам себя с упорством диким избывает;*
*Народ, по-детски не способный врага от друга отличить*
*И, бед своих познав причину, сей корень зла искоренить;*
*Народ, чьим сахаром – горчица,*
*Что славой древней не гордится,*
*За край свой умереть боится*
*И край сплотить тот не стремится, –*
*Жизнь за такой отдать – грешно,*
*В родстве с ним состоять – грешно*
*И вместе с ним страдать – грешно!*

***(пер. Р.Кафарова) [2, с. 107]***

Благородной скорбью исполнена лирика поэта, посвященная лихолетью 1990-х годов, когда даже перед лицом смертельной для нашего государства опасности его политические лидеры были озабочены исключительно лишь борьбой за власть:

*Азербайджан – иссохшая от скорби мать,*
*С душой раскроенной былая мира стать.*
*Азербайджан – и боль моя, и благодать.*
*...Былые раны у меня день ото дня всё злей свербят,*
*Напоминая чем-то мне разрывы боевых гранат.*

*Азербайджан, спокон веков манил врагов твой светлый кров,*
*Кровь – накануне, нынче – кровь...*
*Сыскать ли на тебе хоть пядь, где б не легла шехидов рать?!*

**(Там же)**

Размышляя о поэтическом мастерстве Ханали Керимли, неизбежно вспоминаешь события 80-90-х годов прошлого столетия, когда армянские дашнаки навязали войну против Азербайджана, которая сопровождалась захватом одной пятой части наших территорий, изгнанием с родных очагов более одного миллиона человека, массовым уничтожением не только людей – детей, женщин, стариков, но и наших культурных и материальных ценностей. Во многих стихах поэта выражена боль азербайджанского народа в последствии причиненной ему трагедии со стороны армянских бандформирований в покровительстве ведущих стран мира, которые никак не хотят понять суть происходящих событий. Поэт с болью в сердце говорит о постоянном вероломстве армян, покушающихся на азербайджанские территории, хотя в 1994 году при посредничестве ОБСЕ было подписано перемирие, положившее конец активным боевым действиям в регионе, но оставившее Нагорный Карабах и окружающие его районы Азербайджана под контролем армян, ООН приняло 4 резолюции о безотлагательном освобождении армянской стороной захваченные азербайджанские земли. В последние годы произошло несколько серьезных вооруженных столкновений на линии соприкосновения сторон, продолжающихся и в наши дни – 2-4 апреля сего года. В стихотворении «Скорбная песня», посвященном светлой памяти капитана азербайджанской национальной армии Джейхуна Оруджалиева, поэт обобщает боль не только матерей шехидов, но и всего народа, называя осознанную смерть шехидов бессмертием. Чтя память всех шехидов, павших героической смертью за независимость Азербай-

джана и его территориальную целостность, приводим его полностью:

*Ты стал шехидом Родины боец,*
*Полив обильно кровью алой землю,*
*Бессмертью, попирающему смерть,*
*Флаг Родины, слагая песню, внемлет.*

*Флаг обернулся саваном твоим,*
*У духа твоего он черпал силу,*
*Тебя с Отчизной навсегда сроднив,*
*Для матери не уберег он сына.*

*Ты защищал страну свою, ты был*
*Ее опрой и ее порукой,*
*На поле брани голову сложив,*
*Ты стал шехидом с самой той минуты.*

*И кровь твоя смешалась с кровью тех,*
*Кто жизни отдал за Отчизну прежде,*
*И свет всех героических сердец*
*Взметнулся жертвенным огнем надежды.*

***(пер. И.Ловковой) [2, с. 110]***

В этих строчках чувствуются и острота зрения, и лирическая глубина, и размышления зрелого ума. Эти проникновенные строки не могут не волновать, хотя трудно писать, а тем более передать, о настоящем патриотическом чувстве, направленном на воспитание настоящих граждан.

У Ханали Керимли есть очень много серьезных стихов с глубоким философским подтекстом. В них ощущается пристальный интерес к окружающему миру, к тайнам бытия, интересующим каждого человека на земле. И вот здесь приходится задуматься над вопросом, как должны

писаться стихи? И вспоминается факт о том, что сколько до этого пишущих людей самого разного уровня изощряяются в остроумии, отстаивая свою гениальность, доказывая ничтожность противников! Например, кто-то утверждает, что стихи должны быть просты, а кто-то считает, что наоборот: чем сложнее, тем лучше. Нужно писать просто, говорят одни, но при этом метафоры должны быть сложными, а вот мысли – просты. Мы вовсе не собираемся утвердить высказывание одного и отрицать мнение другого. Просто, ссылаясь на поэтику поэта, о которой ведем речь, призываем самих читателей установить истину. При этом убедить их в том, что основными чертами поэтики Ханали Керимли являются ритмическое разнообразие, лаконизм, емкость, свежесть метафор, выборочная свобода слова, никого не оставля-ющие к себе равнодушно.

Обратимся к афоризмам поэта, насчитывающимся более трехсот. Читатель сразу чувствует, что едва ли не каждое двустишие-афоризм Ханали Керимли походит на крепкий сплав из лирики и публицистики. Возможно, именно вследствие этого приобретают они художественную убедительность. Читая эти афоризмы, мы мгновенно понимаем, что азербайджанский язык раскрывается здесь во всей своей многогранности (что целиком относися и к их переводам в русском языке), что язык для поэта выступает не орудием, а объектом поклонения. *«Слово он (Ханали Керимли – Г.А.) чувствует на вкус, на звук, он как бы осязает слово» [10, с. 72],* – писала об авторе профессор Маарифа Гаджиева.

*Возвышать кургузых – замысел пустой,*
*Холмиком рожденный не взрастет горой.*

*Царь, под чьим раченьем нищ народ, убог,*
*Из одной скудели всех слепил вас Бог!*

*Мудрецу исконно мир земной – тюрьма,*
*То понять невежде мудрено весьма.*

*Те, кто носят в сердце яд мирского зла,*
*И прожив столетья, проживут их зря.*

*Так ли, право, важны титул, чин и сан*
*Все болван болваном, шах ты или хан.*

**(пер. Р.Кафарова) [2, с. 108]**

Вероятно, именно благодаря этому чутью поэту удается очень гармонично и уместно вплетать в стихи слова, обделывая их глубоким смыслом. «*Каждая строка поэта заставляет человека глубоко задумываться, его содержательные строки проникновенны, оставляющие глубокий след в душе. Поэтому я счел важным оставить стиль его как есть, знакомя русских читателей с достоинством оригинала*» [2, с. 102], - заметил Р.Кафаров в предисловии к подбоке стихов Ханали Керимли на русском языке.

Определяя значение произведений Ханали Керимли на общем фоне азербайджанской поэзии, надо сказать, что его творчество в полную меру раскрыло азербайджанским и частично русским читателям не только духовную силу и масштаб его таланта, но и обогатило их новыми представлениями о культуре и жизни азербайджанца, его гуманизм и широту понимания им глобальных проблем современности. Подтверждение этой оценки мы находим в статье профессора Джамала Мустафаева, подчеркнувшего, что «*Прекрасная поэзия и личность поэта Ханали Керимли естественно обуславливают и дополняют друг друга. Его тонкая национальная интеллигентность всюду ощущается. Любителями поэзии высоко оценивается его качества, рожденные из единства нравственной цельности и честности. Он сам знает это. И потому дорожит своим именем*

*поэта и бережет его, оберегая тем самым кровные интересы родной музы...» [11, с. 26].*

Отметим, что первые переводы произведений Ханали Керимли были осуществлены сравнительно недавно, когда журнал «Литературный Азербайджан» опубликовал перевод избранных его стихов *(около 50-ти)* в 2013 и 2016 годах, отводив им место в четырех номерах. Считаем целесообразным вкратце оценить работу переводчиков – Р.Кафарова и И.Ловковой, одинаково прекрасно владеющих и азербайджанским, и русским языками, сумевших донести до русскоязычных читателей все достоинства керимлинских стихов, то есть насколько адекватно может воспринять, понять русскоязычный читатель задушевные стихи Ханали Керимли. А чтобы разобраться в вопросе адекватности перевода, понять насколько верно донесена поэтика Ханали Керимли в русских переводах, необходимо в отдельном исследовании разобраться во всех достоинствах, нюансах, особенностях их воспроизведения на переводимом языке. Данная статья, представляемая вниманию научной общественности, не ставила перед собой задачи по анализу и выяснию вопроса, насколько адекватно переведены произведения азербайджанского поэта на русский язык.

Таким образом, художественно-поэтическая мысль с самых отдаленных времен служила и продолжает служить духовно-практическому освоению действительности, обогащению эстетического, идейно-нравственного мира личности. Благотворное, облагораживающее влияние поэзии на познание и воспитание человека объясняется образно-обобщающей силой. Поэтому можно заключить, что основной тематикой в творчестве Ханали Керимли является морально-нравственное совершенствование человека, его духовное очищение, глубокое осознание своих грехов и ошибок, возвышение человеческой личности.

## Список литературы:

1. http://cheloveknauka.com/sovremennaya-azerbaydzhanskaya-poeziya-i-folklor-ADU

2. Адыгезалов Г. Постижение выси // «Литературный Азербайджан» 2009, № 12, с. 102-108.

3. Ханали Керимли. Стихи. Пер. И. Ловковой. «Литературный Азербайджан», 2013, № 12, с. 20-24.

4. Баширов С. Ханали Керили: Сказка одной жизни. Литературный портрет. Баку, Издательство «Закон», 2011, 240 с.

5. Мехдиев А. Муза, рожденная от любви к Родине // «Алинджинская крепость слова». Сборник статей. Под редакцией Наримана Абдулрахманлы. Баку, 2011, Издательство «Закон», 320 с.

6. Багиров А. Когда слияется старое слово с новой мыслью // газ. «Кредо», 12 июня 2010 г. 87

7. Габиббейли И. Из Нухчыхана в Нахчыван. Баку, Издательство «Наука», 2015, 674 с.

8. Керимли Х. «Мне так мнится...» Предисловие к сборнику. Баку, Издательство «Нурлан», 168 с.

9. Ханали Керимли. Стихи. Перевод Инессы Ловковой. «Литературный Азербайджан», 2016, № 4, с. 106-111.

10. Гаджиева М. Литературные раздумья. Баку, Азернешр, 2003, 150 с.

11. Мустафаев Дж. Слово рождается мыслью // журнал «Хазар-Хабар», 2008, № 255 с. 23-28.

***Перепечатка из научного журнала «PYXIS» №2 (1) / 2016 г. Адыгезалов Г.В. Морально-нравственная направленность поэтики Ханали Керимли// – Санкт-Петербург: Издательство ООО «Международный образовательный центр», – с. 75-87.***

# NAHÇIVANDAN HANELİ KERİMLİNİN YENİ KİTABI: "SÖZÜN ELİNCE KALSI"

Haneli Kerimli şair, edebiyatçı, Nahçıvan Devlet Universitesinin Harici Talebelerle İş Fakültesinin Dekanı. Bir-biri ardına yayınladığı kitaplarından bize ulaşan sonuncusunun adı ***"Sözün Elince Kalası"*** Kars ilimiz merkezinde günlük o laraq yayınlanan "Hüryurt" qazetesinin Yazı İşleri Müdürü Erbil Hüryurt tarafından bana ulaştırılan 320 sayfalık "Sözün Elince Kalası" değişik makalelerin, haberlerin ve mektupların bir araya gətirilişi olrak görülüyor.

Altmışıncı sanat yılını kutlamakta olan Haneli Kerimli hoca kitabını bendenize imzalarken: *"İncesanatına və şahsiyetine hörmet beslediğim İsa Kayacanı sayğılarımla, 14 kasım 2011"* nezaket dolu ifadesiyle gardaşlığını, dostluğunu ortaya koyur efendim.

Teşekkürlerimi, sevgi ve sayğılarımı sunuyorum.

Kitabın giriş sayfalarında Haneli Kerimli və eserleriyle ilgili görüşlerini ortaya koyanlar cümleleri və isimleri,ünvanları itibariyle sıralanıyor. Kitabın meslehetçisi Arif Ağalarov, redaktor Neriman Abdülrehmanlı olaraq görülüyorlar.

Ayrıca makaleleriyle Haneli Kerimliyi anlatan,eserlerinde n,yayınlarından örnekler verenlerin isimleri de az değil. Sayfa 218-de Gardaş Elişoğlu dostumuzun görüşleri başlıyor.Buradan birkaç cümle şöyle:

*"Söz onun gedrini bilenleri yaşadır,onun yoluna işıg salır, garşısındakı bağlı gapıları açır, zirveden-zirveye galdırır".*

Sayfa 228-de başlayan Servaz Hüseynoğlunun yazdıkları dikkat çekiyor Haneli Kerimli için. Şöyle yazılmış:

"Şairlığı Tanrı ruhunun daşıyıcısı olmak kimi değerlendiren Haneli Kerimlinin *(Mene ele gelir ki)* kitabında uzun yıllar müşahidelerine söylenen deyimler elmi-edebi, ictimai-felsefi görüşler, yayınlandıkları gazeteler isimleri ve tarihleri itibariyle, yazıların sonunda kaydediliyor".

Haneli Kerimlinin öğrencilik yıllarına ait fotoğraflar, dostlarıyla bir araya geldiği görüntüler kitabın arka sayfalarında dikkat çekiyor.

Haneli Kerimli Türkiyeye her gelişinde gezdiyi, gördüğü yerlere ilişkin duyğularını şiirleştirmiş. Bu dörtlüklerden biri:

*Başı qar çalmalı dağlar koynunda,*
*Çırpınan,nazlanan,yatan Van gölü.*
*Sen Türkün ebedi kan yaddaşısan.*
*Düneni bu güne çatan Van gölü.*

Haneli Kerimlinin *"Sözün Elince kaası"* adlı kitabının 297, 298, 313 ve 314-cü sayfalarında bu satrların yazarı İsia Kayacanın "Azerbaycanın Şefeg-Dergsi" ve Sabir Beşirovdan "Haneli Kerimli: Bir ömrün nağılı" başlıklı yazıları, kaynakları itiabriyle yeralmış.

***Prof.Dr.İsa KAYACAN,***
***Türkiyenin qazetesi "Belde",***
***6 Aralık (dekabr-red.) 2011.***

***P.S. Bu xəbər cüzi ixtisarla Ankarada nəşr olunan günlük siyasi qəzet "Anayurt"un 9 şubat (fevral-red.) 2012-ci sayında da dərc edilib.***

# HANELİ KERİMLİNİN "PAYIZ DUYĞULARI" İSİMLİ KİTABI ÇIKTI

Kardeş Azerbaycan Cumhuriyyətinin tanınmış yazarlarından Haneli Kerimlinin *"Payız duyğulari"* isimli kitabı Azerbaycan Bakü "Kanun Neşriyat"tan çıktı.

Türkiyede və Karsta tanınan yazarın son kitabı büyük begeni topladı.

Azerbaycan-Türkiye sevdalısı olan və Nahcıvanda ikamet edən Haneli Kerimlinin kitapları Türkiyede de yakından takip ediliyor.

Çağdaş Azerbaycan poeziyasının nümayendelerinden biri, pedağoğ, tedgigatçı Haneli Kerimli, "Payız duyğuları" isimli kitabinda poetik yaradıcılığından seçmeler toplanmış. Şair Kerimlinin eserlerinin cevheri olan vatandaş yanğısı, Hakka sadakat, vatana ve millete bağlılık, insana sevgi bu şiirlerde aşikar görülüyor.

Haneli Kerimli kimdir:

1951 yılında Nahçıvanın Şahbuz rayonunun Mahmudoba kentinde dünyaya gəldi. Şair, edebiyatçı, filoloji üzerine felsefe doktoru, Nahçıvan Devlet Universitesinin dosenti, ikinci çağırış Nahçıvan Muhtar Ali Meclisinin deputatı, Nahçıvan MR-in emekdar müellimi, Azerbaycan Yazarlar Birliğinin uyesidir. Bir sıra ilmi,ictimai ve publisist makalelerin, ***"Ay işığında","Anamdan mektup", "Bu da bir nağildı", "Mene ele gelir ki", "Duyğularım, düşücelerim", "Menim gönlüm bir ümmandır" şiir kitaplarının sahibi, "Ali ve orta mekteplerde Cenubi Azerbaycan edebiyatının tedrisi metodikası"*** metodik vesaitin müellifidir. Hakkında ***"Şaire mektup", "Sözün Elince Galası"*** makaleler topluları və felsefe doktoru Sabir Beşirovun ***"Haneli Kerimli: Bir ömürün nağılı"*** monografiyası neşr edilip.

***"Hüryurt qazetesi"***
***9 mayıs 2014,***
***Kars/Türkiyə***

**خانعلی کریملی**



متولد ۲۷ نوامبر ۱۹۵۱روستای محمود آباد از توابع شهر شاهبوز واقع در جمهوری خودمختار آذربایجان است. او علی رغم داشتن مقام دولتی و فعالیت دانشگاهی از مهمترین شاعران جمهوری نخجوان به شمار می‌رود. رو ح سرکش و بی تاب شاعر تنها در بستر کلمات آرامش خود را می‌یابد و در شعر او نوعی عصیان با رگه‌های شرقی محسوب می‌گردد. شعر او علی رغم داشتن شاخصه‌های مدرن سنت شعری اسلامی – شرقی و علی الخصوص آذربایجانی را درک کرده است.

تقابل در شعر خانعلی کریملی نمودی دیگر از جدال خیر و شر است که به گونه‌های مختلفی آنچه را که هست در برابر آنچه که باید باشد، قرار می‌دهد. به این ترتیب تصویری از آن چه باید باشد، پدیدار می‌شود. بدین سبب حتی ... شاعر در تقابل با موقعیت جامعه‌اش به آفرینش اساطیر خاص خود می‌پردازد.
این هم یکی از راه‌های بیان غیبت انسان و آرزوی حضور اوست. این تقابل‌ها به شکل‌های گوناگون در انتخاب و چینش واژگان در تصویرسازی‌ها در ساختارها و هم در موسیقی شعر حضوری محسوس دارند.
تناسبها انسجام لفظ و معنا را تامین می‌کنند. تناسبات میان تصاویر خیال واژگان و ترکیبات حماسی، بافت زبانی خاص خلق می‌کند. که هم در فضاسازی‌های حماسی و هم در انسجام معنایی و زبانی آن نقش مهمی دارد. همچنین گاه تناسب میان مجموعه‌ها، خود هاله‌ای معنایی برگرد معنای اولیه می‌تند و موجب افزایش معنا و افزایش توان تفسیر و تعمیم پذیری شعر می‌شود.
زبان هم چون مضمون و محتوا، تغییر یافته تا توان بیان حماسه‌ی نو را بیابد. گزینش واژگان و ترکیبات متناسب با درونمایه‌ی حماسی، کهنگی ترکیبات و ساختارهای نحوی، تصاویر اسطوره‌ای، جنگ افزارها، فضاسازی‌های حماسی، ایجاز، اغراق، تضاد، تناسب و موسیقی با شکوه، علاوه بر برجسته‌سازی زبانی، به زبان «حماسه‌ی نو» هویت ویژه‌ای بخشیده است.

**بشناسانم**

درونم گورستان آلام
و بیرونم دنیای ارواح
هر دو چون آتشگاهی
انگار که روز قیامت فرا رسیده باشد.

آلامی که دفن کرده ام هریک
از گور خود سر بر می آورند.
گوشها گرفته می شوند
از آهها‌ی متمادی ارواح سرگردان

من از برونم چیزی نمی فهمم
از درونم هم رهایی نمی یابم
چه رازیست ای آفریدگار
که در این آتشگاه آتش نمی گیرم

راهم اگر هاتفی دارد
پس موسی کلیم الله-م کجاست
سینه ام را دفتری کردی
و مصحف را در آن قرار دادی

در درون و برون من
تو بر همه چیز آگاهی
جز تو که را دارم که من
قبله گاهم تنها تویی

منِ در من را به من بشناسان.
نخستین آیه‌ای را که آدم نام داشته باشد.
شاید آنهنگام کشف کردم
معجزه‌ای چون خودم را.



۲۰ شماره‌ی اول/آذر ۱۳۹۲ ساوجی

*P.S. Məqalənin müəllifi Məhəmməd Sübhdeldir. Məqalədə X.Kərimlinin qısa tərcümeyi-halından və yaradıcılığından bəhs edilir. "Savçı" dərgisi, İran/Urmiya, 1392-ci ilin Azər ayı (2013-cü ilin dekabr ayı), s.20.*

شعر خارجی

ترجمه‌ی امیرعباسی



**خانعلی کریملی**

شاعر و نویسنده اهل نخجوان در سال ۱۹۵۱ به دنیا آمد. در رشته‌ی زبانشناسی تحصیل کرده و هم اکنون رئیس دانشکده معلمین در دانشگاه نخجوان است. کریملی ۵ کتاب شعر و تعدادی مقاله‌ی فرهنگی و اجتماعی منتشر کرده است. دکتر صابر بشیروف نیز کتابی درباره‌ی زندگی کریملی نوشته است. کریملی از سال ۱۹۹۵ تا کنون در کنفرانس‌های بین‌المللی در ترکیه، ایران، گرجستان، هلند و پاکستان شرکت کرده است.

**زمان و من**

زمان سنگ آسیاب است.
و من دانه‌ای گندم
ناگزیر
روزی به آرد بدل می شوم

گریزی نه
فراری نه
و من که حق و حساب را انکار نمی‌کنم،
در نهایت اقرار خواهم کرد

زمان به من چه داده است؟..
من به زمان چه داده‌ام؟...
کدامان طلبکاریم؟..
روزی که مرگ فرا رسد.

هرچیزی به قاعده‌ای
هر حسابی به ترازی
و من محاسبه‌کنان
روزی که مرگ فرا رسد.

۱۹۹۶/۸/۱۱

**خواسته**

به جای نانی منتدار
زهری بی منتم بده
و به جای دلی بی‌بهره
غضبی که دلها را شکار کند

برای تمییز خیر و شر
در گرگ و میش جهان
و تشخیص محق از ناحق
مرا قابلیت و جسارتی بده

برای عبور از راههای بی انتها
مسیرها و معبرهای تیره
و رد شدن از برفی که گردنه های وطن
را می بندد
مرا توسنی شیدا و کهری دیوانه بده

دیگر آتش صبرم دارد سنگ می‌شود
گندم تمام شده و سنگ بر سنگ سابیده
می شود.
راهم رو به شب است و بارم نوسان دارد
مرا سحرگاهی با آسمانی روشن بده



ساوچی

پیش شماره اول/فروردین۱۳۹۲ --- ۱۸

*P.S. Səhifədə X.Kərimli haqqında qısa məlumat və fars dilində 2 şeiri verilib.*

*"Savçı" dərgisi, İran/Urmiya, 1392-ci ilin fərvərdin ayı (2013-cü ilin mart ayı) s.18.*

# LENTLƏRİN YADDAŞINDAN GƏLƏN SƏSSLƏR, YAXUD BU DA BİR TARİXDİR...

## XANƏLİ KƏRİMLİNİN "AY İŞIĞINDA" KİTABİNİN TƏQDİMATI

***(Şahbuz rayonu, 05.06.1998-ci il)***

**İcra başçısı Xeyrulla Abbasov:** Hörmətli Şahbuz camaatı, hörmətli yığıncaq iştirakçıları!

Biz bu gün buraya Naxçıvan Dövlət Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, filologiya elmləri namizədi, şair, bizim həmyerlimiz Xanəli Kərimlinin yeni çapdan çıxmış kitabının təqdimatı mərasiminə toplaşmışıq. Xanəli Kərimlini biz hamımız yaxından tanıyırıq. Uzun müddətdir ki, biz onunla birik, bir rayonda yaşayırıq, işləyirik, fəaliyyət göstəririk. Xanəli Kərimli rayonun ziyalıları arasında, elmi-pedaqoji ictimaiyyət arasında öz yaradıcılığı ilə, şəxsi keyfiyyətləri ilə hörmət, nüfuz qazanmış ziyalıdır. Xanəli Kərimli xeyli vaxtdır ki, Naxçıvan Dövlət Universitetində həm də pedaqoji fəaliyyətlə məşğuldur. O, yaxşı alim kimi, yaxşı ziyalı kimi həm universitet kollektivi arasında, həm də rayon ictimaiyyəti arasında geniş nüfuza malik şəxsdir. Xanəli Kərimli bununla birgə ədəbi-bədii yaradıcılıqla da məşğul olur. İki il bundan əvvəl biz Xanəli Kərimlinin yaradıcılığı ilə bağlı geniş bir yığıncaq keçirmişdik. Yəqin ki, çoxlarının yadındadır ki, biz o zaman arzu edirdik ki, Xanəli Kərimlinin bu şeirləri kitab halında çap olunsun. Çox şükür ki, bu gün bizim bu arzumuz həyata keçdi. Xanəli Kərimlinin ilk şeirlər kitabı çapdan çıxıb və rayon ictimaiyyətinə, respublika ictimaiyyətinə çatdırılıbdır. Xanəli Kərimlinin şeir yaradıcılığı, ***"Ay işığında"*** kitabı haqqında Sizə geniş məlumat veriləcək. Onu demək istəyirəm ki, Xanəli Kərimli bir şair kimi özünü həyatda təsdiq etmişdir. Onun şeirləri ictimai həyatımızın bütün sahələrinə nüfuz edərək orada dəyərli poetik nümunələr yarada bilmişdir. Xanəli Kərimlinin müraciət etdiyi mövzular bizim gündəlik həyatımızda rast gəldiyimiz,

müraciət etdiyimiz məsələlərdir. Bundan başqa, orada müraciət olunan şəxslər də bizə tanışdır. Onların bir qrupu dünyasını dəyişibdir. Allah onlara rəhmət eləsin. Yəni bu səmimi hisslərlə, səmimi duyğularla yazılmış şeirlərdir. Xanəli Kərimlinin şeirlərində boğazdan yuxarı deyilən söz yoxdur. Oradakı sözlər də hamısı yerli-yerində işlənib. Ürəkdən gələn duyğularla yazılmış şeirlərdir, hislərdir. Ona görə də icazə verin Sizin adınızdan, bütün Şahbuz ictimaiyyəti adından Xanəli Kərimlinin yeni kitabının təqdimatı münasibəti ilə onu təbrik edək, ona daha böyük yaradıcılıq uğurları arzulayaq.

Bu gün Xanəli Kərimli yaradıcılığının bu səviyyədə Şahbuz rayonunda qeyd olunması respublikamızda ədəbi ictimaiyyətə göstərilən diqqətin, qayğının məntiqi nəticəsidir. Möhtərəm prezidentimiz Heydər Əliyev cənabları ictimai-siyasi həyatımızın bütün sahələrində olduğu kimi, yaradıcı ziyalılara da, alimlərə, şairlərə, incəsənət xadimlərinə daim diqqət və qayğı göstərir, onların əməyini qiymətləndirir, mükafatlandırır və özü şəxsən imkan olduqca onların tədbirlərində iştirak edir, yaradıcılıqlarını yüksək qiymətləndirir. Son illər bizim böyük şairlərimizin bəstəkarlarımızın, digər mədəniyyət və incəsənət xadimlərimizin yubileylərinin,tədbirlərinin dövlət səviyyəsində qeyd olunması bunun əyani nəticəsidir. Bu gün rayonumuzunda da belə bir tədbirin keçirilməsi yaradıcı ziyalılardan biri olan Xanəli Kərimovulinin kitabının təqdimatı elmə, ədəbiyyata, incəsənətə verilən qiymətin təzahürüdür. Ona görə də mən rayon ictimaiyyəti adında cənab prezidentimiz Heydər Əliyevə ədəbiyyata, incəsənətə, mədəniyyətə verdiyi yüksək qiymətə görə minnətdarlığımızı bildiririk.

Xanəli Kərimlinin kitabı haqqında danışmaq üçün ilk sözü Naxçıvan Dövlət Universitetinin müəllimi, filologiya elmləri namizədi, dosent Əbülfəz Əzimliyə verirəm.

***Əbülfəz Əzimli (filologiya üzrə fəlsəfə doktoru, dosent):*** Bütün hikmət, söz əhliləri, sözün məna və məqamına, onun saflığına və gözəlliyinə həmişə hörmətlə, qayğı ilə yanaşıblar. Bu baxımdan, şairlərin sözə və onun məna dəyərinə daha həssaslıqla və qəlb mehri ilə bağlanmasının da bir mənası var.

Xanəli Kərimli bir şair kimi bu günlər ədəbi ictimaiyyətimizin rəğbət və diqqətini qazanan sənətkardır. Ümumiyyətlə, söz hikmətdən düşəndə şairlik azarına tutulanlar da çoxalar. Və Xanəli Kərimli şeirlərini oxuyanda adam bir daha hiss edir ki, şeir yazmaq çətindir. Və bu şeir yazmaq çətinlik meydanında bəzən yalançı atlar minib özünü şair kimi göstərənlər də var. Xanəli Kərimli məhz onlara cavabdır. Əsas odur ki, çətinliyi yaşayasan. Asanlıqda, dayazlıqla qalmağa nə var ki? Və indi çox-çoxları vardır ki, dayazda dizlərini büküb oturub və yerində əl-qol atıb kənardakılara özünü üzgüçü kimi göstərir. Başqa sözlə desək təlxəklik edirlər. XVI əsrdə üç xəmsə yaratmış əslən təbrizli olan Əbdi bəy Şirazi demişdir ki, söz bazarı o qədər kasatdır ki, şeir dodaqdan çıxıb qulağa çatmır. Niyə? Zəmanəmi korlaşıb, yoxsa şairlərin zövqsüz və primitiv şeirləri dəyərsizdir? Yoxsa məddəhlar və mədh olunanlar dəyərsizdir? İndiki şeir-söz meydanında qarğıdan at minənlərin şeirləri karlar üçün yazılıb. Karlar eşitməz, şeirin məna və məzmun, ideyaca dəyəyərli olub olmamasını bilməzlər. Belə də hər yerindən duran şeir yazmağa çalışar. Və şeirin, sözün meydanı o qədər daralıb ki, belə yalançı söz, şeir yazanlar da peyda olub ayaq açıb. Şairlik azarına tutulanların quraşdırdığı nəzmlər dodaqdan çıxıb qulağa çatmır. Xanəli Kərimlinin ***"Ay işığında"*** kitabı elələrinə qarşı tutarlı bir cavabdır. Əsl şeir şairin özündə qalana kimi onun olur. Elə ki, oxucuya, dinləyiciyə çatıdırıldı, həm şairin, həm dinləyicinin,həm də başqalarının olur. Əsl şeir xalqındır. Yalançı söz quraşdıranlar xalqa zülm edənlərdir. Xanəli Kərimli öz hiss və duyğularını, duyğu və düşüncələrini ifadə, poetik obrazlı şəkildə bildirmək və onun bədii siqləti ilə oxucuya çatdırmaq, mənasında yeni sözlər və ifadələr, obrazlar şəklində işlətmək onun şairliyindəki ifadənin bir nəticəsi kimi özünü göstərir. Bu özü bir məsuliyyətdir, şeirin, sözün dəyərini anlamaq, başa düşmək məsuliyyəti daşıyır.

*İki taş arasına düşdü danə,*
*Üyüdür bil anı dövrü-zəmanə.*

*Dünyanın əhvalı dəyirman kimidir. İçində danəye-gəndüm-adəm* - insan onun içərisində buğda dənəsidir. İki daş arasına buğda dənəsi düşsə, aydındır ki, onu zəmanənin dövrü üyüdəcəkdir. Və bu bağlılıq nədən irəli gəldi. Mən sonra belə qənaətə gəldim ki, bütün dərdli, ağrılı şairlərin hamısı tarixən də, nəslən də, sözlə də məna və hikmətlə də bir-birinə yaxın olublar. Baxmayaraq ki, Xanəli Kərimlinin bu şeirdən xəbəri yox idi ki, o ruhu bağlılıq idi ki, bütün şairlərin və dərd əhlilərinin qəlbindən həmişə keçən ağırlıqdı. Zamanla şair üz-üzə gəlib. Onun qovğası ilə, arzusu ilə, onun ağırlığı ilə. Zamanın daşı, zərbələri qarşısında dayanmaq və haqq-hesab çəkmək də bir hünərdir. Bu sənətkar böyüklüyüdür.

*Qovğasından qaçammıram,*
*Qapısın da açammıram,*
*Mən ki, haqq-hesab danmıram,*
*Axır dilə gələsiyəm.*

Yaxud, poetik mənası və ifadəsi baxımından orijinal və obrazlı olan və təzadlı tutarlılığı ilə diqqəti cəlb edən və formaca üçlük şəklində olan bir şeirinə nəzər salaq:

*Mən zamanın içində,*
*Zaman mənim içimdə.*
*Anlaşırıq bir təhər.*

*Aləmin sirriyəm mən,*
*Aləm də sirdir mənə.*
*Yollaşırıq bir təhər.*

*Bir başsız ayağam mən,*
*Həm də ayaqsız başam,*
*Dolaşırıq bir təhər.*

*Qara gün başım üstə,*
*Mən də qara gün üstə*
*Gündür, keçir bir təhər.*

*Mən özümdən xəbərsiz,*
*Özüm məndən xəbərsiz.*
*Yaşıyırıq bir təhər.*

Çox insanlar ağrı və əzabların ifadəsi içərisində qovurulurlar. Və şairlər sözün özünün ifadə formasında həmin ağrı və əzabın, kədərin, nisgilin özünün poetikasını yaradırlar. Bu vaxt şeir öz sözləri ilə gözəlləşir. Sözlər qanad açır. Şairin ilham pərisinin qanadları üzərində dayanır. Şairin poetik ifadəsində xatirələrin də zaman yaddaşında öz məna və məzmunu var. *"Xatirələr vardır ki, yaşamalıdır, xatirələr var ki, ölsə yaxşıdır"*. Ölməyin özü də bir yanğı, bir dərddir. İnsan öz ömür yolundakı ən əziz və pak tutduğu həyatının ölməsini diləyirsən ki, axı bu necə xatirədir ki, günahlıdır. Vəfasızlıq və günahlar üzərində qurulan xatirələr ölməlidir. Bunlar sevgidən, ruhi bağlılıqlan uzaqdır.

*Bu günün istisi isitməz bizi.*
*Bizi isidən gün görünməz daha.*
*O sənli günlərin günahlarının,*
*Bağışlanması ta qaldı Allaha.*

Yəni, bizim üçün ən əziz və büsbütün kənar olub gedəndir. Qəlbi, ruhu obrazlı ifadə etmək, Xanəli Kərimlinin bədii özünəməxsusluğudur.

*Sən dedin, mən dedim, ötüşdük belə.*
*Nə sən diyən oldu, nə də mən deyən.*
*Görüşdük, ayrıldıq, küsüşdük belə,*
*Hərdən xatirədir qapımı döyən.*

Bu məhəbbət bir balaca dartanda qırılan çürük iplər kimi idi. Bu aşıq qəlbini aldadan dayaz çamırlara bənzəyən məhəbbət idi. Onun suları durulmaz, çayları axmaz. Çünki hər qəlbin özünün axarı, hər axarın öz duruluğu olar. Xanəli Kərimli qəlbi həmişə durulu, aydınlıq, axarlı olubdu. O, bunu

axtarıbdır. Bu, başlıca keyfiyyətdir. Xanəli Kərimlidə bu axarın qisməti göynəltidir. Bu göynəltini onun yalnız qəlbi yaşadır. Kənarlaşan qəlbdə olmaz göynərti.

*İndi qayğılarım birə on artıb,*
*Saçıma dən düşüb yaşımdan qabaq.*
*Hər günahım üçün, hər səhvim üçün,*
*Ürəyim ağrıyır başımdan qabaq.*

*Eh, olan olubdu, keçən keçibdi.*
*İndi ha düşünək, indi ha anaq.*
*Atlanan atlanıb, köçən köçübdü.*
*İndi ha göynəyək, indi ha yanaq...*

***"Gecikmiş məhəbbət haqqında ballada"***sının son poetik ifadəsi, son hökmü bundan ibarətdir. Bu hissələrin, duyğuların kəməndində qalmaqsa, böyük zindanlar, ağır daşlar altında nəfəs almağa bənzəyir. Bunu yaşatmaq da ağırdır, düşünmək də.

İnsanın da, zamanın da ağrıları şair qəlbinin göynəlti yeridir. Bu ağrıda insan, şair və sənətkarlar həmişə ucada dayanırlar. İnsan öz ilkinə bağlıdır. Allah-taala insanı gözəl və pak yaradıb. Bu onun ilkidir. Kamillik də o ilkə layiq olmaqdır. İnsan ruhuna görə yaşayır. Ona görə də onu pis əməllərdən, zülm və tamah hərisliyindən qorumaqdır. Ruhu gözəlləşdirən insanın duyumudur. Sözü gözəlləşdirən, şeiri bəziyən, onu dəyərləndirən də duyumdur. Xanəli duyumlu şairdir. Öz şeirinin gözəlliyi, təbiiliyi də bu duyuma bağlıdır. Duyumu zəif və primitiv olanların qəlblərində bu niyyətlər məskən salmazdı. Bu niyyətlər ruhu narahat edir. Ona görədir ki, insan gördüyü yuxularda da bu əzabı yaşamalı olur. Bədniyyətlər hər an, hər saat insanlara əziyyət verir, onları ilkinliyindən kənarlaşdırır. Müdriklər, ağıl və qəlb sahibləri insanı öz paklığına bağlıyar. Əsl şairlər də sözlə, sözün gözəlliyi, bədii gücü, ideyası ilə insanı yolundan sapmamağa haraylayarlar. Xanəli Kərimli şeirlərində biz bu narahatlığı gördük.

Peyğəmbərlərimizdən Rəsuli-əkrəm *(s.a.s)* demişdir ki, şeir elə bir şeydir ki, gözəli gözəl, çirkini çirkindir. Nəsrəddin Tusiyə görə şeir sənəti mələkdir. Ona görə mələklərə bənzətmişdir ki, Allah-talanın yaratdıqları ən pak olan məxluqlar məhz mələklərdir. İnsanlar və dünya, aləm onlardan ziyan görməzlər, xeyir görərlər. Hər bir insan bu yolla özünü ifadə edə bilər.

Şeir poetik ifadə formalarında, məcazlarında ən tutarlı və məzmunlu ifadə etmə cəhdidir. Şair narahatdır. Və bu narahatlığın özündə rahatlıq vardır. Şairlərin istək və duyğuları onların həyatla, insanla və zamanla bağlılığından yaranıb. Bu baxımdan bütün bu insani keyfiyyətlərin, insani ləyaqətlərin hamısının poetik ifadəsi, müxtəlif məzmunlu şeirlərin ifadəsi ideyasında və məzmununda öz ifadəsini tapmışdır. Xanəli Kərimli obrazlı deyimləri ilə və mövzu seçimi ilə şeirlərində ən oynaq və ən kamil bir ifadələr seçmək ustalığına qadir olmağı bir sənətkar kimi, bir şair kimi özünün axtarışlarının nəticəsidir.

Bədii təsvirdə hər kəsin görə bilmədiyi obrazlığı vermək və bu obrazlığın bədii tutumunda yeni söz demək bacarıqdır. Hər bir təsvirin özündə, hər bir oynaq ifadənin özündə obrazlı deyimlər zamanla, şairlə, insanla, insanın qəlbi, düşüncəsi ilə bağlı olan bir istəkdir. Formaca və üslubca, ideyaca, məzmunca orijinal olan şeirlərdən birinin məzmununu diqqətinizə çatdırmaq istəyirəm:

***"Yüz il əvvəl, yüz il sonra"*** şeirindən:

*Görəsən, necə olacaq*
*yüz il bundan sonra*
*bu ildə,*
*bu ayda,*
*bu gündə*
*dünyanın pərsəngi,*
*zamanın ahəngi,*
*havanın rəngi?*

*Görəsən, onda*
*kiminə zəhər içirəcəklər,*
*kiminə şərbət,*
*kiminə Vətən nəsib olacaq.*
*kiminə qürbət...*
*Görəsən, onda*
*kiminə dandıracaqlar anasını,*
*kiminə yasaq edəcəklər*
*balasının yasını...*

*Görəsən, onda...*
*kiminə heykəl qoyacaqlar qranitdən,*
*kiminin cəsədini yellədəcəklər*
*ipdən...*

Bədii təsvirdə və bədii yatımda hər hansı bir sözün, ifadənin orijinal deyim tərzini tapmaq çətindir. Çox şairlər var ki, onlar orijinallıq xatrinə adi nəzm quraşdırmaq həvəsinə düşərək mövzunu və ideyanı çılızlaşdırır, primitivləşdirir. Xanəli Kərimlidə mövzu geniş və əhatəlidir. Vətən dərdi, Vətən ağrısı, nisgili, insanın arzu və əməllərini, onun hər günü, hər nəfəs anı ilə bağlı olduğu ideyaları onun şeirlərinin poetik əsasında dayanır. Vətənin hər daşı, hər qayası, hər torpağı bütün insanlar üçün əzizdir. Amma şair üçün tamam ayrı bir poetik mahiyyət daşıyır. Hər hansı bir ucqar yerdə oturub doğma ocağa bağlı olmayan adamlar da heç zaman Vətən dərdini çəkməzlər. Vətən dərdini çəkmək, şairlərin, müdriklərin ömür-gün ruh bağlantısı olmuşdur. Üz tutduğu dağlardır ki, Vətən rəmzinin poetik şəkildə rəmzlənməsi Vətənə, xalqla, doğma od-ocağa bağlılığın təzahürüdür. İnsanlar öz yurduna, öz obasına o zaman bağlı olurlar ki, onlarda sevgi, məhəbbət olur. Vətən sevgisi və istəyi bu məhəbbətlərin əsasında dayanır. Və bu dünyada Vətəni azad, vətəni bütöv olmayanın dərdi, nisgili də heç vaxt azalmaz. İnsan o vaxt nəfəs alar ki, o Vətəninin qeyrətini çəkən adamlarla, onların hünərləri ilə öyünsün. Vətən dərdinin böyüklüyünü ancaq şairlər görə

bilər. Bu baxımdan Xanəli Kərimli öz poetik, bədii üfüqünü genişləndirmiş, daha doğrusu, bu narahatlıq, genişlik dar bir formaya sığışmamışdır. O, epik məzmunu və lirizmi ilə fərqlənən bir-birini tamamlayan şeirlər yazmışdır ki, o şeirlər həcm cəhətdən qısa olsa da, poema adlandırmasa da, ancaq poema qədər dərin məzmuna, fikirə malik olan əsərlərdir. Eyni zamanda, onun *"Ağrı"* poeması **"Bütövlük"** poeması ilə bir-birinə bağlı olan ideyadır ki, burada Vətənin və insanın ağrısı, şəhidliyin Vətən rəmzi, Vətənin şəhidlik rəmzi ifadə olunmuşdur. İnsan əgər şəhid ola bilmirsə, o, Vətəndə də yaşaya bilməz. Vətən ancaq öz övladları və qeyrətliləri ilə Vətən olaraq qalır. Bu Vətəndə bölünməzlik qeyrətlik dəyanəti ilə bağlıdır. Vətənin qeyrətində bu dəyanəti görmək Xanəli Kərimli şeirlərində Vətən bölgüsünün ağrısını, acısını daşımaqdır.

Azərbaycan Vətəni dünyanın ən ağrılı-acılı guşəsidir. Bu Vətəndə yaşayan insanların müsibət və ağrıları bütün insanlarınkından ağırdır. Bu Vətəndə şəhid olanların vüqarı və dəyanəti və şəhidliklən qaçan, Vətən torpaqlarını müdafiədən boyun qaçıran adamların danlaq və riyakarlığından qat-qat yüksəkdə durur və onlara ölüm hökmü oxuyan poetik haraylardır. ***"Bütövlük"*** Vətən bütövlüyüdür. İnsanların milli bütövlüyüdür. Dəmir qapı Dərbənddən Həmədana kimi ucsuz-bucaqsız Azərbaycan Vətəninin bütövlüyüdür. Bu şəhidlər əgər zaman-zaman öz borcunu versəydilər, Azərbaycan Vətəni bütövlük içərisində olar, Azərbaycan torpaqları azğın düşmənlər ayağı altında tapdalanmazdı. Bu ağrıların kəskin poetik və lirik ifadəsi Xanəli Kərimli şeirlərinin, bütövlükdə Xanəli Kərimli axtarışlarının özəyini təşkil edir. Söz xatrinə söz deməmək, sözün məcaz və eyhamını, dərinliyini anlaya bilmək hər bir lirik şairin, hər bir sənətkarın özünəməxsus cəhətlərini ifadə etmək deməkdir. Xanəli Kərimli uğurlu şairlərdəndir. Onun şeirlərindəki ideyanın da, idafənin də müdrikliyi məhz həyata və insanlara da yaxından bələd olmaq, zamanın içərisində yaşamaqla o zamanın daha dərinliyində görməyin nəticəsidir.

Şahbuz elləri, Göyçə, Dərələyəz, Zəngəzur, Qarabağ elləri...

Söz və saz aşiqləri kimi görünən bu ellər və onun adamları, pak və duyğulu insanları sözün dəyər və qiymətini hamıdan yaxşı anlıyanlardır. Mən sözə və saza, aşıq sözünə, şair sözünə hörmətin ifadəsini də bütövlükdə gördüm. Şahbuzla Zəngəzur, Şahbuzla Göyçə bir-birinə bağlıdır. Vaxtilə atalarımız, babalarımız məhz buradan gedib-gəlmiş, Göyçə mahalından Naxçıvan ellərinə, Təbriz ellərinə məhz bu yollardan gəlib getmişlər. Onların da övladlarının, nəvələrinin bu günləri sözə və sənətə hörmət qoymağı, onu duymağı da təsadüfi deyildir. Bu baxımdan, bu günləri Xeyrulla müəllimin, və ümumiyyətlə, Şahbuz mahalının sözə, sənətə bu cürə qayğı və hörmətlə yanaşması məni sevindirdi və həm də təəccübləndirdi. Biz bu yolda - sözü, şeiri və sənəti yüksək qiymətləndirənlərin yolunda həmişə Vətən yolunu görmüşük, onun təsib və qeyrətini görmüşük. Bu da böyüklükdür ki, bu gün sözə, şairə hörmət qoyulur. Diqqətinizə görə sağ olun.

***Allahverdi Həziyev* (*icra başçısının müavini, tədbirin aparıcısı*):** Mənim üçün əziz, qiymətli insan haqqında qısa iki kəlimə söz demək istəyirəm. Dostum, qardaşım öz kitabını ***"Ay işığı"*** adlandırıb. Və inanın ki, göydə doğan Ay işığı ilə Xanəli müəllimin dünyasında, könlündə, qəlbində doğan Ay işığı birləşib. Mən Allah-taaladan arzu edirəm ki, hər iki Ay işığı həmişə başının üzərində olsun. Xanəli Kərimlinin ən böyük cəhəti odur ki, biz Xanəli müəllimi görməyəndə darıxırıq. İnsan üçün ən böyük keyfiyyət odur. Bu insanda hiss edirsən ki, nə qədər böyük amal, nə qədər böyük zənginlik, nə qədər böyüklük vardır. Biz görmədiklərimizi görən şairə eşq olsun. Ona gələcək həyatında uğurlar arzu edirəm. İndi isə çıxış üçün söz Naxçıvan Dövlət Universitetinin "Pedaqoji" fakültəsinin dekanı, filologiya elmləri doktoru,professor Sevindik Vəliyevə verilir.

***Sevindik Vəliyev:*** Əziz həmyerlilər, Şahbuz öz təbiəti kimi gözəl insanlar cəmiyyətə bəxş edib. Adam fəxrlə şah-

buzlu olduğunu hər yerdə fəxrlə deyə bilir. Çünki bilir ki, ondakı saflığa, ondakı iradəyə, ondakı dəyərə, heç kəs şübhə etməyəcək. Xanəli də belə saflardan biridir. Tanıdığım illərdən bəri Xanəlinin paklığı ilə, Xanəlinin təmizliyi ilə, Xanəlinin bütövlüyü ilə fəxr eləmişəm. Mən onunla bir çox səfərlərə getmişəm. Bir şeyi deyim ki, əyalətdə oturub şair olmaq asan işdir. Yəni dağ kəndində oturub şeir yazan adama təb gələr, ilham gələr, Allaha şükür, burada təbi, ilhamı gətirən yaxşı amillər var. Amma burada alim olmaq çətin idi. Xanəli bunun da öhdəsindən gələ bildi. Yəni bu əyalətdə yaşaya-yaşaya sübut elədi ki, lap belə Şahbuzun ən ucqar kəndində də oturub elm işi ilə məşğul olmaq olar, elmi iş yazmaq, alim kimi yetişmək olar. Mən bu cəhətdən Xanəlini çox qiymətləndirirəm. Bizim hər birimiz Naxçıvan mühitində, universitet şəraitində bu işlərə getmişiksə, Xanəli Şahbuzda həmin işin öhdəsindən gəlib. Eşq olsun Xanəliyə.

Xanəli yaxşı müəllimdir. Onun yaxşı müəllim olmasını deməliyəm. Universitetimizdə hələ eşitməmişəm ki, Xanəlinin bir dərsi belə boş keçsin, Xanəlinin dərsindən uşaqlar qaçsın. Müəllimlik işi də çox çətindir. O, bunun da öhdəsindən gəlir. Bu yöndə də ona eşq olsun.

Mən onu deyə bilərəm ki, Xanəlinin ***"Ay işığı"*** kitabı da dünyaya gəldi. Xanəli ürək sözlərini, duyğularını, istəklərini, öz doğmaları ilə bağlı, öz Vətəni, öz torpağı ilə bağlı misraları ora köçürtdü və sağ olun ki, siz də onun bu işığına yığışmısınız, ondan ilham almağa gəlmisiniz.

Xanəlinin keyfiyyətləri haqqında çox danışa bilərəm. Şairliyi ilə bağlı bir neçə şeyi deyə bilərəm ki, bu yaxınlarda onun kitabı çapdan çıxandan sonra bir də baxdım ki, universitetə Culfa gömrüyündə işləyən iki nəfər gəlib. Tanış olduq. Onlar, ümumiyyətlə, Xanəlini, universiteti yaxından tanımırlar. Dedilər, Xanəli Kərimlini axtarırıq, onu tanımırıq. Dedim, sizə köməklik edərəm Xanəlini tapmağa. Getdim, Xanəlini axtardım, tapa bilmədim. Nəhayət, çıxanda Xanəli özü bizim qarşımıza gəldi. Demək, kitabı ələ keçirəndən sonra onlar rəsm əsəri hazırlayıblar, həmin rəsm əsərini gətiriblər

Xanəliyə göstərsinlər ki, icazə versin bunlar o rəsmi Gömrük idarəsində bir guşəəyə vursunlar. Bir şey də məlum oldu ki, Xanəli heç bunlara kitab verməyib, özləri hardansa əldə ediblər. Demək istəyirəm ki, Xanəlini təkcə biz sevmədik, kitablarına görə də sevildi. Bu cəhətdən də mən Xanəliyə öz minnətdarlığımı bildirirəm.

Hamınıza yaxşı məlumdur ki, son dövrlərdə Azərbaycanı başına gələn bir çox bəlalardan xilas edən, onu özünə tanıdan və özü vasitəsi ilə də bütün dünyaya tanıdan hörmətli prezidentimiz həmişə olduğu kimi indi də şeirə, sənətə, sənətkara çox böyük qiymətlər verir. Bu yaxınlarda bizim çoxlu şairlərimiz, yazıçılarımız, sənət adamlarımız xalq yazıçısı, xalq şairi, xalq artisti adlarını aldılar. Belə bir ənənə davam eləyir. Belə bir cəhətə, prezidentimizin bu çağırış və bu istəyinə hər yerdə diqqət artırılır. Doğma Naxçıvanımızda da bu işə yüksək qiymət verilir.Bütün ömrü boyu Naxçıvanda yaşayıb yaradan hörmətli yazıçımız Hüseyn İbrahimov da o böyük ada - Xalq yazıçısı adına layıq görülüb. Hətta, əyalətdə yaşıyıb yaratmaqla xalq yazıçısı da olmaq olarmış. Naxçıvanın minillik elmi,ədəbi və ictimai həyatında birinci dəfədir ki, Hüseyn İbrahimov xalq yazıçısı adına layıq görüldü. Bu, bizim üçün, bütövlükdə Naxçıvan ictimaiyyəti üçün böyük fəxrdir. Həm də, sağ olsun ki, bizim prezidentimiz onları diqqətdən kənarda qoymadı və xalqımıza onları da tanıtdı.

Mən bir epizodu da Sizin diqqətinizə salmaq istəyirəm. Özümlə bağlı olub. Bir dəfə bizim hörmətli rektorumuz İsa Həbibbəyli Bakıda elmlər namizədi işini hazırlayırdı. Müdafiə ərəfəsində idi. Onda bizim hörmətli ağsaqqalımız Yavuz Axundlunun doktorluq müdafiəsində İsa Həbibbəyli çıxış edərək Şura üzvlərinə dedi ki, əyalətdə yaşıyıb elmlər doktoru olmaq olar? Yavuz müəllim əyalətdə yaşadı və elmlər doktoru oldu. Xanəli də Şahbuzda yaşadı, elmlər namizədi oldu, şair oldu, heç şübhəsiz ki, elmlər doktoru da olacaq, inşallah.

Naxçıvanda da bu işə çox yüksək qiymət verilir. Naxçıvan Dövlət Universiteti də bu istiqamətdə irəliləyir. İsa müəllimin sayəsində universitetdə yaradıcılığa, elmə, ağsaqqala hörmət,

tələbəyə münasibət - bunların hamısı yaxşı mənada tamamilə dəyişib. Bax, elə bu salon şahiddir ki, bu yaxınlarda Vəliəddin müəllimin də 80 illik yubileyini burada keçirdik. Biz bu kimi tədbirləri universitetimizdə də keçirmişik. Xatırlayırsınızsa, Məmməd Araz kimi nəhəng şairin yubileyini keçirdik. Bundan başqa, bir çoxlarının görüş və yubileylərini keçirdik. Xanəli müəllimin dəfələrlə belə görüşləri olub. Universitetdə də olub, indi də burada olur. Bu işlər insana daha da ruh verir, insanı daha da fəal həyata çağırır.

Burada mən Şahbuz Rayon İcra Aparatının da işini qiymətləndirirəm. Bu kimi tədbirlər, təbii ki, prezidentimizdən gələn, Naxçıvan MR Ali Məclisinin rəhbərliyinin də diqqət və qayğısı ilə təşkil olunur. Mən sizi inandırıram ki, bu sarıdan Naxçıvan rayonları içərisində birinci yerdə Şahbuz rayonu dayanır. İnsanları qiymərləndirmək, sənətkarı qiymətləndirmək, ağsaqqalı qiymətləndirmək, alimi qiymətləndirmək baxımından birincilər sırasında gedir. Mən bu baxımdan Şahbuz rayon İcra Aparatının rəhbərliyinə, Xeyrulla müəllimə, onun ətrafındakı yoldaşlara öz dərin minnətdarlığımı bildirirəm ki, adamları bir yerə yığıb, bu görüşü təşkil edib. Belə işləri görmək hər adamın işi deyil. Sağ olun, Xeyrulla müəllim, üzünüz ağ olsun, Sizə çox minnətdaram.

Xanəlinin şairliyi haqqında mən çox danışıb vaxtınızı almaq istəmirəm. Şairliyi,sənətkarlığı haqqında Əbülfəz müəllim bugünkü dəyərli və ətraflı çıxışında da, işığına toplaşdığımız *"Ay işığında"* kitabina yazdığı ön sözdə də ətraflı danışıb. Əbülfəz müəllim həm də gözəl şərh verdi. Mən istəsəm də Xanəli yaradıcılığını o cür təhlil edə bilmərəm. Amma Xanəli doğma Vətənlə, doğma adamlarla həmişə bu kitabındakı şeirlərilə ünsiyyətdə olub. Əgər təkcə şeirlərin başlıqlarına baxsanız - anası ilə söhbətə baxsanız, bacısı ilə söhbətə baxsanız, qardaşının əziz xatirəsi üçün yazdığı şeirlərə baxasanız, qızı ilə söhbətə baxsanız, görərsiniz ki, Xanəli öz ətrafını necə sevir. Bunlardan başqa, öz qohumlarını, ətrafındakı insanları, rayonunu, yaşadığı kəndi necə bir məhəbbətlə tərənnüm edir. Elə bilirəm ki, bu, Xanəlinin ilk kitabı olmayacaq. Xanəlini siz

fərəhləndirdiniz, biz fərəhləndirdik, bu kitab fərəhləndirdi. Xanəli yeni-yeni kitablarla bizi sevindirəcək. Bu yolda mən Xanəliyə uğurlar arzilayıram. Səadət arzulayıram, dinclik arzulayıram və hamının ona xeyir-dua verməsini arzulayıram. Sağ ol, Xanəli. Mən səni ürəkdən təbrik edirəm.

***Allahverdi Həziyev:*** Çıxış üçün söz verilir Naxçıvan Dövlət Universitetinin müəllimi, filologiya elmləri namizədi, dosent *(indi filologiya elmlər doktoru, professor)* Akif İmanlıya:

***Akif İmanlı:*** Biz Xanəli Kərimlinin yaradıcılıq gecəsində onu deyə bilərik ki, bu adam ilk növbədə şairdir və gözəl insandır. Bir şair ki, balaca bir uşağın qəlbinə təsir edə bilirsə, balaca bir uşaq şairin şeirlərindən gələcəyə ümid, Vətən haqqında sevgi, ana haqqında məhəbbət hissilərini aşılaya bilirsə, bu adam şairdir. Siz bilirsiniz ki, bizim Azərbaycanda şairlər çoxdur. Sevindik müəllim bayaq etiraf etdi ki, təkcə Şahbuzda nə qədər şairlər var. Avropada cəmi 900 şair və yazıçı var. Bilirsiniz ki, dünya əhalisinin böyük əksəriyyəti Avropadadır. Azərbaycanda isə, demək olar ki, hamı şairdir. Bəxtiyar Vahabzadə bir dəfə görüşlərinin birində dedi ki, bizim xalq şair xalqdır. Belə bir məqamda bütün əhalisi söz üstündə köklənən, hamıda şairlik qabiliyyəti olan bir ölkədə şair adını daşımaq və əlinə qələm alıb şeir yazmaq çox məsuliyyətli işdir. Mütəfəkkirlərdən biri demişdir ki, bəşəriyyətin ən böyük kəşflərindən biri sözdür. Söz Rəsul Həmzətov deyib ki, yağışa bənzər. Birinci dəfə gələndə bərəkət gətirər, dördüncü dəfə gələndə fəlakət. Sözü fəlakətdən xilas etmək üçün, sözü bərəkətə çöndərmək üçün əsl şair məsuliyyəti ilə yanaşmalı və sözü sənətə çevirməlisən. Məhz bu gün görüşünə toplaşdığımız Xanəli Kərimlidə bu keyfiyyət vardır. Balaca şagird balamız da indicə bunu etiraf elədi.

Şairlik məsuliyyəti ağır məsuliyyətdir və yeddi milyonluq şair xalqın içində elə insanlar var ki, onlar sözü sənətə çevirə bilirlər. Şairlik təxminən müəllimliyə bənzəyir. Müəllim necə uşağı tərbiyə edirsə, şair böyük bir xalqı tərbiyə edir. Söz sənətinin, bədii ədəbiyyatın ən ümdə vəzifəsi tərbiyəedici funksiyasını ləyaqətlə yerinə yetirməsindədir.

Xanəli Kərimlinin şeirləri də insanları tərbiyə məqamında özünü doğruldur ki, insanlara təsir edir. İnsana aşılanan ən yüksək keyfiyyətlərdən biri Vətənə məhəbbət hissidir. Xanəli Kərimli öz ideyaları ilə, öz prinsipləri ilə Vətənə məhəbbəti bu fikirlərlə bildirir. ***"Anamla söhbət"*** şeirində deyir:

*Ay oğul, sən yüz də döşünə döy ki,*
*Mən xalqın oğluyan, xalq da mənimdir.*
*Sevə bilmədinsə doğma kəndini,*
*Bir xalqı sevmək də sənə çətindir.*

Biz bunu bəzi görkəmli şairlərin əsərlərində də görə bilərik. Rəsul Həmzədov deyir ki, dünya mənim üçün qapının astanasından başlayır. Bir az öncə də dedik ki, şair bir şagirdə öz şeirləri ilə vətənpərvərlik hissini yarada bilirsə, demək, o əsl şairdir. Xanəli Kərimli, Əbülfəz Əzimli kitabın ön sözündə qeyd etdiyi kimi, şair şəxsiyyətdir. Səmimi olmayan adam, səmimi şeir yaza bilməz. Vətəninə qəlbən bağlı olmayan adam vətənpərvərlikdən şeir yaza bilməz. Xanəli müəllim tam şəxsiyyət kimi formalaşıb. Məhz gözəl şeirlər də belə şəxsiyyətlərin qələmindən çıxır.

Xanəli müəllim ***"Ay işığı"*** adlı kitabı ilə özünü təsdiq elədi. Biz bu kitabla qane ola bilmərik. Xanəli Kərimli geniş oxucu kütləsinə malik şəxsiyyətlərdən biridir. Ümumiyyətlə, Şahbuzda şairə, alimə, şəxsiyyətlə, daha doğrusu Xanəli Kərimliyə böyük qiymət verilir. Mən Xeyrulla müəllimə də öz təşəkkürümü, minnətdarlığımı bildirirəm. Onun keçirdiyi tədbirləri mən televiziya, mətbuat vasitəsi ilə izləyirəm. İnsan öz ömrünü mənalı keçirməlidir. Buna görə də şairin qədrini bilmək, onun yaradıcılığını qiymətləndirmək lazımdır.

Xanəli müəllimi ürəkdən təbrik edirəm. Xanəli müəllimin biz belə yaradıcılıq gecələrini,görüşlərini hələ çox keçirdəcəyik. Tənbəlliyin daşını atsın. Bizləri də yeni-yeni yaradıcılıq uğurları ilə sevindirsin. Sağ olun.

***Allahverdi Həziyev:*** Çıxış üçün söz verilir Naxçıvan Dövlət Universitetinin müəllimi, pedaqogika elmləri namizədi *(indi doktoru, professor) Elbəyi* Maqsudova.

Elbəyi Maqsudov: Xanəli müəllim XX əsrin sonuna qədər öz istedadını, öz qabiliyyətini biruza verən, bulaq suyu qədər saf olan, ürəyi daim insanlıqla, Vətənlə, xalqla döyünən şairlərimizdəndir. Xanəli müəllim haqqında çox deyildi. Onun vətənpərvərliyi haqqında çox danışıldı. Amma Xanəli müəllimin vətənpərvərlik mövzusunda yazdığı əsərlər haqqında o qədər danışmaq olar ki... Məsələn, onun ***"Etiraf"*** şeirindən bir bəndi diqqətinizə çatdırmaq istəyirəm:

*"Yaşamaq çətinmiş ölməyə nə var",*
*Onsuz da ölümün halal malıyam.*
*Vətən deyib, dilə gəlməyə nə var,*
*Vətənçün ölməyi bacarmalıyam..*

Vətən üçün ölməyi hər adam bacarmır. Vətən üçün ölməyi bacaran şairlərimizdən biri və birincisini mən Xanəli müəllimi görürəm. Xanəli müəllim Vətənə bağlı şair olduğu üçün Şahbuz əhlinə ən böyük töhfədir. Şahbuz haqqında indiyə qədər deyilməyib ki:

*Köz almışam ocağının közündən,*
*Çox öpmüşəm bulaqların gözündən,*
*Yaş ötsə də, üzün dönməz üzündən,*
*Bu dünyada sənsən tale ulduzum,*
*Şahbuzum, ay Şahbuzum.*

Xanəli müəllimin haqqında çox danışmaq olar. Mən onun şeirlərini dönə-dönə oxumuşam.Təkcə onun şeirlərinin adlarını ümumiləşdirsək, böyük, gözəl bir monoloq alınır.

Mən dünən gecə səhərə kimi onun əsərindən monoloq hazırlamışam. Monoloqda ancaq onun şeirlərinin adlarından istidadə etmişəm.

***"Ay işığında" dalğalanan" Azərbaycan bayrağı"nı gördükcə "Allah"a dua edirəm. "Allah özü qurtarsın" bizləri. "Bu dünyanın işləkləri var imiş". O qədər" Xatirələr var ki", "Möcüzədir". "Düşüncələr"ə dalıb "Ürərini sıxma", əzizim.***

***"Etiraf" edirəm ki,"Bu dünya bir dəyirmandır". Orada "Xırda padşahlar"ın da, "Kötüklər"in də başları "Əhlət daşı"na dəyəcək. Onda zaman da, mən də, yüz yaşlı babam da, "Şükür sənin hüsnünə" deyəcəyik. "Allahım", "Şahbuzum", "Beləcə bir ömür yaşıyıram". "Şəhidlər xiyabanında" "Düşüncələr"ə dalma. "Hələ ki, gec deyil", bu yoldan "Niyə qayıdırsan". "Mübarizə qabaqdadır". "Yül il əvvəl..." olduğu kimi, nikbin döyüşkən ol. Adına "ləkə gətirmə". "Bütövlüy"ü əvvəl özündə, sonra "Azərbaycan"da axtar. "İnanıram ki", zaman gələcək bir daha, "Hayıf sənə, Təbriz yolu", "Ağrı dağ" boyda dərdi olan "əzizinən Qarabağ" deməyəcəyik. "Bu qan yerdə qalan deyil". "Hər kəsin qiymətini verəcək Vətən". "Yol üstə olanda" "Düşüncələr"ə qovuşub"...Kür bacım"a, "Van gölü"mə, Təbrizimə, Arazıma, "Qızımla söhbət"i xatırladacağam: "Yox, ay bala, mənim yaram dərindədir Öpülməklə, ovunmaqda o sağalam yara deyil". Sonra üzümü igid, qeyrətli, cəsarətli Vətən oğullarına tutub deyəcəyəm: "Mən bir Allah quluyam" ki, "Azərbaycan"ı gözəlliyi olan dağlarsız, "Qoşa bulaq"larsız, Şuşasız, Laçınsız, Kəlbəcərsiz yaşaya bilmərəm. Sizlərə "Vəsiyyət" edirəm ki,"Azərbaycan bayrağı"nı daha uca tutun. Vətənimin hər bir "Arğı"sını məlhəm edib bütövləşənə qədər, ağır ağrılarına kişi kimi mərdliklə, qəhrəmanlıqla dözün. Axı, "Vətəni bütöv olanın ürəyi də bütövdür, çörəyi də, yumruğu da".***

Mən Xanəli müəllimə yaradıcılıq uğurları arzulayıram. Şabhuz camaatına göz aydınlığı verirəm ki, belə bir böyük şairin, Məmməd Araz davamçısının yığıncağına, onun yaradıcılıq gecəsinə yığışıblar. Həmçinin, rayon icra başçısı Xeyrulla müəllimə, onun iş yoldaşlarına, bütünlüklə rayon ictimaiyyətinə dərin təşəkkürümü bildirirəm. Diqqətinizə görə sağ olun.

***Allahverdi Həziyev:*** Çıxış üçün söz verilir "Oğuz səsi" qəzetinin redaktoru Elşən Məmmədova.

***Elşən Məmmədov:*** Xalqımızın məsəli vardır: *"Alim olmaq asandır, insan olmaq çətin"*. Xanəli müəllim alim olub. Amma alim olmamışdan əvvəl də bu kişi insan olub. Bunu ona görə Sizə qabarıq şəkildə çatdırmaq istəyirəm ki, Xanəli

müəllim o qədər sadə, səmimi bir insandır ki, onunla bir az söhbət edəndə, görürsən ki, bu insan necə də "sadəlövhdür", təvazökardır. O,bu sadəliyindən, təvazökarlığından həyatda özünü gizlətməyi bacarmadığı kimi yaradıcılığında da özünü gizlədə bilmir. Xanəli müəllimin ətrafındakılar çox yaxşı bilir: Xanəli müəllim söz-sözə gələndə heç vaxt heç kəsə *"sən öl"* demir. O həmişə *"sən ölmə"* deyir.Yalandan *"sən öl"* deyən insanlara Xanəli müəllimin münsibəti soyuqdur.

Təqdimat mərasiminə toplaşdığımız ***"Ay işığında"*** şeirlər kitabını poeziya sevənlərimizin, şeirə, sənətə qiymət verənlərimizin ən böyük hədiyyəsi kimi qiymətləndirmək olar. Xanəli müəllimin şeirlərini oxuyarkən onun ay işığı qədər zərif,ay işığı qədər əsrarəngiz ziyasına toplaşmaq istəyirsən və onun vurğununa çevrilirsən. Məndən öncə çıxış edən yoldaşlar qeyd etdilər ki, Xanəli müəllimin şeirlərinin təkcə adlarını oxuyarkən bilirsən ki, necə şairdir. Çünki şeirin adı bir çox hallarda oxucuda xoş ovqat yartmayanda, etiraf edək ki, oxucuda şair yaradıcılığın bir soyuq münasibət baş qaldırır. Ona görə də şeirin adı məzmununu,məzmunu da adını tamamlamalıdir. Bu mənada yanaşanda, Xanəli Kərimli ilə oxucu arasında bir doğmalıq, bir səmimiyyət var.

Xanəli müəllimin bir şair kimi şeir yaradıcılığından, mənə elə gəlir ki, daha ətraflı danışıldı. Amma xatırlatmaq istəyirəm ki, ***"Ay işığında"*** kitabında bir-birini mözu və ideyaca tamamlayan ***"Ağrı"*** *və* ***"Bütövlük"*** adlı iki poeması da oxuculara təqdim edilib. Mən ***"Ağrı"*** poemasının, əgər belə demək mümkünsə, taleyindən bir-iki kəlmə danışmaq istəyirəm.

Poema dərc olunmaq üçün redaksiyaya təqdim oludu, az müddətdə əsər oxundu və nəşri məsləhət bilindi. Poema artıq qəzet üçün hazırlanmışdı ki, Xanəli müəllim gəldi ki, bəs qardaş, sən mənə görə türməyə gedirsən. Dedi ki, Bakıda çevrilişə hazırlaşırlar. Dedim, bilirəm. Sonra dedi ki, bilirsən, mənim poemamım adı nədi? Dedim, bilirəm. Ondna poemanın ilkin adı *"Üsyan"* idi. Sonra müəllif əsərin adını dəyişib *"Ağrı"* qoydu. Əslində, Xanəli müəllim gəlmişdi poemanı qəzetdən çıxarsın. Mənə dedi ki, mən istəmərəm kimsə mənə

görə əziyyət çəksin. Mən də dedim ki, Xanəli müəllim, elə şey olmaz, poema qəzetdə gedəcək. Çünki, poemanı oxuyan biləcək ki, sən nədən danışırsan. Axırda Xanəli müəllim sözünün üstündə durdu, məni də özünə tabe elədi, poemanı qəzetdən çıxardıq, yerinə başqa material yerləşdirdik.

Xanəli müəllim təkcə özünü düşünən olmayıb. O əsl şairdir. Xalqın içində şair olmaq hər oğulun işi deyil. Mən Xanəli müəllimə şairlər içində şair olmağını arzulayıram. Mən arzu edirəm, Xanəli müəllimin seçilmiş əsərlərini oxuyaq. Xanəli müəllimin şeirləri içərisində bir çox şeirlər var ki, əgər o şeirlər orta məktəb dərsliklərinə daxil edilsəydı, onlar gənc nəslin vətənpərvərlik tərbiyəsində çox mühüm rol oyamaq gücünə malik olardı. Bu tədbirdə məktəblilər tərəfindən böyük məhəbbət və həm də istedadla söylənilən şeirlər, inanıram ki,onların gələcək talelərində bir iz qoyacaq və şirin bir xatirə kimi həmişə xatırlanacaq.

Xanəli müəllim, mən Sizə ilk növbədə cansağlığı arzu edirəm. Canınız sağ olandan sonra Sizin şeirləriniz də daha nikbin, inamlı və həyatsevər olacaqdır, daha çox oxunacaqdır. Sağ olun.

***Allahverdi Həziyev:*** Çıxış üçün söz verilir Azərbaycanın Əməkdar Mədəniyyət işçisi Rövşən Hüseynova.

***Rövşən Hüseynov (Naxçıvan Dövlət Televiziyasının əməkdaşı):*** Hörmətli tədbir iştirakçıları. Məndən əvvəl çıxış edən Elbəyi müəllim çox gözəl çıxış elədi və dedi ki, Xanəli Kərimli yaradıcılığı bulaq suyu qədər safdır, təmizdir. Ancaq bulaq suyunda bir hikmət də var. Çünki bulaq suyu dağların, daşların dərinliklərindən gəlir. Bir də ki, bulaq suyu harda batsa, bir gün üzə çıxar deyiblər. Bəli, Xanəli Kərimli yaradıcılığı harada batsaydı, bir gün üzə çıxacaq idi. Bu- günki gecənin bir ay işığı kimi...

Mən Xanəli müəllimlə necə tanış oldum. Gəldim iş otağıma, gördüm stolumun üstündə Xanəli Kərimli imzalı ***"Ay işığında"*** adlı bir kitab var. Kitab müəllifini mətbuatdan imzasını tanısam da özü ilə şəxsən tanış deyildim. Kitabı vərəqləyəndə gördüm ki, müəllifi 1951-ci ildə Mahmudoba kəndində dün-

yaya göz açıb. 1968-ci ildə Cəlil Məmmədquluzadə adına Şahbuz qəsəbə orta məktəbini, 1973-cü ildə Nəsrəddin Tusi adına Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsini fərqlənmə diplomu ilə bitirib. Şeirləri Türkiyədə, İranda və digər ölkələrdə çap olunub. Mən bu müəlliflə tanış olduqdan sonra həmin kitabın ilk səhifəsini açdım. Həmin ilk vərəqdə ***"Azərbaycan bayrağı"*** adlı bir şeir yazılmışdır. Orda yazılmışdır ki:

*Mənim başımın üstə*
*iki səcdəgahım var,*
*Biri uca Allahım,*
*biri yenməz bayrağım.*

*Bayrağımın rəngində*
*yerin, göyün rəngi var,*
*Yurdumun azadlığı,*
*pozulmaz ahəngi var.*

*Mən onu qoparmışam*
*köləlik zəncirindən,*
*Ona səcdə edirlər*
*dünyanın hər yerindən.*

*O qalxıb ucalanda*
*bayraqların içində,*
*Ucalır millərim də*
*millətlərin içində.*

*O mənim yad ellərdə*
*danışan saf dilimdir.*
*Vüqarım, ləyaqətim,*
*Vətənimdir, elimdir.*

*Onu sevən ölkələr,*
*doğmalaşır gözümdə,*
*Onu sevməyənlərin*
*tökəcəyəm gözün də.*

*Onda olan əzəmət,*
*ondaki çarpan ürək,*
*Hayqırır, sabah üçün,*
*daha ciddi döyüşək.*

*Çünki döyüşdən doğub*
*millətimin xoş çağı.*
*Bayraqlar bayraqdarı*
*Azərbaycan bayrağı!..*

Mən bu ilk şeiri oxuyandan sonra Azərbaycanın bayrağına ucalıq, böyüklük, yenilməzlik, əzəmət, vüqar ləyaqət gətirən bu şairin qəlbinin dərinliklərinə getmək istədim. Onun ***"Ay işığı"*** kitabındakı poeziyanın izi ilə, yəni bir oxucu gözü ilə həmin poetik aləmin sehrinə düºdüm və gördüm ki, Xanəli Kərimli kökü və adı minilliklərə gedib çıxan, bu torpağın vüqar və ucalıq simvolu olan Toğluqaya dağı ilə söhbət edir. O Toğluqaya ki, şairin də uşaqlıq çağlarının *"başıaçıq, ayaqyalın gəzdiyi"* dövrünün ilham mənbəyi olmuş, Məmməd Araz kimi qüdrətli bir şairin güvənc yerinə çevrilmişdir.

Buna görə də M.Araz həsrətiylə gözü yollarda qalan Toğluqaya dağı deyir:

*Bulaqlarım axarını dəyişib,*
*Gədiklərim baxarını dəyişib,*
*Şimşəklərim çaxarını dəyişib,*
*Dəyişibdi səsim, ünüm, avazım,*
*Gəl görüşək, mənim Məmməd Arazım.*

*"Toğluqayanın Məmməd Araza məktubu"* şeirindən alınmış bu bir bənddə şair həm bu torpaqdan güc alan, Azərbaycan poeziyasının böyük səmalarında yaşayan, böyük sənət korifeyi Məmməd Araza bu elin, obanın dərin rəğbətini bildirir,həm də özünün sənətkarlıq səviyyəsini nümayiş etdirir. Şair üçün sınıxan, kövrələn Toğluqayanın özünün könlün alır. Amma burada üçüncü bir fikir də var ki, artıq Toğluqaya zirvəsindən

poeziyanın ənginliklərinə can atan şairlər də yetişir. Yəni, Toğluqaya, sən tək deyilsən. Sənin kimi ucalıqları vəsf etməyə şairlərin də var.

Kitabda şairin mövzu baxımından rəngarəng şeirləri içərisndə doğmalarına, yaxınlarına həsr olunan şeirlər mənim diqqətimi daha çox çəkdi. Xüsusilə, şairin bacısı Gülşənə vanladığı şeir bir çox cəhəttdən diqqətə layiqdir. Şair bacısına üz tutaraq deyir ki:

*Ürəyini sıxma, demə ki, təkəm,*
*Mənim Toğluqayam, Savalanım var.*
*Dünyanın dərdini gərək mən çəkəm...*
*Sənin gözlərini almasın qubar,*
*Mənim Toğluqayam, Savalanım var.*

Bəli, buradan artıq görürdüm ki, balıq susuz, qartal səmasız, gözlər də ziyasız yaşaya bilmədiyi kimi, şair də dağlarsız, yaxınlarsız, qolsuz-qanadsız yaşaya bilmir. Və nəhayət, *"Mən dağlarsız yaşamaram"* şeirini oxudum və gördüm ki, şair yazır:

*Mənə deyirsən ki, köç gəl şəhərə,*
*Burda yazıb-pozub tez ucalarsan.*
*Ancaq heç demirsən, ay dağlar oğlu,*
*Dağlarsız yaşama, tez qocalarsan...*

Mən bu kitabı oxuyandan sonra gördüm ki, şairə bu ilhamı verən doğma yerlərdir- dağlardır, bulaqlardır, çaylardır, bir də, ən başlıcası bu yerlərin yurda bənzər mərd və mübariz insanlarıdır.

Mən də Xanəli müəllimə dağ vüqarı, poeziya ömrü arzulayıram. Və inanıram ki, onun ***"Ay işığında"*** doğulan, ərsəyə gələn, misra-misra yazılan kitabı dan üzündə səhər nəsiminin yeli ilə oxucuların ünvanına qanad çalacaq, neçə-neçə oxucuları sevindirəcəkdir. Sağ olun.

***Allahverdi Həziyev:*** Çıxış üçün söz verilir qəsəbə otra məktəbində şairin ədəbiyyat müəllimi Əbdülhəsən Cəlilova.

*Əbülhəsən Cəlilov:* Hormətli tədbir iştirakçıları, belə demək mümkünsə, bugünkü tədbirimizin baş qəhrəmanı Xanəli Kərimli bizim məktəbinin ən əziz məzunu, böyük bir yetirməsidir. Burda məndən əvvəl də çıxış edənlər qeyd etdilər ki, bu mərasimin başlıca məqsəd və vəzifəsi Xanəli müəllimin bir insan, müəllim, şair, tədqiqatçı alim və ən nəhayət, vətəndaşlıq məziyyətlərindən danışmaq,onu indiki nəslə,gələcəyimizin qurucularına yaxşı bir nümunə, yaxşı bir örnək olaraq təqdim etməkdir. Buna görə də onu yaxşı bir alim kimi,istedadlı şair kimi, bacarıqlı müəllim və yurduna, elinə, geniş mənada, Vətəninə bağlı vətəndaş kimi səciyyələndirdilər və onun müsbət keyfiyyətlərini dəyərləndirdilər. Belə bir dəyərləndirmələr, bəlkə də, hamıdan çox məni sevindirdi. Çünki bağban qabarlı əllərinin bəhrəsini görəndə fərəhləndiyi kimi, müəllim də öz şagirdinin uğurlarına, millətə, xalqa gərəkliliyinə gorə fəxr edir. Buna görə də Xanəli təkcə mənim yox, hamımızın, başlıcası, onu yetirən qəsəbə orta məktəb kollektivinin fəxri məzunudur, fəxri yetirməsidir.

Xanəli müəllim bizim məktəbin 28 elmlər namizədindən, biridir. Bu məktəb həm də 4 elmlər doktoru yetirib ki, onlardan 2-si AMEA-nın müxbir üzvüdür. Ancaq Xanəli müəllim bizim məktəbin tək şairidir. O, bizim kollektivin ən sevimli üzvüdür. Xanəli müəllim təxminən üç-dörd il bundan əvvəl bizdə şagirdlərə maraqlar üzrə məsləhətlər verib. Və onun məsləhətlərindən sonra onlarla gənc şeir söyləmək, hətta şeir yazmağa başladılar. İndi burada səslənən şeirlərin çoxu Xanəli müəllimin təsiri ilə, onu qəlbən sevməklə, həm də onların hansını desək, özləri yazdıqları şeirləri səsləndirə bilərlər. Ancaq bu gün burada Xanəli müəllimin kitabının müzakirəsi olduğuna görə, həmin uşaqlar Xanəli müəllimin şeirlərindən nümunələr dedilər. Ona görə də biz bu gün Xanəli müəllimin ilk şeir kitabı ***"Ay işığı"*** kitabının ziyasına yığışmışıq. Biz bu kitabın gözəl keyfiyyətlərindən, oxuculara təsirindən danışırıq. Şairin yaradıcılığında ilk kitabından,onun poeziyamızda tutduğu yerə qədər söhbət açmalıyıq. Bunu Əbülfəz müəllim

çox gözəl səciyyələndirdi. Demək olar ki, bir ədəbiyyatşünas kimi onun gözəl dəyərlərindən söhbət açdı və danışdı.

Bu gün biz nəcib və çox dəyərli bir işdən söhbət açıb, qəlbimizdən gələn şirin arzularımızı, özünü Vətən və xalq qarşısında xidmət üçün hazır dayanan gənc yaradıcı, həyatı bədiiləşdirən, insanların bir vətəndaş, şəxsiyyət kimi mənəvi keyfiyyətlərini gözəl tərənnüm edən Xanəli Kərimlinin ***"Ay işığında"*** adlı ilk kitabının təəssüratındayıq. Ümumiyyətlə, Xanəli müəllim ürəyindəki poetik duyğuları zərrə-zərrə, qətrə-qətrə misraların yaddaşına hopdurmağı bacarır. Xanəli müəllimin şeir kitabını vərəqləyəndə görürsən ki, o, milli düşüncəli mövzularla yanaşı, bəşəri mövzulara da müraciət edir. Onun şeirlərini oxuyanda düşünürsən ki, o şeirlər həmişə qalacaqdır. Gənc şair kimi, gənclik illərində belə şeir kitabının sahibi olubsa, ömrünün müdrik çağında da daha mükəmməl, daha müdrik şeir kitablarının müəllifi olacaqdır. Bu yolda biz ona böyük uğurlar arzu edək, bu yolda biz ona cansağlığı arzu edək, bu yolda ona özündə olan yüksək keyfiyyətlərin daha da sabitləşməsini, daha da zənginləşməsini, onun ömür yolunun çiçəklənməsini arzu edək. Biz Şahbuz qəsəbə məktəbinin kollektivi Xanəli müəllimin hər bir uğuruna özü qədər, doğmaları və yaxınları qədər sevinirik, fəxr edirik. İnanırıq ki, həmişə iftixar hissi ilə görüşəcəyik. Sağ olun.

***İcra başçısı Xeyrulla Abbasov:*** Əziz tədbir iştirakçıları, əziz şahbuzlular, əziz qonaqlar. Biz, doğrudan da, bu gün elmlə, ədəbiyyatla, mədəniyyətlə bağlı hamımızın yaddaşında yaşayacaq bir tədbirin, bir günün iştirakçısı olduq. Üç saatdan çox davam edən tədbirimiz başa çatmaqdadır. Ona görə də sözü son olaraq Xanəli Kərimliyə verək. Mən ona görə *"son olaraq"* dedim ki, bu narahat dünyamızda bütün tarix boyu son barış sözünü toplar, topxanalar deyil, ədəbiyyat deyib, mədəniyyət deyib, incəsənət deyib. Ona görə də Cənab Prezidentimiz də həmişə olduğu kimi, əvvəl də dediyimiz kimi, bu gün də sözün, sənətin, mədəniyyətin, incəsənətin inkişafına çox böyük önəm verir, çox böyük qayğı göstərir. Ona görə də tədbirimizin sonunda da söz yenə sözündür, sənətindir, mədəniyyətindir...

# XANƏLİ KƏRİMLİNİN 50 İLLİK YUBİLEYİ

***(Naxçıvan Dövlət Universiteti, 27.11.2001-ci il)***

***İsmayıl Hacıyev (akademik, o zaman universitetin tədris işləri üzrə prorektoru):*** Bu gün universitetimizin tarixində maraqlı məqamlardan, səhifələrdən birini yaşayırıq. Universitetimizin ədəbiyyat kafedrasının dosenti, Azərbaycan Yazıçılar İttifaqının üzvü, şair Xanəli Kərimlinin yaradıcılıq gecəsinə yığışmışıq. Başqa sözlə, Xanəli müəllimin 50 yaşına yığışmışıq. Xanəli müəllimin bu yubileyi respublikanın "Ədəbiyyat qəzeti"ndə təbrik olunub. Naxçıvan televiziyasının Xanəli müəllimlə bağlı çəkdiyi televiziya filminə baxmışıq. Həm də bir iş yoldaşı kimi addımladığımız bu illərdə Xanəli müəllimi müəllim, yaradıcı adam, şair kimi tanımışıq və səmimi olaraq deyim ki, Xanəli müəllimə hamı böyük hörmətlə yanaşmış, onu şair kimi sevmiş, onun yaradıcılığına çox böyük hörmətlə yanaşmışdır. Bu mənada, Xanəli müəllimin yaradıcılığı müəllimlərə və tələbələrə çox böyük təsir göstərmiş, müəyyən hiss və duyğular yaratmışdır. Xanəli müəllimin yaradıcılığında fəlsəfi duyumlar, səmimiyyət, vətənə bağlılıq hisləri, çox geniş mənada, Xanəli müəllimin yaradıcılığı ilə maraqlanan oxucular üçün də doğmadır və mənalıdır. Onun şeirlərində, poemalarında şairə məxsus olan məqamların şahidi oluruq. Şair üçün ən böyük məhəbbət oxucu məhəbbətidir. Xanəli müəllimin yaradıcılığı ilə tanış olandan sonra istər-istəməz adam fikirləşməli olur. Azərbaycan şairləri arasında bu cəhət tək-tək şairlərə məxsusdur. Biz Bəxtiyar Vahabzadənin, Məmməd Arazın, Hüseyn Razinin şeirlərini oxuyanda istər-istəməz düşünməli oluruq. Çünki adlarını sadaladıqlarım şairlərin yaradıcılıqları ilə Xanəli müəllimin yarıdıcılığı üst-üstə düşür. Məhz buna görə Xanəli müəllimin yaradıcılığı adamı düşündürür. Həyata müdaxilə, nə üçün insan yaşayır, hardan gəlib, hara gedir kimi cəhətlər insanı düşündürür. Bu cəhətdən Xanəli Kərimlinin yaradıcılığı bizə çox şeyi deyir. Xanəli müəllim 20 ilə yaxındır ki, Naxçıvan Dövlət

Universitetində çalışır. Əvvəl bizdə "Fikir" qəzetinin redaktoru olmuş, son illər isə ədəbiyyat kafedrasının dosentidir. Bir müəllim kimi özünəməxsus rol və mövqeyə malikdir. İşlədiyi müddət ərzində özünü sevdirə bilib, həm də bir şair kimi öz oxucularının qəlbində yer tutub. Həm də Xanəli müəllim universitetimizin Xarici tələbələrlə iş üzrə fakültəsinin dekanıdır. Xanəli müəllim universitet rektorluğunun, universitet elmi şurasının, universitetdə fəaliyyət göstərən müdafiə şurasının üzvüdür. Qeyd olunduğu kimi, Yazıçılar İttifaqının üzvüdür. Ən başlıcası, Xanəli müəllim bir ictimai xadim kimi formalaşır. Bildiyiniz kimi, Xanəli müəllim 2000-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinə keçirilən seçkilərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı seçilmişdir. Bir millət vəkili kimi də zəhmətkeşlər qarşısında, millət qarşısında geniş fəaliyyət göstərir.

İcazənizlə universitetimizin "Ədəbiyyat" kafedrasının dosenti, Yazıçılar İttifaqının üzvü, şair Xanəli Kərimlinin 50 illiyi münasibətilə bu yubiley iclasını açıq elan edim.

***Aypara Behbudova (tədbirin aparıcısı):*** Şair Xanəli Kərimlinin "Anamdan məktub" adlı şeir kitabının təqdimatına toplaşmışıq. Eyni zamanda bu gün Xanəli müəllimin yubiley günüdür. Bu gün Xanəli müəllimin 50 yaşı tamam olur.

*Ömrün yarısı keçib, bəlkə də çoxu,*
*İndi öz-özümə qəbahətliyəm.*
*Ay keçən günlərim, ötən çağlarım,*
*Sizin qarşınızda xəcalətliyəm.*

*...Ələnər dolanar dünyanın işi,*
*Mənim də çiçəyim, gülüm solacaq.*
*Çörəyi suyuyla başa çatdığım,*
*Bu yurda bəs mənim nəyim qalacaq?*

*"Bu yurda bəs mənim nəyim qalacaq?"* sualı Xanəli müəllim özünü dərk edən bir gündən, şeir məbədinin qapısını açan bir gündən düşündürüb və narahat edib. Əsl şəxsiyyətlər,

əsl insanlar belədir. Yaşadığı illərdə iz qoymaq arzusu ilə yaşayırlar. Xanəli Kərimli də belə şəxsiyyətlərdəndir. Gəlin bu gün biz hamımız əyləşənlər, çıxış edənlər, Xanəli müəllimin ***"Etiraf"*** adlı cavab tapa bilmədiyi bu suala cavab tapmağa çalışaq. Çıxış üçün ilk sözü universitetimizin müəllimi Abbas Mehdiyevə veririk. Buyurun, Abbas müəllim.

***Abbas Mehdiyev (biologiya üzrə fəlsəfə doktoru, dosent):*** *Xanəli* müəllimlə mən sadəcə dostam. Mən bir poeziya həvəskarı kimi, düşünürəm ki, müasir şəraitdə Xanəli müəllim kimi şairlərə bizim ehtiyacımız var. Ona görə ki, şairləri *"insan qəlbinin mühəndisi"* adlandırıblar. Həqiqətən, poeziyadan yaranan emosiyaların insanda doğurduğu duyğular onun qəlbini kin-küdurətdən təmizləyir. Mərhəmət hissi ilə zənginləşdirir, ona sağlam fikir bəxş edir. Bəlkə də, elə bunun üçündür ki, poeziyaya güclü axın var. Amma istedadlı adamlarımız çox azdır. Yəni poeziyanın sözünü deyən, sözünü oxucu ilə bölüşən, öz istedadını üzə çıxara bilən şairlərimiz azdır.

Xanəli Kərimli ***"Toğluqayanın Məmməd Araza məktubu"*** şeirində təbiətlə insan arasındakı səddi o qədər yaxınlaşdırır ki, hətta, mən fikrimi bir az dəqiqləşdirərdim ki,təbiətlə insanı bütövləşdirir ki, bu da şair üçün çox böyük məziyyətdir:

*İndi mənim səbrim aman daralıb,*
*Gözüm kökü həsrətindən saralıb.*
*Yollarimiı boran alıb, qar alıb,*
*Qalmayıbdı nə şənliyim, nə nazım...*
*Gəl görüşək, mənim Məmməd Arazım.*

Təkcə nümunə gətirdiyim bu bir bənddə dediyimin təsdiqini görmək çox da çətin deyil və onu da deyim ki, bu gün yaxınlıq - təbiətlə insan qovuşaqlığı Xanəlinin təbiətlə bağlı yazdığı ***"Təbiət oxuyur", "Ay işığında", "Dəyməz", "Payız duyğuları"*** və digər şeirlərində də özünü göstərir.

Onun motivlərində güclü vətənpərvərlik hissi durur. Xanəli müəllimin ***"Toğluqayanın Savalana məktubu"*** şeirində bir qəribə məziyyət var. Xanəli müəllim Güney-

li, Quzeyli Azərbaycanı ifadə etməyə çalışır. Özünün poetik tərzində, danışığında o qədər gözəl ifadələr işlədir ki, adam, həqiqətən, həsəd aparır. Xanəli müəllimin ***"Gecikmiş məhəbbət"*** şeirini oxuyarkən adam öz keçmişinə heyifsilənir. Sanki pessimistə qapılırsan. Amma Xanəli müəllim irəli çox gözəl addım atır. Onun bir çox şeirlərində nikbinlik görsənir. Mən burada Hüseyn Razi cəsarəti görürəm. Burda mən Məmməd Araz poetikası görürəm. Burda mən Cavid fəlsəfəsi görürəm. Burdan görünür ki, Xanəli müəllim çox müdrik adamdır. Bu, həqiqətən də belədir. Hüseyn Razi cəsarətlə çıxış edəndə hamı təəccüblənirdi ki, bəlkə buna bir xətər dəyə bilər.

Şairi üzə çıxaran istedaddırsa, onu da üzə çıxaran əlamətlər olmalıdır. Xanəli müəllim demişkən, istedad həmişə zəhmət qarşısında əyilir, çünki onun irsi imkanlarını zəhmət ortalığa çıxarır. Xanəli müəllim istedadı ilə yanaşı, həm də çox zəhmətkeş şairdir. Mən Xanəli müəllimin şeir kitablarının ikisini də oxumuşam. Arabir özünü danlamaq, arabir küsmək, keçmişə qayıtmaq, arabir gələcəyə baxmaq. Bütün bunları cəmləşdirəndə Xanəli müəllim gələcəyə çox nikbin baxır.

Sizin vaxtınızı çox almayım deyə, mən Xanəli müəllimin özünün şəxsi məziyyətlərindən də bir-iki kəlmə demək istəyirəm. Biz Xanəli müəllimlə yol yoldaşı olmuşuq. Xanəli müəllim geniş düşüncəyə, dərin idraka malikdir. Şairlər şeiri emosiya ilə yazırlar. Bu mövqedə Xanəli müəllimin yüksək emosiyası vardır. Bu emosiya onun istər siyasi, istərsə də sevgi motivlərində yazdığı şeirlərində özünü büruzə verir. Onu deyim ki, Xanəli müəllim çox sürətlə zirvəyə doğru gedir. Bu amalla Xanəli müəllim müdrikliyə doğru gedir. Mənim çox sevdiyim bir ifadə var. Sokrat demişdir: *"Gözləmə ki, qocalıq sənə müdriklik gətirsin, onu cavanlıqda qazanmaq lazımdır".*

Bundan sonra biz Xanəli müəllimdən çox böyük yaradıcılıq gözləyirik. Xanəli müəllim elə sözlər, ifadələr işlədir ki, vaxtilə o sözləri, ifadələri bizim kəndlərdə köhnə kişilər işlədib, indi daha işlədilmir. O sözləri Xanəli müəllim bizə bəxş etmişdir. Xanəli müəllimə irəliyə çox inamlı addımlarla

gedir. Mən Xanəli müəllimə yaradıcılıq ömrü, cansağlığı, arzulayıram. Sağ olun.

***Aypara Behbudova:*** Çıxış üçün sözü pedaqoji elmlər namizədi Elbəyi Maqsudova veririk.

***Elbəyi Maqsudov:*** Əvvəla onu deyim ki, bugünkü tədbir Naxçıvan Dövlət Universitetinin ənənəvi tədbirlərindən biridir. Naxçıvan Dövlət Universitetinin rektorluğu bütün sahələrdə olduğu kimi, universitetdə elmi mühitlə yanaşı, ədəbi mühitin də inkişafına xüsusi qayğı və diqqət göstərir. Bu gün universitetimizdə keçirilən bu tədbir özlüyündə elmi və ədəbi bir tədbirdir.

Xanəli Kərimlinin 50 illik yubiley tədbiri, həm də onun ikinci kitabı - ***"Anamdan məktub"*** kitabının təqdimatı keçirilir. Mən geniş danışmaq istəmirəm. Xanəli müəllimin bu kitabında bütöv vətənpərvərlik kimi incə məqamlara toxunulub. Xanəli müəllimin şeirlərində təkcə yaşadığımız Vətəndən söhbət getmir. Ümumiyyətlə, böyük Vətəndən söhbət gedir. Azərbaycan torpağının bütövlüyündən söhbət gedir. Xanəli müəllimin bütün şeirlərində bu hiss, bu amal qırmızı bir xətt kimi keçir. Mən büyöv, böyük Vətən həsrəti ilə çırpınan şair qəlbinə öz qəlbimin də çırpıntısını qoşub bir şeirimlə çıxışımı yekunlaşdırmaq istəyirəm.

## BÜTÖVLÜK SORAĞINDA

***Vətəni bütöv olanı ürəyi də bütövdür...***
***misralarının müəllifi Xanəli Kərimliyə***

Körpə maral bağrı yanar,
Ovçu görsə yarağında,
Biz də sözlə alışırıq
Şeir sənət ocağında.

Çox düşərək bərkə-boşa,
Əlli ili vurdun başa,
Bundan sonra, qardaş, yaşa,
Yeni əlli marağında.

Zülmət görüb nə yol azdın,
Nə kimsəyə quyu qazdın.
İki gözəl əsər yazdın
Üyərinin çırağında.

Qəriblikdə daş da solur,
Ana, bacı saç da yolur.
Kəsilməyə baş da olur,
Bütöv Vətən sorağında.

Gün gələr ki, ta yanmarıq,
Ayrılığı heç anmarıq,
Təbriz üçün boylanmarıq,
Bir də Araz qırağında.

Onda bütöv olacaqsan,
Sevincindən dolacaqsan,
Tək nisgilli qalacaqsan,
Elbəyinin sorağında.

Arzu edirəm ki, bütün dərdlərimiz yox olsun. Bir-birimizin fərağında, sorağında olaq. Sağ olun.

***Aypara Behbudova:*** Çıxış üçün söz AMEA-nın müxbir üzvü Səfərəli Babayevə verilir.

***Səfərəlı Babayev:*** Hörmətli Xanəli müəllim, Sizin 50 yaşınızı, gənclik yaşınızı ürəkdən təbrik edirəm. Arzu edirəm ki, xalqımız Sizin ahıllıq yaşınızı, 100 illiyinizi qeyd etsin. İstəyərdim öz çıxışımı Sizin bir şeirinizlə başlayam. Xanəli müəllim yazır ki:

*Şair Haqqın yolçusudur.*
*Haqq yolu kəfən yoludur.*
*Kəfənin özü biçənin*
*Yolu da Vətən yoludur.*

*...Özüm özümə qibləgah,*
*Həm sevingəm, həm də ki ah.*
*Həm savabam, həm də günah,*
*Hər kəs kimsə, yolu odur.*

Xanəli müəllim, mən Sizi gənclik illərinizdən tanıyıram. Xanəli müəllim hər şeydən əvvəl gözəl insandır. Şair olmaq üçün də, alim olmaq üçün də vəzifədar olmaq üçün də gözəl insan olmaq lazımdır. Xüsusilə, mən Xanəli müəllimlə Samsunda Türk dövlətlərinin VIII mədəniyyət və işbirliyi qurultayında olanda onu daha yaxından tanıdım. Əlbəttə, yoldaş olanda insanı daha yaxşı tanımaq olur. Xanəli müəllim səmimi adamdır. Həyatda da, yazılarında da səmimidir. Bu kitab öz səmimiyyəti ilə başlayır. Öz həyatını burada ifadə edir. Atasının zəhmətkeşliyindən, anasının əllərinin manikürlü olmamasından, qaşov kimi qabar-qabar olmasından yazır. Xanəli müəllim universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Xanəli müəllim cəmiyyətə, həqiqətən, yararlı vətəndaşdır. İstər ictimai işlərdə, istər müəllim işlərində, istərsə də şairlik sahəsində əlindən gələni edir. Xanəli müəllimin hər şeiri haqqında yarım saat danışmaq olar. Mən bu kitabı bir neçə dəfə oxumuşam. Böyük qeydlərim var. Xanəli müəllimin yaradıcılığı çoxşaxəlidir. Xanəli müəllimin gözəl fəlsəfi fikirləri var. Onda xalqımızın siyası cəhətdən çəkdiyi dərdlər var. Qardaş türk xalqına olan məhəbbət vardır. Bir neçə şeirləri qardaş türk xalqına həsr olunub. Samsuna həsr olunmuş ***"Nə mutluyam", "İstanbulda düşüncələr"*** və s. şeirlərini göstərmək olar. Mən bir şeyi qeyd etməliyəm ki, Xanəli müəllimdəki fəlsəfi düşüncələri, fəlsəfi sözləri bir yerə yığasan, gözəl bir fəlsəfi kitab ortaya çıxar.

Xanəli müəllimdə hamımızı düşündürən və düşünməyə məcbur edən bir biganəlik məfhumu vardır. Xüsusilə, Vətən dərdlərinə, Vətən harayına heç kəs biganə yanaşmamalıdır. Bu ehtiyacdan, bu çağırışdan doğan ***"Biganəlik"*** şeirində şair yazır:

*İndi ha məşhərə çəkim özümü,*
*Ta satan satıbdır, alan da alıb.*
*Satan da, alan da kef içindədir...*
*Tək Vətən şərəfi ortada qalıb!..*

Kitabda Naxçıvan haqqında xeyli fikirlər var.

Xanəli müəllimin maraqlı şeirlər vardır. Məsələn, pul haqqında yazıb. Pul haqqında çox yazıblar. Amma Xanəli müəllim bu mövzuya müasir dövrümüz üçün tamam fərqli yanaşıb. Müasir dövrümüz üçün pulun həm mənfi, həm də müsbət cəhətinə Sabirsayağı yanaşıb. Bundan başqa, Xanəli müəllim təbiətin, cəmiyyətin yaralarından danışır. Araz haqqında da xeyli danışılıb, şeirlər yazılıb. Amma Xanəli müəllimin şeirləri tamam fərqlidir. ***"A Kür bacım"*** şeirində şair Arazın dərdlərini, ağrılarını daha fərqli bir biçimdə dilə gətirir. Araz Kürə müraciətlə deyir:

*Gündə bir kərpici düşən*
*Xudafərin körpüsünün*
*nisgilini ağlıyıram.*
*...Kimi mənə ağı deyir,*
*Kimi mənə yağı deyir.*
*Kimi də göz dağı deyir.*
*Eh... nə bilim...*
*Üzü dönsün bu dünyanın:*
*"Toxun acdan,*
*atlının da piyadadan nə xəbəri"*

Bu şeirlərin hər birini oxuyanda çox maraqlı olur. Məsələn, ***"Günəş dostluğu", "Dar ağacı", "Təzad"*** kimi şeirləri dərin fəlsəfi fikirlərə malikdir.

Mən, ümumiyyətlə, bir şeir həvəskarı kimi çox sevinirəm ki, Xanəli müəllim belə bir kitabı dünyaya gətirib. Onun belə bir kitabı işıq üzü görüb və onu həm kitabı, həm də bu yubileyi münasibəti ilə təbrik edirəm.

Lakin bəzi qeydlərimi demək istəyirəm. Əvvəla, Siz təbiətin gözəl guşələrindən olan təbiəti görmüsünüz, Batabatı görmüsünüz. Siz bizim gözəl guşələrimizdən olan Şahbuzda böyümüsünüz. Sizdə təbiət təsviri azdır. Onu çoxaldın. Çünki yaradıcılığınıza yaxından bələd olan bir coğrafiyaçı, bir təbiət adamı kimi görürəm ki, sizin buna imkanınız çatar.

Mən Sizə daha böyük nailiyyətlər arzu edirəm. Sənət yollarında, poeziya yollarında uğurlar arzulayıram. Sizə cansağlığı və xoşbəxtlik arzu edirəm.

***Aypara Behbudova:*** Çıxış üçün söz filologiya elmləri namizədi Hüseyn Həşimliyə verilir.

***Hüseyn Həşimli:*** Hörmətli Xanəli müəllim, hörmətli tədbir iştirakçıları.

Bu gün mənim üçün çox xoşdur ki, poeziyamızda öz səsi, öz dəst-xətti ilə özünəməxsus deyim və duyum tərzi olan istedadlı bir qələm sahibinin ikinci kitabının təqdimat mərasiminə toplaşmışıq və bu mərasim də çox əlamətdardır ki, şairin əlli illik yubiley mərasimlərinə təsadüf etmişdir. Mən etiraf edim ki, Xanəli müəllimin şeirlərini onun özündən əvvəl tanımışam. 1985-ci ildə "Azərbaycan müəllimi" qəzetinin 20 sentyabr tarixli sayında *(o zaman mən 4-cü kursda oxuyurdum)* "Toğluqayanın Məmməd Araza məktubu" adlı şeiri çap olunmuşdur. Həmin şeiri o zamanın tələbələrinin çoxu əzbərləmişdir. Və qiyabi şəkildə bildik ki, bu qələm sahibi bizim həmyerlimizdir. "Azərbaycan müəllimi" qəzetinin 4-cü səhifəsində yazılmışdı. Şeirin altında Xanəli Kərimli və Naxçıvan sözləri, daha doğrusu, Şahbuz yazılmışdır. Daha sonra, iş elə gətirdi ki, Xanəli Kərimli ilə ikinci qiyabi tanışlığım "Ulduz" jurnalında dərc edilən "Cənubi Azərbaycanda demokratik nəsrin ilk addımları" adlı məqaləsi ilə oldu. Namizədlik dissertasiyası ilə bağlı idi. Və tale ilə gətirdi ki, üçüncü tanışlığım şəxsən oldu. Akademiyanın Ədəbiyyat İnstitutunda 80-ci illərin ikinci yarısında. Xanəli müəllim yəqin ki, xatırlayar, İnstitutun direktoru Yaşar müəllimin qəbuluna növbəyə durmuşduq. Xanəli müəllim məndən əvvəl idi. Müdafiə ərəfəsi idi, əlində sənəd vardı, onu imzalada-

caqdı. Tam səmimi deyirəm, bax, elə də səmimi qəbul edin. Uzaqdan gördüm, yaxınlaşdım ki, Siz naxçıvanlısınız? Və sonra məlum oldu ki, bəli, elə naxçıvanlıdır. Elə o zamanlardan bizim çox səmimi əlaqələrimiz yarandı. Bu giriş xarakterli söhbəti ona görə xatırladıram ki, Xanəli müəllimin şeirlərinin özü oxucu diqqətini cəlb edir. Xanəli müəllimin elmi məqalələrinin özü elmi-ictimaiyyətin diqqətini cəlb edir. Şeirlərində də, elmi araşdırmalarında da Xanəli müəllimin mənim fikrimcə, ən böyük üstünlüyü, bənzərsizliyi vardır. Xanəli müəllimin namizədlik dissertasiyası elə bir vaxta, elə bir mövzuda yazıldı ki, o zaman hər adam o mövzuda dissertasiya yaza bilməzdi. O cəsarət çox az adamda tapılardı. Sovet dövründə Cənubi Azərbaycan ədəbiyyatından dissertasiya yazan tək-tək Azərbaycan ədəbiyyatşünaslarından biri Xanəli müəllim idi. Bu da bir tale qisməti, bu da bir simvoliklik idi ki, Şimali Azərbaycanda yaşayan Xanəli Kərimli Cənubi Azərbaycan nəsrindən dissertasiya yazdı, uğurla müdafiə etdi. Elmi rəhbəri də cənublu oldu. Rəhmətlik professor Həmid Məmmədzadə. Xatırladım ki, Xanəli müəllimin bu araşdırmaları bu gün də davam edir. Xanəli müəllim doktorluq dissertasiyası üzərində çalışır. Yəni şairliklə bərabər bir ədəbiyyatşünas kimi araşdırmalarını da davam etdirir. Xanəli müəllimin ali məktəbdə Cənubi Azərbaycan ədəbiyyatının tədrisi metodikası adında çox maraqlı elmi-metodiki kitabi da çap olunub, bugünkü araşdırmaların məntiqi nəticəsi kimi.

Həm duyum. həm də deyim tərzinin yeni şəraitdə davamı və inkişafı son vaxtlara qədər, ədəbiyyatşünaslığın ifadəsi kimi desək, neosufizm mərhələsini səciyyələndirdən nümunələr də birbaşa Xanəli müəllimin işi ilə özünü göstərir. Xanəli müəllim Azərbaycan xalq aşıq şeirinin, folklor ənənələrinin dərin bilicisi olan həm ədəbiyyatşünas, həm də qələm əhli kimi, şair kimi göz önündə dayanır. Kitaba yazdığı ön sözdə də qeyd edib: nağılların, əfsanələrin, xalq rəvayətlərinin uşaqlıqdan dinləyicisi olan, belə bir mühitdə böyüyən şairin şeirlərindən də, yaxşı mənada, folklor ətri gəlir. Hətta onun ayrı-ayrı şeirləri vardır ki, nağıllar, xalq əfsanələri, məsəllər,

rəvayətlər əsasında yazılıb. Bu meylin davamı kimi Xanəli müəllimin müasir nağıl sayıla bilən şeirləri də var.

Xanəli müəllimin şeirlərində bir cəhət də diqqəti cəlb edir. Bu da şair üçün diqqətəlayiq önəmli cəhətlərdən biridir. Hətta ən adi predmetlərin, ilk baxışla adi gözlə görünməyən hadisələrin və detalların poetik mənasını bədii sənət dili ilə açıb göstərməsi Xanəli müəllimin diqqətəlayiq xidmətləri kimi göz önündə dayanır. Hətta çoxumuzun fikir verməyimiz elə detallar var ki, Xanəli müəllimin onlara poetik məna verir. Məsələn, bir qədər də simvolik forma olsa çoxumuz küçələrdə dolaşanda sahibsiz küçə itlərini görürük. Amma fərqinə varmamışıq ki, şair də bunun fərqinə varar. Bu poetik duyğuda bir assosiyasiya, bir rabitə var. Şairin xəyalına gəlir bu küçə itləri, sahibsiz və hətta ziyanvericiliklə məşğul olan küçə itləri. Bir zamanların ulu keçmişimizdə bəy babaların ov mərasimlərinin qəhrəmanı sayıla bilən ov itləri olub. O cəsurluğun, o cəsarətin yerini indi sahibsiz küçə itləri tutub. Şairin poetik yozumunda bunlar arasında təzadlı məqamlar bədii sənət dili ilə diqqət mərkəzinə çəkilir.

Xanəli müəllim, Səfəralı müəllim çox dəqiqliyi ilə qeyd etdi, kənd şairidir. Kənddə böyüyüb boya-başa çatan və elə uşaqlıqdan yaddaşına kənd ovqatı, kənd psixologiyası yazan və bu gün də şeirlərində yaşadan bir şairdir. Və bu poetik yaşatmanın bətnində bir az da nisgil də var, bir az həsrət də var, bir az övlad borcunu daha yaxşı yerinə yetirə bilərdim arzusundan doğan ifadələr var. Xanəli müəllim kəndin uzaqdan seyircisi deyil, kəndin ağrıları ilə, problemləri ilə ovqatı ilə yaşayan bir şairdir. Bu mənada müzakirəsinə toplaşdığımız kitabın ən dəyərli nümunələrdən biri kimi ***"Təbil"*** poemasını qeyd etmək lazımdır. 1970-ci illərin Azərbaycan poeziyasında kənd həyatına, kənd mühitinə, kəndin ağrı-acısını duymaq və kəndi yaşatmaq istiqamətində çağırışı baxımından Məmməd Arazın ***"Atamın kitabı"*** xüsusi rol oynadı. Mən əminəm ki, bu kitab yenicə çap olunubdur. Xanəli müəllimin ***"Təbil"*** poeması müasir Azərbaycan poeziyasında kənd mövzusunda uğurlu təcəssümlərindən biri kimi geniş səs-səda doğu-

racaq. Əlbəttə, Xanəli müəllimin bu kitabda toplanan bədii nümunələr barədə çox geniş danışmaq mümkündür. Çünki şairin özü də, ön sözdə qeyd etdiyi kimi, sözü zorlayan şair deyil, sözü zorla ipə-sapa düzən şair deyil, təbii və ilk istedadın gücü ilə yazan şairdir. Bu yığcam sözlərimin sonunda Xanəli müəllimin özünün kitabına yazdığı qeydlərdən birini xatırlatmaq istəyirəm: *"Tələbələrim məndən tez-tez soruşurlar: "Yaradıcı adamlar üçün istedad əsasdır, yoxsa zəhmət". Həmişə cavabım birmənalı olub: Hər ikisi, üstəgəl şəxsiyyət".* Bu mənada, Xanəli müəllim sayı çox olmayan Azərbaycan şairlərindəndir ki, istedadla zəhmətsevərliyi və bunların hamısından ucada duran bir nəcib şəxsiyyəti bir-birini tamamlayır.

Əlli yaşını tamamlayan Xanəli müəllimi bizim tələbələrimiz adından, onun poeziyasının pərəstişkarları adından təbrik edirik, uzun ömür, cansağlığı, bundan sonrakı ədəbi fəaliyyətində də, yeni-yeni kitablar ilə görüşə gəlmək arzusu ilə də bir daha təbrik edirəm.

***Aypara Behbudova:*** Bu gün mən Xanəli müəllimlə bağlı bir xatirəni danışmağı özümə borc bilirəm. Mən Xanəli müəllimin tələbəsi olmuşam. Bizdə mətbuat tarixini tədris edirdi. Lap dəqiqliyi ilə desəm 1997-ci lin yanvar ayının 13-də bizdən imtahan götürürdü. Sualların ikisini danışdım. Birdən mənə belə bir sual verdi. De görüm Naxçıvanda hansı şairləri tanıyırsan? Mən yalnız bunlardan üçünün adını çəkə bildim. Bərk əsəbiləşdi və dedi: *"Dəhşətdi. Naxçıvanlı olasan, Naxçıvandakı şairləri tanımayasan." Qiymət kitabçasını əlimə verdi və dedi ki: "Mən sənə qiymət yazmayacağam".* Bəlkə də bir az kobud səslənəcək, amma mən Xanəli müəllimə dedim ki: *"Xanəli müəllim, biz bu gün mətbuat tarixindən imtahan veririk, yoxsa, Naxçıvan şairlərindən?"* Ancaq onu da deyim ki, şairlərdə başqa insanlara xas olmayan bir xasiyyət olur. Onlar tez kövrəlirlər. Ümumi zala sual verdi, gördü ki, hamı mən gündədir. Qiymət kitabçamı aldı və könülsüz-könülsüz bir dörd (4) yazdı. Universitetin həyətində şairə Kəmalə Ağayeva ilə qarşılaşdım. Kəmalə Ağayevanın bacısı Aybəniz Ağayeva mənimlə bir kursda idik, amma qrupları-

mız ayrı idi. İmtahanın gedişini soruşdu, dedim ki, Naxçıvan şairlərindən sual verdi, bilmədim. Kəmalə Ağayevanın rəngi dəyişdi, dedi necə yəni bilmədin? Kəmalə müəllimə mənə dedi, haralısan? Dedim ki, Şahbuzdan. Dedi, öz həmyerlini tanımayandan sonra məni haradan tanıyacaqsan? Doğrusu, bu dəhşətin nədən ibarət olduğunu bilməyə-bilməyə sağollaşıb ayrıldıq. Səhərisi günü Kəmalə Ağayeva özünün ***"O dağlarda gözüm qaldı"*** şeir kitabını hədiyyə yazıb göndərmişdi. Sizi inandırım ki, 165 səhifədən ibarət olan o kitabı mən dörd gün ərzində əzbərlədim. Tale elə gətirdi ki, işim kitabxanada müasir ədəbiyyatla bağlı oldu. Sizin də şeirlərinizi tapıb oxudum və düşündüm. Şair qarşısında oturub şairi tanımamaq, dəhşətdən də dəhşət imiş. Bu dəhşəti anladığım üçün, bu dəhşətin təkrar olunmaması üçün Sizin üçün, kitabxana kollektivinin köməyi ilə bugünkü məclisi təşkil etdim. Nəinki Sizin şeirlərinizi, kitablarınızı, hətta doğulduğunuz günü, ayı, ili, məkanı belə tanıtmaq üçün:

*Günahkaram,*
*nə əmr etsən hazır durmuşam.*
*Ucalıqdır bağışlamaq, bağışla məni.*
*Necə deyim, dar ayaqda könül qırmışam.*
*Dəlisiyəm, kövrək bulaq bağışla məni.*
*Ucalıqdır bağışlamaq, bağışla məni.*

***Aypara Behbudova:*** Çıxış üçün söz Mehriban Sultanovaya verilir, universitet elmi kitabxanasının işçisi.

***Mehriban Sultanova:*** Bu gün biz fəxrlə deyə bilərik ki, universitet ədəbi mühiti Naxçıvan ədəbi mühitində özünəməxsus və xüsusi yer tutur. Bu ədəbi mühitin Əbülfəz Muxtaroğlu, Elbəyi Maqsudov, Xanəli Kərimli kimi, eyni zamanda onların bugünkü davamçıları olan Elxan Yurdoğlu, İlqar Qulubəyli kimi nümayəndələri artıq oxuculara tanışdır. Və digər bir tərəfdən, bu ədəbi qüvvəni lazımınca dəyərləndirən, onu saf-çürük edən başda hörmətli alimimiz İsa müəllim olmaqla Hüseyn Həşimli kimi, Seyfəddin Eyvazov kimi, Yavuz Axundlu

kimi bizim ədəbiyyatşünas tənqidçilərimiz məhz bu universitet mühitində mövcuddur. Bu gün 50 illik yubileyinə toplaşdığımız şairin həm də oxucularla ikinci görüşü olan ***“Anamdan məktub”*** adlanan şeir kitabının müzakirəsinə yığışmışıq. Mən bu kitabı oxuyarkən onu şairin daxili monoloqu, içindən gələn etirafı adlandırmaq olar. Hər şeydən əvvəl, şair vətənini, millətini sevən, vətəndaş bir şairdir. Onun elə bir şeiri yoxdur ki, onun hər sətrində, hər sözündə vətəndaş şair olduğunu duymamış olaq.

*Nə zamandır “döyüş” gedir*
*“xeyir”lə “şər” arasında,*
*Əvəzində neçə fəsad*
*rişə atıb*
*bu millətin yarasında.*
*“Xeyrimiz” də millət deyir,*
*“Şərimiz” də millətdir,*
*Qaçanın da millətdir deyir,*
*Qovanın da millətdir.*
*Canıyla əlləşən millət,*
*qalıb yollar arasında...*

Mənə elə gəlir ki, bugünkü millətin yaşantılarını, bugünkü aqibətini bundan cəsarətli, bundan dolğun təsəvvür etmək mümkün deyil.

Xanəli müəllim bəşəri hisslərlə yaşayan şairdir. Onun bəşəri ideyaları təbliğ edən şeirlərini oxuduqca İsa müəllimin bu sözlərini bir daha təsdiqlədim ki, əyalətdə yaşamaqla, əyalətçi düşüncəyə malik olmaq eyni mənaya malik deyil. Və yaxud da, Məmməd Arazın yenicə çapdan çıxmış *“Sənətdə son mənzil olmur”* kitabında Aşıq Ələsgər haqqında yazdığı kimi, uzaq əyalət mühitindən də mənzili görmək olar və dünyanın diqqətini ora yönəltmək olar. Və bu halı Xanəli müəllimin yaradıcılığına da şamil etmək olar. Xanəli müəllimin fəlsəfi görüşləri ilə, zəngin məna çalarları ilə yüklənmiş şeirləri ilə bağlı burada xüsusilə danılışdı. Xanəli müəllim xalqa bağlı

olan, xalqın qayğı və düşüncələrini şeirə gətirən bir şairdir. O yaratdığı zəngin xəzinə ilə özünü də mənəvi dünyasını daha da zənginləşdirir. Onun müxtəlif məna çalarlarında işlətdiyi frazalar bu gün dilimizin söz ehtiyatını artırır. Məsələn, *"üzü bazar, içi azar dünya", "Tanrının törəsi"," dünyanın dərd anası"* və sair kimi frazalar *(bunların sayını daha da artırmaq olar)* yer almışdır ki, dilçilik baxımdan onların hər birinin özlərinə məxsus araşdırma dəyəri vardır.

Xanəli müəllimin yaradıcılığı yumşaq lirikadan ibarət deyil. Yəni, özünün də dediyi kimi, sərt poeziyadır. Xanəli Kərimlinin yaradıcılığı bu gün bizə imkan verir deyək ki, Xanəli Kərimli Rəsul Rza məktəbinin yetirmələrindəndir. Mənim fikrimcə, Xanəli müəllimin yaradıcılığındakı Məmməd Araz, Rəsul Rza ruhu da burdan gəlir. Yəni Xanəli müəllimin şeirlərində mübarizlik, istiqlal mübarizəsi vardır. Eyni zamanda Rəsul Rzaya məxsus əqidə, şəxsiyyət bütövlüyü vardır. Rəsul Rza ilə bağlılığı bir də ondan irəli gəlir ki, onun sərbəst şeir vəznində yazdığı bitkin şeirləri bu gün bizə imkan verir deyək ki, Xanəli müəllim Rəsul Rza məktəbinin layiqli davamçısıdır. Xanəli müəllimin ***"Ağrı"*** şeiri ən yaxşı şeir kimi nümunə göstərilə bilər.

*Yalquzaq qurd kimi*
*düşmüşəm şəhərin ağına,*
*Baxmıram, nə soluma, nə sağıma,*
*Ağlım ayaqlarımın ucunda,*
*əllərim arxamda,*
*bir birinin ovcunda.*
*Havalı adamlar kimi*
*hərdən*
*öz özümə oxuyuram da.*
*Kiminsə arxamca*
*güldüyünü duyuram da.*
*Ayaqlarım girdan düşəndə,*
*Dizlərim dözməyib büküləndə*
*otururam bir skamyada*
*tək-tənha.*

*İçimdən bir səs gəlir--*
*Təvəkkül Allaha...*
*Yanımdan ötüb keçirlər,*
*dəstəbədəstə.*
*Hərə öz hayında,*
*hərə öz dərdində.*
*Günah bilmirəm*
*əsla heç kəsdə.*
*Nə ötüb keçənlər tanıyır məni,*
*Nə də mən ötüb keçənləri.*
*Fikirləşirəm... bu şəhərdə*
*yaşımın bu qürubunda*
*nə təzə dost tapmalı gündü,*
*Nə də dostsuz yaşamaq mümkündü.*

Xanəli müəllimin yaradıcılığının özünəməxsusluğu bir də ondadır ki, o təzadların çox gözəl müqayisəsini, poetik təsvirini verməklə bu iki tərəfi məharətlə qarşı-qarşıya qoymuş olur. Mən ona bu yaradıcılıq yolunda uğurlar və uzun ömür arzu edirəm. Sağ olun, Xanəli müəllim.

***Aypara Behbudova:*** Söz Ədəbiyyat kafedrasının müəllimi Yasəmən İsmayılovaya verilir.

***Yasəmən İsmayılova:*** Müəllimim, xarici tələbələr üzrə dekan, universitet rektorluğunun və ixtisaslaşdırılmış şuranın üzvü, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Muxtar Respublikamızın millət vəkili və nəhayət şair Xanəli Kərimlinin 50 illik yubileyinə və onun ikinci kitabı olan ***"Anamdan məktub"*** kitabının müzakirəsinə toplaşmışıq. Mən də bu təntənəli və əziz gündə Xanəli müəllimə öz ürək sözlərimi deməyi borc bilirəm. Xanəli müəllimi mən 1994-cü ildə Ədəbiyyat kafedrasına müəllim gəldiyim ildən tanıyıram. Biz bir-birimizi dərslərimizdə tanımışıq. Mən fikir vermişəm, Xanəli müəllimdə yüksək keyfiyyətlərdən başqa heç bir şey tapmaq olmaz. Tələbələri incitmək, get-gələ salmaq kimi mənfi şeyləri mən Xanəli müəllimdə görməmişəm. Ona görə mən Xanəli müəllimi bir yaxşı vətəndaş kimi, xalqına, Vətəninə yararlı bir

övlad kimi görmüşəm. Düzdür, biz Xanəli müəllimin ***"Anamdan məktub"*** kitabının müzakirəsinə toplaşmışıq, ancaq Xanəli müəllim bundan əvvəl 1998-ci ildə "Yazıçı" nəşriyyatı tərəfindən çapdan çıxmış ***"Ay işığında"*** kitabının da adını bu kitabla birlikdə çəkmək istəyirəm.

Şair uşaqlıq illərini çətinliklə keçirmiş, böyük bir ailədə doğulmuş, bu ailənin çətinliklərini gözləri ilə görmüş, həyatın çınqıllı, daşlı yollarını özü öz iradəsi ilə keçərək bu həyatda yaşamağı və yaşatmağı bacarmışdır. Siz inanın ki, ədəbiyyatımızda bu cür şairlər həmişə yüksək mövqedə dururlar. Biz bunun timsalında keçmişə qayıtsaq, XIX əsrin sonu, XX əsrin əvvəllərinə qayıtsaq, Sabir yaradıcılığında da onun həyatının nə qədər keşməkeşli olduğunu görərik. Klassik ədəbiyyatımızda Fizulidə də biz bunu görürük. Xanəli müəllimin həyatında ailədən, evdən gələn elə çətinliklər olubdur ki, Xanəli müəllimi şair edən də məhz bu çətinliklərdir. Ona görə də biz Xanəli müəllimin şeirlərini oxuyanda onun vətənə-torpağa bağlılığını daha çox görür və duyuruq. Onun ***"Şahbuzum", "Qoşa bulaq", "Dərələr boyunca"*** və s. şeirlərində biz bunu aydın görürük.

*Köz almışam ocağının gözündən,*
*Çox öpmüşəm, bulaqların gözündən.*
*Yaş ötsə də, üzüm dönməz uzundan,*
*Bu dünyada sənsən tale ulduzum,*
*Şahbuzun, ay Şahbuzum.*

Bu misralarda şairin öz doğma yurduna, kəndinə, onun kəklikotulu dərələrinə körpə ikən olan bağlılığının, uşaqlıq illərinin təbiət vurğunluğununun bir daha şahidi oluruq. ***"Anamdan məktub"*** kitabının ilk səhifələri ***"Məramsız yaşamaq"*** şeiri ilə diqqəti çəkir. Bu şeiri oxuyanda görürsən ki, bu dünyada məqsədsiz, məramsız heç nə yoxdur. Hərənin bir arzusu vardır. Şair deyir ki:

*Məramsız millətin əzəldən bəri,*
*Başında qoz qırıb məramlı millət.*
*Vətənin də alıb, şanın da alıb,*
*Əvəzində verib dərdü- səfalət.*

Şair həmişə öz şeirlərini bugünkü gəncliyə ərməğan edərək deyir ki,öz məqsədinizdən, məramınızdan heç vaxt dönməyin.

Xanəli müəllimim şeirlərində vətən duyğuları ilə yanaşı, anaya, bacıya məhəbbət, onun həyatdan vaxtından əvvəl köç etmişlərinin xatirələrinə olan sosuz ehtiram hissi də diqqəti cəlb edir. Bu mövzuda yazdığı şeirləri oxuyarkən istər-istəməz düşünürsən, duyğulanırsan, kövrəlirsən.

*"Anamdan məktub"* şeirində şair bütün analarımızın obrazını ümumiləşdirərək onların ürəyindən keçən arzuları, niskilləri öz anasının dili ilə deyir:

*Yaman soyumusan, kənddən kəssəkdən,*
*Yadlar tək,bir quru salamın qalıb.*
*Yadına düşürmü, məni o kənddə,*
*Bir həzin laylamı çalanım qalıb?..*

Bu şeirdə nə qədər böyük bir məna vardır. Şair bu sözləri ilə bütün gəncliyi, bütün xalqını öz anasının başına çağırır və bugünkü gəncliyin də öz anasının qədrini bilməsini istəyir. *"Anamdan məktub"* kitabında daxil olan şeirlər mövzu və forma baxımından da rəngarəngdir. Burda, demək olar ki, şeirlər bir-birini məzmun və ideya baxımından tamamlayır. Burda hər bir şeirin öz məna çalarlığı vardır. Bu şeirlər içərisində diqqəti çəkən şeirlərdən biri də *"Sağlığına"* şeiridir. Demək, bir tələbə şairə sual verir deyir ki, şair, mən bilmək istəyirəm, Məmməd Araz yüksəkdir, yoxsa Xəlil Rza Ulutürk? Şair deyir ki, bu sualın qarşısında bir anlıq özümdən utamdım, qısıldım. Tələbələr də hiss etdilər ki, mən pis vəziyyətə düşdüm. Axı, biz nəyə görə şairlərimizi bir-birindən üstün tutmalıyıq. Hər şairin öz dünyası, öz dəsti- xətti var, hər birinin həyata,

cəmiyyətə, dünyaya öz baxışı var. Bəs deyilmi, biz böyük şəxsiyyətlərimizi qarşı-qarşı qoya-qoya məhv elədik?..

Mən Xanəli müəllimdə Məmməd Araz ruhu görürəm. Məmməd Araz da Şahbuz torpağının yetirməsidir, Xanəli Kərimli də. Buna görə də, əminliklə deyə bilərəm ki, Xanəli müəllimin şeirlərində Məmməd Araz duyumu daha çoxdur. Bundan başqa, ustad Şəhriyarın, Xəlil Rza Ulutürkün də duyumunu biz bu şeirlərdə hiss edirik.

Nəhayət, mən sözümü Xanəli müəllimin bu 50 illik yubileyində ona yazdığım bir şeirlə tamamlamaq istəyirəm:

*Həyata gözünü açdığın gündən,*
*Ağrılar açılar həmdəmin olub.*
*Zamanın girdabı, dərdi, kədəri,*
*Sənin həm sevincin, həm qəmin olub.*

*İllər gəlib keçdi, neçə bu illər,*
*İllərin yükünü tək çəkdin, qardaş,*
*Vaxtsız dən düşəndə qara saçlara,*
*Kövrəltdin ananı, bacını, qardaş.*

*Bəzən öz- özünə xəyala daldın,*
*Sən millətin, xalqın qeydinə qaldın.*
*Vətənə baş əydin, Haqqa ucaldın.*
*Haqqın yanındadır məqamın,qardaş.*

*Ömrün dolanbaclı bu yollarında,*
*Özünə düz yolu seçmisən, qardaş,*
*Xalqımın gələcək səadətiçün,*
*Borandan, çovğundan keçmisən, qardaş.*

*Ömrün 50 ilin yola salırsan,*
*Bu ömür özü də tale qisməti,*
*Sən öz qələmində, əsərlərində,*
*Yaşatdın zamanı, əbədiyyəti.*

Gün o gün olsun 100 illiyinizi qeyd edək!.. Sağ olun!..

***Aypara Behbudova:*** Çıxış üçün söz AMEA-nın müxbir üzvü, universitetimizin rektoru İsa Həbibbəylinindir.

***İsa Həbibbəyli:*** Bu görüş mənim üçün də əlamətdar və qiymətlidir. Birinci ona görədir ki, artıq mən görürəm ki, bizim kitabxanamız, universitetimizin kitabxanası öz statusuna uyğun olaraq, nəhayət kitabxana və təhsil və tədris vəhdətini yaratmaq istiqamətində faydalı işlər görür. Yeni kitabların təqdimatı istiqamətində kitabxananın işlərini mən də qiymətləndirirəm. Universitetimizin kitab yazan müəllifləri sırasında qabağa düşməkdə, onları auditoriyalara çatdırmaqda, onlara meydan verməkdə kitabxana işini qiymətləndirirəm. Düzdür, bu görüş kitabxanada olmalı idi. Ancaq iqlimlə, hava ilə əlaqədar burda keçirdik. Burda keçirtmənin də öz əlaməti vardır. Bu kitabların ən yaxşı oxucusu bu fakültə olmalıdır. Mən qeyri fakültələrin şeir oxumadıqları qənaətində deyiləm. Əksinə, bəzən qeyri-ixtisas fakültələrində elə mütaliəçi müəllimlər, tələbələr olur ki, hətta ədəbiyyatçılar onlardan geri qalır. Təzə çıxan kitabları bəzən elə ondan soruşurlar. Amma hər halda ədəbiyyatçıların borcudur kitab oxumaq. Onların işidir bu. Ona görə bu gün bu kitabın müzakirəsinin tarix-filologiya fakültəsində keçirilməsini də tamamilə məntiqi və qanunauyğun hesab edirəm. Nəzərə alsaq ki, həm də müəllif də bu fakültənin müəllimidir, onda bu görüşün burada keçirilməsi tamamilə öz yerinə düşür.

Mən Xanəli müəllimin yaradıcılığını bir neçə ildir ki, izləyirəm. Tələbəlik illərindən Xanəli müəllim nə yazıbsa onu oxumuşam. Və Xanəli müəllimin bu kitabını oxumamışam. Amma tamam kamal vərəqləmişəm. Ancaq mən bu kitabı oxumuş hesab edirəm. Çünki müxtəlif illərdə Xanəli müəllimin yazıları mətbuatda çap olunub. Mən də bunları oxumuşam. Artıq ***"Ay işığı", "Anamdan məktub"*** kitabları, dövrü mətbuatda çap olunan şeirləri Xanəli müəllimin yeri və mövqeyi haqqında söz deməyə ədəbiyyatşünaslığı möhtac edir. Burda bizim kitabxanaçı müəllimənin çıxışının müəyyən bir hissəsini mən dinlədim. Çox səmimi və elmi məruzə idi. O da çalışırdı ki, adi kitabxanaçı gözü ilə baxsa da, Xanəli

müəllimin yerini müəyyən eləsin. Gəldiyi nəticə bu oldu ki, Xanəli Kərimli Məmməd Araz məktəbindən keçib. Mən də bu barədə öz fikirlərimi demək istəyirəm.

Xanəli müəllimin birinci kitabında bunları demək bir az çətin idi. Çünki o kitab ötəri həvəslərin də məhsulu ola bilər. Artıq bu kitab Xanəli müəllimin ədəbiyyatdakı siması, yeri haqqında düşünməyə, söz deməyə imkan yaradır. Bu mənada onu deyim ki, Xanəli müəllimdə Məmməd Araz notları görünür. Ancaq mən o fikirdə deyiləm ki, Məmməd Arazla eyniyyət təşkil edir. Bu qətiyyən belə deyil. Məmməd Arazdan bəzi elementlər var. Mən Xanəli müəllimin lirikasında İslam Səfərlinin də təsirini görürəm. Onun təbiət lirikasında, təbiətlə bağlı şeirlərində İslam Səfərli elementləri var. Hətta, mən Əhməd Cəmildən də gələn elementlər görürəm. Belə-belə elementləri saysaq az qala Xanəli müəllimin özünə heç nə qalmayacaq. Amma bu fikirdəyəm ki, Xanəli müəllim nə Məmməd Arazdır, nə İslam Səfərlidir, nə də Əhməd Cəmildir. Mən yalnız Xanəli müəllimi onun özünə bənzədirəm. Məncə, Xanəli Kərimli epik ünsürləri lirik məcraya gətirən, epik elementlərlə lirikanın mənbəyini yaradan yeni tipli bir şairdir. Xanəli Kərimlidə lirika var, aparıcıdır, tərənnüm var, Şahbuzu, Vətənimizi, adi detalları da lirik baxımdan, mənalandırmaq baxımından üstünlüyü var. Digər bir üstünlüyü Xanəli Kərimlidə təsvir vardır. Bütün şeirlərinə fikir versən təsvir vardır. Bundan başqa, süjetli şeirləri demək olar ki, yox kimidir, amma lirik tərənnümdən çox epik təhkiyə üslubunu da deyirəm, nağılvari ifadə şeirləri xeyli sayda çoxdur. Xanəli Kərimlidə təhkiyənin epikliyi, fikrin lirizmi vardır. Saysaq, mən Məmməd Arazda bu üstünlükləri görmürəm. Olsa-olsa, Əhməd Cəmildə vardır. Onda isə süjetlə birləşir. O hadisə danışır. Xanəli Kərimli isə əhvalar gətirməyən epik şeir yazan şairdir. Xanəli Kərimli tamam özüdür, heç kəs deyil. Naxçıvanda yaşayanların heç birində mən bu keyfiyyəti görmürəm. Böyük bir qismində Məmmən Araz məktəbi, böyük bir qismində Hüseyn Razi məktəbi vardır. Böyük bir qismişdə sərbəst şeir elementləri gördüm.

Xanəli Kərimlinin şeirlərdən başqa onun özünü təsdiqləyən digər iki element də vardır. Birincisi budur ki, Xanəli Kərimli öz kitabına özü nəsirvari bir ön söz yazır. Baxmayaraq filologiya elmləri namizədidir, özünün də yazdığı elmi deyildi. Lirik nəsrdir. Epik və lirik elementləri müqəddimə də özündə birləşdirir. Xanəli Kərimlinin poema adlandırdığı əsərlərdə bu iki cəhət də vardır.

Xanəli Kərimlinin bu kitabı artıq onun özü haqqındadır, üslubu haqqındadır. Şəxsi mənliyi haqqında, yeri haqqında, müşahidə aparmağa imkan verir və bizim ədəbiyyatımızda bu tipli şair hələ ki, yoxdur. Bu gün Naxçıvan ədəbi mühitində bu tipdə yazan başqa şairimiz yoxdur, bu mənada hərədən bir az vardır. Bu qaydadır, Nizamidən, Fizulidən olmalıdır ki, özündən əvvəlki ədəbiyyata söykənsin. Amma kimlərdən faydalansa da axır ki, özüdür. Xanəli Kərimlinin təbiətində nasiranə bir lirika vardır. Təmkindən əlavə mən bunu hiss elədim. Xanəli Kərimli özünü ədəbiyyatda tapmış adamdır. Bir insan ki, əlli yaşa kimi özünü tapmadısa, daha nəyə lazımdır. Çox təəssüf ki, elə şairlərimiz vardır ki, hələ də onu-bunu yamsılaya-yamsılaya gedirlər. Özləri ola bilmirlər. Bir kitabla bunu demək çətin idi. Amma bu ikinci kitab, onun əlli illiyinə hazırlanan kitab Xanəli Kərimlinin kim olduğunu ortaya qoyur.

Xanəli Kərimlinin şeirlərində təmizlik yaşayır. Məncə, bu, Xanəli müəllimin özündən gəlir. Xanəli müəllim, özü təmiz, pak insandır. Xanəli müəllimin şeirlərini oxuyanda Batabatın, onu əhatə edən Şahbuzun havasını, mühitini, əxlaqi-mənəvi təmizliyini, poetik saflığını, ideya saflığını bu şeir kitabında da görmək olar. Xanəli müəllim öz oxucuları ilə görüşə təkcə bir kitabı ilə yox, pak, duru, təmiz qəlblə gəlir. Şəxsiyyət, məncə, böyük amildir. Bunu qorumaq, saxlamaq çox böyük bir sərvətdir. Çox yaxşı haldır ki, Xanəli müəllim bu gün həm kitabı ilə, həm də şəxsiyyəti ilə hesabat verir. Kitabda çoxlu şairlərə xitabən şeirlər var. Bəxtiyar Vahabzadədən tutmuş bir çox şairlərə xitabən şeirlər var.

Mən Xanəli müəllimi təbrik edirəm. Ona cansağlığı və yaradıcılıq uğurları arzu edirəm və əlli yaşını təbrik edirəm.

Bizim universitetdə əlli yaş keçirtmək ənənəsi yoxdur. Çünki bizim universitet uzunömürlülər universitetidir. Bizdə adətən 60, 65, 70, 75, 80 yaşlıları qeyd etmişik. Hətta Lətif müəllimin 95 yaşını qeyd eləmişik. İnanıram biz yüz yaşını da qeyd edəcəyik. Ancaq Xanəli müəllimin 50 yaşını qeyd etmək qadağan deyil. Sadəcə universitet səviyyəsində qeyd edə bilmirik. Amma Xanəli müəllim bu gün yetkin, hərtərəfli inkişaf etmiş ziyalıdır ki, mən özümə borc bildim ki, gəlim, onun əlli illik yubileyində də iştirak edim, onu ürəkdən təbrik eləyim, ona əlli yaşın da, kitabın da mübarək olsun deyim, ona can-sağlığı uzun ömür arzu edim.

# XANƏLİ KƏRİMLİNİN 60 İLLİK YUBİLEYİNDƏN

*(Naxçıvan Dövlət Unuversiteti, 03 dekabr 2011-ci il)*

***İsa Həbibbəyli (rektor, akademik):*** Əziz tələbələr, əziz qonaqlar. Muxtar Respublikamızın yazıçıları, şairləri, tanınmış elm adamları, ziyalıları burdadır. Bəlkə başqa yerlərdən də qonaqlarımız olduğunu görürəm. Bu səbəbsiz deyil. Xanəli Kərimli Naxçıvan Dövlət Universitetinin dosentidir. Şairin yaradıcılığının bir göstəricisi də elə bu tərkibdə burda bizim qonaqlarımızın və iştirakçılarımızın təmsil olunması ilə bağlıdır. Söz yox ki, Xanəli Kərimli Naxçıvan elmi mühitində yetişən tanınmış Azərbaycan şairidir. O burada formalaşmışdır. O, alim kimi də, müəllim kimi də Naxçıvan elmi-ədəbi mühitində yetişib formalaşmışdır. Onun şair kimi də formalaşmasında Naxçıvan ədəbi mühitinin çox böyük rolu, yeri, təsiri, köməkləri vardır. Bunu biz həmişə hiss edirik və Xanəli Kərimlinin keçdiyi yola nəzər salarkən biz bunu aydın görürük. Onu da burada deməyi məqsədəuyğun hesab edirəm ki, dövlətimizin böyük qayğısı sayəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif Talıbovun apardığı genişmiqyaslı iş sayəsində Naxçıvan Muxtar Respublikası cəmiyyət həyatının bütün sahələrində, o cümlədən, elm, təhsil, mədəniyyət, ədəbiyyat, incəsənət sahəsində də böyük uğurlara nail olunmuşdur. Biz ədəbiyyatımızın, elmimizin, geniş mənada mədəniyyətimizin inkişaf tempini və səviyyəsini artıq idarə etmək səviyyəsinə malikik. Qarşımızda duran vəzifələr dövlətimizin bizə verdiyi imkanlardan istifadə edərək Naxçıvanda elmi, təhsili, mədəniyyəti, ədəbiyyatı, incəsənəti də daha yüksək templərlə inkişaf etdirməkdən ibarətdir. Bu işlərin hər birində artıq ümumrespublika səviyyəsinə çatan, bir çox hallarda ümumrespublika səviyyəsində nəzərəçarpan hadisələr müşahidə olunmaqdadır. Mən onlardan birini də elə Xanəli Kərimlinin yaradıcılığını görürəm. Xanəli Kərimlinin formalaşmasında,

inkişafında Naxçıvan mühiti böyük rol oynamışdır və mühit onu böyük bir şair kimi tanıtmışdır. Xanəli Kərimli artıq yeni bir epoxadakı bizim müstəqillik dövrü ədəbiyyatımızı təmsil edən tanınmış şairlərin cərgəsindədir. Məncə bu azdır, Xanəli Kərimli yaradıcılığı daha geniş dairələrdə tanınır. Bu gün Xanəli Kərimlinin geniş, iri həcmli şeirlər kitabının çap olunması və həmin kitabın rəğbətlə qarşılanması Xanəli Kərimlinin coğrafiyasının genişliyini göstərir. İl boyu Xanəli Kərimlinin şeirlərini və onun məqalələrini Türkiyə mətbuatından oxuyuram. Xanəli Kərimli Türkiyə mətbuatında da fəal təmsil olunur. Türkiyə oxucusu da Xanəli Kərimlini yaxından tanıyır. Pakistanda keçirilən beynəlxalq ədəbiyyat konqresində, İranda keçirilən konfransda, eyni zamanda Türkiyədəki Yunis İmrə konqresində Azərbaycanı ləyaqətlə təmsil etmişdir. Belə olan halda Türkiyədə, Pakistanda, İranda Azərbaycan şeirini təmsil edən, ona xidmət edən sənətkar kimi diqqəti cəlb edir. Xanəli Kərimlinin yaradıcılığı haqqında yəqin ki burada geniş danışan olacaq. Ancaq bir neçə ana xətləri deməyi özümə borc bilirəm. Xanəli Kərimli Azərbaycanda vətəndaşlıq lirikasının bu gün çox tanınmış nümayəndələrindən biridir. Onu deyim ki, bu sahədə bir boşluq vardır. Bu dəqiqədə ədəbiyyatda bir keçid dövrü yaşayırıq. Ona görə burada forma axtarışları, mövzu axtarışları davam edir. İnanıram ki, bu da özünün böyük nəticələrini verəcəkdir. Ona görə bu ənənəsi olan vətəndaşlıq lirikasının da görkəmli nümayəndələri dünyasını dəyişmişdir. Biz Bəxtiyar Vahabzadənin, Xəlil Rzanın, Məmməd Arazın, Hüseyn Razinin və başqalarının vətəndaşıq lirikası sahəsində yaratdıqları böyük ədəbiyyatları dövlət kimi qəbul edirik. Bu gün Azərbaycanda vətəndaşıq lirikasını, poeziyasını təmsil edən Zəlmixan Yaqub, Rüstəm Behrudi və bir necə beləsinin adını çəkə bilərik ki, onlardan biri də Xanəli Kərimlidir. Yaxşı cəhətdir ki, vətəndaşlıq lirikasından yazanda bəzən ideya sənətkarlıqdan qaynaqlanır. Bu adamlar sənətkarlıq lirikasından yazanda böyük sənət nümunələri meydana qoya bilirlər ki, onlar vətəndaşlıq duyğusu ilə milli düşüncə ilə forma,

sənətkarlıq bir-birini tamamlayır. Müşahidə edirəm ki, Xanəli Kərimli yaradıcılığında vətəndaşlıq poeziyası ilə, vətəndaşlıq idealları ilə onu ifadə vasitələri, onu təmsil edən bədii vasitələr bir-birini tarazlayır. Bu artıq yetkin bir sənətkarın formalaşdığını aydın şəkildə xəbər verir. Xanəli Kərimli yaradıcılığında mən bir maarifçi tərəf də görürəm. Ədəbiyyat özü elə bir maarifçilik hərəkatlarından biridir. Bəzən maarifçilik anlayışını məktəblə, müəllimlə, tələbə ilə, şagirdlə əlaqələndirirlər. Xeyr. Mən hesab edirəm ki, cəmiyyətin inkişafına fayda verə biləcək təsir göstərə biləcək, müdrik poetik düşüncə o poetik maarifçiliyin nümunəsidir. Xanəli Kərimli son 4-5 ildə bu barədə söz də aça bilərdi. Və Xanəli müəllim poetik maarifçi nümunələrini cəmiyyətə, yeni nəslə, insanlara mənəvi dünyamıza işıq sala biləcək yeni maarifçi baxışlarını poetik şəkildə meydana qoyur. Yaxşı cəhətdir ki, burada ucuz nəsihətçiliyə getmir. Onda böyük maarifçilik səviyyəsinə qalxa bilməzdi. Mən Xanəli Kərimlini yaradıcılığını sənətkarlıq baxımından da görürəm. Demək olar ki, onun haqqında yazılanların hamısını oxumuşam. Bu yönümdən də Xanəli Kərimli çox irəli getmişdir. Onun yaradıcılığı təkcə ideyalarından deyil, düşüncələrlə deyil, həm də orijinal bədii vasitələrlə çox zəngindir. Xanəli Kərimli şeirlərində özünəməxsusluğunu ifadə etmişdir, öz üslubunu tapmışdır. O yalnız Xanəli Kərimlidir. Bu ədəbiyyat üçün böyük bir nailiyyətdir. Bir cəhəti də demək istəyirəm ki, Xanəli Kərimlinin elə şeirləri vardır ki, elə bil ki, Xanəli Kərimli onu birnəfəsə yazıb. Elə bil ki, onları yazmağa macal tapmayıb. Elə bir nəfəsə deyib. İçindən gəlib və yetkindir. Sanki cümlələr bir-birinin içindədir, bir-birini tamamlayır. Şəxsən mənə bədahətən yazılmış, deyilmiş şeirlər kimi gəldi. Ən nəhayət onu deyim ki, Xanəli Kərimli haqqında kifayət qədər yazılar vardır. İki kitab gözümüzün qabağındadır. Bir filologiya üzrə fəlsəfə doktoru Sabir Bəşirovun Xanəli Kərimli haqqında ayrıca monoqrafiyası çap olunub, ikincisi isə bu günlərdə Xanəli Kərimlinin nəşr olunmuş üç kitabı əlimizdədir. Xanəli Kərimlinin bundan əvvəl bu ilə qədərki haqqında yazılanlar kitab halında

çap olunmuşdu. Bu il isə Xanəli Kərimlinin əvvəlki kitablarına düşməyən məqalələrdən ibarət sanballı bir kitab hazırlanmışdır. Hesab edirəm ki, bütün bu deyilənlər Xanəli Kərimli haqqında materialları toplamaqla daha sanballı kitab yazmaq olar və çox lazımdır. Bir şeyi də qeyd edim ki, Naxçıvanda yaşayıb yaradan şairlərin yaradıcılıqları haqqında yazılar yazan, söz deyən onun müasirləridir. Naxçıvanda yaranan ədəbiyyatşünaslıq artıq böyük ədəbiyyatşünaslıq üçün zəngin material verə bilər. Bu gün yubileyini qeyd etdiyimiz Xanəli Kərimli haqqında, hətta bu gün burada iştirak edən, iştirak etməyən sənətkarlarımız haqqında sanballı əsərləri Naxçıvanda yaşayan ədəbiyyatşünaslar, filologlar ortaya qoyacaqlar.

Xanəli Kərimli yaxşı müəllimdir. Uzun illərdir mən Xanəli Kərimlini tanıyıram. Mən hələ bir tələbənin şikayətçi, narazı olduğunu görməmişəm. Bütün tələbələr Xanəli Kərimliyə, onun düşüncə tərzinə, müəllimlik bacarığına hörmətlə yanaşırlar, o yaxşı müəllim kimi özünü təsdiq edibdi. Xanəli Kərimli bizim universitetdə idarəçilik sistemində çalışıb. Xarici tələbələrlə iş üzrə fakültəsinin dekanıdır. O fakültənin imkanları çox genişlənib. Artıq universitetdə 10 ölkədən 350-dən çox tələbə vardır. Ölkələri saymaq istəyirəm. Rusiyadan, Türkiyə Cümhuriyyətindən, Misir Ərəb Respublikasından, Cənubi Koreyadan, Banqladeşdən, Nigeriyadan, Qazaxıstandan, Türkmənistandan daha bir neçə ölkələrdən tələbələrimiz vardır. Çoxluq Türkiyə Cümhuriyyətindəndir. Ancaq digər dövlətlərdən də artmaqda davam edir. Biz həmçinin bu işin çoxalmağında da maraqlıyıq. Çünki beynəlxalq imic qazanmaq üçün xarici tələbələrin də olması əsas faktordur. Xanəli Kərimli xarici tələbələrin dilini başa düşən və yaxud da dilini tapan bir müəllimdir, bir təşkilatçıdır. Mən Xanəli Kərimliyə bir insan kimi dəyər vermək istəyirəm. O, Naxçıvanda yaşayıb, yaradan, çalışan kamil bir vətəndaşdır, mükəmməl bir ziyalıdır. Xanəli Kərimli ildə bir neçə dəfə öz müasirləri haqqında məqalələr yazır. Xanəli Kərimli digər yazıçılara ağırlıq verən yazıçıdır. Ədəbiyyatşünaslığa, elmə ağırlıq

verən yazıçı və şairdir. Xanəli Kərimli qoşa qala kimi bunların hər ikisini yaşadır, amma şeirə, bədii yaradıcılığa önəm verən ədəbiyyatşünasdır. Ədəbiyyatın prinsiplərinə bələdçiliyi olan, ədəbiyyatın prinsiplərinə bələd olan adam, yazıçının laboratoriyasına bələdçiliyi olan adam bədii ədəbiyyatın hüceyrələrini hiss edə bilən ədəbiyyatşünas ədəbiyyat haqqında daha yüksək söz deyə bilir. O mənada Xanəli Kərimlinin ədəbiyyatşünaslıq tərəfi də məncə, orijinaldır.

Mən Xanəli Kərimlidəki bəzi yönləri Vaqif Məmmədovda da görürəm. Düzdür Vaqif Məmmədov publisistika cəhətinə önəm verir və onun yaradıcılığında elmi meyarlar vardır. Amma Vaqif müəllim publisistikaya tərəfinə ağırlıq verir. Xanəli Kərimlidə publisistika çox azdır.

Xanəli Kərimli haqqında xeyli sitatımız vardır və hələ bir bu qədər də danışmaq olar. Yekun olaraq onu deyə bilərəm ki, Xanəli Kərimli Naxçıvanda yaşayıb yaradan və Azərbaycan ədəbiyyatını təmsil edən tanınmış bir ədəbiyyat, bədii ədəbiyyat nümunəsidir, poeziya nümayəndəsidir. Tanınmış görkəmli bir şairdir. Naxçıvanda yaşayıb yaradan tanınmış bir ədəbiyyatşünasdır. Naxçıvanda yaşayıb yaradan ilkin, kamil müdrik bir Azərbaycan ziyalısıdır. Mən onu universitet rəhbərliyi adından təbrik edirəm. Ona cansağlığı arzulayıram. Onun 60 illiyi hesab edirəm ki, onun yaradıcılığının çiçəklənmə dövrünün başlanğıcıdır. Kamillik böyük ədəbiyyatdır. Kamillik qədər böyük elm olduğunu kamillik yaşına çatandan sonra bu işi özünə peşə seçənlər daha dərin bilir. Xanəli Kərimlidən bundan sonrakı dövrdə daha böyük, daha sanballı, daha əhatəli, əsərlər gözləməkdə haqqımız vardır. Ümumiyyətlə, burada yaşayan ədəbiyyatçılar bu epoxanı keçmişə sərhəd qoymadan, keçmişi də unutmadan köklərimizi də unutmadan, köklərimizlə vəhdətdə olmaqla bu epoxada yaşanan proseslərlə böyük ədəbiyyat yaratmaq sizin qarşınızda durur. Hamınıza yaradıcılıq uğurları arzulayıram. Sağ olun.

Xanəli Kərimli yaradıcılığını və geniş fəaliyyətini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri hörmətli Vasif

Talıbov yüksək qiymətləndirmişdir. Vasif Talıbovun 2007-ci ildə imzaladığı Sərəncamla Xanəli Kərimli Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi adına layiq görülmüşdür. Universitetimizin rektorluğu, Xanəli Kərimlinin bugünkü 60 illik yubiley münasibətilə, onu bir tarixə çevirmək üçün Xanəli Kərimlinin çoxillik səmərəli, elmi və ədəbi fəaliyyətinə görə Fəxri fərmanla təltif edir. Xanəli Kərimlini təbrik edirəm.

***Asim Yadigar (şair, Naxçıvan Yazıçılar Birliyinin sədri, tədbirin aparıcısı):***

*Mən özüm canlı bir nağılam, bala,*
*Hələ oxunmayıb bir xəttim belə.*
*Oxunsam, görərlər qaya ömrümü*
*Necə əritmişəm mən gilə-gilə.*

Bu gün bu sətirlərin müəllifi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Naxçıvan Dövlət Universitetinin müəllimi, şair qardaşım Xanəli Kərimlinin 60 illik yubiley tədbirinə yığışmışıq. Yubiley tədbiri Naxçıvan Dövlət Universiteti, Naxçıvan Yazıçılar Birliyi, Naxçıvan Dövlət Filarmoniyası və Naxçıvan Dövlət Musiqili Dram Teatrının birgə tədbiri kimi qeyd olunur. Xanəli Kərimli bir şair kimi artıq oxucular tərəfindən qəbul olunur və sevilir. Mən də şair dostumu yubileyi münasibəti ilə təbrik edirəm.

***İsmayıl Hacıyev (AMEA-nın Naxçıvan Bölməsinin sədri, akademik):*** Zəmanəmizdə elə şairlərin şeirləri vardır ki, şeirin nədən ibarət olduğunu oxucu başa düşə bilmir. Ancaq Xanəli Kərimlinin şeirini oxu, orada nə qədər folklor nümunələri, etnoqrafik materiallar, nə qədər xalq nümunələri olduğunu aydın görmək mümkündür. Mən qəti inanıram ki, bir neçə ildən sonra Xanəli Kərimli yaradıcılığından artıq namizədlik və doktorluq dissertasiyaları müdafiə olunacaqdır. Məsələn: *"Xanəli Kərimli yaradıcılığında xalq deyimləri".* Yüzlərlə, minlərlə nümunələr vardır. Folklor nümunələri, etnoqrafik materiallar, vətəndaşlıq yanğısı kimi faktorlar Xanəli Kərimli yaradıcılığında çox güclüdür. Azərbaycanda çoxlu şairlər

olub və bu gün də var. Kimlərə biz filosof-şair deyirik. Yəni filosof-şair o adama deyirik ki, onun yaradıcılığını oxuyanda istər-istəməz düşünməli olursan, həyat haqqında, dünya haqqında, kainat haqqında, insanlıq haqqında və s. Xanəli Kərimlini, Bəxtiyar Vahabzadəni, Hüseyn Razini oxuyarkən biz bunlara filosof-şair deyə bilərik. Çünki istənilən şeiri adamı düşünməyə məcbur edir. Dünyanın gəldi-gedərini Xanəli Kərimli yaradıcılığına gətirir. Biz Xanəli Kərimli yaradıcılığını Azərbaycan cəmiyyətinə şamil edə bilərik. Bu mənada Xanəli Kərimli xoşbəxt şairdir. Artıq onun yaradıcılığına bələd olan hər hansı bir oxucu ondan faydalana bilər. Günün və zamanın nəbzini tutan şairdir. Xanəli Kərimlinin Azərbaycan dövrü mətbuatında bu günümüzlə səsləşən xeyli yazıları ortalığa çıxır. Özü də Xanəli Kərimlinin yazıları elmi əsaslara dayanır. Cəmiyyətimizdə müəyyən problemlər olur. Bu problemlərə Xanəli Kərimli bir şair,bir ədəbiyyatşünas alim kimi yanaşır və Azərbaycan ictimai mühitində də, elmi mühitində də bu yüksək dəyərləndirilir. Burada məndən sonra da çıxış edənlər olacaq. Ona görə mən daha geniş danışmaq istəmirəm. Xanəli Kərimli öz dövrünün yaxşı müəllimi, yaxşı tədqiqatçılığı ilə və ən başlıcası şair olmağı ilə seçilib. Mən də kollektiv adından Xanəli müəllimi təbrik edirəm, ona bundan sonrakı yaradıcılığında uğurlar arzulayıram. Sağ olun.

***Aypara Behbudova (filologiya üzrə fəlsəfə doktoru, dosent, universitet elmi kitabxanasının müdiri):***

Hörmətli rektor, hörmətli yubiley iştirakçıları!

Qeyd olunduğu kimi, bu gün biz Naxçıvan ədəbi nümayəndələrindən biri, Naxçıvan Muxtar Respublikasının əməkdar müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya üzrə fəlsəfə doktoru dosent, şair, alim Xanəli Kərimlinin 60 illik yubiley mərasiminə toplaşmışıq. Xanəli Kərimlini həm müəllim, həm də bir alim kimi tanıyırıq. Əlbəttə şairlik, istedaddır, vergidir. Ancaq alimlik isə insanın zəhmətlə əldə etdiyi nailiyyətdir. Mən istəyərdim ki, Xanəli müəllimin şairliyi ilə alimliyi arasında bir müqayisə yaradım, amma bu danılmaz faktdır ki, Xanəli müəllimin yaradıcılığının şeir

gözü daha ağırlıq təşkil edir. Xanəli Kərimlini tanıyan hər bir kəsdən soruşanda, deyəndə, mənə elə gəlir ki, adamın gözünün qarşısında şair canlanır. O, özünü ədəbiyyatımızda bir şair kimi tanıtmışdır, təsdiq etmişdir. Şair öz şeirlərində dəfələrlə yazır ki:

*Bu vecsiz dünyaya, bu kainata,*
*Son sözüm, ön sözüm şeirlərimdir.*

Mən daha çox Xanəli müəllimin şeir yaradıcılığı haqqında danışmaq istəyərəm. Müəlim olduğu kimi hər bir şairin, yazıçının özünəməxsus fərdi sənətkarlıq xüsusiyyətləri, yaradıcılıq üslubu olur. Ümumi cəhətlərlə həm də fərdi keyfiyyət bir şairi, digər sənətkardan fərqləndirir. Xanəli Kərimlininn yaradıcılığında özünəməxsus sənətkarlıq xüsusiyyətlərindən biri də o, özündən əvvəlki sənətkarlar tərəfindən işlənmiş mövzulara müraciət edir. Ancaq müsbət cəhət odur ki, onları təkrarlamır. O müraciət etdiyi mövzuya yeni forma və məzmun verməyi bacarır. Öz nəfəsi ilə o mövzunu isitməyi bacarır. Poetik fikir söyləməyi bacarır. Mən fikrimi dəqiqləşdirmək üçün nümunələr gətirmək istəyərdim. İnsanın, dünyanın dərdi-kədəri haqqında nə qədər şeirlər yazılıbdır. Ulu türk ozanı Aşıq Veysəlin burada birbənd şeirini demək istəyərdim.

*Dərdimi deməræm dərdsiz insana,*
*Dərd çəkməyən dərd qədrini biləmməz.*
*Dərdin mənə dərman imiş sən demə,*
*Heç bir zaman gül tikansız qalammaz.*

Ancaq Xanəli müəlliminin deyimində bu başqa cürdür. Yəni mövzu eyni olsa da, münasibət başqadır. Xanəli müəllim deyir ki:

*Məni silkələmə, silkələsən sən,*
*Üstümdən, başımdan dərd töküləcək.*
*Dünyanın üzünü su alan kimi,*
*Dünya dərd içində ölüb gedəcək.*

Biz çox eşitmişik ki, insanın üz-gözündən dərd tökülür. Dərd əlindən dağa çıxmaq, dərdinin əlində əlacsız qalmaq. Ancaq ilk dəfədir ki, bu poeziyada rast gəlirik ki:

*"Məni silkələmə, silkələsən sən,*
*Üstümdən, başımdan dərd töküləcək."*

Yaxud, şair dediyi kimi, dərdi o qədər böyükdür ki:

*"Dünyanın üzünü su alan kimi,*
*Dünya dərd içində ölüb gedəcək".*

Yəni şairin dərdi o qədər çoxdur ki, dərdini desə dünyalar onun içində ölüb gedəcək.

*Gəzmə məzarımı torpaq altında,*
*Mən şeirlərimdə dəfn olunmuşam.*

Yaxud da:

*Şeirim də, sözüm də duyğularımın,*
*Bir də zamanımın şəkilləridir.*

Gördüyünüz kimi, adi bir hadisəyə poetik məna verməyi bacarır. Şair üçün, sənətkar üçün bu, ən yüksək keyfiyyətlərdəndir.

Xanəli müəllimin yaradıcılığında ən yüksək keyfiyyətlərdən biri də o az sözdə dərin məna ifadə etməyi bacarır. Elə mətləblər var ki, ona yüzlərlə misra həsr etmək olar. Ancaq əsl sənətkar odur ki, az sözdə dərin bir məna ifadə edə bilsin. Ulu Nizaminin fikrincə desək:

*Sözün də su kimi lətafəti var,*
*Hər sözü az demək daha xoş olar.*

Xanəli müəllim az sözdə dərin məna ifadə edə bilir. Sözə qiymət verməyi bacarır. Belə olmasaydı*: "Mən sözdən*

*qorxuram, Tanrıdan qorxan kimi"* yazmazdı. Və onun yazdığı *" İkiliklər"* başlığı altında olan fikirlər, demək olar ki, atalar sözü çəkisi qədər ağır aforizmlər səviyyəsindədir:

*Yediyi çörəyə dönük çıxan kəs,*
*Haqqacan çatsa da haqqa yetişməz.*

*Tərəzi daşında durarsa oğru,*
*Tərəzi heç zaman işləməz doğru.*

*Zatında ucalıq olmayanları,*
*Nə qədər ucaltsan olmaz* vüqarı - və s.

Göründüyü kimi, iki misrada çox dərin məna vardır. Və mən onu qeyd etmək istəyərdim ki, elə şeirlər var ki, onları təbliğ etmək fikri ilə razılaşmamaq da olar, ancaq elə şeirlər vardır ki, onları təhlil etmək, yazmaq nə qədər çətindir. Ona görə ki, şair o şeiri yazan zaman keçirdiyi hissləri, düşüncələri, duyğuları onu təhlil edən adam o qədər lərzə gəlməli, həyəcanlanmalı, şair qədər narahat olmalıdır ki, o əsərə düzgün rəy və təhlil verə bilsin. Xanəli müəllimin yaradıcılığında bu cür çətin təhlil olunan şeirlər çoxdur. Yəni bizim adi hesab etdiyimiz misralarda görürsən ki, çox ağır bir məna yükü vardır.

Xanəli müəllim həm də təbiət şairidir. Təbiətin vurğunudur. Onun bu mövzuda qələmə aldığı elə bir şeiri yoxdur ki, orada təbiət canlı və təbii görünməsin. Həm də o, təkcə təbiətin gözəlliyini təsvir etmir. Təbiəti insan həyatına təsir edən bir varlıq kimi göstərir. Təbiətlə insan arasında bir vəhdət yaradır. Ən çətin, ən dar ayaqda belə təbiətə söykənir, təbiətlə dərdləşir. Belə olanda şairin təbiət şeirlərində insan təbiətin, təbiət də insanın bir parçasına çevrilir – vəhdətləşir, bütövləşir.

Ulu Məmməd Araz yazırdı ki, *"Anadan, bacıdan gizlətdiyimi, Kağızdan, qələmdən gizlətməmişəm"*. Xanəli müəllim, bəlkə də, ehtiyat edib kağızdan qələmdən gizlətdiyi sirləri təbiətlə bö-

lüşüb. Belə olmasaydı, yazmazdı ki: *"Ən çətin məqamda, ən çətin anda, Daşlar da insanın dərddaşı olur".*

Yaxud:

*Daşlarla dil tapsan, görərsən ki, sən,*
*Onların da qəlbi, düşüncəsi var.*
*Daşı duya bilməz daş ürəklilər,*
*Daşların daşdilli zümzüməsi var.*

Həqiqətən də, təbiətə bağlı olmayan insan, şair heç zaman təbiət duyğularını bu cür ifadə edə bilməz.

Xanəli müəllim, elinə, obasına, doğulduğu torpağa bağlı bir şairdir. O, demək olar ki, həyat fəaliyyətinə, yaradıcılığa başladığı vaxtdan bu günə qədər qabarlı əlləri ilə çörək qazanması, kənd həyatında yaşaması, böyüməsi ilə fəxr edir, qürur duyur. Elə əsərlərindən də bu duyğunu, bu hissləri görmək olar.

Xanəli Kərimlinin yazdığı ***"Təbil"*** poeması müasir dövr kənd həyatını əks etdirən əsərlər içərisində ən qiymətli əsərlərdən biridir. Bu gün bizim ən ağrılı yerimiz olan kəndlərin boşalıb şəhərlərə axını başladığı bir vaxtda Xanəli Kərimlinin belə bir mövzuya müraciət etməsi və tam olaraq o mövzunu işləyərkən gənclərimizə gözəl nəsihətlər verməsi, kəndlərin gözəl təsvirini verməsi, həqiqətən də, insanda bir anlıq da olsa belə o yerləri qoyub gəldiyi üçün təəssüf hissi yaradır. İtirdiyi, çata bilmədiyi arzulara, bəlkə də, kənddə qovuşacağı ümidi ilə yaşayır. Onun bu poemasında kəndə çağırış, kökə qayıtmaq çağırışıdır. Şairin özü ən çətin məqamında, ən çətin anlarda, xəstələnəndə belə kəndə gedəndə, doğma yurduna-ilk beşiyinin yırğalandığı, ilk ana laylasını eşitdiyi ocağa dönən də bir də geri qayıtmaq istəmir. Ona görə də şair bu hisslər başqa bir şeirində də dilə gətirir və deyir:

*Loğman qardaş, dağa düşcək güzarım,*
*Burda yoxa çıxır dərdim, azarım.*
*Dağlar, sizdə qoy qazılsın məzarım...*

*Torpağını sinəm üstə ələrəm,*
*Mən dağlarsız yaşamaram, ölərəm.*

Ümumiyyətlə, Xanəli Kərimlinin yaradıcılığı zəngindir, genişdir, bu haqda saatlarla danışmaq olar. Qeyd olunduğu kimi, Xanəli müəllim 100-dən artıq publisist, elmi-publisist məqalələrin müəllifidir. Bu haqda Azərbaycanın tanınmış görkəmli ədəbiyyatşünasları söyləyiblər. Onun yaradıcılığının müxtəlif aspektləri barədə məqalələr yazılıb. Tədqiq olunub, araşdırılıb. Özünün son dövrdə 6 kitabı işıq üzü görüb. Haqqında üç kitab-bir monoqrafiya, iki məqalələr toplusu araya-ərsəyə gətirilib. İstər Muxtar Respublikada, istərsə də Muxtar Respublikadan kənarda keçirilən bir sıra beynəlxalq elmi-ədəbi konfrans və tədbirlərdə universitetimizi, geniş mənada Vətənimizi çox ləyaqətlə təmsil edib.

Mən fikrimi şairin öz şeiri ilə tamamlamaq istəyirəm:

*Şair Haqqın yolçusudur,*
*Haqq yolu kəfən yoludur.*
*Kəfənin özü biçənin,*
*Yolu da Vətən yoludur.*

Xanəli müəllim, tutduğunuz bu Haqq yolunda, Vətən yolunda Sizə möhkəm can-sağlığı arzu edirəm. Ömrünüzün müdriklik və kamillik dövrü olan 60 illik yubileyiniz münasibəti ilə çoxsaylı oxucularınız adından, öz adımdan, kitabxana kollektivi adından Sizi ürəkdən təbrik edirik, möhkəm cansağlığı, yeni-yeni yaradıcılıq uğurları arzulayıram. Arzu edirəm ki, bundan sonra da yeni-yeni əsərlərinizlə oxucularınızı sevindirəsiniz. Təbrik edirəm!..

***Vaqif Məmmədov (şair, tarix elmləri üzrə fəlsəfə doktoru, "Qeyrət" nəşriyyatının direktoru)*:**

Hörmətli rektor, hörmətli qonaqlar, hörmətli yubiley iştirakçıları. Bu gün şair dostumuz, qələm yoldaşımız Xanəli Kərimlinin 60 illik yubileyini mən təkcə Xanəli Kərimlinin yaradıcılığına verilən qiymət yox, Muxtar Respublikada çalışan

bir çox ziyalıların, qələm sahiblərinin, o cümlədən, xüsusilə, Naxçıvan Dövlət Universitetində çalışan yaradıcı şəxslərin sənətinə, yaradıcılığına verilən qiymət kimi qiymətləndirə və buna görə də universitetimizin rektoruna minnətdarlığımı bildirirəm. Xanəli Kərimli, məndən əvvəl danışan yoldaşların qeyd elədiyi kimi, Azərbaycan şeirində, Azərbaycan poeziyasında özünəməxsus yeri olan, özünəməxsus dəst-xətti olan bir qələm dostumuzdur. Artıq o, öz imzasını kifayət qədər tanıdıbdır. Oxucu qəlbinə yol tapıbdır. Xanəli müəllimin belə bir beyti vardır:

*Kimin ki qəlbində Tanrı eşqi var,*
*Başı dərin, dibsiz göylərə çatar.*

Mən tam məsuliyyətlə deyə bilərəm ki, Xanəli Kərimli qəlbində Tanrı eşqi olan şairdir. Bu eşqin içərisində insanlara sevgi var. Torpağa məhəbbət var, vətəndaşlıq var, Azərbaycançılıq var, şeirdən nə tələb olunursa, o var. Mən Xanəli Kərimlini öz adımdan, qələm dostları adından ürəkdən təbrik edirəm. Məndən əvvəl danışan yoldaşlar onun yaradıcılığı haqqında geniş danışdılar. Mən Xanəli Kərimlini bir şeirlə təbrik etmək istəyirəm:

*Fidanları bağ eylədin bu yolda,*
*Təpələri dağ eylədin bu yolda,*
*Qara saçı ağ eylədin bu yolda,*
*Bu haqqındı haqqa qovuş, düzə çat.*

*Tale vurdu qanadına, qoluna,*
*Sən çevrildin söz mülkünün quluna,*
*Misraların işıq salır yoluna,*
*Yolları yor, kəlama çat, sözə çat.*

*Yollar keçdin kinayəli, tənəli,*
*Ömür daha düzəngaha yönəli,*
*Altmışına çox güvənmə, Xanəli,*
*Hünərin var doxsana çat, yüzə çat.*

Sağ olun.

# "ŞAİRƏ MƏKTUB" KİTABININ TƏQDİMATI

***(Naxçıvan Dövlət Universiteti, 2007-ci il, 25 may)***

***İsa Həbibbəyli:***

Hörmətli tədbir iştirakçıları. Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri hörmətli Vasif Talıbov Naxçıvan Dövlət Universitetinin 40 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb. Bu sərəncam Naxçıvan Dövlət Universitetinin inkişaf yoluna verilən qiyməti gələcək inkişaf perspektivləri, yaradıcı işinə verilən yüksək qiymətin ifadəsidir. Artıq 40 illiklə bağlı universitetimizdə tədbirlər keçirilməyə başlamışdır.

Xanəli Kərimli Naxçıvan Dövlət Universitetində oxuyub. Daha sonra bizim institutdan Azərbaycan Dövlət Pedaqoji Universitetinə çevrilib. Ancaq buna baxmayaraq, Xanəli Kərimli dosentliyi burada qazanıb. Hal-hazırda xarici tələbələrlə iş üzrə dekan vəzifəsini icra edir. Ümumiyyətlə tərcümeyi-halımızda nə varsa hamısı universitetimizlə bağlıdır. O cümlədən, Xanəli müəllimin də universitetimizlə bağlılığı var. Xanəli müəllim yaxşı şairdir. Mətbuatda şeirləri tez-tez işıqlandırılır. Xanəli müəllim həm yaxşı təşkilatçı, həm də gözəl tərbiyəçi müəllimdir. Təkcə pedaqoji fəaliyyətini ayrıca qeyd etmək olar. İndiyə qədər mən eşitməmişəm ki, bir tələbə Xanəli müəllimdən narazı qalsın. Xanəli müəllimin dərsinə də, elminə də bu illər ərzində böyük hörmət olub. Xanəli Kərimli şeir yazan gənclik üçün bir nümunə olub. Əbülfəz Muxtaroğlu, Vaqif Məmmədov, Xanəli Kərimli, Elbəyi Maqsudov və digər şeir yazan şairlərimiz Naxçıvan yetirmələridir. Universitetimizdə xeyli şeir yazan gənclik vardır.

***Arif Ağalarov (filologiya üzrə fəlsəfə doktoru, dosent):***

Bugünkü kitabın təqdimatı, Xanəli müəllim haqqında yazılan məqalələri, Xanəli müəllimə ithaf olunan şeirləri, Xanəli müəllimin elmi yaradıcılığını, Xanəli müəllimin bədii yaradıcılığını, bir sözlə, onun kimliyini ortaya qoyur. Xanəli müəllim

haqqında meydana gələn *"**Şairə məktub**"* bir şair ömrünün kitabıdır. Kitabda təqdim olunan materiallardan bir daha aydın olur ki, onun şeirləri ədəbiyyatşünaslığımızın tanınmış simalarından olan akademik İsa Həbibbəyli, Əməkdar elm xadimi Camal Mustafayev və başqaları öz qeydlərində bir daha vurğulayırlar ki, Xanəli Kərimli Azərbaycan ədəbi mühitində tanınan şairdir.

***Fərqanə Kazımova*** *(filologiya üzrə fəlsəfə doktoru, dosent):*

Xanəli müəllimin şeirlər kitabı çıxdıqca bir yoldaş kimi bizə, bütün kafedranın müəllimlərinə paylamışdır. Xanəli müəllimin şeirlərində həm özü haqqında, həm də yaşadığı mühit haqqında öz fikirlərini bildirir. Xanəli müəllim hələ də sağ olan milli dərdlərimizdən yazır. Bu milli dərdlərimizi bəzən çözür bəzən də çözə bilmir. Çözə bilməyəndə o yenidən Tanrıya üz tutur. Və Tanrıdan bir növ imdad diləyir.

***Əbülfəz Əzimli*** *(filologiya üzrə fəlsəfə doktoru, dosent):*

Xanəli müəllim haqqında dəfələrlə Şahbuz ictimaiyyəti ilə görüşlər etmişik. Xanəli müəllimim dostluğu əsl ziyalı dostluğudur. Xanəli müəllim nə yazırdısa qəbul olunurdu. Elə olur ki, mən neçə il ona deyə bilmədiyimi deyə bilməmişəm.

***İsa Həbibbəyli*:**

Mənə Universitetin ilk müsabiqəsinə ilk şeiri Xanəli müəllim verib. Sizə yaradıcılıq uğurları arzulayıram.

*P.S. Tədbir televiziyanın "Xəbərlər" proqramı üçün çəkildiyindən çıxışlar tam yazılmayıb.*

## MÜNDƏRİCAT

*Ön söz yerinə*
İsa Həbibbəyli. Xanəli Kərimlii şeirinin imkanları...............3

*Məqalələr*
Camal Mustafayev. İnam saflığı............................................10
Maarifə Hacıyeva. Payız düşüncələri ...................................15
Vaqif Yusifli. Xanəli Kərimlinin payız duyğuları.................21
Sədaqət Həsənova. Xanəli Kərimlinin dil-üslub xüsusiyyətləri...........................................................................27
Yaşar Qasımbəyli. Poeziyada istiqlalın tərənnümü..............36
Yaşar Qasımbəyli. Vətəndaşlıq şeiriyyəti.............................41
Fərqanə Kazımova. Ağrılı və inamlı şair..............................46
Arif Ağalarov. Xanəli Kərimli seirlərinin dili və üslub xüsusiyyətləri...........................................................................53
Aypara Behbudova. Mən sözdən qorxuram – tanrıdan qorxan kimi ..........................................................................64
Aypara Behbudova. Şairin "payız duyğuları" .......................73
Aypara Behbudova. Şeirləri şəxsiyyəti və taleyi bütövlük təşkil edən şair...................................................80
Qənirə Əsgərova. Xanəli Kərimlinin ədəbi dili.....................84
Elxan Yurdoğlu. Payızda doğulmaq da bir xoşbəxtlikdir... 92
Xuraman İsmayılqızı. "Payız duyğuları"nın bahar təravəti ................................................................... 98
Binnət Nəsibov. "Payız duyğuları" müəllifi Xanəli Kərimli ........................................................................ 102
Qardaş Əlişoğlu. Şair qardaşım, 60 yaşın mübarək............ 114
Vilayət Nəsirli. Xanəli Kərimlinin poetik aləmi................. 117
Vilayət Nəsirli. Ağrılarla döyüşən şair – Xanəli Kərimli .. 123
Vüsal Şəbizadə. "Burda daşa dönüb əsrin yaddaşı" .......... 127
İradə Əliyeva. Xanəli Kərimli ............................................... 134

*Xəbərlər*

"İlk səsim, son sözüm şeirlərimdir..." .................................. 137
Sözün əlincə qalası ..................................................................... 139
Məqalələr toplusunun işığında ............................................... 139
Yeni "payiz duyğuları" ............................................................. 140

*Müsahibə*

Müasir ədəbi tənqid bu günün ədəbi prosesi
səviyyəsindədir ......................................................................... 142

*Təbriklər, məktublar...*

Xanəli Kərimli-60. Təbriklər .................................................. 149
Əbülhəsən Cəlilov. Şairə məktub ........................................... 161
Şərqiyyə Məmmədova. Məktub................................................ 162

*Məqalələrdən sətirlər*

İsmayıl Hacıyev ......................................................................... 164
Aypara Behbudova ..................................................................... 165
Qaşdar Əliyev ............................................................................. 166
Nərgiz İsmayılova ...................................................................... 167
Ədalət Cəfəroğlu ........................................................................ 168

Əli Rza Xələflinin "Şairin qardaşı oğlu" əsərindən ........... 169

*Yaradıcılığından nümunələr. Şeirlər*

Toğluqayanın məmməd araza məktubu ............................... 197
Dəlılık bır azadlıqdır ................................................................ 198
Sonra gec olar.............................................................................. 199
Əlinə əl yetməz........................................................................... 200
Bir az da sevgidən danış .......................................................... 201
Təbiət itirib təbiətliyin.............................................................. 202
Arama .......................................................................................... 204
Dönə taleyimiz qağayılara........................................................ 204
Şəhidlik nəğməsi ........................................................................ 205

Bir də geri dönməyəcək bu qatar ........ 206
Əvvəli də sirdir, sonu da sirdir ........ 207
Sözü sözlə yaşatdım ........ 208
Həyat tablosu ........ 209
Hərdən ........ 210
Dəlisən, dəli... ........ 211
Vətən də qərib ölür... ........ 212
Vətənimin yaşı çinar ........ 214
Adsız şeirlər ........ 216
Saxla qəlbini buz tək... ........ 217
Hələ inanmırlar... ........ 218
Onda yazılacaq... ........ 220
Təsəlli ........ 221
Sən demə... ........ 222
Zamanıma, nakam dostlarıma və özümə elegiya ........ 224
Nə mutluyam... ........ 225
İndi ........ 227
İşığa can atıb ürəyim hər an ........ 228
Yazım ki... ........ 229
Ruhun şad olsun ........ 232
Nənəm nağıl deyərdi ........ 234
Dördlüklər ........ 235
Bir də çətin gələ ələ bu dünya ........ 237
İnanıram ki... ........ 238

***Həyatımdan köçən dostlar***
Cəlilsiz və Cəlilli günlərim ........ 256
Ziyalılığın işığı ........ 260
Tanıdığım Həmzə müəllim ........ 266
Təklikdən tənhalığa ........ 270
Bir Vaqif də köç eylədi dünyadan... ........ 277
Milli onomastikamızın fədakar tədqiqatçısı ........ 283
Ömür də bir işıqdır ........ 289

*Xanəli Kərimli yaradıcılığı Rusiya, Türkiyə və İran mətbuatında*
Гусейн Адыгезалов. Морально-нравственная направленность поэтики Ханали Керимли. .................. 294
Nahçıvandan Haneli Kerimlinin yeni kitabı: “Sözün elince kalsı” .................................................................. 308
Haneli Kerimlinin “Payız duyğuları” isimli kitabı çıktı.... 315

Lentlərin yaddaşından gələn səsslər, yaxud bu da bir tarixdir... ................................................................. 318
Xanəli Kərimlinin “Ay işığında” kitabinin təqdimatı ........ 313
Xanəli Kərimlinin 50 illik yubileyi ........................................ 342
Xanəli Kərimlinin 60 illik yubileyi ........................................ 365
“Şairə məktub” kitabının təqdimatı ...................................... 378

**Xanəli Kərimli: Bir ömrün işığı**
*(Məqalələr, məktublar, tədbirlər)*

Çapa imzalanmışdır: 06.09.2016
Kağız formatı: 84x108 1/32
Həcmi: 24,5.ç.v. Tirajı: 300

Qanun Nəşriyyatı
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Teл.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing